

**“Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Elşən Abbasov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Günay İsmayılova

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə.

**Tel. / Faks:** 361 14 02
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 3-cü nömrəsi*

*İyul - Sentyabr (2021-ci il)*

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində səhifələnmiş və çap edilmişdir.

Çapa imzalanmışdır: 12.10.2021
60x84 1/8 formatda 190 səhifə həcmdədir.
Tiraj: 770 nüsxə

© "Azərbaycan Prokurorluğu", 2021

# MÜNDƏRİCAT

## ÖLKƏDƏ


**4** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar
**23** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər
**34** İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olub
**35** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Molla Pənah Vaqifin Şuşada büstünün açılışında iştirak ediblər
**36** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər
**51** Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Anım Günü ilə əlaqədar xalqa müraciət edib
**56** Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Anım Günü ilə bağlı paylaşım edib
**57** İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq keçirilən yürüşdə iştirak ediblər
**61** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər


## BAŞ PROKURORLUQDA


**63** İyulun 5-də Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyev ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Ədliyyə Akademiyasının rəhbəri Mühittin Özdemirin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib
**66** Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Sankt-Peterburq şəhərinə səfər edib
**67** Azərbaycan, Rusiya, İran, Türkmənistan və Qazaxıstan baş prokurorları tərəfindən Xəzər dənizində ətraf mühitin mühafizəsi və təbii resurslardan istifadə sahəsində əməkdaşlıq haqqında bəyannamə imzalanıb
**69** Sankt-Peterburqda keçirilən prokurorluq orqanları rəhbərlərinin konfransı çərçivəsində Müstəqil Dövlətlər Birliyi baş prokurorlarının müşavirəsi keçirilib
**72** Baş Prokurorluqda cari ilin birinci yarısında görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə dair əməliyyat müşavirəsi keçirilib
**79** Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına işgüzar səfər edib
**80** Baş prokuror Naxçıvan Muxtar Respublikasının prokurorluq əməkdaşları ilə görüş keçirib
**82** Baş prokuror Kamran Əliyev Sədərək rayonunda yerləşən hərbi hissədə olub
**82** Baş Prokuror Kamran Əliyevlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov arasında görüş keçirilib
**83** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Mehmet Akarca və Baş prokuroru Bekir Şahinin dəvəti ilə Ankara şəhərinə səfər edib
**84** Türkiyə Respublikasının Prezidenti ilə Azərbaycan Respublikasının nümayəndə heyəti arasında görüş keçirilib
**85** Azərbaycan Respublikasının nümayəndə heyəti Ankara şəhərində keçirilmiş beynəlxalq simpoziumda iştirak edib
**87** Baş prokuror Kamran Əliyev Qazaxıstana səfər edib
**88** Nur-Sultanda Azərbaycan, Rusiya və Ermənistanın Baş prokurorları arasında üçtərəfli görüş keçirilib
**89** Baş prokuror Kamran Əliyev MDB dövlətləri Baş prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak edib
**91** "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar 2020-cı il ərzində görülən işlər barədə və "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi üzrə 2021-2025-ci illər üçün Milli Fəaliyyət Planı" layihəsinin müzakirəsinə dair qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyəti institutları nümayəndələrinin iştirakı ilə görüş keçirilib
**92** Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbəri seçilməsi ilə əlaqədar olaraq "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin üzvləri ilə prokurorluğun gənc əməkdaşları arasında Baş Prokurorluqda görüş keçirilib
**94** "Sosial təhlükədə olan uşaqların müdafiəsi üçün təxirəsalınmaz tədbirlər" mövzusunda Seminar-Müşavirə keçirilib
**96** Baş Prokurorluğun əməkdaşları "Nizaminin süjet və obrazları" adlı sərgidə olub
**97** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində nəzəri biliklərin artırılması və peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə tədris tədbiri keçirilib
**100** Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzi tərəfindən "Dövlət qulluğunda etik dəyərlər və davranış standartları" mövzusunda onlayn formada distant təlim keçirilmişdir
**101** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində 2021-ci ildə prokurorluq orqanlarına qulluğa qəbul edilmiş və stajorluq keçən işçilər üçün hazırlıq kursu təşkil edilib
**102** Hərbi Prokurorluqda əməliyyat müşavirəsi keçirilib
**103** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2021-ci ilin birinci yarımilində görülən işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan kollegiya iclası keçirilib
**106** Naxçıvan Muxtar Respublikası Prokurorluğu üzrə hüquqi tənzimləmə təkmilləşdirilib
**107** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Qarabağlar Türbə Kompleksində olublar
**108** Bakı şəhər prokurorluğunda videokonfrans formatında əməliyyat müşavirəsi keçirilib
**111** Baş Prokurorluğun Mətbuat Xidmətinin məlumatları


## AZƏRBAYCAN PROKURORLUĞU – 103


**117** Azərbaycan Respublikası Prokurorluğu – 103
**118** Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
**119** Azərbaycan Prokurorluğunun yaradılmasının 103 illiyi münasibətilə təbrik
**120** "1 oktyabr prokurorluq orqanları işçilərinin peşə bayramı" ilə əlaqədar ali təhsil müəssisələrinin hüquq fakültələrində təhsil alan tələbələr arasında "Hüquq viktorinası" keçirilib
**123** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri Baş Prokurorluğun yeni inzibati bina kompleksində olmuşlar
**125** Baş Prokurorluğun əməkdaşları və könüllülər sahilyanı ərazidə iməcilik keçirib
**126** Prokurorluq orqanları əməkdaşları növbəti ağacəkmə aksiyası keçiriblər
**128** Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 103-cü ildönümü münasibətilə Baş Prokurorluqda Şahmat turniri keçirilmişdir
**129** Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Respublika Baş Prokurorluğunun və Hərbi Prokurorluğun rəhbər əməkdaşlarından ibarət nümayəndə heyəti Kəlbəcər və Qubadlı rayonlarında səfərdə olub
**132** Azərbaycan Respublikasının prokurorluq işçiləri tərəfindən şəhid və qazi ailələrinə ziyarətlər təşkil olunub
**133** Prokurorluq əməkdaşları uşaq evlərini ziyarət edib
**134** Azərbaycan Respublikasının Baş Prokurorluğunda görüş keçirilib
**137** Prokurorluq əməkdaşlarının peşə bayramı günü münasibətilə tədbir keçirilib


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**143** Baş Prokurorluqda AŞPA nümayəndələri ilə görüş keçirilib
**144** Rusiya Federasiyası Prokurorluğu Akademiyasının Sankt-Peterburq hüquq institutunun (filialı) direktoru Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olub
**146** Baş Prokurorluğun əməkdaşları treyninqdə iştirak ediblər


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**148** Elşən Albəndov – Hərbi xidmət keçməkdən boyun qaçırma. Cinayət-hüquqi xarakteristika və problemlər
**153** Ramin Hüseynov – Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə ibtidai istintaqa prokuror nəzarətinin təşkili
**157** Fərid Dadaşov – Vahid məhkəmə təcrübəsi: hüquq normalarının tətbiqinə sabit yanaşma
**160** Firad Əliyev – Əzəli və əbədi Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır
**164** Лейли Мамедова, Нигяр Аскерова – Защита прав женщин в произведениях Низами Гянджеви


## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE


**167** Sərdar İmanov – İbtidai araşdırma təcrübəsindən irəli gələn bəzi aktual problemlər


## PROKURORLUĞUN VETERANLARI


**171** Prokurorluğun veteranı Nəriman Ələkbərovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi


## HÜQUQİ AKTLAR


**176** Qanunvericiliyə dəyişikliklər
**186** Konstitusiya Məhkəməsi Plenumunun qərarları

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar




Avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr etdilər.

**Prezident İlham Əliyev:** Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş-gəliş çox rahat olacaq. Amma hələlik biz bu yoldan istifadə edirik və bu gözəl mənzərələr də göz oxşayır. Kəlbəcərin mənzərələri indi daha da gözəldir. İndi yolumuza davam edirik. Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm.

Müharibədən sonra Kəlbəcərə ilk səfərimdir. Bir neçə tədbir nəzərdə tutulur. Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veriləcəkdir.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

***

Kəlbəcərə gedərkən avtomobildən çəkilən videogörüntüdə **Prezident İlham Əliyev deyir:** Mehriban xanım Kəlbəcərin gözəl mənzərəsini çəkir və yol boyunca Azərbaycanın gözəl təbiətini seyr edirik. Əminəm ki, bu,



kadrlara baxanlar üçün də çox maraqlı olacaq. Artıq Kəlbəcərin meşələri də göründü. Bildiyimiz kimi, Kəlbəcərin çox füsunkar təbiəti var – dağlar, dərələr, meşələr.

Baxın bu dağıntılara. Ermənilər Kəlbəcəri tərk edərkən buraları dağıdıblar. Bütün binaları, su elektrik stansiyalarını, hamısını dağıdıblar. Bu dağıntılar erməni vəhşiliyinin növbəti təzahürüdür.

Ermənilər tərəfindən dağıdılmış evlər. Bura Zallar kəndinin ərazisidir.






***

Dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak etdi.

Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr təşkil edir. Dövlət başçısının tapşırığına əsasən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11.6 kilometrlik tunelin tikintisi məqsədəuyğun hesab edilib.

Dövlətimizin başçısı tunelin təməlini qoydu.

***

**Prezident İlham Əliyev dedi:** Durduğumuz yol ermənilər tərəfindən çəkilmiş Basarkeçar-Kəlbəcər yoludur. Onlar Ermənistanı Qarabağla birləşdirmək üçün ikinci yol çəkdilər. Laçın dəhlizindən əlavə. Beləliklə, Kəlbəcəri və digər əraziləri məskunlaşdırmaq və özlərinin gediş-gəlişini daha rahat etmək üçün bu






yolu çəkdilər. Bu yol birbaşa Basarkeçər rayonuna gedir. Basarkeçər rayonuna Ermənistanda "Vardenis rayonu" deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır. 1930-cu ildə Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb. Orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. O cümlədən Zod kəndinin sakinləri də azərbaycanlılar idi, deportasiyaya məruz qalmışlar. Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona "Vardenis" adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı reportajlar hazırlayan və ümumiyyətlə, bizim ümumi leksikonumuzda "Vardenis" yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır. Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın "Yerasx" kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər – Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri.

Biz indi bu yoldan istifadə edirik. Ermənilər üçüncü yolu da çəkmək istəyirdilər – Cəbrayıla gedən yol. Bu haqda müharibə zamanı dəfələrlə öz fikirlərimi

bildirmişdim və beləliklə, Ermənistanı Şərqi Zəngəzurla və Qarabağla üç yolla birləşdirmək istəyirdilər. Bunun yeganə məqsədi qanunsuz məskunlaşma siyasəti aparmaqdı və bu da hərbi cinayət sayılır. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, ilk növbədə, ATƏT-in Minsk qrupu buna laqeyd yanaşmışdır, Ermənistana heç bir irad tutmamışdır, onları bu işlərdən çəkindirməyə cəhd etməmişdir, sadəcə olaraq, müşahidəçi kimi bunu müşahidə edirdi. Onlar, hətta bu yolda da olublar, onu da görüblər və Cəbrayıl rayonunda nəzərdə tutulmuş yolun inşasına da etiraz bildirməmişdilər. O vaxt bu yol çəkiləndə biz etirazımızı bildirmişdik. Biz səsimizi qaldırmışdıq, biz demişdik ki, buna yol vermək olmaz, Azərbaycan ərazisində qanunsuz işlər aparıla bilməz. Ancaq bizi eşidən yox idi. Amma bu gün mən gəlmişəm, həmin yolun üstündə durmuşam və biz bu yolda bundan sonra əbədi qalacağıq, bu bölgədə əbədi yaşayacağıq.

Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir.

***

**Prezident İlham Əliyev:** Qamışlı kəndi. Burada bizim enerji infrastrukturumuz yaradılıb və bu yüksəkgərginlikli xətlər bu yaxınlarda çəkilib.

Bu asfalt yolu da ermənilər Basarkeçərdən çəkiblər. Kəlbəcərə getmək üçün Laçın dəhlizinə alternativ bir yol çəkmişdilər. Görün, gözəl də yoldur. İndi biz bu yoldan istifadə edirik. Bu yol çəkiləndə Azərbaycan tərəfi buna ciddi etiraz etmişdir. Deyirdik ki, buna yol vermək olmaz. Bu, ermənilərin məskunlaşma siyasətinin bir hissəsidir. Ancaq bizi eşidən olmadı. Nəticədə biz gəldik, bayrağımızı qaldırdıq. Düşməni torpağımızdan qovduq və indi bu yoldan istifadə edirik. Ermənilər isə bu yoldan məhrum oldular. Ona görə bu yolu da hərbi qənimət saymaq olar. Onlar üçüncü yolu da Cəbrayıldan salmaq istəyirdilər. O da yarımçıq qaldı. Onların arzuları gözlərində qaldı.

Bizim evlər – azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar – bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq.

Biz indi "Kəlbəcər-1" Su Elektrik Stansiyasının yerinə gəlmişik.

***

Sonra Prezident İlham Əliyev Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış oldu.

Hazırda Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənir. Suyu hidroaqreqata ötürən dağıdılmış plastik su borusu 1,3 kilometr məsafədə diametri 1,8 metr olan metal borularla əvəz edilir. Stansiyanın maşın zalı və 110/6 kilovoltluq yarımstansiyasında isə işlər tamamlanıb. Beləliklə, ermənilər tərəfindən dağıdılaraq yandırılan "Kəlbəcər-











1" Kiçik Su Elektrik Stansiyası tam yenidən tikilir və işlərin qarşıdan gələn aylarda başa çatdırılması planlaşdırılır.

**Prezident İlham Əliyev:** Lev çayı bizim gözəl çaylarımızdan biridir. Uzunluğu o qədər də böyük deyil – təxminən 20 kilometrə yaxındır. Ancaq mənbəyi Azərbaycandadır və bu gündən elektrik enerjisi istehsalına xidmət edəcək.

***

Bura da "Kəlbəcər" yarımstansiyasıdır. Qısa müddətdə – cəmi altı ay ərzində inşa edilib və Kəlbəcəri elektrik enerjisi ilə təmin edəcək.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak etdilər.

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, bu ərazilərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə xüsusi diqqətlə yanaşır. Bunun nəticəsidir ki, bu istiqamətdə işğaldan azad edilmiş bütün yaşayış məntəqələrində, o cümlədən Kəlbəcər rayonunda genişmiqyaslı işlər həyata keçirilib. 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının qısa müddətə inşası həyata keçirilən layihələrdən biridir.

Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində müasir avadanlıqlarla təchiz olunaraq inşa edilən yeni yarımstansiyada 80 MVA gücündə yeni transformatorlar quraşdırılıb. Yarımstansiyada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılıb. "Kəlbəcər" yarımstansiyası məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulub və bunun üçün yeni idarəetmə binası tikilib. Burada ən yeni rəqəmsal texnologiyalardan istifadə edilib.

Dövlətimizin başçısı yarımstansiyanı işə saldı.

Qeyd edək ki, ermənilər tərəfindən enerji sistemi tamamilə dağıdılan Kəlbəcər rayonuna Daşkəsəndən 70 kilometr məsafədə 110 kV-luq yüksəkgərginlikli ikidövrəli elektrikötürmə



## ÇƏTİN HAVA VƏ RELYEF ŞƏRAİTİNDƏ CƏMİ 6 AY ƏRZİNDƏ ƏRSƏYƏ GƏLƏN

**Kəlbəcər rayon yarımstansiyası** rayonun elektrik enerjisi ilə təchizatı üçün böyük əhəmiyyət kəsb edir.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz







xətti çəkilib. Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3400 metr yüksəklikdə quraşdırılıb.

***

Sonra Lev çayının sahilində çay süfrəsi arxasında söhbət edən **Prezident İlham Əliyev dedi:**

– Kəlbəcər rayon yarımstansiyasının açılışını etdik. Çox əlamətdar hadisədir. Kəlbəcər rayonunun elektrik enerjisi ilə təchizatı üçün bunun çox böyük əhəmiyyəti var və deyə bilərəm ki, cəmi altı ay ərzində bu yarımstansiya ərsəyə gəldi. Özü də çox çətin bir hava şəraitində, çətin relyefdən, dağlardan keçərək, bu önəmli infrastruktur obyektini istifadəyə verdik. Yeni dirəkləri də görürsünüz. Dirəklərin ən hündür olan yeri 3400 metrdir. Doğrudan da böyük peşəkarlıq və məharət tələb edən layihədir və onu göstərir ki, bizim daxili resurslarımız o qədər güclüdür ki, biz qısa müddət ərzində bu işləri görə bilərik. Beləliklə, bu yarımstansiya Kəlbəcər rayonunu elektrik enerjisi ilə təchiz edəcək. Bu tədbirə qədər Lev çayı üzərində su elektrik stansiyasının tikintisi ilə tanış oldum. Orada generasiya gücü 4,4 meqavatdır. Biz artıq Güləbird Su Elektrik Stansiyasını işə saldıq, orada 8 meqavatdır, o, Laçın rayonundadır. Suqovuşan Su Elektrik Stansiyası da təmir olundu, yenidən quruldu, orada da 7,8 meqavatdır. Yəni, görün, biz artıq 20 meqavatdan çox elektrik enerjisini alternativ mənbələrdən hasil etməyə başlayırıq və bu hələ başlanğıcdır. Ermənilər bu bölgələri tərk edərkən bütün su elektrik stansiyalarını məhv etdilər, dağıtdılar. Biz onları bərpa edəcəyik. Güləbird, indi isə Lev çayı üzərində və digər su elektrik stansiyaları və onların sayını tədricən təxminən 20-yə çatdıracağıq, bəlkə də 30-a çatdıracağıq, amma tədricən. Beləliklə, bizim enerji potensialımız da güclənəcək. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası kimi yaşayacaq və bizim bütün planlarımız yerinə yetiriləcək. Cəmi 7-8 ay

ərzində bu qədər işin görülməsi bizim gücümüzü göstərir, əzmkarlığımızı göstərir, güclü siyasi iradəni göstərir.

Bu gün biz Lev çayının kənarında çay içəcəyik armudu stəkanda. Bu, onu bir daha göstərir ki, nə qədər ermənilər çalışsalar da bizim xalqımızın iradəsini qıra bilmədilər. Biz buraya qayıtmalı idik və qayıtdıq. Onlar buradan getməli idilər və getdilər. Tarixi ədalət bərpa olundu və biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq. Bundan sonra da tədbirlər olacaq. Hələlik isə çayımızı içək və təbiətdən zövq alaq. Yaşasın Azərbaycan!

***

Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoydu.

**Dövlətimizin başçısı dedi:** Bu gün ikinci tunelin təməli qoyuldu. Kəlbəcər-Laçın avtomobil yolunda tunel tikiləcək və beləliklə, ikinci tunelin bir müddətdən sonra istifadəyə verilməsi gediş-gəlişi daha da rahat edəcək. Bütün bu bölgənin, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır. Azad edilmiş torpaqların investisiya proqramı tutulanda mənim göstərişimlə məhz tunellər də bu layihələrə salınmışdır, o cümlədən Şuşaya gedən yolda və burada tunellər çəkilməkdədir. Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda, çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır. İnsanlar buraya qayıdandan sonra artıq Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar. Həm Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək,
- Laçın rayonunda aeroportun tikintisi nəzərdə tutulur,
- eyni zamanda, Kəlbəcər-Göygöl-Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq. Cəmi 8-9 ay ərzində görülmüş işlər onu bir daha göstərir ki, bizim çox güclü iradəmiz var, siyasi qərarlar verildi, bütün güclər, texniki imkanlar səfərbər olundu, maliyyə vəsaiti təmin edildi, Azərbaycanda, o cümlədən inşaat sahəsində kadr potensialı formalaşdı və hərtərəfli işlər gedir - elektrik xətləri, su elektrik stansiyaları, yarımstansiyalar, tunellər, körpülər, hava limanları, sosial obyektlər və bütün digər məsələlər. Bax, bu tunelin şəkli də burada göstərilir, çox rahat və təhlükəsiz bir yol olacaq.

Qarabağ Azərbaycandır!

***

**Prezident İlham Əliyev:** İndi biz Laçın rayonuna gedirik. Sonra Kəlbəcər şəhərinə gedəcəyik. Yolumuz Laçın rayonunadır. Hava limanının təməlini qoyacağıq.

**Birinci xanım Mehriban Əliyeva:** Bu yol təzə yoldur? Yoxsa olub bu yol?

**Prezident İlham Əliyev:** Yox, bu, olub. Kəlbəcər-






Laçın yolu da təbii ki, ən yüksək səviyyədə yenidən qurulacaq. İndicə təməlini qoyduğum hər iki tunel bu yolu daha da rahat edəcək. Bu da sovet vaxtında inşa edilmiş məşhur tuneldir. Burada göstərilir – inşası 1958-ci ildə başlamışdır, uzunluğu cəmi 200 metrdir. Bizim inşa edəcəyimiz tunellər isə 11 kilometr, 5 kilometrdir. Bax, bu gün Azərbaycan buna qadirdir. Bu isə köhnədən qalan Kəlbəcərlə Laçını birləşdirən yeganə yoldur. Artıq tunel işıqlandırılıb. Ermənilər Kəlbəcər və Laçını tərk edərkən bu tuneli partlatmaq istədilər. Görün, bu adamlar nə qədər məkrli hisslərlə yaşamışlar. Baxın bu hissəyə, buranı partlatmaq istədilər, amma alınmadı. Qaça-qaç idi, tələsirdilər.

Azərbaycanın gözəl mənzərələri. Kəlbəcər və Laçın rayonları təbiət nöqteyi-nəzərdən ən gözəl rayonlardandır. Ermənilər təbiətimizə nə qədər ziyan vursalar da, onu tam məhv edə bilmədilər.

***

Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, şübhəsiz ki, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın hava limanın inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanının təməlini qoydular.



Tədbirdə çıxış edən **Prezident İlham Əliyev dedi:**

– Bu gün azad edilmiş torpaqlarda böyük infrastruktur obyektinin təməli qoyulur. Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilir. Bu hava limanının tikintisi mənim tərəfimdən bir müddət əvvəl elan edilmişdir. Demişdim ki, azad edilmiş torpaqlarda üç beynəlxalq hava limanı tikiləcək. Artıq Füzulidə və Zəngilanda bu işlərə start verildi. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sonuna, ya da gələn ilin əvvəlinə istismara tam hazır olacaq.

Zəngilanda da işlərə start verildi, mən şəxsən Zəngilan Beynəlxalq hava limanının təməlini qoydum. Zəngilan Hava Limanının istifadəyə verilməsi tarixi yəqin ki, 2022-ci il olacaq. Kəlbəcər və Laçın rayonlarında, – mən müharibə başa çatandan sonra elan etmişdim, – yer axtarılacaq və beynəlxalq hava limanları tikiləcək. Yerin axtarışı, əlbəttə ki, çox vaxt apardı. Çünki Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Baxmayaraq ki, hər iki rayonun çox geniş ərazisi var, – dağlar, meşələr, dərələr, təpələr, – düz yol, düz yer demək olar ki, yoxdur. Yeganə bu yer seçildi ki, burada yenə də böyük torpaq işləri aparmaqla hava limanının tikilməsi mümkündür. Hava limanının zolağı bax, arxamdakı yerdə olacaq, indi bunu təsəvvür etmək belə çətindir. Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə – Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda, Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq. Dediyim kimi, burada böyük torpaq işləri aparılacaq. Bəzi boşluqlar doldurulacaq. Yəni, torpaq işləri vaxtımızı aparan əsas işlər olacaqdır.

O ki qaldı, uçuş-enmə zolağına, o da standart ölçüdə olmalıdır. Yeni inşa edilən və ediləcək hər üç hava limanında uçuş-enmə zolağı üç kilometrə bərabərdir. Yəni, bütün növ təyyarələr, o cümlədən ən ağır yük təyyarələri də bu hava limanlarına enə biləcək.

Beləliklə, azad edilmiş bölgələrin – Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanlar açılacaq. İndi demək çətindir, bu inşaat nə qədər zaman aparacaq. Ancaq, əlbəttə, biz istəyirik ki, maksimum qısa müddətdə aparılsın. Lakin bildirmək istəyirəm ki, mal-materialların gətirilməsi üçün logistik problemlər var. İndi yay başa çatır, bir müddətdən – oktyabr ayından sonra buralarda qar yağacaq. Mən bunu demək istəməzdim – yollardan istifadə çətinləşəcək. Hər halda, bu gün bu tarixi hadisə baş verir, biz Laçın Beynəlxalq Hava Limanının tikintisinə start veririk. Hesab edirəm ki, bu, bir çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə - Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz müstəqil Azərbaycan dövlətiyik, buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var. Bu hava limanını inşa edən Azərbaycan şirkəti olacaq. Bu da çox sevindiricidir. Çünki azad edilmiş torpaqlarda yerli şirkətlərin fəal işləməsi önəmli amillərdən biridir. Bizimlə bərabər, böyük layihələrdə qardaş Türkiyə şirkətləri də fəal iştirak edirlər.

Zəngilan, Laçın, Füzuli hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına gətirib çıxaracaq. Bu hava limanlarının həm yüklər, həm sərnişinlər, eyni zamanda, hərbi təyinatı da, təbii ki, göz önündədir. Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək.

Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını, laçınlıları, kəlbəcərliləri, bütün keçmiş köçkünləri ürəkdən təbrik edirəm.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə arıçılarla görüşüb söhbət etdilər.

**Arıçılar:** Azərbaycanda arı ailələri iki dəfədən çox artıb.

**Prezident İlham Əliyev:** Bizim balımız da çox keyfiyyətlidir. İndi Kəlbəcər balı yəqin ki, bütün digər yerlərdən daha da keyfiyyətli olacaq. Ona görə gərək həm daxili bazarı təmin edəsiniz, həm də ki, ixrac edəsiniz. Göstərməyə bir şey var?

**Arıçı:** Göstərməyə bəli var. Mən indi bir arı papağı verəcəyəm.

**Prezident İlham Əliyev:** Onlar bilirlər biz kimik, bizə dəyməzlər. Bu, baldır?

**Arıçı:** Bəli, baldır, əsl Kəlbəcər balıdır. İcazə versəydiniz, bunlardan Sizə iki dənə hədiyyə verərdim.

**Prezident İlham Əliyev:** İki dənə çoxdur, yox. Bir dənə bəsdir. Biz Kəlbəcər balından da dadarıq. Hazırdır da bu?

**Arıçılar:** Bəli, artıq hazırdır. Biri budur, birini də başqa yeşikdən taparam.

**Prezident İlham Əliyev:** Yox, biri bəsdir. Bir dənə bəsdir dadmaq üçün.

**Birinci xanım Mehriban Əliyeva:** Bir dənə bəsdir.

**Arıçılar:** Vuracaq indi.

**Prezident İlham Əliyev:** Yox, bizə dəyməz, o, bilir ki, biz kimik. Sizdən başqa da arıçılar var?

**Arıçılar:** Var, başqa arıçılar da var. Pilot layihə kimi 5 arıçı gəldi. Sonra başqa arıçılar gəldilər. Qoy bir dənə də çıxarım.

**Prezident İlham Əliyev:** Yox, yox bəsdir.

**Birinci xanım Mehriban Əliyeva:** Orada arı qalıb üstündə.

**Arıçı:** Bu, tam möhürlü olmadı, istəyirəm tam möhürlüsünü verim.

**Prezident İlham Əliyev:** Yox, elə bu, kifayətdir.

**Birinci xanım Mehriban Əliyeva:** Orada arılar var. Çəkirəm.

**Prezident İlham Əliyev:** Gəlin birlikdə şəkil çəkdirək.

Sağ olun. Mən bütün köçkünlərə söz vermişdim ki, onları dədə-baba yurduna qaytaracağam.

**Arıçılar:** Biz inanırdıq, ona görə ki, biz Sizə inanırdıq, xalqımıza inanırdıq, şəhidlərimizə inanırdıq. Bizim təsərrüfatımızın builki məhsulunun 20 faizi şəhid ailələrinə yönəldiləcək.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Yəqin ki, təsərrüfatınızı getdikcə genişləndirəcəksiniz.

**Arıçı:** Bəli genişləndirəcəyik. Çünki tək Kəlbəcər yox, ümumiyyətlə, işğaldan azad olunmuş torpaqlar arıçılıq üçün böyük yem bazasıdır. Ermənilərin böyük təsərrüfatları var idi burada və ixracla məşğul idilər.

**Prezident İlham Əliyev:** Sovet vaxtında da Kəlbəcərdə arıçılıq inkişaf etmişdi.

**Arıçılar:** Kəndin özündə olub sovet vaxtında. Sovet İttifaqında Kəlbəcər balının adı çıxmışdı. Bu adı inşallah, özünə qaytaracağıq.

**Prezident İlham Əliyev:** Ermənilər çox qanunsuz işlər görüblər, təbiətimizi məhv ediblər, istismar ediblər.

**Arıçı:** Ata-babalarımızın kökü buradadır, atamın qəbri buradadır. Kəlbəcərdə heç vaxt erməni yaşamayıb.

**Prezident İlham Əliyev:** Bilirəm, heç vaxt. Amma sonra Kəlbəcəri özününküləşdirmək istədilər, adını dəyişdirməyə çalışdılar. Biz də gəldik, dərsini verdik, torpağımızı geri aldıq.

**Arıçılar:** Çox sağ olun. Təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Birinci xanım Mehriban Əliyeva:** Sağ olun, uğurlar sizə. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bütün qohum-qardaşlara salam deyin.

**Arıçılar:** Allah Sizi bu xalqımıza çox görməsin. Sağ olun.

***

**Prezident İlham Əliyev:** Kəlbəcər şəhərinə yaxınlaşırıq. Bir neçə dəqiqədən sonra Kəlbəcər şəhərində olacağıq.

Artıq Kəlbəcər şəhərindəyik, şəhərin girəcəyindəyik. Bax, bunlar vəhşi ermənilərin əməlləridir. Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar.

***

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərinə gəldilər.

Dövlətimizin başçısı Kəlbəcər şəhərində Dövlət bayrağını ucaltdı və çıxış etdi.



## Prezident İlham Əliyevin çıxışı



– Hərbi əməliyyat nəticəsində torpaqlarımız işğaldan azad edildi. İkinci Qarabağ müharibəsi bizim şanlı Zəfərimiz kimi tarixdə əbədi qalacaq. Qələbə nəticəsində Kəlbəcər rayonu da Laçın və Ağdam rayonları ilə bərabər işğalçılardan azad edildi. Ermənistan noyabrın 10-da kapitulyasiya aktını imzalayaraq bu öhdəliyi də öz üzərinə götürmüşdür və Kəlbəcər, Laçın və Ağdam rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.

İkinci Qarabağ müharibəsinin ilk günlərində döyüşlər gedən zaman Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilmişdir. Murov dağının ərazisində və ətraf yerlərdə şiddətli döyüşlər gedirdi, şəhidlər vermişdik. Ancaq strateji yüksəklikləri götürdük və bu yüksəkliklər bizə imkan verirdi ki, ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna da nəzarət edək. Beləliklə, biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər-Kəlbəcər yolundan istifadə edə bilmədilər. Bu, hərbi əməliyyatın, əks-hücum əməliyyatının tərkib hissəsi idi. Biz əks-hücum əməliyyatını bir neçə istiqamətdə aparırdıq və hər istiqamət önəmli idi. Çünki biz artıq bəzi istiqamətlər üzrə müdafiə xəttini yararaq işğalda olan torpaqları azad edirdik, bəzi istiqamətlərdə strateji nöqtələri götürərək Ermənistan ordusunun hərəkətlərini demək olar ki, iflic vəziyyətə salmışdıq. Bəzi istiqamətlər üzrə, sadəcə olaraq, hərbi manevrlər apararaq erməni silahlı birləşmələrinin başqa yerə göndərilməsinin qabağını alırdıq. Beləliklə, Kəlbəcərin bir hissəsi, kiçik olan hissə döyüş meydanında azad edildi. Ancaq əksər hissəsi, böyük hissə Ermənistan kapitulyasiya aktına imza atandan sonra azad edildi.

Kəlbəcərin azad edilməsi tarixi hadisədir. Kəlbəcərin işğal altına düşməsi isə xalqımızın böyük faciəsi idi. Çünki Laçın və Şuşa rayonları 1992-ci ilin may ayında işğal altına düşəndən sonra ermənilərin növbəti hədəfi Kəlbəcər idi. Şuşa və Laçının işğalı ilə bağlı artıq Azərbaycanda çox dəqiq təsəvvür var. Hər kəs bilir ki, Şuşa və Laçının işğala məruz qalması AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində baş vermişdir. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi, AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, nəyin bahasına olursa-olsun hakimiyyəti zəbt etməyə çalışırdı və onların nəzarəti altında olan bəzi qüvvələr, bəzi satqınlar Şuşanı demək olar ki, ermənilərə təhvil verdilər və Şuşa demək olar ki, müdafiə olunmadı. Şuşada olan bəzi silahlı dəstələr Şuşadan çıxdı və faktiki olaraq Şuşa ermənilərə təslim edildi. Məhz bunun nəticəsində Azərbaycanda hakimiyyət böhranı yaşandı və AXC-Müsavat cütlüyü bundan istifadə edib qanunsuz yollarla hakimiyyəti uzaqlaşdırıb, hərbi çevriliş törədib hakimiyyətə gəldi. Şuşa və Laçının işğal altına düşməsi sırf AXC-Müsavat cütlüyünün xəyanətidir, satqınlığıdır. Kəlbəcər rayonu işğal altına düşəndə artıq AXC-Müsavat cütlüyü öz çirkin məqsədlərinə çatmışdı, hakimiyyətdə idi. Təxminən bir ilə yaxın hakimiyyətdə idi. Kəlbəcər 1993-cü il aprel ayının əvvəlində işğal altına düşmüşdü və bunun da günahkarı AXC-Müsavat cütlüyüdür, AXC-Müsavat hakimiyyətidir. Onların xəyanətkar, satqın, antimilli hakimiyyəti Kəlbəcərin işğalını şərtləndirdi. Çünki 1992-ci ilin bahar-yay aylarından onlar demək olar ki, hakimiyyətdə idilər və bir il ərzində ancaq talançılıqla, rüşvətxorluqla, soyğunçuluqla, qanunsuzluqla və digər çirkin əməllərlə məşğul idilər. İndi bir çoxları bunu unudur. Gənc nəsil isə bundan xəbərsizdir. O dövr bizim milli faciəmiz, milli rəzalət dövrü idi. AXC-Müsavat hakimiyyəti dünya miqyasında bəlkə də ən biabırçı hakimiyyətlərdən biri idi, bəlkə də birincisi idi. Ölkə əldən gedirdi, ölkədə vətəndaş qarşıdurması pik həddə çatmışdı, torpaqlar işğal altına düşürdü, ancaq onlar yalnız öz mənafeyini, öz maraqlarını düşünürdülər. Hakimiyyətə gəlmiş antimilli ünsürlər Azərbaycanı demək olar ki, bütün beynəlxalq tərəfdaşlardan, xarici tərəfdaşlardan təcrid etdilər

və həm xarici, həm daxili siyasətdə kobud səhvlər buraxdılar və cinayətlər törətdilər. Kəlbəcərin işğala məruz qalması satqın AXC-Müsavat hakimiyyətinin əməlləridir. Kəlbəcər işğal altına düşəndən sonra Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında birbaşa coğrafi bağlantı yarandı və artıq digər torpaqların işğalı da labüd idi. Çünki AXC-Müsavat hakimiyyəti ordu quruculuğuna fikir vermirdi, orduda heç bir islahat aparılmırdı. Əksinə, ordumuzu zəiflətmək üçün hər vasitədən istifadə edirdi. Torpaqlar işğal altına düşürdü, onlar isə öz laxlamış hakimiyyətini qorumaq üçün Gəncəni bombalayırdılar. Onlar Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Bu videokadrlar var. Burada ermənilər soyqırımı törədirdilər, şəhərlərimizi viran qoyurdular. Baxın, Kəlbəcər nə gündədir, digər şəhərlər nə gündədir. Onlar isə Azərbaycan əsgərlərini əsir götürüb, öz hakimiyyətini möhkəmləndirmək istəyirdilər. Görəndə ki, artıq bu da mümkün deyil, qaçdılar gizləndilər, dövlət səviyyəsində fərarilik etdilər. AXC-Müsavat hakimiyyəti, onun başında duranlar fəraridirlər, satqındırlar, qorxaqdırlar, xaindirlər və bu, əsl həqiqətdir.

Əlbəttə, biz torpaqlarımızı azad etmək üçün addımlarımızı elə atırdıq ki, bütün torpaqlar azad edilsin. Artıq bu da sirr deyil ki, danışıqlar dövründə masa üzərində olan təkliflər bizim maraqlarımızı qane etmirdi. Mən bunu açıq bəyan etmişdim və məhz buna görə təklif edilən varianta razılıq vermirdim. Çünki son 10 il ərzində nədən söhbət gedirdi - beş rayon Azərbaycana qaytarıla bilər, Kəlbəcər və Laçın rayonları isə keçmiş Dağlıq Qarabağda referendum keçiriləndən sonra Azərbaycana qaytarıla bilər. Əlbəttə, biz buna heç cür razı ola bilməzdik. Çünki heç bir referendumdan söhbət gedə bilməzdi. Mənim siyasətim ondan ibarət idi və mən bunu açıq şəkildə bəyan edirdim ki, bizim bütün torpaqlarımız işğalçılardan azad edilməlidir, ərazi bütövlüyü tam bərpa edilməlidir, bizə məsələnin yarımçıq həlli lazım deyil. Məhz buna görə edilən təkliflərə Azərbaycan tərəfi razılıq vermirdi. Ancaq sonra bilindi ki, Ermənistan da buna razı deyil. Çünki Ermənistanın məqsədi bu torpaqları, zəbt edilmiş bütün torpaqları əbədi işğal altında saxlamaq idi. İndi çıxan yeni məlumatlar və eyni zamanda, azad edilmiş torpaqlarda mövcud olan mənzərə onu göstərir. Torpaqları təhvil vermək istəyən 6 xətt müdafiə istehkamları qurmazdı. İndi bilinir ki, onların məqsədi status-kvonu əbədi etmək, bizə bir qarış torpaq qaytarmamaq, məsələni uzatmaq idi. Onlar öz xarici havadarlarına güvənərək bunu 30 il ərzində həyata keçirirdilər və istəyirdilər ki, bundan sonra da 300 il ərzində bunu həyata keçirsinlər. Hesab edirdilər ki, bu siyasət onlara xeyir gətirəcək. Hesab edirdilər ki, Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etməyəcək. Hesab edirdilər ki, bizi kimsə dayandıracaq. Onların himayədarları bizə, necə deyərlər, təsir göstərəcəklər, təzyiq göstərəcəklər. Ancaq bilmirdilər bütün Azərbaycan xalqı bir amalla yaşayır ki, işğala son qoyulsun, düşmən torpaqlarımızdan qovulsun və biz öz dədə-baba torpaqlarımıza qayıdaq və qayıtdıq. Ermənistan ordusunu məhv edərək qayıtdıq, Ermənistan faşizminin başını əzərək qayıtdıq, erməni cəlladlarını cəzalandıraraq qayıtdıq, şəhidlərimizin qanını alaraq qayıtdıq. Qayıtmışıq, bu gün burada durmuşuq və əbədi duracağıq!

İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq kifayət qədər məlumatlar var və təkrar etmək istəmirəm. Müharibənin gedişatı hər kəsə məlumdur. Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar.

Ancaq bu gün İkinci Qarabağ müharibəsi ilə bağlı bu sözləri deyərkən bir məsələyə diqqət yetirmək istəyirəm. Bu müharibə, eyni zamanda, erməni mifologiyasının tamamilə məhv olması deməkdir. Çünki uzun illər ərzində, otuz il ərzində ermənilər dırnaqarası “hərbi qələbə” ilə öyünürdülər. Ermənilər bir neçə mif uydurmuşdular ki, onların ordusu “yenilməz ordu”dur və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi dağıtdıq. Erməni ordusu yoxdur bu gün. Erməni ordusu tamamilə məhv edildi. Erməni ordusunun silah-sursatlarının mütləq əksəriyyəti məhv edildi, ya da ki, qənimət kimi götürüldü və indi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Biz erməni ordusunu “yenilməz ordu” kimi təqdim edən mifologiyaya son qoyduq.

İkinci mif ondan ibarət idi ki, erməni əsgəri “cəsur”dur və istənilən müharibədə qalib gələ bilər. Biz bu mifi də darmadağın etdik. Erməni əsgəri fəraridir, qorxaqdır. Onlar özləri etiraf etdilər və bu da sübut olundu ki, müharibə dövründə Ermənistan ordusunda 10 min fərari olmuşdur. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Yəni, bu mif də darmadağın edildi. Erməni əsgəri fəraridir.

Növbəti mif isə o idi ki, azərbaycanlılar öz torpaqları uğrunda vuruşmayacaqlar, onlar bu vəziyyətlə barışıblar və əgər otuz ilə yaxın müddət ərzində müharibə başlamayıbsa, bundan sonra da başlamayacaq. Bu mifi də biz dağıtdıq. Biz göstərdik ki, bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildik. Mən bunu dəfələrlə deyirdim. Bütün çıxışlarımda deyirdim ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq, nəyin bahasına

olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Bu mifologiya da darmadağın edildi.

Növbəti mif onların dırnaqarası “sərkərdələri” ilə bağlı idi. Guya Ermənistanda elə görkəmli generallar, sərkərdələr var ki, onlar istənilən hərbi vəzifəni yerinə yetirə bilərlər. Biz gördük ki, onların generalları oğrudurlar, “tuşenka” satandırlar. Onların sərkərdələri də qorxaqdırlar, fərarilərdir. Xocalı cəlladları Köçaryan, Sarkisyan, Ohanyan müharibə zamanı Qarabağa soxulmuşdular, orada idilər. Amma görəndə ki, müzəffər Azərbaycan Ordusu öz torpaqlarını qəhrəmancasına azad edir, qaçdılar gizləndilər. Soruşmaq lazımdır onlardan, oradan nəyə görə çıxdılar? Onlar Xankəndidə idilər, üçü də. Niyə qaçmısınız? Niyə gizlənmisiniz? Mən demişəm, bir daha deyirəm, o dəmir-dümürləri çıxarın, onları atın zibil yeşiyinə. Siz fərarisiniz, qorxaqsınız. Biz sizi məhv etmişik. Xocalı soyqırımında ən fəal rollardan birini oynayan keçmiş müdafiə naziri Şuşadan güclə canını qurtardı, son anda canını qurtardı. Dovşan kimi qaçmışdılar. Biz onları məhv etmişik. Onların dırnaqarası “qəhrəmanlarını”, “Artsax”, olmayan “Artsax” qəhrəmanlarını məhv etmişik. Onlar bu damğa ilə əbədi yaşayacaqlar. Fərarilər, satqınlar, cəlladlar, qorxaqlar - onlar ancaq əliyalın əhali ilə müharibə apara bilərlər. Necə ki, vaxtilə Xocalını işğal edəndə burada demək olar ki, onlara müqavimət göstərən qüvvə yox idi, mülki vətəndaşlar idi. Bax, bu evlərdə yaşamış mülki vətəndaşlar idi və aprel ayında hələ burada qarlar əriməmişdi, onların böyük hissəsi burada həlak oldu. Onlar buradan Gəncə istiqamətinə, o Murov dağının üstündən, Ömər aşırımından keçərkən onlara pusqular qurdular. Onları – uşaqları, qadınları, qocaları qətlə yetirdilər. Onlar məcbur olub ayaqyalın, qarlı-şaxtalı havada Ömər aşırımından keçərək, on kilometrlərlə yolu qət edərək buradan çıxmalı idilər. Bir çoxları da yolda qaldı, dondu, öldü. Bu, erməni vəhşiliyidir. Biz vəhşiləri məğlub etdik. Biz bölgəni vəhşilərdən, faşistlərdən xilas etdik. Bunu heç kim heç vaxt unutmamalıdır.

Erməni mifologiyasının biri də o idi ki, guya ermənilər qədim tarixə, mədəniyyətə malikdirlər və burada “vəhşi müsəlmanlar” arasında qalıblar. Guya ki, o, Qafqazda mədəniyyətin ocağıdır, beşiyidir, yaxud da son məntəqəsidir. Onların mədəniyyəti, bax, budur. Bax, bu binalardır, qazılmış qəbirlərdir, dağıdılmış məscidlərdir. Bunu hansısa başqa planetdən gələn yadplanetli yox, erməni edib. Özü də Birinci Qarabağ müharibəsi dövründə yox, müharibədən sonra, məqsədyönlü şəkildə, barbar kimi, vəhşi kimi, vandal kimi, bir-bir evlərin kərpiclərini, daşlarını söküb aparıb özləri üçün daxmalar tikiblər.

Onlar artıq buradan gedəsi olanda, kapitulyasiya aktını imzalayandan sonra da bizdən vaxt istədilər. Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şülələrini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər, ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır. İndi onların bəzi hallarda göndərdikləri yaltaqlıqla dolu sözlərinə inanmaq olmaz. Buna inanmaq istəyən, bax, bu mənzərəni göz önünə gətirsin, dağıdılmış Ağdamı, Füzulini, Şuşanı, Kəlbəcəri, Laçını, Zəngilanı, Qubadlını, Cəbrayılı göz önünə gətirsin. Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər. Onların gözünə soxacağıq. Biz indi kitablar da dərc edirik, göstəriş vermişəm, təqdimatlar da olacaq. Xarici ölkələrdə sərgilər olacaq. Biz göstərəcəyik. Bunu görmək istəməyən məcbur olub görəcək. Görəcək ki, erməni faşizmi, erməni vəhşiliyi nədir.

Ermənilər işğal dövründə, eyni zamanda, bizim təbii sərvətlərimizi də qanunsuz olaraq talan edirdilər. Bu işlərdə bəzi xarici şirkətlər onlara yardım edirdi. Bu şirkətlərin indi iki yolu var: ya bizə təzminat ödəyəcəklər, ya da ki, beynəlxalq məhkəməyə gedəcəklər.

Artıq məhkəmə prosedurları başlamışdır. Buna biz start verdik, tanınmış beynəlxalq hüquq şirkətlərini dəvət etdik və indi məhkəmə işləri hazırlanır. Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, başqa yerlərdə bizim qızıl yataqlarımız xarici şirkətlər tərəfindən istismar edilirdi. O şirkətlər bilmirdilər ki, bu, Azərbaycan torpağıdır? Bilirdilər! Amma buna məhəl qoymurdular. İndi cavab verəcəklər. Biz demişik, əgər istəmirlərsə ki, biz onları dünya miqyasında biabır edək, gəlsinlər, vurulmuş ziyanı bizə ödəsinlər, təzminat ödəsinlər və ondan sonra rahat yaşaya bilərlər.

Bizim meşələrimiz ermənilər tərəfindən məhv edilib. İndi bizim “Azərkosmos”un fotoları var - işğaldan əvvəl neçə min hektar meşə altında idi və indi nə qədərdir. Ağacla dolu olan altmış min hektara yaxın sahəni, meşə fondunu ermənilər dağıdıblar, yəni, kəsiblər. Kəsiblər, talayıblar, aparıblar. Eşitdiyimə görə orada parket işləri, bu biznes çox sürətlə gedirdi. Bu da talançılıqdır. Bu talançılığa görə də cavab verəcəklər. Bizim çaylarımızı zəhərləyiblər. Oxçuçay nə gündədir? Oxçuçay təbii fəlakətdir və onu zəhərləyən yenə də xarici şirkətdir. O şirkət də cavab verməlidir və verəcəkdir. Dəymiş hər bir ziyan hesablanır. Azad edilmiş bütün torpaqlarda, şəhərlərlə, kəndlərdə indi monitorinq aparılır, pasportlaşdırma aparılır, bütün evlərin pasportları hazırlanır, dəymiş ziyan təsbit




**İŞĞAL DÖVRÜNDƏ BİZİM TƏBİİ SƏRVƏTLƏRİMİZİN QANUNSUZ TALAN OLUNMASINDA ERMƏNİLƏRƏ YARDIM GÖSTƏRƏN**

və Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, digər yerlərdə qanunsuz qızıl yataqlarını istismar edən **xarici şirkətlər** ya təzminat ödəyəcəklər, ya da beynəlxalq məhkəməyə gedəcəklər.

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

edilir və biz beynəlxalq məhkəmələrdə dəymiş bütün ziyanın qaytarılmasını tələb edəcəyik.

Təbii sərvətlər talan edilib, istismar edilib, çaylarımız zəhərlənib, meşələrimiz qırılıb, evlərimiz dağıdılıb, məscidlərimiz sökülüb. Bunu kim edib? Ermənilər! Cavab verməlidirlər və verəcəklər.

Biz isə indi genişmiqyaslı bərpa işlərinə start verdik. O cümlədən Kəlbəcər və Laçın rayonlarında, Şərqi Zəngəzur regionunda. Artıq bu işlərin bir hissəsi bu gün qeyd olundu – yarımstansiya fəaliyyətə başladı, su elektrik stansiyasının tikintisi ilə tanış oldum, Laçın rayonunda beynəlxalq hava limanının təməli qoyuldu, iki tunelin təməli qoyuldu və digər infrastruktur layihələri artıq icra edilməkdədir. Eyni zamanda, biz pilot layihələr kimi Kəlbəcər və Laçın rayonlarının arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlərini buraya göndərdik, ezam etdik, şərait yaratdıq ki, onlar işə başlasınlar və artıq bu işlərə də start verildi.

Biz, eyni zamanda, Kəlbəcər, Laçın istiqamətində dövlət sərhədimizi möhkəmləndiririk. Bu sərhəd 30 ilə yaxın müddət ərzində ermənilərin əlində idi və biz may ayında qarlar əriyəndən sonra bu sərhədlərə çıxmışıq, öz mövqelərimizi tutmuşuq, Zəngəzurda yerləşmişik və orada möhkəmlənirik. Bu, bizim torpağımızdır. Ermənistan tərəfindən səslənən fikirlər tamamilə əsassızdır. Biz öz torpağımızdayıq, Qaragöl də bizimdir, başqa yerlər də bizimdir. Biz gəlmişik. 30 il bu ərazi ermənilərin əlində idi. Əgər o sərhəd onların dediyi yerdən keçirdisə, durardılar o sərhəddə. Durardılar, deyərdilər ki, sərhəd budur. Nə oldu bəs? Biz gələndən sonra, durandan sonra dedilər ki, yox, biz düz yerdə durmamışıq. Biz düz yerdə durmuşuq, harada lazımdır, orada durmuşuq və əgər istəsək, harada lazım bilsək, orada da duracağıq. Onu heç kim unutmasın. Ona görə indi Müdafiə Nazirliyinin və Sərhəd Qoşunlarının xətti ilə bütün sərhəd boyunca - Murovdağdan ta Araz çayına qədər bütün sərhəd infrastrukturu, hərbi hissələr yaradılır, biz bu sərhədlərdə möhkəmlənirik.

Daxili əhəmiyyət daşıyan 700 kilometr uzunluğunda yolların çəkilişi prosesi gedir. Mən hələ əsas şəhərlərarası yolları kənara qoyuram, o layihələr haqqında kifayət qədər məlumat verildi. Bizim sərhədlərə gedən 700 kilometr yolların çəkilişi prosesi gedir və artıq qış gələnə qədər bu işin təqribən 80 faizi görüləcək. Yəni, torpaq, çınqıl örtüklə döşənmiş yollar və bu, bizə imkan verəcək ki, həm hərəkət üçün, həm hərbi nöqteyi-nəzərdən bu bölgələrdə daha da möhkəmlənək. Əlbəttə ki, Azərbaycan-Ermənistan sərhədində biz söz sahibiyik. Bu, təbiidir və bundan sonra da söz sahibi olacağıq. Ona görə, bu məsələ ilə bağlı bəzən hansısa xarici dairələrdə də qeyri-adekvat fikirlər səsləndirilir. Buna ehtiyac yoxdur. Biz harada lazım bilmişiksə, orada da durmuşuq və əgər bu kimisə narahat edirsə, əgər kimsə əsəbləşirsə, necə deyərlər, getsinlər, su içsinlər.

Bildiyiniz kimi, mənim Sərəncamımla 14 iqtisadi rayon yaradıldı. Onların arasında iki iqtisadi rayonun yaradılması diqqət çəkdi – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Hesab edirəm ki, bu da çox düzgün addımdır. Bu, həm tarixə əsaslanır, eyni zamanda, gələcəyə əsaslanır. Çünki, həm Qarabağ, həm Zəngəzur bizim tarixi dədə-baba torpağımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar birləşdi. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi. Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin çəkilişi nəticəsində əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Çünki bizim vətəndaşlar indiki Ermənistan ərazisindən, təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da, - bura ilə həmsərhəddir, - zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar. Biz bunu sonrakı mərhələyə saxlayırıq.

İndiki mərhələdə bizim əsas vəzifəmiz müharibənin nəticələrini möhkəmləndirməkdir, azad edilmiş torpaqlarda möhkəmlənməkdir. Azərbaycan-Ermənistan sərhədində bundan sonra da mövqelərimizi gücləndirməkdir. Yenidənqurma, bərpa işlərinə artıq start verilib, bu da əsas vəzifələrdən biridir. Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. Mən artıq bildirmişəm, Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda, Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçildi. Artıq işlər gedir ki, o kəndlərin bərpasına start verək və vətəndaşları oraya qaytaraq. Ağdam şəhərinin baş planı təsdiqləndi, digər şəhərlərin baş planının təsdiqlənməsi yaxın aylarda nəzərdə tutulur.

Beləliklə, biz bundan sonrakı əsas hədəfləri düzgün müəyyən edərək, bu hədəflərə çatmağa da nail olacağıq. Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq. Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!

***

**Prezident İlham Əliyev:** Kəlbəcər şəhəri. Yolun sağında da, solunda da bir dənə salamat bina yoxdur. Baxmayaraq ki, ermənilərin bir hissəsi Kəlbəcər rayonunda qanunsuz məskunlaşmışdılar. Ancaq azərbaycanlılara məxsus olan bütün evləri yerlə-yeksan ediblər. Bax, indiki Kəlbəcər şəhəri budur. Biz Kəlbəcər şəhərini də, kənləri də yenidən quracağıq. Bax, bütün evlər dağılmış vəziyyətdədir.





***

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Kəlbəcər şəhərindəki N saylı hərbi hissəyə gəldi.

Quru qoşunları komandanı general-mayor Ənvər Əfəndiyev Ali Baş Komandan İlham Əliyevə raport verdi.

– Cənab Ali Baş Komandan, quru qoşunlarının əməliyyat şəraitində dəyişiklik olmayıb, hadisə baş verməyib.

Prezident, Ali Baş Komandan hərbi hissədə yaradılan şəraitlə tanış oldu.

Qeyd edək ki, burada hərbi qulluqçuların xidməti yüksək səviyyədə aparması üçün hər cür şərait yaradılıb. Bu da hərbi qulluqçularımıza Vətənin keşiyində hər zaman ayıq-sayıq durmağa, onu düşməndən layiqincə müdafiə etməyə imkan verir.

***

**Prezident İlham Əliyev:** İndi isə biz İstisuya gəldik. İstisu sanatoriyasının dağılmış görüntüləri gözümüzün önündədir. Vəhşi düşmən buranı da söküb. Baxın, nə günə qoyub sanatoriya korpuslarını.

***

Kəlbəcər faydalı qazıntı yataqları, səfalı təbiəti ilə yanaşı, İstisu mineral ehtiyatı və “İstisu” sanatoriyası ilə də məşhurdur. Erməni vandalları ərazilərimizi işğal etdikdən sonra oradakı təbii ehtiyatları da istismar ediblər. İndi “İstisu”ya öz əvvəlki şöhrətini qaytarmaq qarşıda duran vəzifələrdən biridir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərə səfər çərçivəsində “İstisu” sanatoriyasında da oldular.

İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb.

Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir. Suyun temperaturu səthdə müsbət 74, dərinlikdə isə 90 dərəcəyə çata bilər. İstisu mineral bulaqları 12 bulaqdan ibarətdir.

**Prezident İlham Əliyev:** Vəhşilər bu abidəni də söküblər. Qəribədir, burada “mir” yazılıb, bu abidə sülhü tərənnüm edirdi. Vəhşi düşmən bunu da sökübdür. Onu da söküb, bu binanı da söküb, hər tərəfi söküb. Biz bütün yerləri yenidən bərpa edəcəyik, yenidən həyat qayıdacaq.

Prezident İlham Əliyev burada uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolunun çəkilməsi işlərinə də baxdı.














**Prezident İlham Əliyev dedi:** Bu, İstisu-Minkənd yoludur. Bu yol olmayıb, yenidən çəkilir, uzunluğu 51 kilometrdir. Kəlbəcərin İstisu qəsəbəsini Laçının Minkənd kəndi ilə birləşdirən yoldur. Bu, Kəlbəcər və Laçın rayonları arasında ikinci bağlantı olacaq. Hazırda bu yol boyunca işlər gedir, torpaq işləri başa çatıb. Bundan sonra asfalt qatı da vurulacaq. Beləliklə, biz növbəti yol infrastrukturunu yaradacağıq. Həm İstisuya Laçın Beynəlxalq Hava Limanından istifadə edərək gəlmək üçün rahat imkan olacaq, eyni zamanda, Kəlbəcərlə Laçın arasında ikinci yol bağlantısı olacaq. Bunun həm strateji, həm də hərbi əhəmiyyəti var. Eyni zamanda, vətəndaşların rahatlığı, İstisu kurortunu yenidən bərpa etmək, müasir səviyyəyə gətirmək üçün bu yolun böyük əhəmiyyəti var. Bu yol layihəsi də uğurla icra edilir. Xəritədə də artıq yaşayış məntəqələrindən keçən yol göstərilir.

Beləliklə, Kəlbəcər və Laçın rayonlarına səfərimiz başa çatır. Səfər çox uğurlu idi. Bir çox önəmli obyektlərin açılışını etdik, təməlini qoyduq. Şərqi Zəngəzurun gələcək inkişafı ilə bağlı bütün işlər plan üzrə gedəcək və biz istəyimizə nail olacağıq.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

***

**Prezident İlham Əliyev:** Heyvandarlar da Kəlbəcər yaylaqlarına qayıdıblar. Həm arıçıları, həm heyvandarlıqla məşğul olanları biz qaytarmışıq. Görürsünüz, onlar məskunlaşıblar. Qoyunları da burada otarırlar. Bu ənənə də bərpa edildi. İşğaldan əvvəl heyvandarlar həmişə buraya gəlirdilər. İndi bizi salamlayırlar. Biz də onları salamlayırıq. Xoş gəliblər öz Vətənlərinə.

Səma bizi yola salır, biz də Ömər aşırımına yaxınlaşırıq, qayıdırıq.

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak ediblər.

Bu dəfə şəhid ailələrinə, müharibə əlillərinə və Vətən Müharibəsi Qəhrəmanlarına 300 mənzil, həmçinin müharibə əlillərinə 50 avtomobil təqdim olunub.

Əmək və Əhalinin Sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma buradakı yaşayış kompleksləri barədə məlumat verdi.

Bildirildi ki, birinci kompleksdə 1890, ikinci kompleksdə isə 1152 mənzil var. Hər 2 kompleks bütün zəruri sosial-texniki infrastrukturla təchiz edilib.

Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə, bu haqq savaşımızda şanlı Zəfər qazanan qüdrətli Azərbaycan Ordusunun hərbçilərinə, qazilərinə daim xüsusi diqqət və qayğı göstərir. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində



mobilin verilməsi nəzərdə tutulub.

Kompleksin ərazisində 280 yerlik uşaq bağçası da inşa olunub. Gələcəyimiz olan uşaqların xoşbəxt böyüməsi, onların həm fiziki, həm də mənəvi cəhətdən sağlam olması işinə Azərbaycan dövləti daim xüsusi diqqət göstərir. Bu kompleksdə belə müasir bağçanın istifadəyə verilməsi burada yaşayanların övladlarının asudə vaxtlarının səmərəli təşkil edilməsində böyük rol oynayır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban



Əliyeva uşaq bağçasında yaradılan şəraitlə tanış oldular.

Dövlətimizin başçısına və birinci xanıma şəhid ailələri və müharibə əlillərinin sosial təminatı, postmüharibə dövründə sosial dəstək, məşğulluq, mənzil, fərdi ev və avtomobil, həmçinin müasir reabilitasiya vasitələri ilə təminatı istiqamətində görülən işlər barədə də məlumat verildi. Bildirildi ki, Heydər Əliyev Fondu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mühüm sosial tərəfdaşlarından biridir. Bu tərəfdaşlıq çərçivəsində indiyədək bir çox sosialyönümlü layihələr uğurla icra olunub.

Diqqətə çatdırılıb ki, 1997-2021-ci illərdə şəhid ailələrinin üzvlərinə 10 min 500 mənzil və fərdi ev təqdim olunub. Prezident İlham Əliyevin bu ilin yanvarında imzaladığı Sərəncamla bu sahədə yeni

həyata keçirilən kompleks tədbirlər bunun bariz nümunəsidir. Xüsusilə qeyd olunmalıdır ki, hazırda dünyada pandemiyanın davam etməsi və iqtisadi-maliyyə çətinliklərinin olmasına baxmayaraq Azərbaycanda bu işlər uğurla davam edir. Avqustun 25-də Prezident İlham Əliyevin "Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" imzaladığı Sərəncam bu prosesin ardıcıl xarakter aldığını göstərir və bu kateqoriyadan olan vətəndaşların mənzil problemlərinin həllində müstəsna rol oynayır.

Müharibə əlillərinin sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən biri də onların avtomobillə təmin olunmasıdır. İndiyədək 7200 müharibə əlili avtomobillə təmin olunub. Cari ildə isə ümumilikdə, 160-dan çox avto-





proqramlar təsdiq edilib. 2021-2025-ci illərdə şəhid ailələrinə 11 min mənzil və fərdi ev veriləcək.

Şəhid ailələrinin üzvləri və müharibə veteranlarının fəal məşğulluq tədbirləri çərçivəsində son 7 ayda 52 min nəfər işlə təmin olunub, 7 min 200 nəfər özünüməşğulluq proqramına, 56 min nəfər isə ictimai işlərə cəlb edilib. Bu ilin əvvəlindən indiyədək 26 min 200 nəfər reabilitasiya vasitəsilə təmin olunub, 2600 nəfərə isə reabilitasiya xidmətləri göstərilib. Bu qəbildən olan vətəndaşların orta aylıq əməkhaqqı 2018-2020-ci illərdə 30 faiz, orta aylıq pensiyası isə 60 faiz artıb. Postmüharibə dövründə 26 min nəfərə 36 min xidmət göstərilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qazilərə verilən yüksək texnologiyalı protezlər və əlilliyi olan şəxslərin əl işlərinə də baxdılar.

Kompleksin ərazisindəki 1512 şagird yerlik 2 saylı tam orta məktəb də inşa edilib. Burada şagirdlərin təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq, onların elmin sirlərinə yiyələnmələri üçün bütün imkanlar yaradılıb. Təhsil müəssisəsində informatika, texnologiya, çağırışaqədər hərbi hazırlıq, kimya, fizika, biologiya otaqları, idman zalları, kitabxana şagirdlərin ixtiyarına veriləcək. Azərbaycanda dövlət səviyyəsində təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsinə daim xüsusi diqqətlə yanaşılır. Bütün bu işlər gənc nəslin bilikli, savadlı və intellektual səviyyədə yetişməsində, həmçinin müəllimlərin təlim-tədris prosesini müasir şəraitdə aparmalarında mühüm rol oynayır.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinin üzvləri, müharibə əlilləri və Vətən müharibəsi qəhrəmanları ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı



– Bu görüş şəhid ailələri, Qarabağ qaziləri ilə növbəti görüşümdür. Xahiş edirəm ki, görüşümüzün əvvəlində Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Son illər ərzində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri ilə mənim çoxsaylı görüşlərim olub. Müharibədən əvvəl hər dəfə görüş əsnasında mən deyirdim ki, biz nəyin bahasına olursa-olsun öz torpağımızı qaytaracağıq, Qarabağı qaytaracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik, şəhidlərimizin qisasını alacağıq və belə də oldu. Azərbaycan ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi, öz torpaqlarını qaytardı və şəhidlərimizin qanını aldı.



Bu gün müharibədən keçən aylar ərzində şəhid ailələri, Qarabağ qaziləri ilə görüşlər əsnasında tam başqa ab-hava hökm sürür. Əgər əvvəlki illərdə biz hər zaman şəhidlərimizin xatirəsini yad edərək özümüzə söz verirdik ki, onların qisasını alacağıq, bu gün qürur hissi ilə deyə bilərik ki, şəhidlərimizin qanını yerdə qoymadıq, ədaləti bərpa etdik, düşməni torpağımızdan qovduq və müzəffər xalq kimi dünya tarixinə öz adımızı yazdırdıq. Bu gün Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək, daim qəlbimizdə saxlamaq üçün böyük işlər görülür və görülməlidir. Şəhid ailələrini, Qarabağ qazilərini evlərlə təmin etmək bizim siyasətimizin əsas istiqamətlərindən biri idi, bu gün də bu, belədir. Ancaq bununla yanaşı, əlbəttə ki, bu proses müəyyən müddət davam etdiriləcək. Çünki yaxın gələcəkdə bu problem tamamilə aradan qaldırılacaq. Ancaq bununla paralel olaraq, İkinci Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün biz daha fəal olmalıyıq. Eyni zamanda, gənclərimizin tərbiyə işində də mütləq bu mövzu ön planda olmalıdır. Çünki İkinci Qarabağ müharibəsindəki, Vətən müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir.

Bu günə qədər dövlət siyasəti olaraq şəhid ailələri, müharibə əlilləri üçün çox böyük işlər görülmüşdür. Onu demək kifayətdir ki, bu kateqoriyadan olan 10 minə yaxın insan dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin edilmişdir. Təkcə keçən il 1572 mənzil verilmişdir, bu il 3 minə yaxın mənzil veriləcəkdir və beləliklə, növbədə duran vətəndaşların problemi öz həllini tapacaq. Eyni zamanda, bu gün 50 avtomobil təqdim ediləcək. Bu günə qədər verilən maşınların sayı 7 mini ötüb, daha doğrusu, 7200-dür. Bu gün açılışına toplaşdığımız yaşayış kompleksində bu kateqoriyadan olan mindən çox vətəndaş yaşayacaq. Burada bütün şərait yaradılıb, gözəl yaşayış kompleksidir, əsas yollara da yaxındır. Burada 1500 nəfərlik məktəb, - harada ki, biz indi görüşürük, – uşaq bağçası, işıqlı, yaraşıqlı, rahat mənzillər inşa edilib və bu, bir daha dövlət tərəfindən aparılan siyasəti göstərir.

Onu da bildirməliyəm ki, bu sahədə Azərbaycan

dünya miqyasında nümunəvi ölkə sayıla bilər. Çünki bir daha demək istəyirəm ki, bu günə qədər 10 minə yaxın vətəndaş mənzillərlə, fərdi evlərlə təmin edilib. Biz hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayırırıq ki, bu məsələlər öz həllini tapsın və növbəti müddət ərzində bu proqram tam icra olunacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müvafiq göstərişlər verilib, gələn ilin büdcəsi formalaşdıqda, əlbəttə ki, bu məsələ öz həllini tapacaq. Onu da bildirməliyəm ki, dünən imzaladığım Sərəncam əsasında İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş və qəhrəman adına layiq görülmüş şəxslər də mənzillərlə təmin ediləcək, müvafiq Sərəncam imzalanıbdır. Vətən Müharibəsi Qəhrəmanı adını alan bütün şəxslər mənzillərlə təmin ediləcək. Ölümündən sonra bu ada layiq görülmüş şəhidlərin ailələri də bu mənzillərə sahib olacaqlar.





Eyni zamanda, müharibədən sonra 9 mindən çox insana sosial ödənişlər verilibdir. Orta hesabla hər insana 2 ödəniş edilib. Yaralı və sağlamlığını itirmiş hərbçilər ən müasir protezlərlə təmin edilir. Onlar üçün belə imkan yaradılıb və son nəsil protezlər alınıb. Mənə verilən məlumata görə, 180 nəfərdən çox insanın protezə ehtiyacı var, onlardan 140 nəfəri artıq protezlərlə təmin edilib və bu protezlər onları normal həyata qaytarır. Onlar normal gəzə, qaça, hətta futbol oynaya da bilərlər. Bu da siyasətimizin tərkib hissəsidir. Çünki mən dəfələrlə demişdim ki, biz ən həssas kateqoriyadan olan insanlara daim diqqət göstərməliyik və Birinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində maddi imkanlar çərçivəsində bunu edirdik. İmkanlar az olanda az edirdik, imkanlar çox olanda çox edirdik, amma edirdik, bu gün də edirik və edəcəyik.

Eyni zamanda, müharibə dövründə öz əmlakını itirmiş insanlar üçün də minlərlə yeni ev tikilməkdədir. Çünki mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən bunun əvəzini mülki vətəndaşlardan çıxmaq istəyirdi. Bizim bir çox şəhərlərimiz daim atəş altında idi, artilleriya ilə, qadağan edilmiş bombalarla, ağ fosforlu bombalarla, ballistik raketlərlə bombalanırdı. Yüzdən çox mülki şəxs, onların arasında qadınlar, uşaqlar bu namərd atəş nəticəsində həlak olmuşlar və minlərlə insan öz əmlakını itirmişdir. Ona görə bu gün bu işlər də görülür, minlərlə ev inşa edilir, onların böyük hissəsi artıq inşa edilib.

Təbii ki, bütün bunlar böyük vəsait tələb edir və bütün bu işləri Azərbaycan öz vəsaiti hesabına edir, heç kimə möhtac deyil, heç kimdən yardım istəmir, öz hesabına edir və edəcək. O cümlədən, azad edilmiş torpaqlarda bu gün bütün bərpa işləri Azərbaycanın vəsaiti hesabına icra olunur. Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il - 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı

olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur.

Müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərmişlər, sözün əsl mənasında, ölümə gedirdilər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir. Biz əməliyyatları planlaşdıranda, ilk növbədə, mümkün olan itkilər haqqında düşünürdük və müqayisə apardıqda Azərbaycan məhz buna görə az itki verib. Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir.

Ancaq, eyni zamanda, onu da bildirmək istəyirəm ki, şəhidlərin sayı daha çox ola bilərdi. Əgər biz əməliyyatları planlaşdıranda bu amili nəzərə almasaydıq. Ona görə Ermənistan ordusu ilə müqayisədə bizdə itkilər kifayət qədər azdır. Düzdür, Ermənistan öz itkilərini gizlədir. Ancaq bizdə olan dəqiq məlumata görə ən azı 7-8 min itki vermişdir. Təkcə azad edilmiş torpaqlarda bu günə qədər davam edən axtarış əməliyyatları nəticəsində 1600-dən çox erməni işğalçının cəsədi tapılmışdır. Burada da Azərbaycan humanistlik göstərir. Birinci Qarabağ müharibəsindən sonra bizim təxminən 4 minə yaxın itkin düşmüş insanımız olmuşdur. Ermənilər onların nəşini bizə qaytarmadılar. Ancaq biz yenə də humanizmin ən ülvi əlamətlərini, prinsiplərini rəhbər tutaraq bu işi də görürük. Biz bütün əməliyyatları planlaşdıranda əməliyyatların gedişatını izləyirdik, canlı rejimdə izləyirdik. Biz bilirik ki, düşmən ən azı 7-8 min itki verib. Azərbaycan isə 3 minədək şəhid verib. Nəzərə alsaq ki, biz əks hücum əməliyyatı keçirirdik. Nəzərə alsaq ki, 5-6 müdafiə xətti var, böyük mühəndis istehkamları var idi, təbii relyef bizim üçün əlverişsiz idi. Anlamaq olar ki, biz insanların sağlamlığını, həyatda qalmasını nə qədər düşünürdük və buna nail olduq.

İkinci Qarabağ müharibəsi tarixdə əbədi qalacaq. Azərbaycan xalqının çoxəsrlik tarixində buna oxşar parlaq və tam Qələbə olmamışdır. Biz 300-dən çox şəhəri, kəndi, qəsəbəni döyüş meydanında işğalçılardan azad etdik. İşğalçıları məcbur etdik ki, onlar kapitulyasiya aktını imzalayaraq digər rayonlardan öz xoşları ilə çıxsınlar. Halbuki müharibənin ilk günlərindən mən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix verməlidir nə vaxt bizim torpaqlarımızdan çıxır və biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Noyabrın 9-da Ermənistan artıq kapitulyasiya aktını imzalamağa hazır olmuşdur. Ağdam, Kəlbəcər, Laçın rayonlarının bizə qaytarılması tarixi müəyyən olunmuşdur. Noyabrın 10-na keçən gecə isə Ermənistan kapitulyasiya aktını imzaladı və müharibə dayandı. Müharibənin bizim tərəfimizdən dayandırılması da tamamilə əsaslı bir addım idi. Çünki müharibə davam etsəydi, birincisi biz daha çox itkilər verəcəkdik. Müharibə davam etsəydi, Kəlbəcər və Laçın rayonlarının azad edilməsi müəyyən çətinliklərlə üzləşə bilərdi. Çünki o bölgənin təbii iqlimi, dağları bizə problem yarada bilərdi. Bir də ki, qış başlayırdı. Eyni zamanda, Azərbaycan müharibəni müharibə qanunları ilə aparırdı. Biz ermənilərdən fərqli olaraq hərbi cinayət törətməmişik, etnik təmizləmə siyasəti aparmamışıq. Bu, bir daha xalqımızın böyüklüyünü, siyasətimizin müdrikliyini göstərir. Ona görə biz hər şeyi vaxtında etdik, hər şeyi vaxtında. Torpaqlarımızı vaxtında azad etdik, müharibəni vaxtında dayandırdıq və tarixi Zəfərə çatdıq. Bir neçə gün bundan əvvəl dediyim kimi, ermənilərin bütün miflərini darmadağın etdik. Bu gün Ermənistan artıq açıq etiraf edir ki, öz təhlükəsizliyini özü təmin edə bilmir, öz sərhədlərini özü qoruya bilmir, öz hesabına yaşaya bilmir. Belə olan halda müstəqillikdən söhbət gedə bilməz. Ermənistanı müstəqil ölkə adlandırmaq tamamilə əsassızdır. Çünki müstəqil ölkəyə xas olan əlamətlərin mütləq əksəriyyəti Ermənistan dövlətində yoxdur. Bunun da səbəbi onların işğalçılıq siyasətidir. Əgər vaxtında mənim sözlərimə əməl edib torpaqlarımızdan çıxsaydılar, belə bir rəzil vəziyyətə düşməzdilər. Nəticədə yenə də mənim sözlərimə əməl etməli oldular. Mən deyirdim ki, bizim torpağımızdan rədd olmalısınız. Rədd oldular. Nəticədə mən deyən oldu, amma vaxt itirdilər. Bu gün Ermənistan nə gündədir, hər kəs bunu görür. Əlbəttə, acı məğlubiyyətin şokunu onlar hələ uzun illər yaşayacaqlar. Biz isə bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq, qürurla yaşayacağıq. Öz gələcəyimizi özümüz quracağıq, azad edilmiş torpaqları bərpa edəcəyik. Şəhidlərimizin xatirəsini daim qəlbimizdə yaşadacağıq.

Müharibədən sonra bütün dünya erməni vəhşiliyinin yırtıcı sifətini gördü. Çünki müharibəyə qədər işğal dövründə Ermənistan tərəfi o vaxt işğal edilmiş torpaqlara heç kimi buraxmırdı. Eyni zamanda, bu məsələ ilə məşğul olan vasitəçilər də oraya getməyə o qədər can atmırdılar. Halbuki qanunsuz məskunlaşma hərbi cinayət sayılır. Əgər 1990-cı illərin əvvəllərində Ermənistan bu qanunsuz məskunlaşmanı gizlin şəkildə edirdisə, son vaxtlar o qədər azğınlaşmışdılar ki, bunu açıq şəkildə edirdilər. İndi yada salmaq lazımdır, müharibədən əvvəl onların televiziyalarında hansı reportajlar gedirdi. Xaricdən – Suriyadan, Livandan




gəlmiş ermənilər Şuşa şəhərində müsahibələr verirdilər. Deyirdilər ki, bəli, biz gəlmişik buraya. Bura Ermənistan torpağıdır. Biz burada yaşayırıq. Bunları təbliğ edirdi, hərbi cinayəti təbliğ edirdi. Onlara bizdən başqa söz deyən yox idi. Minsk qrupu onlara bir söz demirdi. Qanunsuz məskunlaşma tək Şuşada getmirdi, Cəbrayılda da gedirdi, Zəngilanda da gedirdi, Kəlbəcərdə də, Laçında da. Təkcə Ağdam və Füzulidə məskunlaşma getmirdi. Çünki orda heç nə yox idi, hər şeyi dağıdıblar, bütün şəhər və kəndlərimizi yerlə-yeksan ediblər. Amma qalan yerlərdə - Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər və Şuşada qanunsuz məskunlaşma gedirdi. Düzdür, az gedirdi, çünki onların insan resursları yox idi, amma gedirdi. Bu, hərbi cinayətdir. Bu hərbi cinayətə görə təkcə Ermənistan yox, o cinayətlərə göz yuman da məsuliyyət daşıyır. Bizim uğurlu əməliyyatlarımız buna son qoydu. Ancaq bu gün qeyd etdiyim kimi, bütün dünya erməni vəhşiliyini görür. Görür ki, ermənilər bizim məscidlərimizi dağıdıblar, 60-dan çox məscid dağıdılıb. Ermənilər bizim məscidlərimizdə inək, donuz saxlayıblar. Bu, bütün müsəlman aləminə təhqirdir. Bir daha sizin qarşınızda bütün müsəlman ölkələrinin rəhbərlərinə üz tutaraq deyirəm, bunu heç vaxt unutmayın, buna göz yummayın, görməzliyə vurmayın. Ermənistan rəhbərliyi bütün müsəlman aləmini təhqir edib. Qəbirləri dağıdan da, qəbir daşlarının üzünü silərək satan da ermənidir, ölülərin qızıl dişlərini çıxardan da ermənidir, məscidlərimizi sökən də ermənidir, evlərimizi kərpic-kərpic söküb öz daxmasına daşıyan da ermənidir. Bunu hər kəs görür və görməlidir. Biz azad edilmiş torpaqlara xarici qonaqları, jurnalistləri, siyasətçiləri, ictimai xadimləri müntəzəm olaraq gətiririk ki, görsünlər və bilsinlər, biz təkcə öz ərazimizi işğaldan azad etməmişik, biz bölgəni erməni faşizmindən azad etmişik.

Bu gün biz bu əraziləri bərpa edərək tarixi ədaləti bərpa edirik. Əfsuslar olsun ki, xalqımız uzun illərdir ədalətsizliklərlə üzləşir. XX əsrin 20-ci illərində xalqımıza iki böyük zərbə vuruldu. Birincisi, 1920-ci ildə. O vaxt sovet hakimiyyəti bizim tarixi torpağımız olan Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana

birləşdirdi. Ondan sonra o bölgədə azərbaycanlılar deportasiyaya məruz qaldılar.

İkinci isə 1923-cü ildə bizim ərazimizdə süni bir qurum yaradıldı - Dağlıq Qarabağ Muxtar Vilayəti, hansı ki, bunun yaradılmasının heç bir əsası yox idi. Nə tarixi əsası var idi, nə coğrafi əsası var idi, nə də iqtisadi əsası var idi. Heç bir əsası yox idi. Sadəcə olaraq, bizim canımıza bu süni bir cisim yeridildi ki, bir canlı bomba kimi orada dursun və vaxtında partlasın. Belə də oldu. 1923-cü il iyulun 7-də Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Onun da mərkəzi şəhəri bizim Xankəndi qəsəbəmiz olmuşdu. Ona da cəllad Stepan Şaumyanın adını verdilər, Stepanakert adlandırdılar. Xalqımıza iki böyük zərbə dəymişdi. Ondan sonra da zərbələr oldu. 1940-1950-ci illərdə Ermənistan ərazisindən – qədim Azərbaycan torpaqlarından azərbaycanlıların deportasiyası, 1980-ci illərin sonlarında erməni separatizminin baş qaldırması və buna sovet hakimiyyəti tərəfindən reaksiyanın verilməməsi. Əksinə, separatçıları təhrik edirdilər, onların havadarları bizə meydan oxuyurdular. Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək sovet vaxtında ortaya atılmış tezis idi. Heydər Əliyev hakimiyyətdən gedəndən iki həftə sonra bu, ortalığa atıldı. Görünür ki, çoxdan belə planlar var idi. Amma Heydər Əliyev amili, onun qətiyyəti və gücü imkan vermirdi ki, baş qaldırsınlar. O canlı bomba, hansı ki, 1923-cü ildə qoyuldu Azərbaycanda və o partladı o vaxt. O vaxtkı Azərbaycan rəhbərliyi, sadəcə olaraq, buna ya hazır deyildi, ya da ki, öz vəzifə borcunu yerinə yetirə bilmədi. Bəzi hallarda xəyanət etdi, satqınlıq etdi. Nəticə etibarilə hələ sovet vaxtında Dağlıq Qarabağ Muxtar Vilayəti faktiki olaraq Azərbaycandan defakto ayrılmışdı. Orada bir xüsusi komitə yaradılmışdı. O komitəyə rəhbərlik üçün Moskvadan ermənipərəst bir adam gətirilmişdi. Hansı ki, faktiki olaraq orada ermənilərlə birləşib bizə qarşı iş aparılırdı.

Azərbaycanlılar öz doğma torpağında artıq müdafiəsiz bir topluma çevrildilər. Ondan sonrakı tarix məlumdur. Biz isə tarixi, bu antiazərbaycan siyasətini geri çeviririk. Biz bəzilərinin heç yuxusuna gəlməyən işləri görürük. Bu gün bölgəyə tam sahibik, söz sahibiyik, işğal edilmiş torpaqları azad etmişik. Bu torpaqlarda indi möhkəmlənirik.

Mən görürəm, bəzi xarici mətbu orqanlarında deyilir ki, Azərbaycan yeddi rayonu azad edib. Bu həqiqətə uyğun deyil. Yeddi rayonu azad edib, amma bununla bərabər Şuşa şəhərini azad edib, bununla bərabər Hadrutu azad edib, bununla bərabər Xocavənd rayonunun 60 faizini azad edib, Suqovuşan qəsəbəsini azad edib. Ona görə biz yeddi rayondan daha çox ərazini azad etmişik. Bu ərazilərin strateji əhəmiyyəti göz önündədir. Hər kəs xəritəyə baxıb görə bilər ki, Azərbaycan hakim strateji nöqtələrə sahibdir, istər Qarabağ bölgəsində, istər Azərbaycan-Ermənistan sərhədində. Əgər 1923-cü il 7 iyul tarixi xalqımızın faciəsi idisə, 2021-ci ildə biz artıq bu qara səhifəni də qapadıq. Artıq 7 iyul gözəl bir tarix kimi tarixdə qalacaq. Çünki 2021-ci il iyulun 7-də mənim tərəfimdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair Fərman imzalandı, tarixi ədalət bərpa edildi.

Mən bir daha şəhidlərimizin əziz xatirəsini yad edərək deməliyəm ki, siz – onların yaxınları onlarla fəxr edirsiniz. Haqlı olaraq fəxr edirsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə, hərbçilərimizlə fəxr edir. Şəhidlərimizin əziz xatirəsi bizim ürəyimizdə əbədi yaşayacaqdır.

Bir daha sizi bu hadisə münasibətilə təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Sağ olun.

***

Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Ramiz Cəfərovun həyat yoldaşı Sitarə Cəfərova, Vətən müharibəsi şəhidi Fərid Şamilovun atası Mirzə Şamilov və Vətən müharibəsi qazisi, ehtiyatda olan polkovnik-leytenant Ehtiram Məmmədov çıxış edərək göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

**Sitarə Cəfərova:** Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım.

Mən Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Ramiz Cəfərovun yoldaşıyam. Mənim yoldaşım otuz il bu Vətənə xidmət edib. Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Sizin Sərəncamınızla ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi və digər medallarla təltif olundu. Sizə təşəkkür edirəm.

Cənab Prezident, hörmətli Mehriban xanım.

Siz şəhid ailələrinə daim dəstək olmusunuz və həmişə bizim yanımızda olmusunuz. Bu gün də bizə sevinc bəxş etmisiniz. Bizi mənzillərlə təmin edirsiniz. Allah Sizə cansağlığı versin. Allah Sizi Azərbaycan xalqının üstündə həmişə var eləsin.

Hörmətli Mehriban xanım, bu gün Sizin doğum gününüzdür. Fürsətdən istifadə edərək Sizi təbrik edirəm. Allah Sizə cansağlığı versin, uzun ömür və bol-bol nailiyyətlər arzulayıram. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

***

**Mirzə Şamilov:** Cənab Prezident, hörmətli Mehriban xanım.

Mən Vətən müharibəsi şəhidi Fərid Şamilovun atasıyam. Oğlum ilk günlərdən könüllü olaraq cəbhəyə yollanıb, Füzuli, Xocavənd, Zəngilan uğrunda döyüşüb, Şuşa və Xocavəndin azad olunmasında igidlik göstərib.



Son döyüşü də elə Şuşanın yaxınlığında, Xocavənd rayonunda olub. Noyabrın 8-də qəhrəmancasına şəhid olub. Sizin Sərəncamınızla "Vətən uğrunda", Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azad olunmasına görə medallarla təltif edilib. Buna görə minnətdarıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Cənab Prezident, bu gün oğlumun və bütün şəhidlərimizin ruhu şaddır. Çünki Sizin rəhbərliyinizlə tarixi Qələbəyə imza atdıq. Xalqımız öz arzusuna çatdı. Otuz il düşmən işğalında olan torpaqlarımız azad edildi. Gələcək nəsillərimiz də bu tarixi Zəfəri qürurla yad edəcəklər, xatırlayacaqlar.

Vətən müharibəsindən çox az, doqquz ay keçməsinə baxmayaraq, Sizin tapşırığınızla bizə, bütün şəhid ailələrinə yüksək diqqət və qayğı ilə yanaşırlar. Bütün sosial dəstəklə əhatə olunmuşuq. Gənc qazilərimizin evlə, mənzillə, maşınla təmin olunması şəhid atası kimi məni həqiqi mənada sevindirir və qürurlandırır. Buna görə Sizə minnətdaram. Tanrı Sizi, Mehriban xanımı qorusun.

Mehriban xanım, şəhid ailələrinə xüsusi, həssas, diqqətli yanaşmağınızın göstəricisidir ki, ad gününüzdə də bizimləsiniz. Sizi təbrik edirik. Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Mehriban Əliyeva:** Çox sağ olun.

***

**Ehtiram Məmmədov:** Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Hörmətli Mehriban xanım.

Vətən müharibəsi əlili, ehtiyatda olan polkovnik-leytenant Ehtiram Məmmədov. Mən də Sizin rəhbərliyinizlə Vətən müharibəsində iştirak etmək şərəfinə nail oldum. Mənfur düşmənin otuz ildə hazırladığı mövqeləri qəhrəman Azərbaycan əsgərləri ilə 44 gün ərzində darmadağın edərək bütün torpaqlarımızı işğaldan azad etdik. Döyüşlərdə iki dəfə yaralandım. Mən Sizin tərəfinizdən "Qarabağ" ordeni, Füzuli, Xocavənd və Şuşanın işğaldan azad olunması medalları ilə təltif edilmişəm. O günləri yaxşı xatırlayıram. Ən çox da Sizin xalqımıza qələbə xəbərlərini çatdırdığınız günləri. O günlər xalqımızın tarixində daim yaşayacaq. Sizin də dəfələrlə qeyd etdiyiniz kimi, Azərbaycan tarixində belə Qələbə olmamışdır. Sizin rəhbərliyinizlə ordumuz bütün dünyaya öz gücünü göstərdi. Azərbaycan qalib gəldi, möhtəşəm Qələbə əldə etdi. Düşmənə vurduğumuz zərbə heç vaxt onun yadından çıxmayacaq. Çətin ki, onlar bir daha ayağa qalxsın. Biz təkcə qalib gəlmədik, eyni zamanda, müasir hərb tarixinə misilsiz döyüş peşəkarlığı həkk etdik.

Cənab Prezident, biz bu gün sevinirik, fərəhlənirik. Ona görə ki, Sizin bizə göstərdiyiniz böyük qayğının bir daha şahidi oluruq. Şəhid ailələri, qazilər mənzillə təmin olundular. Həmçinin qazilərimizə minik avtomobilləri hədiyyə etdiniz. Sizin Sərəncamınızla hərbçilərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlar bir daha yüksək qiymətləndirilərək Vətən Müharibəsi Qəhrəmanları və onların ailələri mənzillərlə təmin olunurlar. Mən ehtiyatda olmağıma baxmayaraq, daim Sizin tapşırığınızı yerinə yetirməyə hazıram. Azərbaycan xalqı Sizinlə daim yeni zəfərlərə imza atacaq. Çox sağ olun.

***

Görüşdən sonra xatirə şəkili çəkdirildi.

***

Dövlətimizin başçısı və birinci xanım tədbir iştirakçıları ilə söhbət etdilər.















**Prezident İlham Əliyev:** Oğlunuzun neçə yaşı var idi?

**Şəhid atası:** 20 yaşı.

**Prezident İlham Əliyev:** Harada həlak olub?

**Şəhid atası:** Könüllü getmişdi, Xocavənddə.

**Prezident İlham Əliyev:** Müharibənin son günündə.

**Şəhid atası:** İki saat qalmış. Qismət belə imiş. Vətən sağ olsun.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin. Sən harada döyüşmüsən?

**Vətən Müharibəsi Qəhrəmanı Nail Həsənov:** Cənab Ali Baş Komandan, Xüsusi Təyinatlı Qüvvələrin




tərkibində Kəlbəcərdən başlamış Şuşanın alınmasına qədər.

**Prezident İlham Əliyev:** Şuşanın alınmasında iştirak etmisən?

**Nail Həsənov:** Şuşanın alınmasında üç tabordan birinin komandiri olmuşam.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Nail Həsənov:** Sağ olun, minnətdarlığımı bildirirəm.

**Vətən müharibəsi qazisi İsa Şabanov:** Suqovuşan, Ağdam, Tərtər istiqamətlərində, Murovdağda bir çox yüksəkliklər uğrunda döyüşlərdə iştirak etmişəm.

**Prezident İlham Əliyev:** Harada yaralanmısan?

**İsa Şabanov:** Ağdərə istiqamətində minaya düşmüşəm. Protez qoyulub.

**Prezident İlham Əliyev:** Normaldır?

**İsa Şabanov:** Bəli.

**Prezident İlham Əliyev:** Problem yoxdur?

**İsa Şabanov:** Xeyr, hər şey qaydasındadır.

**Prezident İlham Əliyev:** Sən harada yaralanmısan?

**Ehtiyatda olan polkovnik-leytenant Ehtiram Məmmədov:** Cənab Ali Baş Komandan, iki dəfə yaralanmışam. Bir dəfə Füzulidə Alxanlıda, bir dəfə isə Daşaltıda.

**Prezident İlham Əliyev:** Daşaltı əməliyyatında da iştirak etmisən?

**Ehtiram Məmmədov:** Bəli.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

# İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olub







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olub.

Dövlətimizin başçısının Sərəncamı ilə təsdiq edilmiş işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Zəfər yolunun tikintisi başa çatmaq üzrədir. İki-üç hərəkət zolaqlı yolun uzunluğu 101 kilometrdir. Artıq yolun 92 kilometrlik hissəsinə asfalt-beton örtüyü salınıb. Digər hissələrdə isə işlər davam etdirilir. Yolda körpülər və yeraltı keçidlər inşa edilib.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun ölkəmizin mədəniyyət mərkəzi elan olunan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdikləri cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu dövlətimizin başçısı tərəfindən Zəfər yolu adlandırılıb.

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Molla Pənah Vaqifin Şuşada büstünün açılışında iştirak ediblər









Avqustun 29-da Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Məlumat verildi ki, Molla Pənah Vaqifin 1957-ci ildə tuncdan hazırlanan büstü 1958-ci ildə Cıdır düzünə yaxın ərazidə qəbirüstü abidə kimi yerləşdirilib, daha sonra 1976-cı ildə şairin Şuşadakı evinin yaxınlığına köçürülüb. 1982-ci ildə Vaqifin məqbərəsinin açılışından əvvəl büst və onun ətrafı təmir edilib, abidənin postamenti dəyişdirilib. Büst 1992-ci ildə Şuşa şəhərinin işğalı zamanı erməni vandalizminə məruz qalaraq dağıdılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə əsasən, abidə bu il onun müəllifi, Əməkdar incəsənət xadimi Həyat Abdullayevanın ilkin eskiz layihəsi əsasında yenidən qurulub.

Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan büst öz əvvəlki yerinə qaytarılaraq Molla Pənah Vaqifin Şuşadakı evinin yaxınlığında quraşdırılıb.

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər

Avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak ediblər.

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.




## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli mərasim iştirakçıları.

Xahiş edirəm ki, ilk növbədə, Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışını qeyd edirik. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Vaqifin məqbərəsi bütün digər tarixi abidələrimiz kimi işğal edilmiş torpaqlarda erməni vandalizminə məruz qalmışdır. Bu gün isə məqbərə tam bərpa edilib və dünən məqbərənin ikinci açılışı olmuşdur.

Bildiyiniz kimi, Molla Pənah Vaqifin məqbərəsinin Şuşada ucaldılması qərarını ulu öndər Heydər Əliyev vermişdir. Onun təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də burada qarlı, şaxtalı havada bu məqbərənin açılışı olmuşdur. Bu, sıradan olan hadisə deyildi. Çünki o vaxt Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi. Bildiyiniz kimi, uzun illər ermənilər Şuşaya iddia edirdilər, Şuşanı erməni şəhəri kimi qələmə verməyə çalışırdılar. Halbuki, bunun üçün heç bir tarixi, mədəni əsas yox idi. Onu da nəzərə almalıyıq ki, Molla Pənah Vaqif təkcə şair yox, eyni zamanda, Qarabağ xanının vəziri idi. Sovet dövründə sovet ideologiyası, sovet hökumətinin tarixlə bağlı yanaşması belə idi ki, xanlıqlar tarixin qara ləkəsi kimi qələmə verilirdi. Bütün bunlara baxmayaraq, Ulu Öndərin iradəsi və qətiyyəti nəticəsində bu məqbərə ucaldılmışdır və bir daha Şuşanın Azərbaycan şəhəri kimi təsdiqi öz yerini tapmışdır.

Əfsuslar olsun ki, Şuşa işğala məruz qalandan sonra bütün tarixi abidələr, mədəni abidələr, o cümlədən Vaqifin məqbərəsi vandallar tərəfindən



Ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə **Vaqif Poeziya Günlərinin açılışını qeyd edirik.**

**BU MÜNASİBƏTLƏ BÜTÜN AZƏRBAYCAN XALQINI ÜRƏKDƏN TƏBRİK EDİRƏM.**

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz



var. Şuşa Qarabağın tacıdır. Şuşanın işğalından sonra digər rayonlar, digər şəhərlər işğala məruz qaldı. Çünki Şuşanın strateji əhəmiyyəti, əlbəttə ki, bizim üçün itirilmiş oldu və düşmən bundan istifadə edərək, ondan bir neçə gün sonra – 1992-ci ilin mayında Laçını da işğal etdi. Ondan bir il sonra – 1993-cü ilin aprelində Kəlbəcəri işğal etdi və beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ilə Ermənistan arasında coğrafi bağlantı yaradıldı. Bizim məğlubiyyətimizin qaçılmaz olması göz qabağında idi, nəzərə alsaq ki, o vaxt Azərbaycanda hərc-mərclik dövrü idi, nizami ordu yox idi, vətəndaş qarşıdurması baş vermişdi.

Şuşanın itirilməsi digər rayonların itirilməsinə təkan vermişdi. Ancaq biz Azərbaycan xalqı olaraq heç vaxt bu işğalla barışmaq fikrində deyildik. İşğal dövründə mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, dağıdılmışdır. Şuşanın işğalı xalqımızın böyük faciəsi idi. Çünki Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası işğal edilmiş bütün torpaqları, o cümlədən Şuşanı nəyin bahasına olursa-olsun işğalçılardan azad edəcəyik.





# VAXTİLƏ ULU ÖNDƏR TƏRƏFİNDƏN UCALDILMIŞ,

Şuşanın Azərbaycan şəhəri olmasını bir daha təsdiqləyən və işğal edilmiş torpaqlarda digər tarixi abidələrimiz kimi erməni vandalizminə məruz qalan **Vaqifin məqbərəsi tam bərpa edilib və yenidən açılıb.**

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz








Bildiyiniz kimi, danışıqlar prosesi 30 ilə yaxın davam etdi, bunun heç bir nəticəsi olmadı. İndiki hadisələrin gedişatı, İkinci Qarabağ müharibəsindəki dövr və beynəlxalq güclərin hərəkətləri onu göstərir ki, bu məsələ heç vaxt danışıqlar yolu ilə öz həllini tapa bilməzdi. Çünki bizi, azərbaycanlıları bu vəziyyətlə barışdırmaq istəyirdilər. Bu vəziyyəti, yəni, dondurulmuş münaqişəni alternativsiz bir variant kimi təqdim etməyə çalışırdılar. Bizim isə tam başqa fikrimiz var idi və mən bunu heç vaxt gizlətmirdim. Deyirdim ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, biz öz ərazi bütövlüyümüzü müharibə yolu ilə bərpa edəcəyik. Beynəlxalq hüququn bütün norma və prinsipləri bu haqqı bizə tanıyır. BMT-nin Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri, tarixi ədalət bu haqqı bizə verib. Biz buna nail olduq.

Şuşa Azərbaycan şəhəridir. Şuşanın təməlini, – hamımız yaxşı bilirik, – 1752-ci ildə Pənahəli xan qoymuşdur və gələn il biz Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik.

44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni

öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik. Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır. Müharibədən sonra mən ilk dəfə Şuşaya bu il yanvarın 14-də gəlmişdim. Bu tarix də təsadüfən seçilmədi. Çünki o tarixdən 39 il əvvəl burada Ulu Öndərin iştirakı ilə Vaqifin məqbərəsi açılmışdı və məhz yanvarın 14-də mənim buraya gəlməyimin çox böyük rəmzi mənası var idi. Buraya ilk səfərimdə ilk göstərişlərdən biri də o oldu ki, Vaqifin məqbərəsi bərpa edilsin, çünki vandallar bu məqbərəni dağıtmışdılar, sökmüşdülər. Vaqifin içəridəki barelyefini, sinə daşını sökmüşdülər. Yəni, onlara xas olan vandalizm törətmişdilər, necə ki, azad edilmiş bütün başqa torpaqlarda biz bunun şahidiyik. Məqbərənin bərpasını Heydər Əliyev Fondu öz üzərinə götürdü və bu gün biz bu məqbərənin önündə Vaqif Poeziya Günlərinə start veririk. Vaqif Poeziya Günləri də bərpa edildi, "Xarıbülbül" festivalı da bərpa edildi. Bu ilin may ayında biz çox böyük coşqu ilə bu festivalı keçirdik və bu tarixi bərpa etdik.






İlk səfərim çərçivəsində Şuşanın bərpası ilə bağlı bütün lazımi göstərişlər verildi və yanvar ayından bu günə qədər - 7 ay ərzində artıq çox böyük işlər görülüb. Şuşaya ikinci-üçüncü dəfə gələnlər bunu görürlər. Bəli, şəhər hələ ki, dağılmış vəziyyətdədir. Çünki ermənilər nə qədər çalışalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb.

Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni, Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi artıq bərpa edildi. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü bərpa edildi, dünən onun ikinci açılışı olmuşdur. Üç məsciddə təmir-bərpa işləri gedir. Yuxarı Gövhərağa məscidinin təmiri demək olar ki, bitmək üzrədir. Saatlı və Aşağı Gövhərağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verildi. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. Natəvan bulağı bərpa edildi, indi su gəlir. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular. Əgər bu, erməni şəhəri idisə, nə üçün



## 40 İL ƏVVƏL VAQİFİN MƏQBƏRƏSİNİN AÇILIŞINDA ATAMLA BƏRABƏR ŞUŞAYA GƏLMİŞDİM.

İndi isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bu, təsadüf deyil, böyük rəmzi mənası var, tarix təkrarlanır. **Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı.**

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

siz bu bulaqları qurudursunuz? Ondan sonra "Xarıbülbül" oteli istifadəyə verildi, artıq may-iyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı.

Ermənilər tərəfindən gülləbaran edilmiş dahi şəxsiyyətlərimizin – Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mənim tərəfimdən mərkəzi meydanda qoyuldu. Dünən Şuşanın dirçəlişinin növbəti mərhələsi idi. Qeyd etdiyim kimi, Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, onu da mənfur düşmən dağıtmışdı. Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpası ilə bağlı göstəriş verildi. Dünən Polad Bülbüloğlu ilə və onun oğlu, Bülbülün nəvəsi ilə birlikdə Bülbülün evinin açılışını biz qeyd etdik. Polad atasının evini bərpa etdi, indi çox gözəl muzey yaradılmışdır. Dünən "Qarabağ" hoteli əsaslı təmirdən sonra öz qapılarını yenidən qonaqların üzünə açdı. İşğal dövründə "Qarabağ" hoteli nə gündə idi, onu biz işğaldan sonra görmüşdük. Cəmi iki mərtəbəsi işləyirdi, nə su var idi, nə işıq var idi. Bərbad vəziyyətdə idi, dağılmış vəziyyətdə idi. O kadrlar var. O da bərpa edildi və hesab edirəm ki, bu tədbirlərin içində ən önəmlisi yeni yaşayış kompleksinin təməl daşının qoyulmasıdır.

Yeni otel beşulduzlu olacaq. Orada 150 otaq olacaq. Hazırda Şuşada "Qarabağ" və "Xarıbülbül" otellərində 150 otaq mövcuddur, 300 otaq, böyük konfrans zalı və tədbirlər üçün yerlər olacaqdır. Beşulduzlu otelin yeri də mənim tərəfimdən seçildi. Mənfur düşmən həmin yerdə dırnaqarası "Dağlıq Qarabağ respublikası"nın qondarma parlamenti üçün bina inşa edirdi. O da bizə sataşmaq idi. "Dağlıq Qarabağ respublikası" anlayışı yoxdur. Artıq o binanın bünövrəsi qoyulmuşdu və daş işləri artıq tamamlanmışdı. Mənim göstərişimlə bu şeytan yuvası darmadağın edildi.







Beşulduzlu otel gözəl yerdə inşa ediləcək. Ən önəmli tədbir dünən yeni yaşayış kompleksinin təməl daşının qoyulması idi. Bu yaşayış kompleksi Şuşanın baş planı əsasında inşa ediləcək. Şuşanın baş planı təsdiq edildi və çox müfəssəl, gözəl işlənmiş plandır. Birinci mərhələdə orada 25 yaşayış binasının inşası nəzərdə tutulur – üç, dörd və beşmərtəbəli yaşayış binaları ki, vətəndaşlar artıq Şuşaya qayıtmağa başlasınlar.








Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq.

İşğal dövründə bir çoxlarımız - həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də o cümlədən belə fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq.

Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik.

Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik.








***

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı **Anar Rzayev** çıxış edərək:

– Hörmətli cənab Prezident.

Hörmətli Mehriban xanım.

Hörmətli tədbir iştirakçıları.

Unudulmaz Ulu Öndərin ucaltdığı və vandalların uçurduğu bu Vaqif məqbərəsi bu gün əvvəlki əzəməti ilə dirçəlib. Buna, Vaqif Poeziya Günlərinin bərpasına, cənab Prezident və Mehriban xanım, şəxsən bu tədbirdə iştirak etdiyinizə görə mən bütün Azərbaycan yazıçıları adından Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Mən ilk dəfə Şuşaya 1952-ci ildə gəlmişəm. O zaman mənim 14 yaşım var idi. Şəhərdə bircə abidə var idi – Sovet İttifaqı Qəhrəmanı Nelson Stepanyanın abidəsi. İndi bədnam adı tarixdə qalmış bu vilayətin erməni başçıları bu qədim Azərbaycan şəhərini erməni şəhərinə çevirmək istəyirdilər. Burada Azərbaycan abidələri yox idi. Qədimdən var idi, amma yenilər yox idi. Ulu Öndərin vaxtında burada muzeylər açıldı – Üzeyir Hacıbəylinin, Bülbülün muzeyləri, Natəvanın, Üzeyir bəyin, Bülbülün heykəlləri qoyuldu. Nəhayət, bu əzəmətli məqbərənin əsası qoyuldu və bu məqbərə açıldı. 1982-ci il yanvarın 14-də həmin o tədbirdə mən də iştirak edirdim.

Vaqif Azərbaycan poeziyasında nadir yeri olan şairdir. O, bizim xalq şerini, qoşmaları, gəraylıları, heca vəznində yazılan şeirləri əruz vəznində yazılan dram ədəbiyyatı ilə birləşdirən, vəhdətdə təqdim edən, Azərbaycan ədəbiyyatında yeni bir səhifə açan şair idi. Onun dostu Vidadi bədbin şeirlər yazırdısa, bədbinliyi təbliğ edirdisə, Vaqif “Toy-bayramdır bu dünyanın əzabı” deyirdi. Amma keşməkeşli həyatının axırıncı illərində, faciəvi illərində o da “Mən cahan mülkündə, mütləq, doğru halət görmədim, hər nə gördüm əyri gördüm, özgə babət görmədim” deyirdi.

Bu gün mənim ürəyim doludur, çox şey deyə bilərəm, amma dedilər ki, qısa danışmaq lazımdır, ona görə də mən qısa danışacağam. Mən 2010-cu ildə bir mərasimdə çıxış edəndə, – cənab Prezident də iştirak edirdi orada, – dedim ki, mənim 72 yaşım



**İşğal dövründə bir çoxlarımız fikirləşirdik ki, dünyada ədalət yoxdur.** Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə dözümlü, səbirli olmaq, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq, hədəfə doğru getmək, ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır.

**BU GÜN ƏDALƏT BƏRPA EDİLDİ, BİZ BU GÜN ŞUŞADAYIQ VƏ BUNDAN SONRA DA ŞUŞADA ƏBƏDİ OLACAĞIQ.**

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev · presidentaz
azpresident · presidentaz

var, amma söz verirəm ki, Sizinlə bir yerdə Şuşaya gedəcəyik və bu, baş verdi. Mən Allaha təşəkkür edirəm, taleyimə minnətdaram və Sizə minnətdaram. Sizə minnətdaram ki, o sözü desəm də, bir də Şuşanı görəcəyimə inanmırdım, amma bu gün mən burdayamsa, Sizə minnətdaram, bizim müzəffər Ordumuza minnətdaram. Siz bu Qələbəni Ordu ilə bir yerdə qazandınız. Amma diplomatik qələbəni, təbliğat qələbəsini Siz təkbaşına qazandınız. Çünki Sizin 4 dildə onlarla çıxışlarınız yeni Azərbaycanı tanıtdı,

Azərbaycan həqiqətlərini çatdırdı. Bu da çox böyük bir hadisə idi. Siz bizə, Azərbaycan xalqına onun milli qürurunu qaytardınız. Bizim hamının qarşısında alnımız açıq, başımız dikdir ki, öz torpaqlarımızı qaytardıq. Bu torpaqlar bizə əzizdir. Amma indi şəhidlərin, qazilərin qanı, şəhid ailələrinin göz yaşları, Mehriban xanımın şəhid ailələri ilə görüşlərində axıtdığı göz yaşları ilə suvarılmış bu torpaqlar bizə ikiqat əzizdir, ikiqat doğmadır.

Şuşa Azərbaycandır! Qarabağ Azərbaycandır! Azərbaycan əbədidir! Biz buraya Zəfər yolu ilə gəldik. Bu yolun əvvəli var, amma sonu yoxdur. Bu yol uzandıqca uzanacaq. Bu Zəfər yolu Azərbaycanın hərbi gücünün yoludur, siyasi gücünün yoludur, iqtisadi gücünün yoludur və möhtəşəm Azərbaycan mədəniyyətinin, Azərbaycan ədəbiyyatının Zəfər yoludur!

Təşəkkür edirəm.

***

Xalq şairi **Nəriman Həsənzadə** çıxış edərək dedi:

– Cənab Prezident.

Hörmətli Mehriban xanım.

Bir dəfə mən demişdim ki, cənab Prezident Siz mənim gözümün qabağında böyümüşünüz. Özünüz də dediniz, Siz burada idiniz, 20 yaşınız var idi, cənab Prezident. İndi burada cismani olaraq bircə Heydər Əliyev yoxdur, bir də Zərifə xanım yoxdur. Hamısı buradadır. Abidə də buradadır. Hamımız buradayıq. Özü də Siz gətirmisiniz. “Qarabağ Azərbaycandır, Qarabağnaməm İlhamdır”. Siz bizim ilham mənbəyimizsiniz.

Cənab Ali Baş Komandan, halaldı Sizə,
Millət, Vətən qarşısında oğul haqqınız.
44 günü Siz yazdınız tariximizə,
Günəş kimi dünyaya da doğacaqsınız.
“Xarıbülbül” festivalı bir möcüzə idi,
Yerlər, göylər ovsunlanıb dedim Şuşada.
Burada dağlar hamilə idi, dünya təzə idi,
Paytaxt Şuşa doğulurdu qədim Şuşada.
“Əziz Şuşa, sən azadsan”, bu, öz səsindi,
Vurğusu da, nidası da yadda qalırdı.
Festivalda işğalçının məhkəməsiydi
Dağlar hakim kürsüsündə mərd dayanırdı.
Mən Şuşada kimi gördüm, qürurlu gördüm,
Can da dedim Tanrı duası ilə.
Üzeyiri, Natəvanı, Bülbülü gördüm,
Sinəsində namərdlərin güllə yarası.
Yadımdadır, Ulu Öndər Şuşa deyib nitq söyləyirdi.
Vətən, ana həsrətidir Şuşa həsrəti.
Xoşbəxtəm ki, İlham özü belə deyirdi,
Mən yerinə yetirmişəm bu vəsiyyəti.
Cənab Ali Baş Komandan, halaldı Sizə,
Vətən, millət qarşısında oğul haqqınız.
44 günü Siz yazdınız tariximizə,
Günəş kimi dünyaya da doğacaqsınız.

Cənab Prezident, mən onda olduğu kimi bir sirri də deyəcəyəm. Gedib evdə deyəcəyəm ki, lap mənim yanımda oturmuşdular, Prezident də danışanda mənə baxırdı. Siz bizi müalicə edirsiniz, dirildirsiniz, həyat bağışlayırsınız. Mən şadam, çox şadam, Allah Sizin başınızı uca eləsin. Allah Sizə dəyməsin. Bax, burada hamı İlham deyir. Yolda söhbət edirdik, Nizami Cəfərova deyirdim ki, ay Nizami, Heydər Əliyev nəinki tədbirlər keçirirdi, nəinki abidələr ucaldırdı. Dədə Qorquddan üzü bəri həm də ədəbiyyat yaradıcısı idi Heydər Əliyev. Ədəbiyyatımızı yaradırdı.

Cənab Prezident, Siz yanımızdasınız, biz həmişə Sizin yanınızdayıq. Başınız uca olsun. Qızım, Sizin də başınız uca olsun. Alla Sizi saxlasın. Çox şadam, 90 yaşımda gəncləşirəm.

***

Azərbaycan Yazıçılar Birliyinin katibi, şair-yazıçı **İlqar Fəhmi** çıxış edərək dedi:

– Mən də deyilən bütün gözəl sözlərə qoşuluram, dövlətimizin başçısına, Mehriban xanıma bizə dəstək olduqlarına görə təşəkkür edirəm. Mən də şeir oxumalıydım, amma Nəriman müəllim elə bir gözəl ab-hava yaratdı ki, Vaqifin bir şeiri düşdü yadıma. Deyir:

“Məkan tutdisə Vaqif, yox əcəb, bu Şişə dağında,
Məqami ləli-gülrəngin miyani-səngi-xaradır”.

Vaqif deyir bu Şuşa dağında məskən tutdusa, burada qeyri-adi heç nə yoxdur. Çünki ən qiymətli, gözəl incilərin, gözəl daşların məqamı hara olur? Dağların, daşların arası olur. Bu gün bizim bu Şuşa şəhərimiz də sanki Vaqiflə bərabər həmin o dağların, daşların qoynunda məkan tutan Azərbaycanın ən qiymətli, ən gözəl bir incisidir və bu incini bizə qaytardığına görə həm Ali Baş Komandanımıza, həm müzəffər Ordumuza bütün yazarlar adından təşəkkür edirəm və bu şeiri oxumaq istəyirəm.

Bir Şuşa var, 30 ildir xəyallarda dolaşdı,
Bir Şuşa var, bu gün gəlib varlığına qovuşdu.
Bir Şuşa var, hər ağacı, hər daşı da tarixdi,
Bir Şuşa var, sevinci də, göz yaşı da tarixdi.
O Şuşa ki, illər boyu ayrı qaldı anasından,
Xarıbülbül qərib düşdü doğma, isti yuvasından.
O Şuşa ki, illər boyu məhbus idi, əsir idi,
Başı üstə qara duman, ayağında zəncir idi.
Nəhayət ki, cuşa gəldi igidləri, ərənləri,
Son bir dəli həmlə ilə titrətdilər göyü, yeri.
Dağı, daşı silkələdi mərmi səsi, atəş səsi,
Namərd düşmən bu torpaqda axır verdi son nəfəsi.
Bu gün artıq “zəfər” sözü Şuşa adı ilə qoşadır.
İndi hər gün bir qələbə, indi hər yer Şuşadır.
Çox sağ olun.

***

Xalq yazıçısı **Elçin Əfəndiyev** çıxış edərək dedi:

– Çox hörmətli cənab Prezident. Çox hörmətli Mehriban xanım. Bu, mənim azad Şuşaya ilk səfərimdir




# ŞUŞA AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN OCAĞIDIR.

Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

və bunu mən öz şəxsi həyatımda tarixi bir hadisə hesab edirəm. Buradakı bu qısa çıxışın öz arxivimdə də qalmasından ötrü onu yazmışam.

Möhtərəm cənab Prezident. Çox hörmətli Mehriban xanım.

Mən bu qısa çıxışımı etirafla başlamaq istəyirəm. Mən bilirdim ki, Şuşa haçansa mütləq azad olunacaq. Çünki başqa cür mümkün deyildi. Ancaq mən özümün həmin gözəl günü görəcəyimə inanmırdım. Nə üçün inanmırdım? Çünki dünyanı ikili siyasi standartlar idarə edir və Siz, çox hörmətli cənab Prezident, bu güclü və qolu zorlu ikili standartlar dünyasında ortaya son dərəcə cəsarətli və cəsarətli olduğu qədər də qətiyyətli, prinsipial iradə qoydunuz. Qəsbkar Şuşadan

qovuldu və Şuşa azad oldu. Ancaq yalnız qəsbkar deyil, bu ikili standartlar da məğlub oldu.

Mən tam əminəm, Şuşa bundan sonra daha da gözəlləşəcək, inkişaf edəcək, Şuşa daha artıq eşqlə böyük sənətkarlar, böyük vətəndaşlar yetişdirəcək. Cənab Prezident, Azərbaycanın gələcək tarix kitablarında, salnamələrdə Sizin adınız həmişə azad Şuşa ilə, azad Qarabağ ilə yanaşı yazılacaq.

Əziz dostlar, mənim təsəvvürümdə Şuşa canlı bir orqanizmdir. Biz 30 il Şuşa ağrısı ilə yaşadıq. Ancaq bu 30 ildə Şuşanın özü də həsrət və ağrı içərisində idi. Bu canlı orqanizm doğma xalqının yolunu gözləyirdi. Nəhayət ki, Şuşa bu həsrət əsarətindən, bu ağrıdan xilas oldu. 44 günlük azadlıq savaşında Ali Baş Komandan da, generallar da, zabitlər də sıravi Azərbaycan əsgəri idilər. Ali Baş Komandan həm də bu 44 gündə Azərbaycan xalqının ədalətin və prinsipiallığın tribunu idi. Bu tribunun səsi dünyaya da yayılırdı, hər bir azərbaycanlının ürəyinə də yayılırdı. Bu gün bizim hamımız, bütün Azərbaycan xalqının sevinci, fərəh hissi və qüruru, eyni zamanda, Şuşanın özünün də sevincidir, Şuşanın da qürurudur.

Əziz dostlar, mən 40 il bundan əvvəl də burada keçirilən bu unudulmaz Vaqif poeziya bayramının iştirakçısı olmuşam. Bu gün mənim içimdəki Zəfər sevinci, fərəh və qürur hissi ilə bərabər, güclü bir təəssüf də var. Mən olduqca çox təəssüf edirəm ki, ulu öndər Heydər Əliyev bu günü görmədi, bütün varlığı ilə Şuşa sevincini yaşamadı. Ürəyi Şuşa ağrısı ilə sızlayan bir çox yazıçı və şairlər də, bir çox qarabağlı insanlar, o cümlədən İlyas Əfəndiyev də bu sevinci yaşaya bilmədilər. Ancaq mən sözümü ikinci bir etirafla bitirmək istəyirəm. 44 günlük Zəfər real sevinci, real fərəhi, real qüruru ilə bərabər, mənim içimdə mistik bir reallıq da yaradıb. Mən inanıram, qətiyyən şübhə etmirəm ki, Ulu Öndər də, bu gün burada yeri görünən o yazıçı və şairlər də elə bu dəm yuxarıdan bizə baxırlar və hər şeyi görürlər. Şuşa sevinci, Qarabağ sevinci o ali məqamda onlarla bir yerdədir. Qarabağ Azərbaycandır!

Əziz dostlar, bu sözləri oxuya-oxuya bir söz də yadıma düşdü və onu demədən düşmək istəmirəm: "Nə oldu Paşinyan?".

***

Azərbaycan Yazıçılar Birliyinin üzvü şairə **Günel Şamilqızı** "Müjdə" şeirini oxudu.

Düz 44 gün xəbər hazırladıq,
sənin atdığın hər addımdan,
Ekranlara dikilən gözlərə sevinc payladıq,
kənd-kənd, siyahı-siyahı.
Düz 44 gün çəkdiyin hər tətik ümid verdi bizə,
Düz 44 gün yumruğun hər havaya
qalxanda bir az da dikəldi belimiz.
İndi biz də görüşünə gəlmişik, qardaş,
kiçik bir müjdə kimi,
Cisminin uyuduğu yox,
ruhunun qovuşduğu ucalığı ziyarətə gəlmişik.
Sinəmizə çəkilən dağdan yol alıb,
Cırmaq-cırmaq qalxdığın dağları
görməyə gəlmişik, qardaş.
Bizim üçün onda asan idi yazmaq
"Düşmənin xeyli sayda canlı qüvvəsi məhv edildi".
Sənin üçün barıt, qan son nəfəs qoxuyurdu,
Azad torpaqlarda ciyərinə çəkdiyin vətən havası.
Bizim üçün onda asan idi yazmaq
"Xudafərində bayrağımız dalğalanır",
Sənin əllərin əsirdi burada döyüş
yoldaşının üzünü bayraqla örtəndə.
Bu xəbərin yuxusu qan rəngində idi,
qan qovuşuqdu, qardaş,
Bu xəbərin dünəninə qərənfil səpmişdik,
sabahında xarıbülbül pöhrələnəcək.
Dünya durduqca köhnəlməyəcək sevinci,
Dünya durduqca bu xalq üçün bu xəbər
hər zaman yeni olacaq, diri olacaq.
Sən yaralarımıza pıçıldamışdın,
biz gələcəyi müjdələyirik,
Bir də, bir də, bir də
"Şuşa işğaldan azad olundu".

***

Azərbaycan Yazıçılar Birliyinin üzvü şair **Şəhriyar Del Gerani** şəhidlərə və Şuşaya həsr etdiyi şeirini oxudu:

Əlimi qoy ürəyinin üstünə,
O uzağın bir adı da Vətəndir.
Atasının qəbrinə məktub yazan,
O uşağın bir adı da Vətəndir.
Ömür elə başdan-başa yarışdı,
Oğulların səngər-səngər vuruşdu.
Bu torpağa qəhrəmanlar qarışdı,
Qarışığın bir adı da Vətəndir.
Yel qayadan nə aparar aparsın,
Bu fanidən əbədiyyət apar sən.
Cənnətə də bir parça od aparsan,
Bu ocağın bir adı da Vətəndir.
Vətən adlı eşqin özü Şuşadır,
Şeir üzlüm nağılların yaşıdı.
Əlini qoy ürəyinin üstünə,
Daha adın azadlıqla qoşadır.
Bu gün, sabah, əbədi!

***

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" və "Yenidən doğma diyarda: Qarabağın sənət inciləri" sərgiləri ilə tanış olublar.

## 27 SENTYABR
## AZƏRBAYCANDA ANIM GÜNÜ

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım günü kimi qeyd edilir.






# Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Anım Günü ilə əlaqədar xalqa müraciət edib



Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciət edib.

## Prezident İlham Əliyevin müraciəti

– Əziz həmvətənlər.

Düz bir il bundan əvvəl Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Bu namərd atəş nəticəsində ilk saatlarda mülki şəxslər, hərbçilər həlak olmuşdur. Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam Qələbə qazanmışdır. Keçən il dekabrın 2-də mənim Sərəncamımla sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi təsis edilmişdir. İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq. Eyni zamanda, bu gün Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyulacaq. Bu da keçən ilin dekabrında mənim Sərəncamımla həll olunan məsələdir. Bakıda, şəhərimizin ən gözəl yerlərinin birində İkinci Qarabağ müharibəsinin qəhrəmanlarının şərəfinə möhtəşəm abidə ucaldılacaqdır. Onu da bildirməliyəm ki, bu gün saat 12-də bütün ölkə üzrə bir dəqiqəlik sükut elan ediləcəkdir.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli



**QƏHRƏMAN ŞƏHİDLƏRİMİZİN ƏZİZ XATİRƏSİ QARŞISINDA BAŞ ƏYİR, ONLARA ALLAHDAN RƏHMƏT DİLƏYİRİK. BİZ ŞƏHİDLƏRİMİZİ ÖZ QƏLBİMİZDƏ ƏBƏDİ SAXLAYACAĞIQ.**

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz

ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq.

Ermənistan döyüş meydanında məğlub olarkən yenə də ən çirkin əməllərə əl atdı, mülki şəxslərə qarşı hərbi təxribat törətdi. Yüzdən çox mülki şəxs erməni faşizminin qurbanı oldu. Bizim şəhər və kəndlərimiz müntəzəm olaraq daim atəş altında idi. Ermənistan qadağan olunmuş silahlardan istifadə edirdi, ağ fosforlu bombalardan istifadə edirdi, ballistik raketlərdən istifadə edirdi. Ancaq heç nə bizi dayandıra bilməzdi. Azərbaycan xalqı əzm, iradə, cəsarət göstərərək bütün bu təxribatlara sinə gərdi. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, heç kim və heç nə bizi dayandırmayacaq. Biz ədalət savaşına çıxmışıq. Biz ləyaqət savaşına çıxmışıq. Biz milli qürur savaşına çıxmışıq. Biz müqəddəs savaşa çıxmışıq.

Müharibə dövründə hamımız bir şüarla yaşayırdıq – öldü var, döndü yoxdur. Azərbaycan xalqı Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi. Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq mənfur düşmən, – baxmayaraq ki, onların əlində əlverişli mövqelər var idi, ərazinin relyefi onlara böyük üstünlük təşkil edirdi, baxmayaraq ki, 30 il ərzində 5-6 xətdən ibarət müdafiə istehkamları qurulmuşdu, – geri getməyə məcbur olmuşdur. 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də olsun fərari olmamışdır. Ancaq Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur. Biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik. Onların qəhrəmanlığı, onların fədakarlığı heç vaxt unudulmayacaq. Biz bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı bu ədalətsizliklə heç vaxt barışmaq fikrində deyildi.

44 günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi. Biz Qələbəni döyüş meydanında qazandıq. 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Biz qan tökərək, şəhidlər verərək bu Qələbəni əldə etdik və düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın. Həmin düşmən ki, 30 il ərzində bizə meydan oxuyurdu, 30 il ərzində Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışırdı. Azğınlaşmış, harınlamış, quduzlaşmış, qudurmuş düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı.

Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanda “Dağlıq Qarabağ” adlı inzibati ərazi mövcud deyil və əgər kimsə “Dağlıq Qarabağ” adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində “Dağlıq Qarabağ” adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm – Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır.

44 gün ərzində bizə ən böyük dəstək verən qardaş Türkiyəyə bu gün - Anım Günündə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə və qardaş türk xalqı müharibənin ilk saatlarından Azərbaycanla həmrəy oldular, Azərbaycana öz dəstəyini göstərdilər. Türkiyə rəhbərliyi və əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən verilən açıqlamalar bizə çox böyük siyasi dəstək oldu, bizə əlavə güc verdi və biz bunu heç vaxt unutmayacağıq. 44 günlük Vətən müharibəsi bütün dünyaya Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi.

Bütün digər ölkələr ki, bizə siyasi dəstək göstərdilər, biz onlara da minnətdarıq. Bilirəm ki, xarici ölkələrdə yaşayan milyonlarla azərbaycanlının da ürəyi tarixi Vətəni ilə bir döyünürdü, onlar hər gün gedən döyüşləri izləyirdilər, bizim uğurlarımıza sevinirdilər. Onu da bildirməliyəm

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciəti



## QƏLƏBƏNİ BİZƏ BƏXŞ EDƏN QƏHRƏMAN ƏSGƏR VƏ ZABİTLƏRİMİZ BİZİM QÜRUR MƏNBƏYİMİZDİR.

Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz

ki, 44 gün ərzində və ondan sonra, hətta bu günə qədər mən minlərlə məktub alıram. Həm Azərbaycan vətəndaşlarından, həm dünya azərbaycanlılarından, həm də bizə dost olan müxtəlif ölkələrin vətəndaşlarından dəstək məktubları alıram, həmrəylik məktubları alıram. Müharibədən bir il keçməsinə baxmayaraq, artıq bütün beynəlxalq aləm bizim Qələbəmizlə razılaşıb, bunu qəbul edib. Bu gün bölgədə, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərində gündəliyi formalaşdıran tərəf də Azərbaycandır.

44 gün ərzində biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etmədik, təkcə düşməni torpağımızdan qovmadıq, təkcə milli ləyaqətimizi bərpa etmədik, biz erməni faşizminin başını əzdik. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan erməni vəhşiliyinin təzahürlərini öz gözləri ilə görür. Bizim bütün şəhərlərimiz yerlə-yeksan edilib, bütün tarixi abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən ya tam dağıdılıb, ya da təhqir olunub. 67 məsciddən 65-i tamamilə dağıdılıb, qalan yarıdağılmış məscidlərdə mənfur düşmən bizi təhqir etmək üçün, bütün dünya müsəlmanlarını təhqir etmək üçün heyvan saxlayırdı, inək, donuz saxlayırdı. Mən əminəm ki, dünya müsəlmanları buna adekvat reaksiya verəcəklər. Mən bir çox müsəlman ölkələrindən bu məsələ ilə bağlı məktublar alıram. Biz işğal dövründəki erməni vəhşiliyi ilə bağlı, erməni faşizmi ilə bağlı əməli işlər aparırıq, bütün dünyanı məlumatlandırırıq və məlumatlandıracağıq. Ona görə də bizim Qələbəmiz qeyd etdiyim kimi, erməni faşizmi üzərində əldə edilmiş Qələbədir.

Ermənistanda hakimiyyət dəyişikliyi olur və olubdur, ancaq düşmənin xisləti dəyişmir. Ermənistanda tüğyan edən azərbaycanofobiya, islamofobiya psixi xəstəlik dərəcəsinə çatmışdır. Azərbaycanlılara qarşı olan nifrət orada rəsmi ideologiya kimi bərqərar edilib. Əks təqdirdə, bu qədər vəhşilik törədilməzdi. Azad edilmiş torpaqlara hər gələn insan dəhşətə gəlir ki, bunu törədən insan deyil. Mən hətta deyə bilərəm ki, bunu törədən heyvan da deyil. Bunu törədən azğınlaşmış, quduzlaşmış, azərbaycanofob kütlədir, qəbilədir. Buna başqa ad vermək olmaz və bütün dünya bunu görməlidir. Ermənistanın havadarları bunu görməlidirlər. Görmək istəməsələr də, görməlidirlər və görəcəklər, biz göstərəcəyik, bütün dünyaya göstərəcəyik ki, biz hansı bəlanın dərsini verdik, biz bölgəmizi hansı bəladan xilas etdik. 30 il ərzində bizim bütün tarixi abidələrimizi, milli sərvətlərimizi, təbii resurslarımızı talayan, dağıdan düşmənə dərs verilməli idi, yoxsa yox?! Buna baxmayaraq, müharibədən əvvəl mən dəfələrlə demişdim ki, əgər Ermənistan rəhbərliyi öz xoşu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə riayət edərək torpaqlarımızdan çıxarsa, müharibə təbii ki, istisna ediləcəkdir. Müharibə dövründə də mən bunu dəfələrlə demişəm. Demişəm ki, Ermənistan rəhbərliyi bizə tarix versin, hansı gündə hansı torpağımızdan çıxır və biz müharibəni dayandırmağa hazırıq. Ancaq bunu etmədilər. 44 gündən sonra - artıq Ermənistan ordusunun beli qırılandan, biz alınmaz qala sayılan Şuşanı və ardınca 70-dən çox kəndi işğalçılardan azad edəndən sonra düşmən məcbur qalıb təslim olub. Bu dərs əbədi dərsdir, bunu heç kim yaddan çıxarmasın!

Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!

Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib.

Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Anım Günü ilə bağlı paylaşım edib



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Anım Günü ilə bağlı paylaşım edib. Paylaşımda deyilir:

"Əziz bacılar və qardaşlar! Bu gün biz Vətən müharibəsi şəhidlərinin xatirəsini yad edirik. Şanlı Zəfər naminə həyatlarını qurban vermiş qəhrəmanlarımızı anırıq. Onlar əsl vətənpərvərlik və Vətənə sədaqət nümunəsi nümayiş etdirərək öz qorxmazlığı, cəsarəti, möhkəm iradəsi və ruh yüksəkliyi sayəsində işğalçını darmadağın edib, ölkəmizin ərazi bütövlüyünü bərpa ediblər. Adları əbədi olaraq Azərbaycan dövlətinin tarixinə həkk olunmuş bu cür igid oğullar böyüdüb tərbiyə etmiş valideynlərə təşəkkürümü bildirir, Uca Tanrıdan onlara səbir diləyirəm. Müharibə günlərində həlak olmuş günahsız vətəndaşlarımızın xatirəsini yad edirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Uca Tanrı hər zaman xalqımızı qorusun!".

# İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq keçirilən yürüşdə iştirak ediblər













Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də – Anım Günündə Bakı şəhərində yürüş təşkil edilib.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər.

Sonra dövlətimizin başçısı Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlini qoyub.

Yerli vaxtla saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Təməlqoyma mərasimindən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dənizkənarı bulvar ərazisinə gələrək qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla yad etdilər.

Xəzər dənizinin sahil sularında sıralanan hərbi gəmilərindən fasiləsiz fit səsi verildi, toplardan yaylım atəşi açıldı.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər.












27 SENTYABR
ANIM GÜNÜ

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



Sentyabrın 27-də – Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Dövlətimizin başçısı, birinci xanım Ulu Öndərin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıblar.





BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyev videoformatda çıxış edib.

**AZƏRBAYCAN XALQI ÖZ KÖKÜNƏ, TARİXİNƏ, DİLİNƏ VƏ ƏNƏNƏLƏRİNƏ OLDUQCA BAĞLI BİR XALQDIR.**

Azərbaycan multikulturalizmi bir həyat tərzi olaraq qoruyur və dəstəkləyir.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# İyulun 5-də Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyev ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Ədliyyə Akademiyasının rəhbəri Mühittin Özdemirin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Qonağı səmimi salamlayan Baş prokuror tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirərək, bu əlaqələrin Türk xalqının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri – kədərimiz, sevinci – sevincimiz" və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamları ilə ifadə edildiyini, hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət, həmçinin tarixi əhəmiyyətli Şuşa Bəyannaməsinin imzalanması nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulamışdır.

Kamran Əliyev qeyd edib ki, 2020-ci ilin sentyabrın 27-dən başlayan Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqı ölkəmizə öz siyasi və mənəvi dəstəklərini nümayiş etdirmişlər. Həmçinin, işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma və bərpa işlərində türk şirkətlərinin fəal iştirak etməsi iki ölkə arasında sıx bağların olmasının təzahürüdür.

Baş prokuror bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirərək hüquqi əməkdaşlıq, ekstradisiya, prokurorların təlimi və digər əhəmiyyətli sahələrdə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə etmişdir.

Qonaqlara həmçinin, Azərbaycan Respublikasının Baş Prokuroru yanında Elmi-Məsləhət Şurasının yaradılması, onun fəaliyyət istiqamətləri, tərkibi, eləcə də Şuranın nəzdində prokurorluq, digər hüquqmühafizə orqanları əməkdaşları, dövlət qulluqçuları, özəl sektorda çalışan şəxslər, tələbələr üçün korrupsiyaya qarşı mübarizə, etik dilemmalar, onların həlli yolları, düzgün davranış və s. məsələlərlə bağlı tədris və peşə hazırlığının həyata keçirilməsi məqsədilə Anti-korrupsiya Təlim Mərkəzinin təsis edilməsi barədə məlumat verilmişdir.







Səmimi qəbula görə öz təşəkkürünü bildirən Mühittin Özdemir ölkəmizi və xalqımızı qazanılmış qələbə münasibətilə təbrik etmiş, Vətən uğrunda canlarından keçmiş şəhidlərə rəhmət diləmişdir.

Mühittin Özdemir təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirmişdir.

Görüş çərçivəsində ölkələrimiz arasında beynəlxalq hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Türkiyə Ədliyyə Akademiyası arasında "Hüquq sahəsində tədris və tədqiqat fəaliyyəti ilə prokuror və prokuror vəzifəsinə namizədlərin təliminə yönəlmiş əməkdaşlıq haqqında" anlaşma memorandumu imzalanmışdır. Memorandumun məqsədi Tərəflər arasındakı əməkdaşlıq formalarını müəyyənləşdirmək, hüquq sahəsində tədris prosesini və elmi tədqiqatları inkişaf etdirmək, prokurorluq işçilərinin və prokurorluğa qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlərin (prokurorların və prokuror vəzifəsinə namizədlərin) ixtisas səviyyələrini artırmaq üçün təlim fəaliyyətinin planlaşdırılması, təşkili və həyata keçirilməsi ilə bağlı niyyətin bəyan edilməsidir.

Anlaşma memorandumunun imzalanmasından sonra nümayəndə heyəti Baş Prokurorluğun Tarix





muzeyi ilə tanış olmuşlar. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar, eyni zamanda, ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar qonaqlarda zəngin təəssürat oyatmışdır.

Daha sonra qonaqlar Baş Prokurorluğun yeni istifadəyə verilmiş, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş inzibati binasında yaradılmış şəraitlə tanış olaraq, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin fəaliyyəti ilə yaxından maraqlanmış, həmçinin yeni inzibati binada yaradılmış 44 günlük Vətən müharibəsinə həsr olunmuş muzeyi də ziyarət etmişlər.

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Sankt-Peterburq şəhərinə səfər edib



İyulun 7-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasının Baş Prokurorluğu, Avropa Şurası və Beynəlxalq Prokurorlar Assosiyasiyasının birgə təşkilatçılığı ilə 7-8 iyul tarixlərində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində "Avropa İnsan Hüquqları Konvensiyasının tələbləri kontekstində fərdi hüquqlar və ictimai maraqların qorunmasında prokurorluğun rolu" mövzusunda keçirilmiş konfransda iştirak etmişdir.

Konfrans çərçivəsində Baş prokuror Kamran Əliyev bir sıra xarici dövlətlərin baş prokurorları və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri ilə ikitərəfli və çoxtərəfli görüşlər keçirmişdir.

# Azərbaycan, Rusiya, İran, Türkmənistan və Qazaxıstan baş prokurorları tərəfindən Xəzər dənizində ətraf mühitin mühafizəsi və təbii resurslardan istifadə sahəsində əməkdaşlıq haqqında bəyannamə imzalanıb



İyulun 7-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasının Baş Prokurorluğu, Avropa Şurası və Beynəlxalq Prokurorlar Assosiyasiyasının birgə təşkilatçılığı ilə Avropa prokurorluq orqanları rəhbərlərinin konfransında iştirak etmişdir.

Konfransı açıq elan edən Rusiyanın Baş prokuroru İqor Krasnov Avropa İnsan hüquqları konvensiyasının tələbləri kontekstində fərdi hüquqların və ictimai maraqların müdafiəsində prokurorluğun rolu haqda məlumat verdi. Müasir dövrün çağırışlarına uyğun olaraq prokurorluq sisteminin inkişafı, insan hüquqlarının qorunmasında prokurorluğun rolu, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə, o cümlədən kibercinayətkarlıq, rəqəmsal valyutalardan istifadə etməklə törədilən cinayətlər və digər sahələrdə prokurorluqlar arasında çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi vurğulandı.

Elə həmin gün Azərbaycan, Rusiya, İran, Türkmənistan və Qazaxıstan baş prokurorları tərəfindən Xəzər dənizində ətraf mühitin mühafizəsi və təbii resurslardan istifadə sahəsində əməkdaşlıq haqqında bəyannamə imzalanıb.

Bəyannamə Xəzər dənizi akvatoriyasında beynəlxalq hüquq və ətraf mühitin mühafizəsi haqqında milli qanunvericiliyin icrası mexanizmlərini, habelə vətəndaşların ekoloji hüquqlarının qorunması və müvafiq hüquqpozmalara qarşı preventiv kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.



Səfər çərçivəsində Baş prokuror Kamran Əliyev İran İslam Respublikasının Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Kazem Cəlali ilə görüşmüşdür.

Baş prokuror otuz ilə yaxın dövr ərzində Ermənistan tərəfindən işğal altında saxlanılan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz tərəfindən azad edildiyini, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ərazi bütövlüyünü bərpa etdiyini bildirdi.

Kazem Cəlali dost Azərbaycan dövlətini və xalqını tarixi qələbə münasibətilə təbrik edərək Azərbaycan-İran sərhədinin tam şəkildə bərpa olunduğunu da məmnuniyyətlə vurğuladı.

Həmçinin, ölkələrimiz arasında hüquq mühafizə sahəsində əməkdaşlıq, o cümlədən cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya məsələləri müzakirə edildi.



# Sankt-Peterburqda keçirilən prokurorluq orqanları rəhbərlərinin konfransı çərçivəsində Müstəqil Dövlətlər Birliyi baş prokurorlarının müşavirəsi keçirilib

İyulun 8-də Sankt-Peterburqda prokurorluq orqanları rəhbərlərinin konfransı çərçivəsində Müstəqil Dövlətlər Birliyi baş prokurorlarının müşavirəsi keçirildi.

Azərbaycanın Baş prokuroru Kamran Əliyevin iştirak etdiyi tədbirdə MDB məkanında cinayətkarlığa qarşı mübarizə, o cümlədən terrorçuluq, narkotik maddələrin qanunsuz dövriyyəsi, qanunsuz miqrasiya, vətəndaşların hüquqlarının qorunması və sair məsələlər ətrafında müzakirələr aparıldı.

“Prokurorların cinayət təqibindən kənar fəaliyyətində rolu” mövzusunda keçirilən plenar sessiyada çıxış edən Baş prokuror Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi kursuna uyğun olaraq prokurorluq orqanlarında genişmiqyaslı islahatların aparıldığını, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkarların formalaşdırılması məqsədilə Baş Prokurorluğun struktur dəyişiklikləri barədə tədbir iştirakçılarına məlumat vermişdir.

Çıxışda ölkəmizdə prokurorluğun cinayət təqibindən kənar fəaliyyəti, o cümlədən inzibati və mülki ic-









АЛИЕВ
ШВЕД
РАХМОН



raatda insan hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilmişdir.

Tədbir çərçivəsində Baş prokuror Kamran Əliyev həmçinin rusiyalı həmkarı İqor Krasnovla ikitərəfli görüş keçirmişdir. Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilmiş, gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri ətrafında, o cümlədən prokurorluqlarımız arasında imzalanmış bir sıra sənədlərin icrası mexanizmləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Səfər çərçivəsində Kamran Əliyev bir sıra ölkələrin, o cümlədən Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Xorvatiya, Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti, Avropa Şurası İnsan hüquqları və qanunun aliliyi Direktoratının rəhbəri, digər ölkələrdən olan həmkarları və nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə görüşlər keçirmiş, gələcək əməkdaşlıq perspektivləri ətrafında faydalı müzakirə edilmişdir.






# Baş Prokurorluqda cari ilin birinci yarısında görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə dair əməliyyat müşavirəsi keçirilib



İyulun 23-də Baş Prokurorluqda 2021-ci ilin birinci yarımilində prokurorluq orqanları tərəfindən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir.

İlk öncə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, qazilərə şəfa dilənmişdir.

Müşavirədə çıxış edən Baş prokuror Kamran Əliyev xalqımızın zəfər salnaməsinin memarı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu böyük qələbə konsepsiyasının möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən "Dəmir yumruq"la həyata keçirilməsi nəticəsində uzun illərdən sonra ölkəmizin ərazi bütövlüyünü bərpa edərək inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırmışdır.

Bildirilmişdir ki, Vətən müharibəsində əldə edilmiş hərbi-siyasi zəfərimiz Azərbaycanın regionda və dünyada mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirməklə ölkəmizin növbəti onilliklər üçün tərəqqisinə və qələbələrinə geniş imkanlar yaratmış, Qarabağı həyata qaytaracaq "Böyük Qayıdış"ın əsasını qoymuşdur.

İşğaldan azad olunmuş torpaqlarımızın qısa müddət ərzində bərpa ediləcəyinə əminlik ifadə olunmaqla, ölkə başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Şuşa şəhərinə və digər azad olunmuş rayonlara səfərləri, orada üçrəngli Azərbaycan bayrağının ucaldılması, Şuşanın "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilməklə müstəqillik tariximizdə ilk dəfə "Xarı bülbül" festivalı keçirilməsinin doğma torpaqlarımızın dirçəldilməsinin təminatı olduğu vurğulanmışdır.

Xüsusi olaraq qeyd edilmişdir ki, – Azərbaycan dövləti və xalqı üçün əlamətdar olan bir gündə – iyunun 15-də Şuşa şəhərində imzalanan Türkiyə ilə Azərbaycan arasında müttəfiqlik haqqında müstəsna siyasi və tarixi əhəmiyyətə malik Bəyannamə Qarabağ zəfərindən sonra qazanılan növbəti tarixi uğur olmaqla iki dost və qardaş ölkə arasında mövcud əlaqələri və əməkdaşlığı yeni mərhələyə yüksəltmişdir.

Münaqişənin başa çatması ilə birlikdə milli-mənəvi və ekoloji terrora məruz qalmış torpaqlarımızda başlanmış möhtəşəm quruculuq işləri, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının tətbiqi, Füzuli-Şuşa, Bərdə-Ağdam, Zəngilan-Horadiz avtomobil yollarının, həmçinin Füzuli və Zəngilan beynəlxalq hava limanlarının, Ağdam şəhərinin Baş Planının təsdiq edilməklə bir sıra infrastruktur obyektlərinin təməlinin qoyulması ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarının daha da möhkəmləndirilməsinə xidmət etməklə regionda sabitliyin və təhlükəsizliyin inkişafına öz töhvəsini verəcəyi bildirilmişdir.

Baş prokuror diqqətə çatdırmışdır ki, uzun illərdən sonra torpaqlarımıza qovuşmaqda əvəzsiz xidmətləri olmuş Vətən müharibəsinin hər bir iştirakçısı, şəhid ailələri, qazilər, Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna qayğısı ilə əhatə olunmaqla bu istiqamətdə "YAŞAT" fondu tərəfindən həyata keçirilən tədbirlər müstəsna əhəmiyyətə malik olmuşdur.

Müşavirədə ölkəmizin 2021-ci ilin birinci yarımilində koronavirus (COVID-19) pandemiyasının yaratdığı çətinliklər və iqtisadi məhdudiyyətlərə baxmayaraq bütün sahələrdə inkişaf tempini qoruyub saxladığı bildirilməklə görülmüş qabaqlayıcı tədbirlərlə pandemiyanın fəsadlarının aradan qaldırıldığı, həyata keçirilən uğurlu vaksinasiya strategiyası nəticəsində əhalimizin böyük bir hissəsinin peyvənd olunduğu qeyd olunmuşdur.

Beynəlxalq sahədə uğurlu xarici siyasətin davam etdirildiyi vurğulanmaqla ölkəmizdə dünya miqyaslı idman turnirləri olan "Formula-1" yarışları və ilk dəfə olaraq futbol üzrə Avropa çempionatının final mərhələsinin 4 oyununun keçirilməklə Respublikamızın bütün dünyaya güclü iqtisadi potensiala, zəngin



mədəniyyətə, özünəməxsus dəyərlərə və ictimai-siyasi sabitliyə malik ölkə olduğunu bir daha nümayiş etdirdiyi diqqətə çatdırılmışdır.

Xüsusi qeyd edilmişdir ki, 2021-ci ilin birinci yarımilində də prokurorluq orqanları möhtərəm cənab Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunmuş, bu baxımdan ölkə başçısının fevralın 8-də paytaxtın Binəqədi rayonu ərazisində Baş Prokurorluğun yeni inzibati bina kompleksinin açılışında iştirakı quruma göstərilən etimadla yanaşı prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatların ardıcıllığını nümayiş etdirmişdir.

Görülən işlərin davamı olaraq, hərbi prokurorluq orqanlarının fəaliyyətinin daha səmərəli təşkilini təmin etmək məqsədilə ölkə başçısının sərəncamı ilə Qubadlı, Kəlbəcər Hərbi Prokurorluğu və Qarabağ Hərbi Prokurorluğunun əsasında Ağdam Hərbi Prokurorluğunun yaradılması Qarabağın yenidən həyata qaytarılmasına dair dövlət siyasətinin həyata keçirilməsində mühüm önəm kəsb edir.

Dövlət başçısının dəstəyi ilə prokurorluqda müasir məzmunlu islahat tədbirlərinin davamı kimi şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları təxirə salınmadan aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizminin yaradılması istiqamətində cənab Prezidentin 7 may 2021-ci il tarixli Fərmanı da müstəsna əhəmiyyətə malik olmuşdur.

Qeyd edilmişdir ki, cari ilin birinci yarımilində prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı həyata keçirilən tədbirlərlə yanaşı beynəlxalq tərəfdaşlarla əməkdaşlıq münasibətlərinin inkişafına da xüsusi diqqət yetirilmiş, bu dövrdə Rusiya Federasiyası və Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokurorlarının rəhbərlik etdikləri nümayəndə heyətlərinin ölkəmizə qarşılıqlı işgüzar səfərləri zamanı onların ölkə başçısı cənab İlham Əliyev tərəfindən qəbul edilməsi ikitərəfli əlaqələrin yeni müstəvidə davam etdirilməsinə hərtərəfli zəmin yaratdığı xüsusi vurğulanmışdır.

Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə Respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, əhalinin hər 100 min nəfərinə düşən 147 cinayətin sayına görə ölkəmizin MDB və Avropa məkanında öncül mövqeyini saxlayaraq ən təhlükəsiz və sabit dövlətlərdən biri olduğunu qeyd etmişdir.

Bildirilmişdir ki, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və digər hüquq mühafizə orqanları ilə birgə fəaliyyətin nəticəsi olaraq, cinayətkarlığın dinamikasında və strukturunda müşahidə edilən müsbət göstəricilər hesabat dövründə də davam etmiş, 2021-ci ilin birinci yarımilində əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 14 min 928 cinayət qeydə alınmışdır ki, bunun yalnız 1%-i xüsusilə ağır cinayətlər təşkil etmiş, daxili işlər orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 207 cinayətin açılması təmin edilmiş, 435 cinayətkar qrup zərərsizləşdirilmişdir.

Həyata keçirilən məqsədyönlü və qabaqlayıcı tədbirlər nəticəsində qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd, qəsdən sağlamlığa az ağır və ağır zərər vurma, oğurluq, soyğunçuluq, quldurluq,


İlham Əliyev Rafiq Cəlilovu Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı və Rəşad Tağıyevi Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib.
HEÇ KİM QANUNDAN YUXARI DAYANA BİLMƏZ.
HƏR KƏS QANUN QARŞISINDA BƏRABƏRDİR. HEÇ KİMDƏ İMMUNİTET YOXDUR.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

xuliqanlıq, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, o cümlədən ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin, vəzifə səlahiyyətləri ilə bağlı cinayətlərin sayı azalmış, cinayətlərin açılması 88,7% təşkil etmişdir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi, dələduzluq, hədə-qorxu ilə tələb etmə və vergi ödəməkdən yayınma cinayətlərində artım tendensiyası qeydə alınmışdır ki, bu tendensiyanın səbəbləri təhlil edilməklə qarşısının alınması istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi təmin ediləcəkdir.

Ümumilikdə ölkə üzrə cəmi 8197 cinayət işinin istintaqı tamamlanmışdır ki, bunlardan 671-i prokurorluq orqanlarında isintaq edilmişdir. Prokurorluq orqanları tərəfindən 444, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 6399 cinayət işinin ittiham aktları ilə məhkəmələrə göndərilməsi təmin edilmişdir.

Respublika üzrə ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə 174 milyon 62 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 51,5 faizinin, yəni 89 milyon 683 min manat hissəsinin ödənilməsinə nail olunmuş, həmçinin cinayət-prosessual qanunvericiliyinin tələblərinə əsasən icraatına xitam verilmiş cinayət işləri üzrə cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 668 min 949 manat məbləğində pul vəsaiti ödənilmişdir.

Hesabat dövründə möhtərəm cənab Prezident İlham Əliyevin siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya, rüşvətxorluğa qarşı barışmaz mübarizənin ötən dövrlərdə olduğu kimi davam etdirilərək bu sahədə həyata keçirilmiş kompleks tədbirlərin davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin etməyə imkan verdiyi qeyd edilmişdir.

Bildirilmişdir ki, cari ilin birinci yarımilində korrupsiya hüquqpozmasına yol vermiş 267 şəxs barəsində 155 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmiş, 8 milyon 785 min manat məbləğində ziyanın ödənilməsi təmin edilmiş, həmçinin cinayət-prosessual qanunvericiliyin tələblərinə əsasən təqsirləndirilən şəxslər tərəfindən dövlət büdcəsinə 1 milyon 952 min manat ödənilməklə 44 milyon manat dəyərində əmlak üzərinə həbs qoyulmuşdur.

Həmin cinayət işlərindən 72 şəxs barəsində 25 iş rüşvət alma (passiv rüşvətxorluq), 66 şəxs barəsində 43 iş rüşvət vermə (aktiv rüşvətxorluq) və şəxsi rüşvət verməyə təhrik etmə, 54 şəxs barəsində 30 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 28 şəxs barəsində 15 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 14 şəxs barəsində 8 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və digər faktlarla əlaqədar olmuşdur.

İstintaqı tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmiş cəmiyyətdə rezonans doğurmuş bir sıra cinayət işləri üzrə təqsirkar şəxslərin, o cümlədən ləğv olunmuş Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun İcraçı direktoru vəzifəsində işləmiş Vüqar Səfərli, Kürdəmir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Ceyhun Cəfərov, “Yeni Klinika” tibb müəssisəsinin direktoru Pərviz Abbasov və digərlərinin korrupsiya hüquqpozmaları törətməsinə əsaslı şübhələr müəyyən edilməklə məhkəmə məsuliyyətinə verilmişlər.

2021-ci ilin birinci yarımili ərzində Baş idarədə fəaliyyət göstərən 161 saylı “Qaynar xətt” əlaqə mərkəzinə daxil olmuş müraciətlərin 34-ü üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, digərləri üzrə prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi təmin edilmişdir.

Bu müddət ərzində Baş İdarənin əməliyyat qurumları tərəfindən həyata keçirilən əməliyyat tədbirləri nəticəsində 29 şəxs cinayət başında yaxalanmış, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 60 cinayət işi başlanmışdır.

2021-ci ilin birinci yarımili ərzində Baş İdarə korrupsiya ilə mübarizədə beynəlxalq təşkilatların tövsiyələrinin, müvafiq konvensiyaların müddəalarının yerinə yetirilməsi, bu sahədə digər ölkələrin uğurlu təcrübələrinin və əldə olunmuş nailiyyətlərinin öyrənilməsi, qarşılıqlı təcrübə mübadiləsinin, ikitərəfli və çoxtərəfli tədbirlərin keçirilməsi, habelə anti-korrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və ümumilikdə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir.

Belə ki, 17-31 may 2021-ci il tarixlərdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən ölkəmizin 5-ci raund pilot qiymətləndirilməsi prosedurunun növbəti mərhələsi kimi virtual müsahibələr keçirilməklə ölkəmizin korrupsiyaya qarşı mübarizə strategiyası fonunda iqtisadiyyat, prokurorluq və məhkəmə orqanlarının fəaliyyəti də daxil olmaqla 13 fərqli mövzu üzrə müsahibələr aparılmış, ekspert heyətinin sualları müvafiq qurumların nümayəndələri tərəfindən cavablandırılmışdır.

Bundan başqa, 2-4 iyun tarixlərində Azərbaycan Respublikası Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti BMT Baş Assambleyasının korrupsiyanın qarşısının alınması, onunla mübarizə və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş xüsusi sessiyasında iştirak etməklə BMT-nin nümayəndələrinin, Korrupsiya əleyhinə Konvensiyaya tərəf olan digər ölkələrin dövlət və hökumət başçıları, o cümlədən digər yüksək vəzifəli şəxslərinin iştirak etdiyi tədbirdə məruzə ilə çıxış edilmişdir.

Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən Vətən müharibəsi gedişində erməni silahlı qüvvələri tə-

rəfindən törədilmiş cinayət əməlləri üzrə 68 cinayət işi üzrə ibtidai istintaqın aparıldığı, həmin işlər üzrə 8 şəhər, 10 qəsəbə və 519 kəndə baxış keçirildiyi bildirilmişdir.

Müşavirədə daxili işlər və dövlət təhülkəsizliyi orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə və digər xüsusilə ağır cinayətlərin açılması təmin edilməklə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verilildiyi qeyd edilmişdir.

2021-ci ilin birinci yarımilində Respublika Hərbi Prokurorluğu tərəfindən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğu sahəsində tapşırıqlarının icrası ilə əlaqədar Müdafiə Nazirliyi, Sərhəd Qoşunları və digər qurumlarla birlikdə zəruri tədbirlərin görüldüyü, bu müddətdə erməni silahlı birləşmələrinin qanunsuz əməlləri ilə bağlı 63 cinayət işi üzrə ibtidai istintaqın davam etdirilməklə "Yerkrapa" silahlı birləşməsinin üzvləri Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyan barəsində cinayət işinin məhkəməyə göndərildiyi diqqətə çatdırılmışdır.

Hesabat dövründə dövlət təhlükəsizliyi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət üzrə də zəruri işlər görüldüyü qeyd edilməklə Ermənistan Respublikası vətəndaşı olan terrorçu-diversant dəstələrin 53 üzvünün təqsirləndirilmələrinə dair 3, Livan Respublikasının vətəndaşı Viken Eulcekcian və Rusiya Federasiyasının vətəndaşı Eduard Dubakovun və digərlərinin, ümumilikdə 57 şəxs barəsində 6 cinayət işinin ibtidai istintaqının peşəkarlıqla aparılıb tamamlanaraq məhkəməyə göndərildiyi bildirilmişdir.

Məhkəmə baxışları davam edən həmin işlər üzrə dövlət ittihamının peşəkarcasına müdafiəsinin aparılması təmin olunmaqla toplanmış sübutlar əsasında təqsirli şəxslərə layiqli cəzanın verilməsinin tələb ediləcəyi vurğulanmışdır.

Eyni zamanda, qanunsuz erməni hərbi birləşmələrinin təcavüzü nəticəsində törədilmiş cinayətlər üzrə intensiv və hərtərəfli istintaqın aparıldığı diqqətə çatdırılmaqla toplanmış sübutlarla təqsiri müəyyən edilmiş şəxslərin beynəlxalq müstəvidə və yerli məhkəmələr tərəfindən məsuliyyətə cəlb olunması istiqamətində zəruri tədbirlərin icrasının davam etdirildiyi bildirilmişdir.

Əməliyyat müşavirəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğunda cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə uğurlu göstəricilər əldə olunduğu, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə nəzarətin gücləndirildiyi, vətəndaşların müraciətlərinə baxılmasının diqqətdə saxlanıldığı qeyd edilmişdir.

Hesabat dövründə cinayət təqibindən kənar icraatlar sahəsində inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla 70 şəxs barəsində inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilmiş, həmçinin mülki mühakimə icraatı qaydasında və yetkinlik yaşına çatmayanların işləri üzrə məhkəmələrdə baxılmış işlər üzrə 4 valideynin valideynlik hüquqlarının məhdudlaşdırılmasına dair məhkəmələrdə iddialar qaldırılmış, qanunsuz rəftara, əzab və işgəncələrə məruz qalmaları ilə əlaqədar 6 uşaq sığınacaq və körpələr evinə yerləşdirilmişdir.

Prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənmiş, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə ağır və xüsusilə ağır cinayətlərdə ittiham olunan 12 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilmişdir.

Əməliyyat müşavirəsində qeyd edilmişdir ki, hesabat dövründə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılmış, aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 17 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilmişdir.

Hesabat dövründə kadr işinin düzgün təşkili və onun müasir standartlar səviyyəsində daha da təkmilləşdirilməsi, kadrların seçilib yerləşdirilməsi, vəzifədə irəli çəkilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq müvəffəqiyyət əldə etmiş 100 namizədin təyinatlarının aparılması nəticəsində müsabiqə yolu ilə qulluğa qəbul edilmiş gənc prokurorluq işçilərinin prokurorluğun kadr korpusunun 78%-ni təşkil etməsinin ölkəmizdə dövlət gənclər siyasətinin reallaşdırılmasının müsbət nəticəsi kimi dəyərləndirilmişdir.

Cari ilin birinci yarımilində Azərbaycan Respublikası Prokurorluğunun başlıca fəaliyyət istiqamətlərindən olan ölkəmizin hüquq ictimaiyyəti, aparıcı elm və təhsil müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişafına töhvə verən Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclasları keçirilməklə geniş müzakirələr və faydalı fikir mübadiləsinin aparıldığı diqqətə çatdırılmışdır.

Qeyd edilmişdir ki, ölkə başçısının dəstəyi ilə prokurorluq orqanları əməkdaşlarının və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks və ardıcıl tədbirlər davam etdirilməklə Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair Dövlət Proqramının icrası ilə əlaqədar inşa edilmiş paytaxtın

Xətai rayonu ərazisində 160 mənzilli yaşayış kompleksi istifadəyə verilməklə prokurorluq əməkdaşları və veteranlarından ibarət kooperativ üzvləri güzəştli şərtlərlə mənzillərlə təmin edilmişlər.

Müşavirədə cari ilin aprel ayında təsis edilmiş "Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri" İctimai Birliyi ilə əlaqələrin genişlənməsinin, sabiq prokurorluq əməkdaşlarının təcrübəsindən və peşə bacarıqlarından istifadənin əhəmiyyəti vurğulanmışdır.

Əməliyyat müşavirəsində hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi, hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunmuşdur.

Xüsusilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə təxirəsalınmadan baxılmaqla, onların dərhal qəbul edilmələrinin təmin edilməsi, bu kateqoriyadan olan şəxslərə diqqət göstərilməsinin vacibliyi vurğulanmışdır.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə cari ilin birinci yarımilinin nəticələrinə görə artımı müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılmışdır.

Eyni zamanda, cari hesabat dövründə də koronavirus infeksiyasının yayılmasına qarşı mübarizə tədbirləri ilə əlaqədar prokurorluq orqanları tərəfindən yerli polis, digər hüquq mühafizə, icra orqanları və tibb müəssisələri ilə əlaqəli surətdə həyata keçirilən tədbirlərin davam etdirilməklə əhalinin peyvəndlənməsinin aparılması, eləcə də toy-nişan şənliklərinin keçirilməsi zamanı Nazirlər Kabineti yanında Operativ Qərargahın tələblərinə əməl olunması, əhalinin sanitariya-epidemioloji salamatlığının qorunmasının hüquqi vasitələrlə təmini sahələrində prokuror nəzarəti tədbirlərinin gücləndirilməsinin əhəmiyyəti qeyd edilmişdir.

Müşavirədə intihar və intihara cəhd hadisələrinin minimuma endirilməsi və qarşısının alınması istiqamətində zəruri tədbirlərin görülməsinin vacibliyi diqqətə çatdırılmaqla 23 iyun 2021-ci il tarixdə Baş Prokurorluğun təşkilatçılığı ilə dövlət qurumların nümayəndələrinin iştirakı ilə keçirilmiş yüksək səviyyəli konfransın yekunu üzrə qurumlararası İşçi qrupun yaradılmasının bu sahədə nəticələr əldə etməyə imkan verəcəyinə əminlik ifadə olunmuşdur.

Bununla yanaşı, sintetik və təbii mənşəli narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi, hazırlanması ilə bağlı cinayətlər üzrə ibtidai araşdırma və əməliyyat-axtarış fəaliyyəti üzərində prokuror nəzarətinin gücləndirilməklə, cəza tədbirləri ilə yanaşı xüsusilə gənclər arasında istehlakının təbliğ edilməsi hallarının qarşısının alınması istiqamətində daxili işlər orqanları ilə birlikdə maarifləndirmə işlərinin genişləndirilməsinin və digər zəruri tədbirlərin həyata keçirilməsinin vacibliyi qeyd edilmişdir.

Eyni zamanda, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə bağlı müvafiq normativ aktların, həmçinin digər sahələr üzrə qanunvericiliyin təkmilləşdirilməsinə dair layihələrin hazırlanmaqla aidiyyəti üzrə təqdim edildiyi bildirilmişdir.

Müşavirədə həmçinin qaz sızması və partlayışı, dəm qazı ölümü və sağlamlığa zərər vurulması hallarının qarşısının alınması istiqamətində İnzibati Xətalar Məcəlləsində, "Qaz təchizatı haqqında" Qanunda və digər aidiyyəti normativ hüquqi aktlarda dəyişikliklərin edilməsinin nəzərdə tutan layihələrin hazırlandığı bildirilməklə bu kimi hadisələrin başvermə səbəblərini doğuran halların aradan qaldırılması üçün məqsədyönlü tədbirlərin aparılmasının önəmi diqqətə çatdırılmışdır.

Əməliyyat müşavirəsində prokurorluğun fəaliyyətində səmərəliliyin artırılmasında mühüm rol oynayacaq "Elektron prokurorluq" informasiya sisteminin tətbiqi istiqamətində Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli Fərmanından irəli gələn vəzifələrin qısa müddət ərzində icrasının əhəmiyyəti qeyd edilmişdir.

Daha sonra Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov hesabat dövündə görülmüş işlərə və qarşıda duran vəzifələrə dair mövzuda çıxışlar etmiş, müzakirələrlə bağlı fikir mübadiləsi aparılmışdır.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən uğurlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən prokurorluq orqanlarının bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəyinə əminliyini ifadə etmişdir.



## AZAD EDİLMİŞ ƏRAZİLƏRİN, ŞƏRQİ ZƏNGƏZURUN HƏRTƏRƏFLİ İNKİŞAFI ÜÇÜN

avtomobil yollarının, tunellərin, körpülərin, hava limanlarının, su elektrik stansiyalarının, digər sosial infrastruktur obyektlərinin tikilməsi xüsusi əhəmiyyət daşıyır.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına işgüzar səfər edib









Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən avqustun 5-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına işgüzar səfər etmişdir.

Nümayəndə heyəti xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə tər gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Daha sonra səfər çərçivəsində nümayəndə heyəti Heydər Əliyev Muzeyini ziyarət edərək onlara muzey barədə ətraflı məlumat verilmişdir.



Qonaqlar muzeydə nümayiş etdirilən zəngin fond materialları, orijinal sənədlər və eksponatlarla dahi rəhbərin mənalı həyatı, xalqımızın rifahı, xoş gələcəyi naminə siyasi fəaliyyətinin ayrı-ayrı dövrləri, mərhələləri ilə bağlı eksponatlarla tanış olmuşlar.

Baş prokurorun rəhbərlik etdiyi heyət həmçinin Ulu öndərin adını daşıyan tam orta məktəb və Hərbi Liseydə də olmuşlar.

Bundan sonra Bəhruz Kəngərli muzeyini ziyarət etmiş qonaqlara Azərbaycan rəssamlıq sənətinin ən görkəmli nümunələrindən olan əsərlər barədə ətraflı məlumat verilmişdir.

# Baş prokuror Naxçıvan Muxtar Respublikasının prokurorluq əməkdaşları ilə görüş keçirib





Avqustun 5-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər etmişdir.

Səfər çərçivəsində Baş Prokuror Naxçıvan Muxtar Respublikasının Prokurorluğu və Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu, eləcə də Sədərək rayon prokurorluğunda yaradılmış şəraitlə tanış olmuş və əməkdaşlarla görüş keçirmişdir. Xidməti vəzifələrini nümunəvi icra edərək səmərəli fəaliyyətlərinə, qanunçuluq  və hüquq qaydasının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş












hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycan Respublikasının "Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunların tələblərinə uyğun olaraq, bir qrup əməkdaş "Prokurorluğun fəxri işçisi" döş nişanı, "Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanı" ilə təltif edilmiş, həmçinin qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

# Baş prokuror Kamran Əliyev Sədərək rayonunda yerləşən hərbi hissədə olub





Avqustun 5-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına işgüzar səfər edib.

Səfər çərçivəsində nümayəndə heyəti sərhəd bölgəsində Sədərək rayonunda yerləşən hərbi hissədə olub.

Sonra müdafiənin ön xəttindəki mövcud vəziyyətlə tanış olunub, döyüş növbəsi çəkən əsgər və zabitlərlə görüş keçirilib.

Görüş zamanı ilk öncə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, qazilərə şəfa dilənib.

Baş Prokuror Kamran Əliyev möhtərəm Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə edilmiş hərbi-siyasi zəfər münasibətilə şəxsi heyəti təbrik edib, Naxçıvan Əlahiddə Ümumqoşun ordusunun qələbənin əldə olunmasındakı rolunu vurğulayıb.

Daha sonra bir qrup hərbçiyə xidmətdə fərqləndiklərinə görə qiymətli hədiyyələr təqdim olunub.

Baş prokuror Kamran Əliyevə sərhəd bölgəsindəki zirehli texnikaların döyüşə hazırlıq vəziyyəti, imkanları və effektiv istifadəsi, döyüş növbəsinin yüksək səviyyədə təşkili ilə bağlı ətraflı məlumat verilib.

## Baş Prokuror Kamran Əliyevlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov arasında görüş keçirilib

Avqustun 5-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Naxçıvan Muxtar Respublikasına səfər edən Baş Prokuror Kamran Əliyevlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov arasında görüş keçirilmişdir.

Görüş zamanı Baş prokuror tərəfindən Naxçıvan Muxtar Respublikasının Prokurorluğu və Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğuna bundan sonra da diqqət və qayğının göstəriləcəyi vurğulanmışdır.

Bununla da, Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına işgüzar səfəri başa çatmışdır.

# Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Mehmet Akarca və Baş prokuroru Bekir Şahinin dəvəti ilə Ankara şəhərinə səfər edib




Sentyabrın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Mehmet Akarca və Baş prokuroru Bekir Şahinin dəvəti ilə qardaş ölkənin Ali Məhkəməsi və Baş Prokurorluğunun yeni inzibati kompleksinin açılışında, həmçinin "Kassasiya instansiyası məhkəmələrində mükəmməllik" mövzusunda keçiriləcək beynəlxalq simpoziumda iştirak məqsədilə Ankara şəhərinə səfər edib.

Səfər çərçivəsində Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Ankarada xalqımızın ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin adını daşıyan parkda olublar, abidəsi önünə əklil qoyaraq xatirəsini ehtiramla yad ediblər.



## Türkiyə Respublikasının Prezidenti ilə Azərbaycan Respublikasının nümayəndə heyəti arasında görüş keçirilib




Sentyabrın 1-də Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qardaş dövlətin Ali Məhkəməsi və Baş Prokurorluğunun yeni inzibati kompleksinin açılışı olub.

Daha sonra Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Respublikasının nümayəndə heyəti arasında görüş keçirilib.



# Azərbaycan Respublikasının nümayəndə heyəti Ankara şəhərində keçirilmiş beynəlxalq simpoziumda iştirak edib



Xəbər verildiyi kimi Azərbaycan Respublikasının nümayəndə heyəti Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Mehmet Akarca və Baş prokuroru Bekir Şahinin dəvəti ilə Ankara şəhərində səfərdə olublar. Səfər qardaş ölkənin Ali Məhkəməsi və Baş Prokurorluğunun yeni inzibati kompleksinin açılışında, həmçinin "Kassasiya instansiyası məhkəmələrində mükəmməllik" mövzusunda təşkil edilən beynəlxalq simpoziumda iştirak etmək məqsədilə həyata keçirilib.

Sentyabrın 2-də Azərbaycan tərəfinin də iştirakı ilə 14 ölkənin Baş prokuroru və Ali Məhkəmə sədrlərinin təmsilçiliyində "Kassasiya instansiyası məhkəmələrində mükəmməllik" mövzusunda beynəlxalq simpozium keçirilib.

Türkiyənin dövlət himninin səsləndirilməsi ilə başlanan tədbiri giriş nitqi ilə açan Ali Məhkəmənin sədri Mehmet Akarca simpoziumun məqsəd və vəzifələrindən danışaraq, ölkəsində hüquq və ədalət sistemində həyata keçirilən reformalar, onların əhatə dairəsi hüquq və məhkəmə proseslərindəki yeniliklərdən danışıb.

Simpoziumda çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin siyasi kursuna uyğun olaraq prokurorluq orqanlarında genişmiqyaslı islahatların aparıldığını, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkarların formalaşdırılması məqsədilə Baş Prokurorluğun tərkibində aparılmış struktur dəyişiklikləri barədə tədbir iştirakçılarına geniş məlumat verib.

Çıxışda ölkəmizdə prokurorluğun cinayət mühakimə icraatında və cinayət təqibindən kənar fəaliyyəti, o cümlədən müvafiq instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsində prokurorluğun yeri və rolu barədə tədbirlər iştirakçılara çatdırılıb.

Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinə geniş yer ayıran Baş prokuror Kamran Əliyev ötən əsrin əvvəllərində Qafqaz İslam Ordusunun həyata keçirdiyi xilaskarlıq missiyası başda olmaqla xalqlarımızın və dövlətlərimizin ən çətin sınaqlardan keçərək hər zaman dar gündə bir-birinin yanında olmasını bütün dünyaya örnək kimi dəyərləndirib.

Həmin gün Türkiyənin Ali Məhkəməsinin sədri Mehmet Akarca və Baş prokuroru Bekir Şahinlə görüşlər keçirilib. Tarixi köklərlə bir-birinə sıx bağlı olan xalqlarımızın əzəli qardaşlıq münasibətlərinin siyasi,







iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyi bildirilərək, bu əlaqələrin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət", Türkiyə Respublikasının banisi Kamal Atatürkün "Azərbaycanın kədəri – kədərimiz, sevinci – sevincimizdir" kəlamları ilə ifadə edildiyini, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət, həmçinin tarixi əhəmiyyətli Şuşa Bəyannaməsinin imzalanması nəticəsində iki qardaş ölkə arasında əlaqələrin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığı xüsusi vurğulanmışdır.

Görüşlərdə qeyd olunub ki, 44 günlük Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqı ölkəmizə siyasi-mənəvi dəstəyini nümayiş etdirməklə birliyimizi və qardaşlığımızın sarsılmaz olduğunu bir daha bütün dünyaya bəyan edib.

Bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğu bildirilərək hüquqi əməkdaşlıq, ekstradisiya, prokurorların təlimi və digər əhəmiyyətli sahələrdə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Səfər çərçivəsində bir sıra ölkələrin, o cümlədən Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Bosniya və Herseqovina, Bolqarıstan, Şimali Makedoniya, Fələstin və Küveytdən olan həmkarları ilə görüşlər keçirərək, gələcək əməkdaşlıq perspektivləri ətrafında faydalı müzakirələr aparılıb.

# Baş prokuror Kamran Əliyev Qazaxıstana səfər edib




Sentyabrın 23-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti MDB dövlətləri Baş prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak etmək məqsədi ilə Qazaxıstan Respublikasının Nur-Sultan şəhərinə səfər etmişdir.






# Nur-Sultanda Azərbaycan, Rusiya və Ermənistanın Baş prokurorları arasında üçtərəfli görüş keçirilib



Sentyabrın 23-də Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində MDB dövlətləri Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 31-ci iclası çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistanın Baş prokurorları arasında üçtərəfli görüş keçirilmişdir.

Görüşdə üçtərəfli formatın səmərəliliyi qeyd edilərək son 9 ay ərzində Qarabağda qanunun aliliyinin və hüquq qaydasının möhkəmləndirilməsi məqsədilə tərəflərin gördüyü işlər müsbət dəyərləndirilmişdir.

Qarabağda yerləşən Rusiya Sülhməramlı Qüvvələrinə təhkim olunmuş Baş Hərbi Prokurorluğunun nümayəndələri ilə əlaqəli şəkildə törədilmiş hüquqpozmalara dair məlumatların mübadiləsi, habelə həmin məlumatlar üzrə müvafiq tədbirlərin görülməsi sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi bildirilmişdir.

Kamran Əliyev 44 günlük Vətən müharibəsindən sonra itkin düşmüş şəxslərin tapılması istiqamətində birgə fəaliyyətin vacibliyinə toxunaraq, bu prosesin davam etdirilməsinin önəmini qeyd etmişdir.

Mina xəritələrinin verilməsinin insanların həyat və sağlamlığının qorunmasında əhəmiyyəti diqqətə çatdırılmış və bu sahədə əməkdaşlığın davam etdirilməsinin zəruriliyi vurğulanmışdır.

Azərbaycan tərəfindən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata tam şəkildə riayət olunduğu bildirilmişdir.

Rusiyanın Baş prokuroru İqor Krasnov Azərbaycan və Ermənistandan olan həmkarlarına bölgə xalqlarının rifahı naminə sülh və sabitliyə nail olmağa yönəlmiş konstruktiv qarşılıqlı əməkdaşlıq və səylərinə görə təşəkkür etmişdir.

Görüşdə Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış bəyanatların icrası və hüquqi sahədə gələcək əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Tərəflər gələcəkdə gərginliyə səbəb olan halların qarşısının alınması üçün əlaqələrin gücləndirilməsi ilə bağlı razılaşmanı bir daha dəstəkləmişlər.

# Baş prokuror Kamran Əliyev MDB dövlətləri Baş prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak edib






Sentyabrın 23-də Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultan şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş prokurorlarının Əlaqələndirmə Şurasının (Şura) 31-ci iclası keçirilmişdir.

MDB prokurorluq orqanlarının və beynəlxalq təşkilatların rəhbər şəxslərinin iştirak etdiyi tədbirdə ölkəmizi Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Şuranın iclasında K.Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əldə olunmuş uğurlu nəticələr barədə ətraflı məlumat verərək "Cinayət təqibindən kənar icraatlarda prokurorluğun fəaliyyəti" mövzusunda çıxış etmişdir.

Çıxışda ölkəmizdə prokurorluğun cinayət təqibindən kənar fəaliyyəti, o cümlədən inzibati və mülki icraatda insan hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə tədbir iştirakçılarına məlumat verilmişdir.

İclasda həmçinin MDB dövlətlərinin Baş prokurorlarının və beynəlxalq təşkilatların rəhbərlərinin cinayətkarlığın müxtəlif təzahürlərinə qarşı prokurorluqların rolu haqda çıxışları dinlənilmişdir.



Daha sonra Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov Şuranın növbəti il üçün sədri seçilmiş, Katibliyin məsul vəzifələrinə seçkilər keçirilmişdir.

Şuranın 32-ci iclasının 2022-ci ildə Belarus Respublikasının paytaxtı Minsk şəhərində, 2023-cü ildə isə Bakı şəhərində keçirilməsi qərara alınmışdır.




Tədbir çərçivəsində Baş prokuror Kamran Əliyev Qazaxıstanın Baş prokuroru Gizat Nurdauletovla və Rusiyanın Baş prokuroru İqor Krasnovla ikitərəfli görüşlər keçirmişdir. Görüşlər zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilmiş, gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri ətrafında, o cümlədən prokurorluqlarımız arasında imzalanmış bir sıra sənədlərin icrası mexanizmləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Baş prokuror Belarus, Qırğızıstan, Özbəkistan, Tacikistan və Moldovanın Baş prokurorları, həmçinin nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə görüşlər keçirmiş, görüşlərdə mövcud əlaqələr və gələcək əməkdaşlıq perspektivləri ətrafında faydalı müzakirə edilmişdir.

Tədbirlərdə Azərbaycanın Qazaxıstandakı fövqəladə və səlahiyyətli səfiri Ağalar Atamoğlanov da iştirak etmişdir.

Səfər çərçivəsində, həmçinin, "Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi və Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Memorandum iki qurum arasında təhsil, elmi-tədqiqat və innovasiyalar sahəsində əməkdaşlığın qurulmasını nəzərdə tutur.

## "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar 2020-cı il ərzində görülən işlər barədə və "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi üzrə 2021-2025-ci illər üçün Milli Fəaliyyət Planı" layihəsinin müzakirəsinə dair qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyəti institutları nümayəndələrinin iştirakı ilə görüş keçirilib

Müzakirələr 2021-ci il iyulun 01-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibinin, Baş İdarənin və Ədliyyə Nazirliyinin əməkdaşlarının, eləcə də, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə aparılmışdır.





Tədbirdə ölkəmizdə əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın və hesabatlılığın artırılması, ictimai nəzarətin gücləndirilməsi və ictimai iştirakçılığın genişləndirilməsi sahəsində islahatların uğurla və davamlı şəkildə həyata keçirildiyi bildirilmiş, "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar 2020-ci ildə görülmüş işlər barədə məlumat verilmiş, həmçinin "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi üzrə 2021-2025-ci illər üçün Milli Fəaliyyət Planı" layihəsinin tərtib edilməsində qeyri-hökumət təşkilatlarının nümayəndələrinin fəal iştirakının vacibliyi qeyd edilmişdir.

Ümumi müzakirədə maliyyə şəffaflığının təmin edilməsi, korrupsiyanın qarşısının alınması sahəsində və ictimai həyatda vətəndaş cəmiyyəti institutlarının rolunu nəzərə alaraq layihə ilə bağlı geniş fikir mübadiləsi aparılmış, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin ilkin şifahi təklifləri dinlənilmiş, həmin təkliflərlə bağlı ortaya çıxan məsələlərin müzakirəsi aparılmışdır.

Eləcə də, gələcəkdə qeyd edilən layihənin müzakirəsi ilə əlaqədar qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə davamlı olaraq görüşlərin keçirilməsinin vacibliyi diqqətə çatdırılmışdır.

## Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbəri seçilməsi ilə əlaqədar olaraq "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin üzvləri ilə prokurorluğun gənc əməkdaşları arasında Baş Prokurorluqda görüş keçirilib





Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbəri seçilməsi ilə əlaqədar olaraq "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin üzvləri ilə prokurorluğun gənc əməkdaşları arasında Baş Prokurorluqda görüş keçirmişdir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1969-cu il iyulun 14-dən başlayaraq respublikaya rəhbərlik etməsi ilə Azərbaycanda yeni bir tarixi dövrün təməli qoyulmuşdur. İqtisadi və sosial inkişaf baxımından digər sovet respublikalarından geri qalan Azərbaycan Sovet Sosialist Respublikası məhz Ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində qısa müddət ərzində regionun və bütün Sovetlər birliyinin lider respublikalarından birinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin digər sahələrlə yanaşı, ordu quruculuğu sahəsində də apardığı siyasətin məntiqi nəticəsidir ki, bu gün 30 ilə yaxındır mənfur erməni faşistlərinin işğalında olmuş doğma torpaqlarımız Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı ilə işğalından azad olunmuşdur. Müasir Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Vətən müharibəsinin fatehi Möhtərəm Prezident cənab İlham Əliyev özünün müdrik rəhbərliyi, uzaqgörən siyasəti, qətiyyəti və güclü ordusu ilə qısa müddət ərzində bütün dünyaya Azərbaycan xalqının iradəsini, əzmini və gücünü nümayiş etdirdi.

"Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin təşkilatçılığı ilə 14 iyul 2021-ci il tarixdə Baş Prokurorluğun yeni





inzibati binasında Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbəri seçilməsi ilə əlaqədar olaraq prokurorluğun gənc əməkdaşları ilə görüş keçirmişdir.

Görüş iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş fotogüşə və kitabxana ilə tanış olmuşlar. Ümummilli lider Heydər Əliyevin həyat fəaliyyəti və yaradıcılığını özündə əks etdirən və bir neçə xarici dildə çap olunmuş kitablar tədbir iştirakçılarında zəngin təəssürat yaratmışdır.

Daha sonra tədbir akt zalında davam etdirilmişdir. Tədbiri açıq elan edilərək Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad olunaraq 14 iyul – Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin respublikamıza rəhbərliyi zamanı əldə olunmuş uğurlara həsr edilmiş “Heydər Əliyev – Dəyərlərimizin xilaskarı” adlı filmə tamaşa etmişlər. Tədbirdə iştirak edən “Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri” İctimai Birliyinin idarə heyətinin sədri Seyfulla Aslanov “Azərbaycan Prokurorluğunun inkişafında Ümummilli lider Heydər Əliyevin rolu” mövzusunda nitq söyləmişdir. O, prokurorluq orqanlarında fəaliyyət etdiyi dövrdə Ulu öndərin Azərbaycan Prokurorluğunun inkişafında müstəsna rolunu qeyd etmiş, məhz tarixdə ilk dəfə “Prokurorluq haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” və prokurorluğun fəaliyyətini tənzimləyən digər qanun və normativ aktların qəbul olunmasının Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulamışdır.

Birliyin üzvləri Durhəsən İmanov, Abisalam Heydərov, Nəriman Ələkbərov və Səyyaf Qubadov Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqına olan xidmətlərindən danışmışdır.

Tədbirdə iştirak edən prokurorluğun gənc əməkdaşı Aqil Əli-zadə Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş və müasir dövrdə Prezident cənab İlham Əliyev tərəfindən davam etdirilən dövlətin gənclərə göstərdiyi qayğıdan və diqqətdən danışmışdır.

Tədbirin yekununda xatirə fotoşəkli çəkilmişdir.

# “Sosial təhlükədə olan uşaqların müdafiəsi üçün təxirəsalınmaz tədbirlər” mövzusunda Seminar-Müşavirə keçirilib








Avqustun 2-də Baş Prokurorluqda “Sosial təhlükədə olan uşaqların müdafiəsi üçün təxirəsalınmaz tədbirlər” mövzusunda Seminar-Müşavirə keçirilmişdir.

Baş prokurorun müavini Elmar Camalovun sədrliyi ilə keçirilən tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi, Ədliyyə və Səhiyyə nazirliklərinin, Ailə Qadın və Uşaq Komitəsinin, Bakı Şəhər İcra Hakimiyyətinin, Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və Şirvan şəhərlərinin İH və Abşeron RİH yanında Qəyyumluq və Himayəçilik Komissiyaları, həmin rayonların cinayət təqibindən kənar məsələlər üzrə fəaliyyət göstərən prokuror köməkçiləri iştirak etmişlər.

Seminar-müşavirə qarışıq, yəni birbaşa və videoformat rejimlərində iştirak formatında keçirilmişdir.

Seminar-müşavirədə bir illik fəaliyyəti ərzində Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən aşkar olunmuş və araşdırılmış az-

yaşlı uşaqların hüquqlarının pozulması və müvafiq qanuni tədbirlərin görülməsi təcrübəsi müzakirə edilmişdir.

Tədbir zamanı sosial təhlükədə olan uşaqların hüquqlarının müdafiəsi sahəsində səlahiyyətli ekspert qurum olan icra hakimiyyəti nəzdində Qəyyumluq və Himayəçilik Komissiyalarının sədrləri - icra hakimiyyəti başçılarının müavinləri və komissiyanın məsul katibləri görülmüş işlər, habelə prokurorluq orqanları ilə birgə əməkdaşlığın müstəsna rolundan bəhs etmişlər.

Tədbir zamanı uşaqların həyatına valideyn və kənar şəxslər tərəfindən edilən qəsdlər, onların həyatı və sağlamlıqları üçün təhlükə törədən hallar aşkarlandıqda prokurorluq orqanları tərəfindən əlaqələndirilmiş şəkildə həyata keçirilmiş tədbirlər, o cümlədən sorğuların verilməsi, lazımi sənəd və məlumatların toplanması, ekspertizaların keçirilməsi, analiz və rəylərin alınması proseduru seminar iştirakçılarının diqqətinə çatdırılmışdır.

Prokurorluq orqanlarının daxili işlər, sosial təminat, səhiyyə və ədliyyə orqanları, xüsusilə də, yerli icra hakimiyyəti orqanları ilə son dövrdə formalaşan əməkdaşlığının, hüquqları pozulmuş uşaqların müdafiəsi məqsədilə vaxtında lazımi tədbirlərin görülməsinin, o cümlədən bu cür hərəkətlərə yol verən valideynlərə qarşı prokurorluq tərəfindən valideynlik hüquqlarının məhdudlaşdırılması və alimentlərin alınmasına dair mülki iddiaların qaldırılmasının və həmin iddiaların haqlı olaraq məhkəmələr tərəfindən təmin olunmasının əhəmiyyətindən bəhs edən tədbir iştirakçıları bu səpkidə olan görüşlərin ölkəmizdə uşaq hüquqlarının qorunması, onların məişət zorakılığının qurbanlarına çevrilməsinin qarşısının alınması işində mühüm əhəmiyyət kəsb edəcəyindən əminliklərini bildirmişlər.

Tədbirin yekununda iştirakçılar qarşılıqlı əməkdaşlığın daimi fəaliyyətdə olan formata salınması ilə bağlı yekdil fikirlərini ifadə etmişlər.










# Baş Prokurorluğun əməkdaşları "Nizaminin süjet və obrazları" adlı sərgidə olublar

Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulmaqla Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq dövlət orqanlarında gənclərin potensialından daha səmərəli istifadə etmək, onlara peşə vərdişlərini aşılamaq və praktiki biliklərini artırmaq, yaradıcı və innovativ potensialının inkişaf etdirilməsini dəstəkləmək məqsədilə prokurorluq orqanlarında kompleks tədbirlər həyata keçirilir.

Bununla yanaşı, Respublika Baş Prokurorluğu tərəfindən milli ruhlu kadrların yetişdirilməsi, gənclərin mənəvi-estetik dünyagörüşünün formalaşdırılması, onların milli-mənəvi dəyərlərimiz haqqında maarifləndirilməsi kimi məsələlər də xüsusilə diqqət mərkəzində saxlanılır.

Həyata keçirilən bu tədbirlərin davamı olaraq, Prezident cənab İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə elan edilmiş "Nizami Gəncəvi İli" çərçivəsində cari ilin 10-11 avqust tarixlərində Heydər Əliyev Mərkəzində hazırda nümayiş etdirilən "Nizaminin süjet və obrazları" adlı sərgisinə koronavirus pandemiyası ilə bağlı sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq prokurorluq əməkdaşlarının qruplar şəklində ziyarəti təşkil olunub.

İştirakçılara məlumat verilib ki, Azərbaycan, Rusiya, İran, Özbəkistan təsviri incəsənət ustalarının əsərlərinin nümayiş olunduğu sərgidəki eksponatlar Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin illüstrasiya ənənəsini təqdim edir.

Ekspozisiyadakı əlyazma, xalça, keramika və kətan üzərində təsvir edilən sənət nümunələrini izləməklə şairin ədəbi dünyasına səyahət etmək imkanı qazanan ziyarətçilər Sərgidən zəngin təəssüratlarla ayrılıblar.











# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində nəzəri biliklərin artırılması və peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə tədris tədbiri keçirilib

Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə keçirilmiş 2021-ci ilin birinci yarımilinin yekunlarına həsr olunmuş geniş əməliyyat müşavirəsinin yekunu üzrə prokurorluq işçilərinin nəzəri və peşə hazırlığının artırılması, qanunvericiliyə edilən dəyişikliklərin mənimsənilməsi, istintaq, dövlət ittihamının müdafiəsi, cinayət təqibindən kənar fəaliyyət üzrə vahid təcrübənin formalaşdırılması, insan hüquq və azadlıqlarının müdafiəsi problemlərinin öyrənilməsi məqsədi ilə tədris tədbirlərinin təşkil olunması qərara alınmışdır.

Bununla bağlı Baş prokuror tərəfindən 29 iyul 2021-ci il tarixdə “İstintaq, dövlət ittihamının müdafiəsi və cinayət təqibindən kənar fəaliyyət üzrə vahid təcrübənin formalaşdırılması, habelə insan hüquq və azadlıqlarının müdafiəsi problemlərinin öyrənilməsi və qanunvericiliuə edilən dəyişikliklərin mənimsənilməsi” üzrə təlimlərin keçirilməsi haqqında Sərəncam imzalanmışdır.

Həmin Sərəncama əsasən cari ilin avqust-dekabr ayları ərzində prokurorluğun bütün fəaliyyət istiqamətləri üzrə işin səmərəliyinin artırılması məqsədilə müxtəlif aktual mövzuları əhatə edəcək silsilə tədris tədbirlərinin təşkil edilməsi nəzərdə tutulmuşdur.

Qeyd olunan tədbirlərdən birincisi 13 avqust 2021-ci il tarixində Baş Prokurorluğun Elm-Tədris Mərkəzində keçirilmişdir. Təlimdə dinləyici qismində Baş Prokurorluğun və Bakı şəhər Prokurorluğunun aidiyyəti idarə və şöbələrinin, Bakı şəhəri, o cümlədən respublikanın bir sıra rayon (şəhər) prokurorluqlarının məsul əməkdaşları cəlb olunmuşlar. Tədris zamanı müvafiq sahələr üzrə zəngin təcrübəsi olan mühazirəçilər tərəfindən dinləyicilərlə həyat və sağlamlıq əleyhinə cinayətlər üzrə vahid istintaq və məhkəmə təcrübəsinə aid məsələlər, o cümlədən qəsdən adam öldürməyə cəhd və sağlamlığa ağır zərər vurma, eləcə də xuliqanlıq niyyəti və ya xüsusi amansızlıqla adam öldürmə və sadə tərkibli qəsdən adam öldürmə cinayətlərinin tövsifi problemləri barədə geniş məlumat verilmiş, iştirakçıların maraq doğuran sualları cavablandırılmışdır.

Bununla yanaşı iştirakçılara Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ, insan hüquqları ilə bağlı qanunvericilik aktları, dövlət proqramları və beynəlxalq sənədlərlə yanaşı milli qanunvericiliyə edilmiş mühüm əlavə və dəyişikliklər, qüvvəyə minmiş yeni qanunlar, fərmanlar və sərəncamlar, habelə Konstitusiya və Ali məhkəmələrin plenum qərarları barədə ətraflı məlumat verilmişdir.














***

Bu qəbildən olan 27 avqust 2021-ci il tarixdə keçirilmiş növbəti tədris tədbirində dinləyici qismində Baş Prokurorluğun və Bakı şəhər Prokurorluğunun aidiyyəti idarə və şöbələrinin, Bakı şəhəri, o cümlədən respublikanın bir sıra rayon (şəhər) prokurorluqlarının məsul əməkdaşları onlayn şəkildə qoşularaq iştirak etmişlər.

Tədris zamanı mühazirəçilər tərəfindən dinləyicilərə “Cinayət işləri üzrə vurulmuş ziyanın ödənilməsi, mülki iddianı və xüsusi müsadirəni təmin etmək məqsədilə həyata keçirilməli tədbirlər: xarakterik pozuntular və onların aradan qaldırılması yolları” və “Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ, insan hüquqları ilə bağlı qanunvericilik aktları, dövlət proqramları və beynəlxalq sənədlər” mövzusunda mühazirələr deyilmiş, mövzular ətrafında geniş müzakirələr aparılmış, dinləyicilərin maraq doğuran sualları cavablandırılmışdır.

Tədbir zamanı həmçinin, milli qanunvericiliyə edilmiş mühüm əlavə və dəyişikliklər, qüvvəyə minmiş yeni qanunlar, fərmanlar və sərəncamlar, habelə Konstitusiya və Ali məhkəmənin plenum qərarları barədə ətraflı məlumatlar verilmişdir.














Növbəti tədris tədbiri 10 sentyabr 2021-ci il tarixdə “Zoom” proqramı vasitəsi ilə onlayn şəkildə keçirilmişdir. Tədbir zamanı müvafiq sahələr üzrə zəngin təcrübəsi olan mühazirəçilər tərəfindən dinləyicilərə “Azərbaycan Respublikası CPM-in 303-cü maddəsinə əsasən məhkəmənin hazırlıq iclasında cinayət işlərinin baxılmasına xitam verilməklə prokurora qaytarılmasına səbəb olan səciyyəvi kobud pozuntular” və “Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ, insan hüquqları ilə bağlı qanunvericilik aktları, dövlət proqramları və beynəlxalq sənədlər” mövzusunda mühazirələr deyilmiş, mövzular ətrafında geniş müzakirələr aparılmış, dinləyicilərin maraq doğuran sualları cavablandırılmışdır.

Tədbir zamanı həmçinin, milli qanunvericiliyə edilmiş mühüm əlavə və dəyişikliklər, qüvvəyə minmiş yeni qanunlar, fərmanlar və sərəncamlar, habelə Konstitusiya və Ali məhkəmənin plenum qərarları barədə dinləyicilərə ətraflı məlumatlar verilmişdir.

Tədbirin sonunda maraq doğuran digər suallar mühazirəçilər tərəfindən cavablandırılmış, eləcə də dinləyicilər arasında faydalı fikir mübadiləsi aparılmışdır.

Prokurorluq işçilərinin nəzəri bilikləri və peşə vərdişlərinin daha da inkişaf etdirilməsi istiqamətində müvafiq tədbirlər davam etdirilir.

## Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzi tərəfindən “Dövlət qulluğunda etik dəyərlər və davranış standartları” mövzusunda onlayn formada distant təlim keçirilmişdir




Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının 17 iyun 2021-ci il tarixli iclasının qərarı ilə Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzi (bundan sonra Təlim Mərkəzi) təsis edilmişdir. Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin eyni tarixli Sərəncamı ilə Təlim Mərkəzinin Əsasnaməsi təsdiq edilməklə, sözügedən Təlim Mərkəzin rəhbəri vəzifəsinə ictimai əsaslarla Elmi-Məsləhət Şurasının üzvü, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov təyin edilmişdir.









Dövlət qulluğunda çalışan əməkdaşların peşəkarlığının artırılması, fəaliyyətlərində innovativ metodların tətbiqi məqsədilə cari ilin sentyabrın 10-da Anti-korrupsiya Təlim Mərkəzi və Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə dövlət qulluqçuları üçün “Dövlət qulluğunda etik dəyərlər və davranış standartları” adlı təlim keçirilmişdir.

Tədbirdə iştirak edən Kamal Cəfərov dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənavi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunun formalaşdırılması, innovativ metodların tətbiqi, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması kimi mühüm məsələlər üzrə dinləyicilərə ətraflı məlumat vermiş, eləcə də dövlət orqanlarının və dövlət qulluqçularının nüfuzunun artırılması və möhkəmləndirilməsi, vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi məqsədi ilə tövsiyələrini təqdim etmişdir.

Tədbirin sonunda maraq doğuran suallar təlimçilər tərəfindən cavablandırılmış, eləcə də dinləyicilər arasında faydalı fikir mübadiləsi aparılmışdır.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində 2021-ci ildə prokurorluq orqanlarına qulluğa qəbul edilmiş və stajorluq keçən işçilər üçün hazırlıq kursu təşkil edilib

Azərbaycan Respublikası Baş prokurorunun 30.08.2021-ci il tarixli 13 №-li Sərəncamına əsasən, 2021-ci ildə prokurorluq orqanlarına qulluğa qəbul edilmiş və stajorluq keçən 92 nəfər işçi üçün Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən 2021-ci ilin sentyabr ayının 14-dən oktyabr ayının 4-dək Zoom proqramı vasitəsilə distant formada və canlı vaxt rejimində hazırlıq kursu təşkil edilmişdir.







Hazırlıq kursun tədris proqramı Baş Prokurorluğun "İşin Təşkili Qaydaları", cinayət, cinayət-prosessual, inzibati və presedent hüquqları, kriminologiya və kriminalistika, habelə prokurorluq orqanlarında tətbiq olunan informasiya kommunikasiya texnologiyaları üzrə praktiki və metodoloji bilikləri özündə əks etdirən mövzular üzrə 45 məşğələdən ibarət olmuşdur. Tədbirə təlimçi qismində Elm-Tədris Mərkəzinin əməkdaşları ilə yanaşı Baş Prokurorluğun, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və tabe prokurorluqların işçiləri, habelə Ədliyyə və Səhiyyə nazirliklərin mütəxəssisləri iştirak etmişlər. Ümumilikdə bu tədbirin keçirilməsinə müxtəlif formalarda prokurorluq və digər orqanların təxminən 130 nəfər işçisi cəlb olunmuşdur.

Təlimlər müasir informasiya-kommunikasiya texnologiyalardan geniş istifadə etməklə həyata keçirilmiş, dinləyicilərin və təlimçilərin bir qismi iş yerindən, təlimçilərin digər hissəsi isə Elm-Tədris Mərkəzində zəruri avadanlıqla təchiz edilmiş xüsusi otaqdan tədbirə qoşulmuşlar, tədris edilmiş məşğələlərin bir qismi dinləyicilərə təqdim edilmişdir.

Təlimlər uğurla başa çatdıqdan sonra 04.10.2021-ci il tarixdə dinləyicilərinin hazırlıq kurs zamanı əldə etdikləri bilik və bacarıqlarının müsahibə yolu ilə qiymətləndirilməsi təşkil edilmişdir. Qiymətləndirmə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisləri Talıb Cəfərov, Ramin Camalov və Fərid Dadaşov tərəfindən həyata keçirilmişdir. Müsahibə kursun Tədris proqramına daxil olan mövzular üzrə hazırlanmış suallar üzrə keçirilərək, dinləyicilərin biliklərinin məqbul və qeyri-məqbul üsulla qiymətləndirilməsi qaydasında təşkil olunmuşdur.

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 13.2-ci maddəsinə və Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın 247.4-cü bəndinə müvafiq olaraq müsahibənin göstəriciləri stajorların şəxsi işlərinə əlavə edilməsi üçün Baş Prokurorluğun Kadrlar idarəsinə göndərilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Hərbi Prokurorluqda əməliyyat müşavirəsi keçirilib



İyulun 17-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda 2021-ci ilin birinci yarımilində cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.

Müşavirədə məlumat verilib ki, ötən dövrlərdə olduğu kimi, 2021-ci ilin birinci yarımilində də Hərbi Prokurorluq orqanlarının fəaliyyəti səmərəli olub. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində qeydə alınmış cinayətlərin 99,2 faizi açılıb.

Qeyd edilib ki, hesabat dövründə insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi və bununla əlaqədar həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması, Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığının təmin edilməsi, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınması məqsədilə aidiyyəti dövlət qurumları ilə birgə bir sıra işlər görülüb. Hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılmasının səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli iş aparılmaqla, daxil olmuş müraciətlərə daha diqqətlə yanaşılaraq qaldırılan məsələlərin həlli istiqamətində tədbirlər görülüb.

Əməliyyat müşavirəsinin sonunda vurğulanıb ki, Hərbi Prokurorluğun kollektivi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə görülən böyük işlərdə və həyata keçirilən məhkəmə-hüquq islahatlarında yaxından iştirak edərək, ictimai-siyasi sabitliyin qorunması, qanunun aliliyinin təmin edilməsi, Silahlı Qüvvələrdə nizam-intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi üçün əllərindən gələni əsirgəməyəcək, cinayətkarlığa və dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək bütün hallara qarşı barışmaz mövqe tutacaq.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2021-ci ilin birinci yarımilində görülən işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilib



İyul ayının 12-də Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2021-c ilin birinci yarımilində görülən işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan kollegiya iclası keçirilib.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq qeyd etdi ki, Azərbaycan Respublikası yenidən müstəqillik əldə etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə sosial-iqtisadi və ictimai-siyasi həyatın bütün sahələrində respublikanın ardıcıl və sürətli inkişafına zəmin yaradan köklü və əsaslı islahatlar həyata keçirilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən müdrik siyasət nəticəsində respublikamız dünya miqyasında surətlə inkişaf edən, regionda aparıcı mövqeyə malik və ümumbəşəri demokratik dəyərlərə mühüm əhəmiyyət verən bir dövlətə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyev ideyalarının sədaqətlə davam etdirildiyi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bu gün özünün hərtərəfli inkişaf dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya hər səfəri, buradakı quruculuq, inkişaf prosesi ilə tanış olması, dövlət siyasətinin, xüsusilə də yeni sosial-iqtisadi layihələrin uğurla həyata keçirilməsi ilə bağlı yüksək təəssüratla ayrılması həm də Naxçıvanın uğurlu tarixi hesabatıdır. 2021-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "... Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır" kimi dəyərli fikirləri ilə Naxçıvan Muxtar Respublikası rəhbərinin əməyinə yüksək qiymət verməsi bizim hər birimizin üzərinə daha da yaxşı işləmək vəzifəsi qoymuşdur.

08 iyul 2021-ci il tarixdə keçirilən altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Naxçıvan Muxtar Resublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci ilin birinci yarımilində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunlarına dair məruzəsindəki "Hüquq mühafizə orqanları profilaktika tədbirlərini davam etdirməli, ictimai asayişin və sabitliyin qorunması daim diqqətdə saxlanılmalıdır." və "Naxçıvan Muxtar Respublikası Prokurorluğu qanunların icra və tətbiq olunmasına nəzarəti daha təsirli formada həyata keçirməlidir." kimi tövsiyə və tapşırıqlarını təmin etmək məqsədilə muxtar respublikanın prokurorluq orqanları digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi üçün işlərini qarşıya qoyulan yüksək tələblər səviyyəsində qurmalıdırlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 03 aprel 2019-cu il tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasının tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olarkən onlara startap layihələri və istintaq hərəkətlərinin aparılmasına aid slaydlar nümayiş etdirilib, həmçinin kitabxana fondu, prokurorluq orqanlarında müraciətlərə baxılması, ittihamı elanetmə qaydaları və ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında məlumatlar verilib.

Naxçıvan Muxtar Respublika Prokurorluğu orqanları Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə vətəndaşlar tərəfindən torpaqların özbaşına zəbt olunması, qanunsuz tikintilərin aparılması və torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsi hallarının qarşısının alınması üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirlərin görülməsini təmin etməyə çalışmışlar.

Qeyd olundu ki, muxtar respublika ərazisində hesabat dövründə 21 cinayət cinayət hadisəsinin qeydə alınması həmin rayon (şəhər) prokurorlarını ciddi düşündürməli, cinayətlərin baş verməmədən qarşısının alınması üçün digər hüquq-mühafizə orqanları ilə birlikdə qabaqlayıcı profilaktiki tədbirləri daha da gücləndirməli, bundan sonra cinayət hadisələrinin baş verməməsi və muxtar respublikanın cinayətsiz bir regiona çevrilməsi üçün müvafiq tədbirlər görülməlidir.

Peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi qeydə alınmayıb. Narkomanlar, yetkinlik yaşına çatmayanlar və sərxoşlar tərəfindən cinayət hadisələri törədilməsi halları qeydə alınmasa da əvvəllər məhkum olunanlar tərəfindən cinayət hadisələrinin törədilməsi halları qeydə alındığından bütün qabaqlayıcı-profilaktik tədbirlərdən səmərəli istifadə etməklə bu kateqoriyadan olan şəxslər tərəfindən bundan sonra da cinayət hadisələri törədilməsinin qarşısının alınması üçün zəruri tədbirlər görülməlidir.

Həyata keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində keçmiş illərdə baş verib qapalı qalan 1 cinayət işinin açılması təmin edilib. Lakin Muxtar Respublika Prokurorluğunun müvafiq şöbələri və tabe rayon (şəhər) prokurorları aidiyyəti orqanlarla əlaqəli şəkildə keçmiş illərdə baş verib qapalı qalan cinayətlərin açılması istiqamətində istintaq və əməliyyat-axtarış tədbirlərinin intensivliyinin və kəsərliliyinin artırılması üçün konkret tədbirlər müəyyənləşdirməlidirlər.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 1 fakt qeydə alınıb. Lakin bu xarakterli cinayət işlərinin istintaqı zamanı qanunvericiliklə müəyyən edilən normalara ciddi əməl edilməli, cinayəti doğuran səbəb və şərait öyrənilib onların aradan qaldırılması üçün rayon (şəhər) prokurorları bu sahəyə diqqəti artırmalı, təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilmələri təmin edilməli, həmçinin narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə profilaktiki işləri daha da gücləndirməlidirlər.

Qeyd olundu ki, muxtar respublikanın prokurorluq orqanlarında 9 cinayət işi istintaq olunub ki, onlardan 6 iş ittiham aktı ilə baxılması üçün aidiyyəti üzrə məhkəməyə, 1 iş istintaqın davam etdirilməsi üçün aidiyyətı üzrə göndərilib, 1 işin icraatına xitam verilib, 1 iş isə hesabat dövrünün sonuna qalıq qalıb. Törədilmiş və ya hazırlanan cinayətlər barədə prokurorluq orqanlarında 19 məlumat araşdırılıb.

Dövlət ittihamının müdafiəsi üzrə şöbənin əməkdaşlarının iştirakı ilə məhkəmələr tərəfindən 10 hazırlıq iclası keçirilərək məhkəmə baxışı təyin edilib, birinci instansiya məhkəmələrində baxılıb nəticə verilmiş 10 işdən 9 iş üzrə ittiham hökmləri

çıxarılıb, 1 iş üzrə isə tərbiyəvi xarakterli məcburi tədbir tətbiq edilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət və hərbi kollegiyaları tərəfindən ilkin baxışı keçirilərək məhkəmə baxışı təyin edilən 8 cinayət işindən 6 iş üzrə hökmlər və 1 iş üzrə tətbiq edilən tərbiyəvi xarakterli məcburi tədbirin tətbiq edilməsinə dair qərar dəyişdirilmədən saxlanılıb, 1 iş üzrə isə apellyasiya şikayətinin baxılmasına xitam verilib.

Muxtar Respublika Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar şöbəsinin əməkdaşlarının iştirakı ilə məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat üzrə 10 işə baxılaraq nəticə verilib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik və qanunlara riayət edilməsi təmin edilib. Cinayət işlərinin ibtidai istintaqı və məlumatların həlli zamanı cinayət-prosessual qanunvericiliyin tələblərinə əməl edilib. Naxçıvan Muxtar Respublikasının Daxili işlər orqanlarında 11, Dövlət Gömrük Komitəsində 1, Dövlət Təhlükəsizlik Xidmətində isə 1 cinayət işi istintaq olunub.

Qeyd olundu ki, cinayət törədərək istintaq və məhkəmə orqanlarından qaçıb gizlənən 1 şəxs tutularaq istintaq və məhkəmə orqanına təhvil verilib.

Muxtar respublika üzrə qeydə alınan yol nəqliyyat hadisələri nəticəsində 12 nəfər ölmüş, 17 nəfər isə xəsarət almışdır. Ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının tam alınmaması həmin hadisələrin profilaktikası istiqamətində tədbirlərin həyata keçirilməsinə ciddi zərurət yaradır.

Muxtar Respublikasının Prokurorluq orqanlarının iş planlarında nəzərdə tutulan bütün məsələlər vaxtında və keyfiyyətli icra olunmuş, iş planlarının icrası zamanı inzibati qanunvericiliyin tələblərinin pozulması halları aşkar edildiyindən yol verilən qanun pozuntularının və nöqsanların aradan qaldırılması üçün Naxçıvan Muxtar Respublikası Daxili işlər orqanlarına 2,  Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq şöbəsinə isə 1 təqdimat verilib.

Qeyd olundu ki, Prokurorluq orqanlarına vətəndaşlardan 36 müraciət daixl olub, 190 nəfər qəbul edilib.

Qanunvericiliyin izahı, əhalinin hüquqi maarifləndirilməsi və hüquqi biliklərin təbliği ilə əlaqədar kütləvi informasiya vasitələrində 123 dəfə, o cümlədən televiziyada 12, radioda 7, mətbuatda 95, internet səhifələrində isə 97 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilib. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun 12 bölmədən və 36 altbölmədən ibarət yeni veb-saytı fəaliyyət göstərir. Prokurorluğunun veb-saytında rəsmi tədbirlər mütəmadi olaraq öz əksini tapır. Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi tərəfindən veb-saytda və "Nuhçıxan" İnformasiya Agentliyində təşkil olunan "Hüquq guşəsi"ndə vətəndaşlar tərəfindən daxil olan suallar onlayn qaydada hüquqi cəhətdən cavablandırılır, Naxçıvan televiziyasında təşkil olunan "Qanunçuluq" proqramında və Naxçıvan radiosunda təşkil olunan "Hüquq maarifi" verilişlərində hüquqi maarifləndirmə tədbirləri həyata keçirilir, həmçinin hüquqi maarifləndirmə ilə bağlı naxçıvanxeberleri.com saytı ilə əməkdaşlıq edilir.

Kadr işinin əsas istiqamətləri kimi kadrların seçilib yerləşdirilməsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunub. Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri ilə 1 nəfər "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib, 1 nəfərə mükafatlandırma qaydasında vaxtından əvvəl növbəti xüsusi rütbə dərəcəsi verilib, 4 nəfərə isə "Təşəkkür" elan edilib. Naxçıvan Muxtar Respublikasının prokurorunun müvafiq əmrləri ilə 1 prokurorluq işçisi və 1 dövlət qulluqçusu "Fəxri fərmanla" təltif edilib, 1 nəfər Naxçıvan Muxtar Respublikası Prokurorunun, 1 nəfər isə Azərbaycan Respublikası Baş Prokurorunun əmri ilə yuxarı təsnifat vəzifəyə təyin olunub.

Sonda əminliklə ifadə olundu ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin etimad və qayğısı nəticəsində demokratik məzmunda tamamilə yenidən formalaşmış Azərbaycan Prokurorluğunun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi bundan sonra da muxtar respublikanın digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirləri görəcək, Azərbaycan Respublikasının daha da qüdrətlənməsi naminə sədaqətlə xidmət edəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar oldu.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu üzrə hüquqi tənzimləmə təkmilləşdirilib

Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları" Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmişdir.




Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarında və Azərbaycan Respublikası Baş Prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmrində Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nın tələbləri rəhbər tutulmaqla, qısa müddət ərzində Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "İşin Təşkili Qaydaları"nın hazırlanıb müvafiq qaydada təsdiq edildikdən sonra, həmin qaydalarla əhatə olunan fəaliyyət sahələrinə dair qüvvədə olan əmr və digər normativ xarakterli hüquqi sənədlərin siyahısı müəyyənləşdirilməklə, onların tam və hissəvi ləğv olunması üçün zəruri tədbirlərin görülməsinin təmin edilməsi qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında idarəçilik, icra və intizam, kadrlarla iş, sənədlərin dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkilini, səlahiyyətləri dəqiq təsbit edilmiş struktur qurumları və rayon (şəhər) prokurorluqları ilə münasibətlərin tənzimlənməsini müasir tələbələr səviyyəsində təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğu üzrə 25 avqust 2020-ci il tarixli 07/12-S saylı Sərəncamla təşkil edilmiş İşçi qrupu tərəfindən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun "İşin Təşkili Qaydaları"nın layihəsi hazırlanaraq müzakirəsi keçirilmiş, irəli sürülən təkliflər nəzərə alınaraq təkmilləşdirilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğundan daxil olmuş 21 dekabr 2020-ci il tarixli 15/489-1366 saylı məktubla Naxçıvan Muxtar Respublikası Prokurorluğunun "İşin Təşkili Qaydaları"nın layihəsinə baxılaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Kollegiya iclasında təsdiq edilməklə Naxçıvan Muxtar Respublikası prokurorunun əmri ilə icraya yönəldilməsi məqsədəmüvafiq hesab edildilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun 07 yanvar 2021-ci il tarixli Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Prokurorluğunun "İşin Təşkili Qaydaları" təsdiq edilmiş və Naxçıvan Muxtar Respublikası prokurorunun 07 yanvar 2021-ci il tarixli 09/03 nömrəli əmri ilə icraya yönəldilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun 07 yanvar 2021-ci il tarixli Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "İşin Təşkili Qaydaları" təsdiq edilməklə, eyni zamanda qeyd olunan normativ sənədlə əhatə olunan idarəçilik, icra və intizam, kadrlarla iş, sənədlərin dövriyyəsi, prosessual rəhbərlik və nəzarət, struktur qurumların tabe rayon (şəhər) prokurorluqları ilə münasibətlər, struktur qurumların səlahiyyətləri və sair sahələrə dair Naxçıvan Muxtar Respublikası prokurorunun qüvvədə olan əmr və digər normativ xarakterli sənədlərinin siyahısı müəyyənləşdirilməklə onların ləğv olunması üçün zəruri tədbirlərin görülməsi qərara alınmışdır.

Naxçıvan Muxtar Respublikası prokurorunun 07 yanvar 2021-ci il tarixli 09/04 nömrəli əmri ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun "İşin Təşkili Qaydaları"nın qüvvəyə minməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğu üzrə bəzi əmr və digər normativ xarakterli sənədlərin ləğv edilməsi təmin edilmişdir.

Ötən müddət ərzində qanunvericiliyə edilmiş dəyişikliklər, o cümlədən Qaydaların tətbiqi prosesində ortaya çıxan çətinliklər daha da təkmilləşdirilməsi məqsədilə Qaydalara normayaratma fəaliyyətinin mütənasiblilik, sistemlilik və digər prinsiplərinə uyğun olaraq dəyişikliklər edilməsini zəruri etmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun 2021-c il 8 iyun tarixli Kollegiya iclasında Baş Prokurorluğun "İşin təşkili qaydaları"nda dəyişikilər təsdiq edilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorunun 08 iyun 2021-ci il tarixli 15/16 nömrəli əmrinin 2-ci bəndində Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda təsdiq edilmiş dəyişikliklərə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda da dəyişikliklərin edilməsi nəzərdə tutulmuşdur.

Qeyd olunanlara əsasən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun "İşin Təşkili Qaydaları"na dəyişikliklər edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğunun struktur qurumları və rayon (şəhər) prokurorluqları tərəfindən irəli sürülmüş təkliflər İşçi qrupu tərəfindən müzakirə edilərək təkmilləşdirilmiş və hazırlanmış layihə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Kollegiyasının müzakirəsinə çıxarılmışdır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun 16 iyul 2021-ci il tarixli Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "İşin Təşkili Qaydaları" təsdiq edilmiş və Naxçıvan Muxtar Respublikası prokurorunun 16 iyul 2021-ci il tarixli 09/85 nömrəli əmri ilə icraya yönəldilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun "İşin Təşkili Qaydaları"na əsasən prokurorluq işçilərinin xidməti geyim formalarından istifadə qaydalarındakı yeniliklər, prokurorluq orqanlarının kadr təminatı, peşə hazırlığı, maddi-texniki təminatı və sosial müdaiəsi, cinayət təqibi və ibtidai araşdırmaya prosessual rəhbərlik, cinayət təqibindən kənar icraatlar şöbəsinin inzibati xətalara dair işlər üzrə icraata prokuror nəzarəti ilə bağlı səlahiyyətləri inzibati xətalar üzrə qanunvericiliyə edilmiş dəyişikliyə uyğunlaşdırılması, hesabatların təqdim edilməsi və Baş Prokurorluğun Kollegiyası və Kompleks yoxlama işinin təşkilinə dair müddəaların tətbiqi zamanı yaranan praktiki çətinliklərin aradan qaldırılıması və digər texniki xarakter daşıyan dəyişikliklər edilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun "İşin Təşkili Qaydaları"na edilmiş dəyişikliklər muxtar respublikanın prokurorluq əməkdaşlarının xidməti fəaliyyətininin səmərəliliyini daha da artıracaqdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Qarabağlar Türbə Kompleksində olublar



Milli mədəniyyətimizin zəngin keçmişini özündə əks etdirən nümunələrdən biri də tarixi abidələrimizdir. Tarixi abidələr yerləşdiyi ərazinin möhürü, tarixi keçmişini təsdiq edən pasportudur. Qədim Naxçıvan da məhz çoxsaylı abidələri ilə xalqımızın milli mədəniyyətinin yaranması və formalaşmasına təsir edən zəngin diyardır. Bu diyarın köksündəki yüzlərlə abidə dünənimizdən bu günümüzə uzanan yolda bu zənginliyin təqdimatçılarıdır. Elə bu yazıda söhbət açacağımız Qarabağlar türbəsi də maddi-mədəni irsimizlə yanaşı, həm də dövlətçilik tariximizi özündə yaşadan abidələrdəndir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun əməkdaşları da Muxtar Respublikada keçirilən "Muzey günləri"ndə yaxından iştirak edirlər. Prokurorluq əməkdaşları iyul ayının 31-də Qarabağlar Türbə Kompleksində olmuşlar.

Kompleksə tanışlıq zamanı bələdçi tərəfindən məlumat verildi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamına uyğun olaraq Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-İslam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksində bərpa işləri iki il davam etmişdir. Abidə üzərində bərpa işləri elmi və tarixi əsaslarla aparılmışdır. Qarabağlar Türbə Kompleksi qoşa minarə və onları birləşdirən baştağ, xanəgah və türbədən ibarətdir. Kompleksin əsasını türbə təşkil edir. Bu türbə qülləvarı xatirə tikintilərinə aiddir və on iki yarımsilindrin birləşməsindən ibarətdir. Diametri 10 metrə yaxın olan, hazırkı vəziyyətdə hündürlüyü 16 metrə çatan Qarabağlar türbəsinin 4 baştağı vardır. Baştağlarının dördünün də baş tərəfində müqəddəs “Qurani-Kərim”in “əl-Mumin” surəsindən 16-cı ayənin son hissəsi yazılmışdır.

Məlumat verildi ki, bu gün türbə kompleksinə gələn ziyarətçilərin ən çox diqqətini çəkən məqamlardan biri də onun xanəgah hissəsində sərgilənən eksponatlardır. Burada məişətimizə aid müxtəlif əşyalar, o cümlədən ərazidə aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələri qoyulmuşdur. Eksponatlar içərisində saxsı və mis qablar, daş dəstər və həvəngdəstələr, həmçinin toxuculuq nümunələri Qarabağların zəngin mədəni irsə malik yurd yeri olduğunu göstərir. Eyni zamanda buradakı ekspozisiyada Qarabağlar Türbə Kompleksinin bərpadan əvvəl və sonra çəkilmiş fotoşəkilləri, kətan üzərində yağlı boya ilə işlənmiş “Qarabağlar türbəsi” rəsmləri, Naxçıvanın tarixi və kompleks haqqında məlumatları özündə əks etdirən kitablar nümayiş etdirilir.

Qarabağlar Türbə Kompleksi Əcəmi Naxçıvani memarlıq məktəbinin davamı, görkəmli memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsi, dövlətçilik irsimiz və mədəni sərvətimizdir.

Sonda əməkdaşları maraqlandıran suallar kompleks bələdçisi tərəfindən cavablandırıldı.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

# Bakı şəhər prokurorluğunda videokonfrans formatında əməliyyat müşavirəsi keçirilib




İyulun 17-də Bakı şəhər prokurorluğu orqanları tərəfindən 2021-ci ilin birinci yarımili ərzində cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluğun möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş videokonfrans formatında əməliyyat müşavirəsi keçirilmişdir.

Hesabat məruzəsi ilə çıxış edən Bakı şəhər prokuroru İlqar Abbasov bildirmişdir ki, Bakı şəhərində 2020-ci ilin birinci yarımilində prokurorluq və daxili işlər orqanları üzrə cəmi 5362 törədilmiş cinayət hadisəsi qeydə alındığı halda, 2021-ci ilin birinci yarımilində 630 hadisə artaraq 5992 hadisə qeydə alınmış, ağır və xüsusilə ağır cinayətlərin sayı 286 vahid artaraq 1075 olmuş, qeyd olunan cinayət hadisələrinin açılma faizi 86,7% olmuşdur.

Qeyd olunmuşdur ki, hesabat dövründə ötən illə müqayisədə qəsdən adam öldürmə cinayətlərinin sayı 2 fakt artaraq 25 cinayət hadisəsi qeydə alınmışdır ki, onlardan Bakı şəhərinin tabe rayon prokurorluqlarında ibtidai istintaqı aparılan bütün cinayət işlərinin açılması təmin edilmişdir.

Bildirilmişdir ki, 2020-ci ilin birinci yarımili ilə müqayisədə hesabat dövründə 20 quldurluq hadisəsi qeydə alınmışdır ki, bu ötən illə müqayisədə 8 hadisə az olmuş, həmin hadisələrdən 1-i bağlı qalmışdır.

Ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin sayı 2020-ci ilin birinci yarımili ilə müqayisədə 7 hadisə azalaraq 89 hadisə olmuş, onlardan hamısının açılması təmin edilmişdir.

Vurğulanmışdır ki, Bakı şəhərinin prokurorluq və polis orqanları tərəfindən digər illərdə olduğu kimi 2021-ci ilin birinci yarımilində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilmiş, hesabat dövründə bu qəbildən olan cinayətlərin aşkarlanması ilə bağlı 711 fakt (1590), satışla bağlı isə 266 (618) fakt artım qeydə alınmışdır.

Bakı şəhər prokuroru çıxışında narkomanlığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin hər bir vətəndaş üçün prioritet məsələlərdən biri olmasını, narkotik maddələrin satışı ilə məşğul olan mənbələrin müəyyən edilməsi ilə bağlı polis orqanları ilə birlikdə səmərəli qarşılıqlı fəaliyyətin gücləndirilməsini Bakı şəhərinin tabe rayon prokurorlarından tələb etmişdir.

Şəhərin prokurorluq və polis orqanları tərəfindən istintaq edilmiş işlərin təhlili aparılaraq qeyd edilmişdir ki, prokurorluğun icraatında olan 414 işdən 173-ü, daxili işlər orqanlarının istintaq qurumlarının icraatında olan 7737 cinayət işindən 2801-nin istintaqı tamamlanmışdır. Onlardan polis orqanları tərəfindən 2075, prokurorluq orqanları tərəfindən 88 iş baxılması üçün müvafiq məhkəmələrə göndərilmişdir.

Nəzərə çatdırılmışdır ki, hesabat dövründə prokurorluq orqanlarında istintaq edilmiş cinayət işləri üzrə fiziki və hüquqi şəxslərə vurulmuş 451.976 manat maddi ziyandan 147.652 manatı, polis orqanlarında aparılan işlər üzrə isə vurulmuş 15.971.959 manat məbləğində maddi ziyanın 9.653.280 manatı ödənilmişdir.

Əməliyyat müşavirəsində prokurorluq orqanlarında ziyanın ödənilməsi vəziyyəti qənaətbəxş hesab olunsa da, ibtidai araşdırma zamanı dəymiş ziyanın ödənilməsi göstəricisinin artırılması üçün zəruri tədbirlərin vaxtında görülməsi, cinayət yolu ilə əldə edilmiş əmlakın axtarılıb tapılması üçün intensiv istintaq-əməliyyat tədbirlərinin həyata keçirilməsi tapşırılmışdır.

Müşavirədə həmçinin qeyd olunmuşdur ki, vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşılmasının hər bir dövlət orqanının və məmurunun mühüm vəzifələrindən olması barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqları rəhbər tutularaq müraciətlərin obyektiv araşdırılması, şikayətləri yaradan səbəblərin aradan qaldırılmasına, qanunauyğun və ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilmişdir.

Vurğulanmışdır ki, Bakı şəhər prokurorluq orqanlarına 13466 müraciət daxil olmuş, onlardan 3225-i öz həllini tapmış, o cümlədən 1095-i təmin edilmişdir.

Nəzərə çatdırılmışdır ki, hesabat dövründə axtarışda olanların sayı 1384 nəfər olmuş, onlardan 947-si tutulmuş, 437 nəfər hazırda axtarışdadır.

Həmçinin qeyd olunmuşdur ki, 2021-ci ilin birinci yarımili ərzində itkin düşmüş 211 şəxs (2020-ci ilin müvafiq dövründə 184 şəxs) axtarışda olmuş, onlardan 146 (130) şəxs müəyyən edilərək barəsində axtarış işinə xitam verilmiş, 65 (54) şəxsin isə yerinin müəyyən edilməsi mümkün olmamışdır.

Əməliyyat müşavirəsində qeyd olunmuşdur ki, hesabat dövründə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılmışdır.

Müşavirədə bildirilmişdir ki, 2021-ci ilin birinci yarımili ərzində Baş Prokurorluq üzrə müvafiq əmrlərlə şəhər prokurorluq orqanlarının əməkdaşlarından əmək və icra intizamını pozan 2 nəfər intizam məsuliyyətinə cəlb edilmiş, onlardan 1 nəfər tutduğu vəzifədən azad olunmuş, 1 nəfərə irad tutulmuş, bundan əlavə 2021-ci ilin ilk altı ayı ərzində Azərbaycan Respublikası Baş prokurorunun əmrləri ilə xidməti fəaliyyətində fərqləndiklərinə görə Bakı şəhər prokurorluq orqanlarının əməliyyat işçilərindən 5 nəfər mükafatlandırılmışdır.

Əməliyyat müşavirəsində Bakı şəhərinin tabe rayon prokurorları məruzə edərək mövzu ətrafında çıxışlar etmiş, nöqsanların aradan qaldırılması üçün zəruri tədbirlərin görüləcəyi bildirilmişdir.

Əməliyyat müşavirəsinə yekun vuran Bakı şəhər prokuroru İlqar Abbasov şəhər prokurorluğunun kollektivinin bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunmasını, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsini, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcəklərinə əminliyini ifadə etmişdir.


BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyev videoformatda çıxış edib.
BEYNƏLXALQ ENERJİ ŞİRKƏTLƏRİNİ AZƏRBAYCANIN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ YAŞIL ENERJİ LAYİHƏLƏRİNƏ SƏRMAYƏ QOYMAĞA DƏVƏT EDİRƏM.
Qarabağ və Şərqi Zəngəzur Yaşıl Enerji Zonası elan edilib.
Azad olunmuş ərazilərin 7200 meqavat günəş enerjisi və 2000 meqavat külək enerjisi olmaqla, təsdiq edilmiş bərpa olunan enerji potensialı var.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Baş Prokurorluğun Mətbuat Xidmətinin MƏLUMATLARI

**Baş Prokurorluq Əli Əliyevə xəbərdarlıq etdi**

Azərbaycan Respublikasının Baş Prokurorluğunda aparılmış araşdırmalarla paytaxtın Yasamal rayon sakini Əli Əliyevin "Youtube" sosial şəbəkəsində çıxışlarında müxtəlif şəxslər barəsində böhtan və təhqir xarakterli ifadələr istifadə etməsi, vətəndaşlara qarşı zorakılıq etməyə yönələn çağırışlar etməsi, internet informasiya resurslarında qanunvericiliklə qadağan olunmuş məlumatlar yerləşdirməsi, həmçinin koronavirus (COVİD-19) pandemiyasına qarşı mübarizə sahəsində dövlət orqanları tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərin üzərinə kölgə salan, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına yönələn ifadələrə yol verməsi müəyyən edilmişdir.

Qeyd edilənlərlə əlaqədar Əli Əliyev 22.09.2021-ci il tarixdə Baş Prokurorluğa dəvət edilərək "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə əsasən, mətbuatda çıxışları zamanı yol verdiyi qanun pozuntularından çəkinməsi, qanunsuz əməllərə davam edəcəyi təqdirdə barəsində qanunvericilikdə nəzərdə tutulmuş daha ciddi tədbirlərin görüləcəyi barədə xəbərdarlıq edilmişdir.

***

**"Azərxalça" ASC-nin İdarə heyətinin sədrinin barəsində olan cinayət işi məhkəməyə göndərilmişdir**

"Azərxalça" ASC-nin İdarə heyətinin sabiq sədri Vidadi Muradovun qanunsuz əməlləri ilə əlaqədar daxil olmuş materiallar əsasında aparılmış araşdırma nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin istintaqı yekunlaşdırılmışdır.

Belə ki, aparılmış istintaq-əməliyyat tədbirləri ilə Vidadi Muradovun qeyd olunan vəzifədə işləyərkən təsisçisi olmaqla faktiki rəhbərliyi həyata keçirdiyi "Azər-İlmə" MMC-nin Bakı şəhəri ərazisində yerləşən inzibati binasının "Azərxalça" ASC-yə mövcud bazar qiymətlərindən yüksək qiymətə icarəyə verilməsi, "Azərxalça" ASC-yə məxsus pul vəsaitinin xalça istehsalı üçün nəzərdə tutulan ipin alınması üçün formal müqavilənin bağlanması yolu ilə ayrı-ayrı hüquqi şəxslərə məxsus bank hesablarına köçürülərək sonradan nağdlaşdırılması, ölkə ərazisində tikintisi həyata keçirilmiş 23 müəssisə üzrə smeta sənədlərində iş həcmlərinin və qiymətlərin əsassız olaraq şişirdilməsi, işlərin daha ucuz və keyfiyyətsiz işlərlə əvəz edilməsi və ya yerinə yetirilməməsi və digər qanunsuz üsullarla ona etibar edilmiş ümumilikdə 21 milyon 673 min manat məbləğində pul vəsaitini mənimsəmə və israf etmə yolu ilə talaması, habelə xüsusilə külli miqdar təşkil edən cəmi 640 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən qəsdən yayınması, vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi və vəzifə saxtakarlığına yol verməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

İş üzrə toplanmış kifayət qədər sübutlar əsasında Vidadi Muradova Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə və ya israf etmə- xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 213.3 (vergiləri ödəməkdən yayınma- xüsusilə külli miqdarda törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə- ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilərək məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmiş və cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

İstintaq zamanı dövlətə dəymiş ziyanın ödənilməsi məqsədilə təqsirləndirilən şəxs Vidadi Muradov və onun ailə üzvlərinin adlarına olan ümumi dəyəri 30 milyon 587 min manat təşkil edən yaşayış və qeyri-yaşayış sahələri, habelə "Azər-İlmə" MMC-nin səhm paylarının və aktivlərinin üzərinə məhkəmə qərarı ilə həbs qoyulması təmin edilmişdir.

Vidadi Muradovla birgə cinayət əməllərinin törədilməsində iştirak etmiş digər şəxslər barəsində cinayət işi ayrıca icraata ayrılaraq istintaq davam etdirilir.

***

**Qanunsuz olaraq pul müqabilində vətəndaşlara saxta "Covid-19" vaksin sertifikatı təqdim edən şəxslərin qanunsuz əməlləri ifşa edilmişdir**

Bakı şəhəri ərazisində qanunsuz olaraq pul müqabilində vətəndaşlara "Covid-19" əleyhinə peyvənd vurulmadan vaksin serifikatının və aidiyyəti qurumlara təqdim etmək üçün saxta arayışlar verilməsi barədə daxil olmuş məlumat əsasında həyata keçirilmiş təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313 (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanmışdır.

Aparılmış istintaq-əməliyyat tədbirləri ilə Bakı şəhəri 20 saylı şəhər poliklinikasında həkim-terapevt Günay Hüseynovanın həmin poliklinikada tibb bacısı Nailə Musayeva, Abşeron Rayon Mərkəzi Xəstəxanası PHŞ-nın Mehdiabad Ailə Sağlamlıq Mərkəzində mama-ginekoloq Esmira Xudayarova, Mərkəzi Dəmir Yol Xəstəxanasının həkim–terapevti Bəsdi Behbudova və "Paşa-K" firmasının reklam üzrə mütəxəssisi İlahə Quliyeva ilə cinayətkar əlaqəyə girərək tamah niyyəti ilə Bakı şəhəri ərazisində 100 nəfərdən artıq şəxsin hər birindən 200-250 manat məbləğdə pul alınması müqabilində "Covid-19" əleyhinə peyvənd vurulmadan vaksin sertifikatının verilməsini, qeydiyyata alınmasını, vətəndaşlar barədə "E-Təbib" portalında mövcud olan məlumatların dəyişdirilməsini təşkil etmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi və məsuliyyətə cəlb edilməsi istiqamətində əməliyyat-istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

***

**9 il əvvəl ərini öldürməkdə təqsirləndirilən şəxs barəsində cinayət işi məhkəməyə göndərilmişdir**

Xəbər verildiyi kimi, Neftçala rayonunda 9 il əvvəl törədilərək bağlı qalmış cinayətin açılması təmin edilmişdir.

Belə ki, 09.02.2013-cü il tarixdə Neftçala rayon sakini Mənəfov Mayis Nazim oğlunun Neftçala şəhəri, M.Ə.Sabir küçəsində yerləşən qəbirstanlığın yanındakı kolluq ərazidə çürümüş vəziyyətdə meyitinin aşkar edilməsi faktı ilə bağlı Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmış, lakin cinayəti törətmiş şəxsin müəyyən edilməsi mümkün olmamışdır.

İstintaqla müəyyən edilmişdir ki, zərərçəkmişin arvadı Dilşad Mənəfova 27 dekabr 2012-ci il tarixdə birgə yaşadıqları evdə olarkən saat 21 radələrində əri Mayis Mənəfov ilə aralarında qısqanclıq zəminində yaranmış mübahisə zamanı sonuncunu öldürmək qərarına gələrək sərxoş vəziyyətindən istifadə edib mətbəx bıçağı ilə onun kürək nahiyəsinə zərbə vuraraq qəsdən öldürmüş, daha sonra törətdiyi cinayəti gizlətmək məqsədilə qardaşlarının köməkliyi ilə 28 dekabr 2012-ci il tarixə keçən gecə qonşuların yatmasından və ətrafda heç kimin olmamasından istifadə edib meyiti avtomobil ilə daşıyaraq qəbirstanlığın yanındakı kolluq əraziyə atmışdır.

12.07.2021-ci il tarixdə Dilşad Mənəfova Cinayət Məcəlləsinin 120.1-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılaraq, baxılması üçün aidiyyəti üzrə Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

***

**Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin MƏLUMATI**

Daxil olmuş məlumat əsasında keçirilən müvafiq tədbirlər nəticəsində müəyyən edilib ki, Sabunçu rayonu Bakıxanov qəsəbəsində yerləşən Şəhər Poliklinikasında pul müqabilində bəzi vətəndaşlara dair məlumatların vaksinasiya prosesində iştirak etmədən “e-TƏBİB” elektron qeydiyyat sisteminə yerləşdirilməsi və bununla da həmin şəxslərin guya vaksinasiya olunmaları ilə bağlı saxta COVİD-19 pasportu ilə təmin edilməsi həyata keçirilir. Paytaxtın Nizami Rayon Polis İdarəsinin 25-ci Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat zamanı bu qanunsuz fəaliyyətlə məşğul olmaqda şübhəli bilinən paytaxt sakini S.Həsənova, tanışları həmin poliklinikanın sahə həkimi R.Əliyeva və qeyd edilən tibb müəssisəsinin həkim-terapevti G.Mədətzadə saxlanılıblar.

Aparılan araşdırmalar zamanı məlum olub ki, onlar qabaqcadan əlbir olaraq müraciət edən bəzi vətəndaşlara pul müqabilində xəstəxanaya belə gəlmədən guya vaksinasiyadan keçib peyvənd olunmalarını özündə əks etdirən saxta sənəd təqdim ediblər.

Əməliyyat tədbirlərinin davamı olaraq S.Həsənovanın yaşadığı evdən və R.Əliyevanın əl çantasından xeyli sayda peyvəndin 1-ci və 2-ci dozasının vurulmasına dair saxta pasportlar aşkar edilib.

Həmçinin R.Əliyevadan pul müqabilində guya peyvənd olunmuş şəxs kimi qeydiyyata düşmək üçün ona müraciət edən müxtəlif vətəndaşlara məxsus şəxsiyyət vəsiqələri və sürətləri, eləcə də bu qanunsuz fəaliyyət nəticəsində əldə etdiyi pul vəsaiti aşkar olunub.

Faktla bağlı Nizami Rayon Prokurorluğunda araşdırmalar aparılır.

Bir məqam xüsusi olaraq vurğulanmalıdır ki,bu istiqamətdə həyata keçirilən tədbirlər koronovirusla mübarizədə fədakar fəaliyyətləri ilə xalqımızın böyük rəğbətini qazanan qəhrəman həkim və tibb işçilərinin əməyinə əsla kölgə salmamalıdır. Onlar həmişə olduğu kimi bu gündə hər birimizin sağlamlığının keşiyində əzmlə dayanıblar.

Baş Prokurorluq və Daxili İşlər Nazirliyi vətəndaşlara bir daha müraciət edərək koronavirus əleyhinə peyvənd vurulması ilə əlaqədar saxta sənəd verilməsi halları ilə üzləşdikdə “102” Xidməti Zəng Mərkəzi, "961" nömrəli "Çağrı Mərkəzi", "161" nömrəli "Qaynar xətt" əlaqə mərkəzi, o cümlədən Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdəki səhifələri vasitəsilə məlumat verilmələrini xahiş edir.

***

**Lənkəranda ağacların qanunsuz kəsilməsi faktı ilə bağlı cinayət işi başlanmışdır**

Lənkəran rayonunda yerləşən “Pambəhi” ailəvi istirahət mərkəzinin ərazisində ağacların qanunsuz kəsilməsi barədə daxil olmuş material əsasında Lənkəran rayon prokurorluğunda araşdırma aparılmışdır.

Araşdırmalarla Lənkəran Regional Meşə Təsərrüfatı Mərkəzinin Osaküçə meşəbəyliyinin 10 saylı dolayında yerləşən qeyd edilən ailəvi-istirahət mərkəzinin sahibi, hüquqi şəxs yaratmadan fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan Firad Həbibov tərəfindən həmin ərazidə yerləşən 40 və 60 sm diametrli 2 ədəd ağacın qanunsuz kəsilməsi nəticəsində təbiətə ümumilikdə 13 min manat məbləğində maddi ziyanın dəyməsi müəyyən edilmişdir.

Faktla bağlı Lənkəran rayon prokurorluğunda Cinayət Məcəlləsinin 259.1 (meşələrdə və ya xüsusi mühafizə olunan təbiət ərazilərində ağacların, kolların və ya digər yaşıllıqların qanunsuz kəsilməsi xeyli miqdarda ziyan vurduqda), 188.2 (Qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işlərini aparma) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanmışdır.

Hazırda istintaqı aparılan cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları, ətraf mühitə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi və nəticələrinin aradan qaldırılması istiqamətində zəruri tədbirlər davam etdirilir.

***

**Vəzifəli şəxslərin qanunsuz əməlləri ifşa edilmişdir**

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhər Sabunçu rayon idarəsinin vəzifəli şəxslərinin qanunsuz əməllərinə dair həmin Xidmətdən daxil olmuş material üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanaraq ibtidai istintaqı aparılır.

İstintaqla Babayev Rövşən Əlixan oğlunun 08.11.2016-cı il tarixdən 08.05.2019-cu il tarixədək müddət ərzində SHXÇDX-nin Bakı şəhər Sabunçu rayon idarəsinin rəisi vəzifəsində işləyərkən idarənin Həqiqi hərbi xidmətə çağırış şöbəsinin baş zabiti Hüseynov Yaşar Ağahüseyn oğlu (hazırda SHXÇDX-nin Xəzər rayon idarəsinin şöbə rəisi) və digər şəxslərlə birgə qanuni əsaslar olmadan 11 şəxsin hərbi xidmətə yararsız hesab edilməsi müqabilində müxtəlif məbləğdə pul vəsaitini rüşvət qismində alması, vəzifə səlahiyyətlərindən sui-istifadə, habelə vəzifə saxtakarlığı etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Rövşən Babayev və Yaşar Hüseynova Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 341.2.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma bir qrup şəxs tərəfindən törədildikdə), 341.2.3 (vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma, ağır nəticələrə səbəb olduqda), 311.3.1 (rüşvət alma, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə), 311.3.2 (rüşvət alma, təkrar törədildikdə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilmişdir.

Prokurorluğun təqdimatı əsasında məhkəmə tərəfindən Rövşən Babayev barəsində həbs, Yaşar Hüseynov barəsində isə vəzifədən kənarlaşdırma, eləcə də istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilmişdir.

Hazırda yuxarıda göstərilən cinayət əməllərinin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin müəyyən edilməsi məqsədilə intensiv istintaq hərəkətləri davam etdirilir.

Babayev Rövşən Əlixan oğlunun qanunsuz əməllərindən zərər çəkmiş şəxslərdən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161 - Qaynar xətt" əlaqə mərkəzinə müraciət etmələri xahiş olunur.

***

**Gəlinini qəsdən öldürməyə cəhd etməkdə şübhəli bilinən şəxs tutularaq istintaqa cəlb edilmişdir**

Avqustun 8-də saat 02 radələrində Şəmkir rayonu ərazisində 1985-ci il təvəllüdlü Qasımova Səma Vilayət qızının odlu silahdan atəş açılması nəticəsində xəsarətlər alması barədə məlumat daxil olmuşdur.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilmiş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış araşdırmalarla müəyyən edilmişdir ki, avqustun 07-də, saat 23 radələrində Şəmkir rayonu, Yeni-Həyat kənd sakini, 1959-cu il təvəllüdlü Sahib Həsənov yaşadıqları evdə şəxsi münasibətlər zəminində oğlunun arvadı - gəlini Səma Qasımovaya ov tüfəngi ilə iki dəfə atəş açmaqla onu qəsdən öldürməyə cəhd etmişdir.

Faktla bağlı Şəmkir rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanmışdır.

Sahib Həsənov iş üzrə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilmişdir.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

***

**Saatlıda qohumuna saxta əlillik pensiyası düzəldən baş həkimə qarşı cinayət işi açılıb**

Saatlı rayon mərkəzi xəstəxanasında saxta əlillik dərəcəsinin verilməsi ilə bağlı daxil olmuş müraciət əsasında rayon prokurorluğunda araşdırma aparılmışdır.

Aparılmış araşdırmalarla müəyyən edilmişdir ki, Saatlı RMX-nın direktorunun müavini-baş həkimi işləyən Adəm Əliyev baş beyin qan dövranının pozulması xəstəliyinə görə müavinət almaq üçün ona müraciət edən qohumuna kömək etmək məqsədilə xəstəxananın digər vəzifəli şəxsləri ilə birlikdə əlbir olaraq sonuncunun adına tibbi sənədləri saxtalaşdırmış, belə ki, əmək qabiliyyətinin olmaması vərəqələrində göstərilən xəstəxanaların heç birində ambulator və ya stasionar qaydada müalicə olunmadığı halda bununla bağlı bilə-bilə yalan məlumatlar daxil edərək həmin şəxsə 01.06.2019-cu il tarixdən 31.12.2019-cu il tarixədək Dövlət Sosial Müdafiə Fondunun Saatlı rayon şöbəsi tərəfindən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə 2 min 976 manat məbləğində pul müavinətinin ödənilməsini təmin etmişdir.

Faktla bağlı Saatlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanmışdır.

Hazırda iş üzrə cinayət əməllərinə yol vermiş şəxslərin müəyyən edilərək istintaqa cəlb edilməsi istiqamətində zəruri istintaq hərəkətləri aparılır.

***

**Ağcabədi rayonunda tapılmış yeni doğulmuş körpə ilə bağlı prokurorluq tərəfindən zəruri tədbirlər görülmüşdür**

Əvvəllər kütləvi informasiya vasitələrində və sosial media səhifələrində xəbər verildiyi kimi, 22 iyul 2021-ci il tarixdə Ağcabədi rayonu, Hindarx qəsəbəsinin ərazisində yerləşən "Şəhidlər Xiyabanı"nın qarşısında sellofan

torbada yeni doğulmuş körpə sağ vəziyyətdə tapılmış və onun səhhətinin normal olması müəyyən edilmişdir.

Ağcabədi rayon prokurorluğu və rayon polis şöbəsinin əməkdaşlarının əlaqəli fəaliyyəti nəticəsində körpənin anası - Bərdə rayon sakini müəyyən edilmiş, sonuncu ilə profilaktik söhbətlər aparılmış, ana yeni doğulmuş uşağı ilə birlikdə Bərdə rayon Mərkəzi Xəstəxanasına yerləşdirilmişdir.

Eyni zamanda, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən ana və övladı nəzarətdə saxlanılaraq, sosial təhlükə vəziyyətinin aydınlaşdırılması, valideynlik hüquqlarının məhdudlaşdırılması üçün əsasların olub-olmamasının müəyyən edilməsi məqsədi ilə ananın yaşadığı yer üzrə Bərdə rayon İcra Hakimiyyəti yanında Qəyyumluq və Himayəçilik Komissiyasına müraciət edilmişdir.

***

**Əvvəlcədən vətəndaşlar kütləvi informasiya vasitələri və sosial media vasitəsilə məlumatlandırılaraq Baş Prokurorluğun instagram sosial şəbəkəsindəki səhifəsində prokurorluqla sual-cavab adlı sessiya keçirilib**




Avqustun 10-da saat 10:00-dan 13:00-dək Baş Prokurorluğun instagram sosial şəbəkəsindəki səhifəsində növbəti dəfə prokurorluqla sual-cavab adlı sessiya keçirilmişdir.

İctimaiyyət tərəfindən maraqla qarşılanan sessiya zamanı vətəndaşların sualları cavablandırılmış, eləcə də müraciətlər qeydə alınmışdır.

Sessiya zamanı 87 müraciət daxil olmuş, müraciətlərin dərhal Baş Prokurorluğun vəzifəli şəxsləri tərəfindən cavablandırılması təmin edilmişdir.

Növbəti sual-cavab sessiyasının tarixi barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

#prokurorluq #azgenprosecutor #prokurorluqlasualcavab

***

**Sentyabrın 21-də saat 10:00-dan 13:00-dək Baş Prokurorluğun "İnstagram" sosial şəbəkəsindəki səhifəsində növbəti sual-cavab sessiyası keçirilib**




Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən vətəndaşlar əvvəlcədən kütləvi informasiya vasitələri və sosial media vasitəsilə məlumatlandırılıb.

İctimaiyyət tərəfindən maraqla qarşılanan sessiya zamanı vətəndaşların sualları cavablandırılıb, eləcə də müraciətlər qeydə alınıb.

Sessiya zamanı 56 müraciət daxil olub, müraciətlərin dərhal Baş Prokurorluğun vəzifəli şəxsləri tərəfindən cavablandırılması təmin edilib.

Növbəti sual-cavab sessiyasının tarixi barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

***

**Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən ictimaiyyətə növbəti videomüraciət təqdim olunub**




Bildirilir ki, görülmüş tədbirlərə baxmayaraq ölkəmizdə qızların təhsildən yayındırılaraq erkən yaşda ərə verilməsi hələ də problem olaraq qalmaqdadır.

Erkən nikahlar əksər hallarda ailələrdə münaqişələrə, boşanmalara, anadangəlmə qüsurlu uşaqların dünyaya gəlməsinə və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur.

Ailə Məcəlləsinin 10-cu maddəsi qadınlar üçün nikah yaş həddini 18 yaş tamam olduqdan sonra təyin etmişdir.

Birmənalı olaraq yetkinlik yaşına çatmayan qızların məcburən nikaha daxilolma halı uşağa qarşı törədilən zorakılıqdır.

Bu kimi neqativ halların artmaması, qarşısının alınması hər birimizin əlindədir.

Erkən nikah halları ilə üzləşdikdə dərhal "961" Çağrı Mərkəzi və ya Baş Prokurorluğun sosial şəbəkələrdəki hesabları vasitəsilə müraciət edin!

#erkənnikahayoxdeyək #erkənnikahason




***

### 14. #heçbilirdinizmi? - "Tutulma" və "Həbs" anlayışları arasında fərq nədir?

Məlumat verildiyi kimi, prokurorluq orqanları tərəfindən modern dövrün tələblərinə uyğun olaraq müasir, vətəndaşa yönümlü, onları məmnun edən kompleks tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır.

Tədbirlərin davamı kimi, vətəndaş məmnunluğunun təmin olunması, eləcə də mühüm əhəmiyyət kəsb edən mövzularla bağlı maarifləndirmə işinin həyata keçirilməsi məqsədilə Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən prokurorluğun fəaliyyət sferaları ilə əlaqədar vətəndaşları maraqlandıran məsələlərlə bağlı maarifləndirici videoçarxların hazırlanaraq #heçbilirdinizmi? həştəqi altında ictimaiyyətə təqdim olunması qərara alınmışdır.

16.08.2021-ci il tarixində Mətbuat xidməti tərəfindən təqdim olunmuş videodaçarxda "Heç bilirdinizmi "Tutulma" və "Həbs" anlayışları arasında fərq nədir?" mövzusu ilə bağlı cinayət prosessual qanunvericiliyin tələbləri vətəndaşlarımıza izah edilmişdir.

Videonu Baş Prokurorluğun sosial şəbəkələrdə olan səhifələrindən, həmçinin veb-saytından izləyə bilərsiniz.

***

### Qanunsuz ağac kəsintisi, yaşıllıqların məhv edilməsi, meşələrə zərər vurulması halları ilə bağlı videomüraciət

Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən ictimaiyyətə növbəti videomüraciət təqdim olunub.

Videomüraciətdə bildirilir ki, təəsüflər olsun ki, son dövrlərdə ekoloji tarazlığın pozulmasına yönələn qanunsuz əməllər törədənlərin sayı artmışdır.

Əsasən də ağaclara zərər vurulması, yaşıllıqların məhv edilməsi insan sağlamlığı üçün birbaşa təhlükədir.

"Təbiətin ağciyərləri" adlandırılan ağaclar təbiətdə oksigen balansının təmin olunmasında əsas rol oynayır.

Meşə sahələrində və meşə fonduna daxil olmayan sahələrdə ağacların, kolların və digər yaşıllıqların qanunsuz kəsilməsi zədələnməsi və ya məhv edilməsi İnzibati Xətalar Məcəlləsinin 253-cü maddəsinə əsasən inzibati məsuliyyət yaratmaqla 45 min manatadək cərimə ilə nəticələnə bilər.




Qanunsuz ağac kəsmə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 259-cu maddəsinə əsasən cinayət məsuliyyəti yaratmaqla 6 ilədək müddətə azadlıqdan məhrum etmə ilə nəticələnə bilər.

Dövlətin ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın bərpa edilməsi istiqamətində həyata keçirdiyi siyasətə kölgə salan hallara qarşı prokurorluq orqanları tərəfindən mübarizə tədbirləri davam etdirilir.

Qanunsuz ağac kəsintisi, yaşıllıqların məhv edilməsi, meşələrə zərər vurulması halları ilə üzləşdikdə dərhal "961" Çağrı Mərkəzi və ya Baş Prokurorluğun sosial şəbəkələrdəki hesabları vasitəsilə müraciət edin!

"Təbiətə qarşı savaş halındayıq, əgər qalib gəlsək, məğlub olacağıq" Hubert Reeves

#təbiətiqoruyaq#ağaclarnəfəsdir#təbiətəsavaşaçma#ekolojicinayətəsusma


İlham Əliyevin “CNN Türk” televiziya kanalına müsahibəsi
BİZ MÜHARİBƏNİ LƏYAQƏTLƏ APARMIŞIQ VƏ SAVAŞA XAS OLAN BÜTÜN QAYDALARA RİAYƏT ETMİŞİK.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Azərbaycan Respublikası Prokurorluğu – 103




Hər il oktyabr ayının 1-də Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları öz peşə bayramlarını təntənə ilə qeyd edirlər.

Bu günün qeyd olunması tarixi zərurətdən yaranmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cumhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq, hər il oktyabr ayının 1-i Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli Sərəncam imzalamışdır.

Builki bayram milli prokurorluq orqanlarının yaradılmasının 103-cü ildönümünə təsadüf etmişdir. Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 103-cü ildönümünün qeyd edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev tərəfindən 04 sentyabr 2021-ci il tarixdə Tədbirlər Planı təsdiq edilmişdir.

Tədbirlər planına əsasən bir qrup prokurorluq əməkdaşının Ümummilli Lider Heydər Əliyevin məzarı və Şəhidlər xiyabanına ziyarətinin təşkil edilməsi, hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr arasında hüquqi biliklərə dair müsabiqənin təşkil edilməsi və qaliblərin mükafatlandırılması, prokurorluq işçilərinin könüllü ianələri hesabına şəhid və qazi övladlarına, uşaq evləri və internat məktəblərinə ziyarətlərin təşkili, Vətən Müharibəsində iştirak edən əməkdaşlar və şəhid olmuş prokurorluq işçilərinin ailə üzvləri və prokurorluğun veteranları ilə görüşün keçirilməsi, şahmat turnirinin keçirilməsi, habelə digər məzmunlu və faydalı tədbirlərin keçirilməsi təmin edilmişdir.

Jurnalın hazırki bölməsində cəmiyyətdə olduqca maraqla qarşılanan bu tədbirlər barədə ətraflı məlumat verilir.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

# Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

**Musayev Elnur Novruz oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi

**Əliyev Vüqar Nurəddin oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi

**Sultanov Eldar Aslan oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi

**Əhmədov Mübariz Hüseyn oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2021-ci il

# Azərbaycan Prokurorluğunun yaradılmasının 103 illiyi münasibətilə
# TƏBRİK

**Azərbaycan Respublikası Baş Prokurorluğunun idarə (şöbə) rəislərinə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisinə, Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi, Bakı şəhər, bütün şəhər və rayon, ərazi hərbi prokurorlarına**
*(kollektivlərdə elan edilməsi üçün)*

Hörmətli həmkarlar!

Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 103 illiyi münasibətilə prokurorluq orqanlarında çalışan bütün əməkdaşlarımızı, təqaüddə olan veteranlarımızı, onların ailə üzvlərini Baş Prokurorluğun rəhbərliyi və Kollegiyası adından təbrik edir, Sizə sağlam və xoşbəxt həyat arzulayıram.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu müdrik və düşünülmüş dövlətçilik kursunun möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və daha da inkişaf etdirilməsi nəticəsində əzəli və əbədi torpaqlarımız işğaldan azad olunaraq ölkəmiz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur.

Tarix yazan Sərkərdə cənab İlham Əliyevin yenilməz iradəsi və şanlı ordumuzun qəhrəmanlığı sayəsində düşmən üzərində qazanılmış misilsiz Zəfər Azərbaycanın regionda və dünyada mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirməklə ölkəmizin növbəti onilliklər üçün tərəqqisinə və qələbələrinə geniş imkanlar yaratmış, Ölkə başçısının rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə gerçəkləşən nəhəng tikinti-quruculuq, abadlıq işləri əbədi azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzura “Böyük Qayıdış”ın əsasını qoymuşdur.

Hörmətli həmkarlar,

Bir əsrdən artıq zəngin və şərəfli tarixə malik Azərbaycan Prokurorluğu, bu gün öz fəaliyyətini cəmiyyətdə formalaşan yeni çağırışlara, çağdaş dövrün tələblərinə və beynəlxalq standartlara uyğun qurmaqla dövlətimizin qüdrətlənməsinə və xalqımızın rifahına xələl gətirə biləcək hallara qarşı barışmaz mövqe tutaraq qanunun aliliyinin təmin edilməsi, cinayətkarlığa qarşı kəsərli mübarizə aparılması, vətəndaşların hüquqlarının etibarlı müdafiəsi işində öz xidmətlərini göstərir.

Əminəm ki, Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlətçilik ideyalarına sadiqliyi ilə seçilən Azərbaycan Prokurorluğunun kollektivi bundan sonra da öz fəaliyyətini ölkə başçısı cənab İlham Əliyevin müasir tələbləri səviyyəsində quraraq bütün səylərini dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə, xalqımızın və dövlətimizin cinayətkar qəsdlərdən qorunmasına, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə sərf edəcəkdir.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

# "1 oktyabr prokurorluq orqanları işçilərinin peşə bayramı" ilə əlaqədar ali təhsil müəssisələrinin hüquq fakültələrində təhsil alan tələbələr arasında "Hüquq viktorinası" keçirilib







Hüquqi biliklərin təbliği, gənc hüquqşünasların təhsilinə, onlarda hüquqşünaslıq ixtisası üzrə ilkin peşə vərdişlərinin formalaşdırılmasına töhfə verilməsi, eləcə də prokurorluq orqanları ilə hüquq ictimaiyyəti, ali təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə Baş Prokurorluq tərəfindən ardıcıl tədbirlər həyata keçirilməkdədir.

Bu tədbirlərin davamı olaraq, cari ilin 15 sentyabrında Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "1 oktyabr prokurorluq orqanları işçilərinin peşə bayramı" ilə əlaqədar ali təhsil müəssisələrinin hüquq fakültələrində təhsil alan tələbələr arasında "Hüquq viktorinası" keçirilmişdir.








Müsabiqəyə iştirakçılar qismində Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Milli Aviasiya Akademiyası, "ADA" Universitetinin hüquq fakültələrində "Konstitusiya hüququ", "Cinayət hüququ", "Cinayət-prosessual hüquq" fənləri üzrə təhsil proqramını tam mənimsəmiş tələbələri qoşulmuşlar.











Qeyd olunan fənlərə və ümumi dünyagörüşünə aid maraqlı suallara verilən cavabların qiymətləndirilməsi Baş Prokurorluğun, eləcə də qeyd olunan ali təhsil müəssisələrinin təcrübəli nümayəndələrindən ibarət müsabiqə komissiyası tərəfindən həyata keçirilmişdir.

İki mərhələdən ibarət müsabiqənin birinci mərhələsində ali təhsil müəssisələrinin komandaları arasında olduqca maraqlı yarışma aparılmış, sualların cavablandırılması kollektiv şəkildə məşvərət aparılmaqla, hər universitetin komandasını təmsil edən nümayəndə tərəfindən həyata keçirilmişdir.

Müsabiqənin növbəti mərhələsində isə universitet komandalarının kapitanları arasında yarışma davam etmişdir.

Maraqlı və rəqabət şəraitində keçən müsabiqənin ilk mərhələsində Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin yığma komandası, komanda kapitanlarının yarışmasını özündə ehtiva edən müsabiqənin ikinci mərhələsində isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi İdarəetmə fakültəsinin tələbəsi Maya Eyvazzadə qalib gəlmişdir.



# Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri Baş Prokurorluğun yeni inzibati bina kompleksində olublar





Sentyabrın 23-də Azərbaycan Prokurorluğunun yaradılmasının 103-cü ildönümü, habelə 1 oktyabr "Prokurorluq işçilərinin peşə bayramı günü" münasibətilə prokurorluq əməkdaşlarını təbrik məqsədilə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri paytaxtın Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsində yerləşən Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni inzibati bina kompleksində olmuşlar.









Tədbir çərçivəsində qonaqlar inzibati bina kompleksində prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, tədris auditoriyaları və iclas zalları, kitabxana, kriminalistika və istintaq otaqları ilə tanış olmuşlar.

Daha sonra Baş prokurorun müavini Elmar Camalovun rəhbərlik etdiyi heyətlə qonaqlar arasında qarşılıqlı ikitərəfli görüş keçirilmişdir.

Görüş zamanı qonaqlara Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəal hüquq mühafizə siyasəti və yüksək dövlət qayğısı nəticəsində prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirildiyi, infrastrukturunun yaxşılaşdırıldığı vurğulanmış, prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatlar, əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsi sahəsində görülən işlər barədə məlumat verilmişdir.

Mərasim zamanı çıxış edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə görülən işlərdən məmnunluğunu bildirmiş, 1 oktyabr "Prokurorluq işçilərinin peşə bayramı günü" münasibətilə bütün prokurorluq əməkdaşlarına uğurlar arzu etmişdir.

Daha sonra görüşdə qarşılıqlı əməkdaşlıq istiqamətləri müzakirə edilmişdir.

# Baş Prokurorluğun əməkdaşları və könüllülər sahilyanı ərazidə iməcilik keçirib










Ölkədə çimərlik mövsümünün bitməsi ilə əlaqədar sentyabrın 24-də IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Baş Prokurorluğunun birgə təşkilatçılığı ilə növbəti sahilyanı təmizlik aksiyası keçirilib.

Karantin rejiminin qaydalarına əməl olunmaqla Bilgəh çimərliyində keçirilən aksiyada 100 yaxın könüllü iştirak edib. 1 oktyabr – "Prokurorluq işçilərinin peşə bayramı günü" münasibəti ilə aksiyaya Baş Prokurorluqda ictimai köməkçi qismində fəaliyyət göstərən könüllülər və prokurorluq əməkdaşları qatılıb.

"Sahillər təmiz qalsın" şüarı altında Bilgəh çimərliyi ərazisində təşkil edilən aksiyanın əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dənizətrafı mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları tərəfindən çimərliyin 2 hektara yaxın sahil zolağı plastik və digər məişət tullantılarından təmizlənib. Tullantıların toplanması prosesini daha effektiv təşkil etmək məqsədilə əraziyə xüsusi texnika da cəlb olunub, toplanmış tullantılar çeşidlənərək təkrar emal üçün "AzEkol" şirkətinə təhvil verilib.

# Prokurorluq orqanları əməkdaşları növbəti ağacəkmə aksiyası keçiriblər





Sentyabrın 25-də Baş Prokurorluğun, Respublika Hərbi, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları Azərbaycan Prokurorluğunun yaranmasının 103 illiyi münasibətilə ağacəkmə aksiyası keçirmişdir.

Dövlət başçısının ətraf mühitin mühafizəsinə yönələn ekoloji siyasətinə, ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələrinə, həmçinin yaranmış ənənəyə uyğun olaraq paytaxtın Binəqədi rayonu Xocasən qəsəbəsinin Sulutəpə yaşayış massivində təşkil edilən aksiyanın əsas məqsədi ağac əkininin təşviqinə, Abşeron yarımadasının ekoloji mühitinin yaxşılaşdırılmasına, paytaxtda yaşıllıq sahələrinin salınması və onların mühafizəsinə diqqət cəlb etməkdir.

Prokurorluq əməkdaşlarının keçirdiyi ağacəkmə aksiyasına Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstək göstərmişdir.

Əməkdaşların fəallığı ilə müşayiət olunan tədbirdə 1.200-dən artıq şam və zeytun ağacları









əkilmiş, eyni zamanda həmin ərazidə ötən illərdə əkilmiş ağaclara aqrotexniki qulluq göstərilmiş və təmizlik-abadlıq işləri aparılmışdır.

Əkilən ağacların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunmuş, həmçinin onların küləkdən qorunması və mühafizəsi məqsədilə zəruri tədbirlər görülmüşdür.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

# Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 103-cü ildönümü münasibətilə Baş Prokurorluqda Şahmat turniri keçirilmişdir




Məlumat verilidiyi kimi, prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 103-cü ildönümü ilə əlaqədar təsdiq edilmiş tədbirlər planına uyğun olaraq,Azərbaycan Respublikasının Baş Prokurorluğunda Şahmat turniri keçirilmişdir.

Artıq ənənəvi xarakter daşıyan bu turnirdə Baş Prokurorluğun müxtəlif struktur qurumları və tabe prokurorluqların 16 əməkdaşı iştirak etmişlər.

19-26 sentyabr tarixlərini əhatə edən turnirin 1/8, ¼, yarımfinal və final mərhələləri olduqca maraqlı, sağlam rəqabət və mücadilə mühitində təşkil edilmişlər.

Turnirin finalında Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin Bakı Ağır Cinayətlər Məhkəməsi üzrə prokuroru Azadəliyev Seyhun Cəbrayıl oğlu və Xidməti araşdırmalar idarəsinin prokuroru Abbasov Samir Rafiq oğlu qarşılaşmışlar.

Çətin mübarizə şəraitində keçən finalda Seyhun Azadəliyev rəqibini udaraq Şahmat turnirinin qalibi olmuşdur.

İkinci və üçüncü yerləri isə, müvafiq olaraq, Samir Abbasov və Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Əmir Ocaqverdiyev bölüşdürmüşlər.

# Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Respublika Baş Prokurorluğunun və Hərbi Prokurorluğun rəhbər əməkdaşlarından ibarət nümayəndə heyəti Kəlbəcər və Qubadlı rayonlarında səfərdə olub



Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə yeni hərbi prokurorluqların yaradılması haqqında 01 aprel 2021-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar Kəlbəcər və Qubadlı rayonlarında müvafiq hərbi prokurorluqların inzibati binalarının inşasına başlanılaraq qısa vaxt ərzində inşası başa çatdırılmışdır.

Sentyabrın 26-ı və 27-də Baş Prokuror Kamran Əliyevin rəhbərliyi ilə Respublika Baş Prokurorluğunun və Hərbi Prokurorluğun rəhbər əməkdaşlarından ibarət nümayəndə heyəti Kəlbəcər və Qubadlı rayonlarında səfərdə olmuşdur.

Səfər çərçivəsində nümayəndə heyəti Kəlbəcər və Qubadlı Hərbi Prokurorluqlarının yeni inzibati binaların açılış mərasimində iştirak etmişdir.

Açılış mərasimlərində çıxış edən Baş Prokuror Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə müstəqil Azərbaycanın bütün sahələrdə durmadan inkişaf etdiyini, günbəgün daha da qüdrətləndiyini bildirərək, bunun parlaq nümunəsi kimi 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın Müzəffər sərkərdəliyi altında xalqın və dövlətin sarsılmaz birliyi nəticəsində rəşadətli Ordumuz torpaqlarımızı düşmən işğalından azad etdiyini vurğulamışdır.

Ölkə Prezidenti tərəfindən prokurorluq orqanlarının inkişafına daim diqqət göstərildiyi vurğulanmaqla yeni inzibati binaların istifadəyə verilməsinin də məhz bu qayğının bariz göstəricisi olduğu qeyd edilmişdir.





Prokurorluğun əməkdaşları xidmətlərinin daha səmərəli və peşəkar təşkil edilməsi üçün yaradılan yüksək şəraitə, eləcə də müasir maddi-texniki təminata və təchizata görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.








Baş Prokuror hər iki hərbi prokurorluğun, eləcə də Kəlbəcər və Qubadlı rayon prokurorluqlarının əməkdaşları ilə görüşmüş, onlara fəaliyyətləri ilə bağlı tapşırıq və tövsiyələrini vermiş, daha sonra inzibati binaların həyətində ağaclar əkilmiş və digər abadlıq işləri görülmüşdür.

Həmçinin, Respublikanın Hərbi Prokuroru Xanlar Vəliyev də hərbi prokurorluqlarda yaradılmış iş şəraiti ilə tanış olaraq əməkdaşlarla görüşüb fəaliyyətlərində uğurlar arzu etmişdir.

Səfər çərçivəsində Baş Prokurorun rəhbərliyi ilə nümayəndə heyəti Kəlbəcər rayonunda yerləşən N saylı hərbi hissədə, eləcə də Qubadlı rayonunda DSX-ın N saylı hərbi hissəsində xidmətdə olan hərbçilərlə görüşmüş, onların xidmət və məişət şəraiti ilə maraqlanmışdır.

Daha sonra xidmətdə fərqlənən hərbi qulluqçulara Baş prokuror tərəfindən qiymətli hədiyyələr təqdim olunaraq xatirə şəkli çəkilmişdir.

Bundan başqa, heyət səyyar hospitalda müalicə alan hərbçilər ilə görüşərək onların müalicə vəziyyəti ilə maraqlanmışdır.

Sentyabrın 27-də - Anım günündə Füzuli rayonu, Horadiz şəhərində yerləşən "Qəhrəmanlar parkı"nda şəhidlər üçün yaradılmış abidə ziyarət edilmiş, orada şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

# Azərbaycan Respublikasının prokurorluq işçiləri tərəfindən şəhid və qazi ailələrinə ziyarətlər təşkil olunub



27 sentyabr–Vətən müharibəsi şəhidlərinin Anım günü və 1 Oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə I və II Qarabağ müharibələrində iştirak etmiş şəhid və qazi ailələri prokurorluq işçiləri tərəfindən ziyarət edilmişdir.

26-28 sentyabr 2021-ci il tarixlərdə Azərbaycan Respublikası Baş Prokurorluğunun işçiləri hər bir şəhid və döyüşlərdə yaralanmış qazi ailəsinin üzvləri ilə görüşərək onların dərdlərinə şərik olmuş, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən Müharibəsində qəhrəmanlıq göstərmiş yenilməz Azərbaycan Ordusunun hər bir üzvünün qəhrəmanlıqlarından danışmışlar.

Ziyarətin yekununda xatirə fotoşəkilləri çəkilmişdir.










# Prokurorluq əməkdaşları uşaq evlərini ziyarət ediblər




28 sentyabr 2021-ci il tarixdə prokurorluq əməkdaşları Azərbaycan Prokurorluğunun yaranmasının 103 illiyi, habelə 1 oktyabr "Prokurorluq işçilərinin peşə bayramı günü" münasibətilə Bakı şəhəri ərazisində yerləşən müxtəlif uşaq evlərini ziyarət etmişlər.

Ziyarət çərçivəsində prokurorluq əməkdaşları xüsusi qayğıya ehtiyacı olan, eləcə də valideyn himayəsindən məhrum olan uşaqların problemləri ilə maraqlanıb, onlara hədiyyələr təqdim ediblər.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.










# Azərbaycan Respublikasının Baş Prokurorluğunda görüş keçirilib






2021-ci il sentyabrın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə 1 Oktyabr – Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və Vətən müharibəsinin ildönümü münasibətilə "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin üzvləri, Vətən müharibəsində iştirak etmiş prokurorluq əməkdaşları, I və II Qarabağ müharibəsində şəhid olmuş prokurorluq işçilərinin ailələri ilə görüş keçirilmişdir.



Görüşdə Baş prokuror Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi ilə ölkədə həyata keçirilmiş uğurlu fəaliyyətin müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə davam etdirilməsi və doğma torpaqlarımızın 44 gün ərzində yenilməz Azərbaycan Ordusu tərəfindən azad olunmasından danışmış, qısa müddətdə həmin bölgələrdə infrastrukturun bərpa olunduğunu, quruculuq işlərinin sürətlə davam etdirildiyini, I və II Qarabağ müharibəsi şəhidlərinin ailələrinə, qazilərə və veteranlara xüsusi dövlət qayğısının










göstərildiyini, həmçinin Qubadlı və Kəlbəcər hərbi prokurorluqlarının yaradıldığını tədbir iştirakçılarının nəzərlərinə çatdırmışdır.

Bundan sonra, Vətən müharibəsi iştirakçıları olan prokurorluq əməkdaşlarına Fəxri fərman və medallar təqdim edilmişdir.

Tədbir iştirakçıları ölkə rəhbərliyinin şəhid ailələrinə və veteranlara göstərdiyi diqqət və qayğısına görə dərin minnətdarlıqlarını bildirmişlər.

Görüşün yekununda xatirə fotoşəkli çəkilmişdir.

# Prokurorluq əməkdaşlarının peşə bayramı günü münasibətilə tədbir keçirilib





Azərbaycan Prokurorluğunun kollektivi müasir müstəqil dövlətimizin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin Sərəncamına əsasən, 1998-ci ildən etibarən hər il oktyabrın 1-də peşə bayramını geniş qeyd edir. Bu ilki bayram milli prokurorluq orqanlarının yaradılmasının 103-cü ildönümünə təsadüf edib. Bu münasibətlə Baş Prokurorluğun rəhbərliyi oktyabrın 1-də





Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn prokurorluğun kollektivi Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyub, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.





Daha sonra Baş Prokurorluqda 1 oktyabr - Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və milli prokurorluğun yaradılmasının 103-ci ildönümü münasibətilə tədbir keçirilib.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən və Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları, onların ailə üzvlərini peşə bayramı münasibətilə təbrik edib.

Kamran Əliyev bu ilki bayram tədbirinin əvvəlki dövrlərdən fərqləndiyini bildirərək bunun səbəbinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik










rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 gün kimi qısa vaxt ərzində torpaqlarımızı düşmən işğalından azad etməsini göstərmişdir.

Baş prokuror bütün şəhidlərimizə Allahdan rəhmət diləmiş, qazilərimizə can sağlığı arzulamışdır.

Qeyd edilmişdir ki, Prokurorluq orqanlarında həyata keçirilən hüquqi islahatlar nəticəsində Azərbaycan Prokurorluğu milli maraqların və qanunun aliliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən müasir dövlət təsisatına çevrilmişdir.

Vurğulanmışdır ki, prokurorluq orqanlarına müasir dünyagörüşlü, bilikli və dövlətçilik ideyalarına sadiq gənc hüquqşünasların qəbulu prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsinə təkan vermişdir.

Xüsusilə qeyd edilmişdir ki, bu gün prokurorluq orqanları qanunların icra və tətbiq olunmasına prokuror nəzarətini və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirilməklə, istintaq və dövlət ittihamının müdafiəsi sahəsindəki fəaliyyəti ilə dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinin müdafiə edilməsində əhəmiyyətli rol oynayır.

Baş prokuror çıxışının sonunda əminliklə bildirib ki, prokurorluq orqanlarının əməkdaşları göstərilən yüksək etimadı doğrultmaq üçün bütün səylərini səfərbər edəcək, bundan sonra da öz vəzifələrinə məsuliyyətlə yanaşaraq, ictimai asayişin təmin olunmasında və cəmiyyətin cinayətkar qəsdlərdən qorunmasında respublikanın digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə yaxından iştirak edəcəkdir.

Daha sonra Baş Prokurorluq tərəfindən təşkil edilən intellektual yarışmada qalib gələn tələbələrin, prokurorluq əməkdaşları arasında keçirilmiş şahmat turniri qaliblərinin, “Prokurorluğun dostu” mükafatına layiq görülmüş media qurumları və onların nümayəndələrinin, xidməti fəaliyyətlərində fərqləndiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının təltif olunması mərasimi keçirilmişdir.

Sonda prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 103-cü il dönümünün qeyd edilməsi ilə əlaqədar həyata keçirilmiş silsilə tədbirlərə həsr olunmuş videoçarx prokurorluq əməkdaşları tərəfindən izlənilmişdir.

Tədbirin yekununda Baş prokuror bir daha əməkdaşları təbrik edərək onlara peşəkar fəaliyyətlərində uğurlar arzu etmişdir.










# BİZ ARTIQ ÖZ TARİXİ MİSSİYAMIZI YERİNƏ YETİRDİK.

Bizə yeni müharibə lazım deyil. Lakin əgər Ermənistan yeni müharibəyə hazırlaşırsa, biz qabaqlayıcı tədbirlər görəcəyik.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Baş Prokurorluqda AŞPA nümayəndələri ilə görüş keçirilib




İyulun 28-də Azərbaycanda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA-nın) Miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin nümayəndə heyətinin üzvləri – "Ermənistan və Azərbaycan arasında münaqişənin humanitar nəticələri mövzusu" üzrə məruzəçi Pol Qavan, Komitə Katibliyinin rəhbəri Mark Nevil və Avropa Şurasının Bakı Ofisinin nümayəndəsi Kirilo Boiçeniuk ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun idarə rəisi Elnur Musayev arasında görüş keçirilmişdir.

Avropa Şurasının ekspertlərinə Vətən müharibəsinin gedişində və müharibədən sonrakı dövrdə beynəlxalq humanitar hüquq və insan hüquqları pozuntularının araşdırılması ilə bağlı prokurorluq orqanları tərəfindən həyata keçirilmiş tədbirlər barədə məlumat verilib. Erməni silahlı qüvvələrinin təcavüzü nəticəsində kütləvi şəkildə insan hüquqlarının pozulması ilə müşayiət olunan cinayət xarakterli əməllərə verilmiş hüquqi qiymət, dəymiş ziyanın müəyyən olunması üçün aparılmış istintaq tədbirləri barədə məlumat görüş iştirakçılarının diqqətinə çatdırılıb. Azərbaycan Respublikası Baş Prokurorluğunda işğaldan azad edimiş ərazilərdə qanunsuz sahibkarlıq və iqtisadi fəaliyyət, ətraf mühitə vurulmuş ziyan ilə bağlı hazırda istintaqı aparılan cinayət işləri barədə də məlumat verilmişdir.

AŞPA-dan olan nümayəndə heyətinin üzvləri münaqişənin səbəb olduğu insan hüquqlarının pozulması halları və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Rusiya Federasiyası Prokurorluğu Akademiyasının Sankt-Peterburq hüquq institutunun (filialı) direktoru Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olub



Azərbaycan Respublikası Prokurorluğu orqanlarında aparılan genişmiqyaslı islahatların tərkib hissəsi kimi prokurorluq orqanlarında nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə tədrisin təşkili işinin daha da təkmilləşdirilməsi və müasir dövrün tələbləri baxımından qurulması üçün ardıcıl tədbirlər həyata keçirilməkdədir.

Prokurorluq orqanlarında tədrisin təşkili fəaliyyətinin beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədilə qabaqcıl təcrübəsi olan ölkələrin müvafiq elmi qurumları, hüquq mühafizə orqanları akademiyaları ilə birgə tədqiqatların aparılması, dinləyici və təlimçilərin mübadiləsi, mütəxəssis hazırlığı və digər sahələrdə işgüzar əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi üçün əməli addımlar atılır.

Bu tədbirlərin davamı olaraq, avqustun 10-da Rusiya Federasiyası Prokurorluğu Akademiyasının filialı olan Sankt-Peterburq hüquq institutunun direktoru Spiridonov Anastas Pavloviç Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olmuşdur.

Görüş çərçivəsində qonaq Baş Prokurorluğun yeni istifadəyə verilmiş inzibati bina kompleksi, o cümlədən Elm-Tədris Mərkəzi, mühazirə, praktiki məşğələlər və iclas zalları, kitabxana, bundan əlavə kompleksin digər binasında yerləşən ən müasir kriminalistik avadanlıqlarla təchiz edilmiş kriminalistika, dindirmə otaqları, cinayət prosesual qanunvericiliyin tələblərinə müvafiq olaraq vizual müşahidəni istisna edən şəraitdə aparmağa imkan verən istintaq otağı ilə tanış olmuşdur.




44 günlük Vətən müharibəsinə həsr olunmuş  tarixi-memorial qalereya və orada olan Ermənistan hərbi birləşmələri tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətləri təsdiq edən maddi sübut və eksponatlar qonaqda xüsusi maraq oyatmışdır.

Daha sonra tədbir çərçivəsində A.Spiridonov ilə Baş prokurorun müavini Elmar Camalov arasında görüş keçirilmiş, görüşdə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi müavini Günay İsmayılova və prokurorluğun veteranı Zahid Vəliyev iştirak etmişlər.

Elmar Camalov görüşdə Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, dahi Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə mübariz Xalqımızın Vətən müharibəsində qazandığı Zəfər, şəhid ailələri və qazilərimizə göstərilən dövlət qayğısı, işğaldan azad edilən ərazilərimizdə həyata keçiriləcək geniş quruculuq-bərpa işləri və layihələr, post-müharibə dövrünün regionumuz üçün açdığı yeni imkanlar, prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatlar, tədris və peşə hazırlığının təkmilləşdirilməsi sahəsində görülən işlər, həmçinin hər iki ölkənin qurumları arasında əməkdaşlıq əlaqələrinin verəcəyi töhfələr barədə məlumat vermişdir.

Səmimi görüşə görə təşəkkürünü bildirən Anastas Spiridonov təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirmişdir. Görüş çərçivəsində ölkələrimiz arasında beynəlxalq hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi, o cümlədən tədris, təlim və elmi-tədqiqat sahələrində fəal əlaqələr yaratmağa və inkişaf etdirməyə, habelə iki qurumun arasında qarşılıqlı faydalı və ikitərəfli əməkdaşlığının genişləndirilməsi istiqamətində səylərin birləşdirilməsi sahəsində müzakirələr aparılmışdır.

# Baş Prokurorluğun əməkdaşları treyninqdə iştirak ediblər




İyulun 29-30 tarixlərində Türkiyə Respublikasının İstanbul şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq şurasının Katibliyi və Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya idarəsinin birgə təşkilatçılığı ilə keçirilən “Sosial Media üzrə təlim Programı”nda Azərbaycandan Baş Prokurorluğun Mətbuat xidmətinin əməkdaşları və digər dövlət qurumlarının əməkdaşlarından ibarət olan nümayəndə heyəti iştirak etmişdir.





**İKİNCİ QARABAĞ MÜHARİBƏSİ HAQQINDA HƏQİQƏTLƏRİ DÜNYA İCTİMAİYYƏTİNƏ ÇATDIRMAQDA, GƏNCLƏRİMİZİN TƏRBİYƏ İŞİNDƏ BİZ DAHA FƏAL OLMALIYIQ.**

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
presidentaz
azpresident
presidentaz

# Hərbi xidmət keçməkdən boyun qaçırma. Cinayət-hüquqi xarakteristika və problemlər



**Mövzunun aktuallığı**

Azərbaycan Respublikasının əsas Qanunu olan Konstitusiya qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməklə vətəni müdafiə etməni hər bir vətəndaşın konstitusion borcu olaraq bəyan etmişdir.

Sovet imperiyasının tərkibində olduğu vaxtlardan ölkəmizin ərazi bütövlüyü silahlı təcavüzə məruz qaldığından, dövlət müstəqilliyinin bərpa edilməsi ilə eyni vaxtında Silahlı Qüvvələrimizin yaradılması prosesinə başlanılmış, onların komplektləşdirilməsini təmin edən qanunlar qəbul edilmiş, hərbi xidmətin əsasları, hərbi xidmətə çağırışın, hərbi vəzifəlilərin və çağırışçıların uçotu, qeydiyyatı, hərbi xidmətin keçilməsi qaydaları və s. müəyyən olunmuşdur. Bu qanun və qaydalar zaman irəlilədikcə müvafiq dəyişikliklər yolu ilə Silahlı Qüvvələrimizin təşəkkül tapması prosesində meydana çıxan çatışmazlıqlar və çətinliklər nəzərə alınmaqla dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilmiş, bəzi hallarda isə bu sahədə olan münasibətləri tənzimləyən yeni qanunvericilik aktları qəbul edilmişdir ki, bununla da əvvəlki dövrlərdə qüvvədə olmuş müvafiq qanunlar və qaydalar hüquqi qüvvəsini itirmişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 321-ci maddəsində nəzərdə tutulan hərbi xidmət keçməkdən boyun qaçırma cinayətinin obyekti hərbi xidmətə çağırışın və səfərbərlik üzrə çağırışın qanunvericiliklə müəyyən edilmiş qaydaları olduğundan, bu qaydalarda baş verən dəyişikliklər həmin əməlin cinayət-hüquqi xarakteristikasından yan keçə bilməz və cinayət törətmiş şəxslərin əməlinin tövsifi, eləcə də rəsmi şərhlər zamanı mütləq nəzərə alınmalıdır.

Rayon və şəhər prokurorluqlarında hərbi xidmət keçməkdən boyun qaçırma faktları ilə bağlı aparılmış araşdırmaların təhlilli göstərir ki, bir çox hallarda bu qəbildən olan cinayətlərin ibtidai istintaqını aparan və ya araşdırma materialı üzrə yoxlama aparan prokurorluq əməkdaşları qərar qəbul edərkən artıq öz qüvvəsini itirmiş qanunlara, yaxud bəzi qanunların hüquqi qüvvəsini itirmiş müddəalarına, həmin qanunlar qüvvədə olduğu zaman Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən verilmiş şərhlərə istinad edirlər. Bu da qanunsuz və əsassız qərarların qəbul edilməsi, cinayət törətmiş şəxslərin qanunsuz və əsassız olaraq cinayət məsuliyyətindən kənarda qalması ilə nəticələnir.

Məqalənin əsas məqsədi bu sahədə olan aktual problemləri müzakirəyə çıxarmaqla hərbi xidmət keçməkdən boyun qaçıran hər bir şəxsin əməlinin düzgün hüquqi tövsifinə və cinayət törətmiş şəxslərin qanuni məsuliyyətə cəlb olunmasına nail olmaqdan ibarətdir.

**İnzibati məsuliyyətə cəlb etmənin əsasları**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 40-cı fəslində hərbi uçot, hərbi qeydiyyat və səfərbərlik qaydaları əleyhinə olan inzibati xətalar və həmin xətalara görə məsuliyyət nəzərdə tutulmuşdur.

Həmin Məcəllənin 604-cü maddəsində ilkin hərbi qeydiyyata alınmalı olan vətəndaşların qeydiyyata alınmaq üçün fərdi çağırış vərəqəsində göstərilmiş müddətdə üzrlü səbəblər olmadan müvafiq icra hakimiyyəti orqanına gəlməməsinə görə məsuliyyət müəyyən olunmuşdur.

İnzibati Xətalar Məcəlləsinin 606.3-cü maddəsi çağırışçıların və hərbi vəzifəlilərin Məcəllənin 604-cü maddəsində nəzərdə tutulan hal istisna olmaqla, qanunla nəzərdə tutulmuş hallarda çağırış üzrə müvafiq icra hakimiyyəti orqanına üzrlü səbəblər olmadan gəlməmələrinə görə inzibati məsuliyyət müəyyən edir.

Həmin maddənin qeydinə əsasən göstərilən əməl qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırış və ya səfərbərlik üzrə çağırış ilə bağlı törədildikdə Azərbaycan Respublikası

Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olur.

Bəzi prokurorluq əməkdaşlarının mövqeyinə görə, ilkin hərbi qeydiyyatdan keçməyən vətəndaşlar çağırışçı hesab edilmir və həmin şəxslərin növbəti hərbi çağırış və ya səfərbərlik üzrə çağırış ilə bağlı müvafiq icra hakimiyyəti orqanına gəlməməsi inzibati xəta kimi qiymətləndirilməlidir.

Lakin qeyd olunmalıdır ki, şəxsin çağırışçı hesab olunması üçün onun mütləq şəkildə ilkin hərbi qeydiyyata alınması tələb olunmur, belə ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanunun müddəalarına əsasən ilkin hərbi qeydiyyata alınmış və ya alınmalı olan müddətli həqiqi hərbi xidmət keçməmiş 18 yaşından 35 yaşınadək Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları çağırışçı hesab olunurlar.

Beləliklə də, İnzibati Xətalar Məcəlləsinin və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun yuxarıda şərh olunan maddələrinin məzmunundan aydın olur ki, ilkin hərbi qeydiyyata alınıb-alınmamasından asılı olmayaraq 18 yaşı tamam olmuş kişi cinsli hər bir vətəndaş çağırışçı hesab olunur və həmin şəxslərin 35 yaşadək qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün çağırış üzrə müvafiq icra hakimiyyəti orqanına üzrlü səbəblər olmadan gəlməməsi cinayət məsuliyyətinə səbəb olur.

Həmçinin, qeyd olunmalıdır ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin tələblərinə əsasən çağırışçıların müəyyən edilmiş müddətdə müvafiq icra hakimiyyəti orqanına gəlməməsinin üzrlü səbəbləri kimi yalnız çağırışçının xəstəliyi (tibb müəssisəsinin xəstəlik barədə tibbi arayışı əsasında) və fövqəladə və ya digər qarşısı alına bilməyən hallar (bu zaman şəxsən gəlməyin mümkün olmaması çağırışçının yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilməlidir) qəbul oluna bilər. Qanunda yalnız iki hal nəzərdə tutulsa da, çağırışçıların müəyyən edilmiş müddətdə müvafiq icra hakimiyyəti orqanına gəlməməsinin üzrlü səbəbləri kimi başqa hallar da nəzərə alına bilər, məsələn, şəxsin hüquq mühafizə orqanları tərəfindən tutulması, yaxud məhkəmə tərəfindən həbs edilməsi. Hər bir halda üzrlü səbəblərin qanunla müəyyənləşdirilmiş dairəsi genişləndirilməməli, çağırışçının hərəkətlərinin üzrlü sayılması üçün onun icra hakimiyyəti orqanına gəlməməsi öz iradəsindən asılı olmayan səbəblərdən baş verməlidir.

**Cinayət məsuliyyətinə cəlb etmənin əsasları**

Qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə hərbi çağırışdan boyun qaçırma Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 321-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.

Təhlil olunan cinayətin obyekti dövlət idarəetmə sahəsində münasibətlər və hərbi xidmətə çağırışın və səfərbərlik üzrə çağırışın qanunvericiliklə müəyyən edilmiş qaydalarıdır.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə əsasən hərbi xidmət – dövlət qulluğunun xüsusi növü olmaqla Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətlərdə Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin həyata keçirdikləri xidməti fəaliyyətdir.

Həmin Qanunun müddəalarına əsasən Azərbaycan Respublikasının 18 yaşına çatmış və sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı hər bir kişi cinsli vətəndaşı Azərbaycan Respublikasının Silahlı Qüvvələrində Qanunla müəyyən edilmiş qaydada müddətli həqiqi hərbi xidmət keçməlidir. Vətəndaşlar müddətli həqiqi xidmətə müvafiq icra hakimiyyəti orqanının aktı əsasında ildə dörd dəfə - yanvar, aprel, iyul və oktyabr aylarının 1-dən 30-dək çağırılırlar. Vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında müvafiq icra hakimiyyəti orqanının aktı qüvvəyə mindikdən sonra müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməyən çağırışçılar yaşayış yeri və ya olduğu yer üzrə hərbi qeydiyyatda olduğu, hərbi qeydiyyatda olmayan çağırışçılar isə yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanına gəlməlidirlər. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən səfərbərlik – Azərbaycan Respublikası iqtisadiyyatının, icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının və təşkilatların müharibə dövrünün iş rejiminə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrin və xüsusi birləşmələrin müharibə dövrü üçün müəyyən edilmiş təşkilati-ştat strukturuna keçirilməsinə dair tədbirlər kompleksidir.

Qanunun səfərbərlik hazırlığı və səfərbərlik sahəsində icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərini müəyyən edən müvafiq maddəsində göstərilmişdir ki, müvafiq icra hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları səfərbərlik hazırlığı və səfərbərlik sahəsində öz səlahiyyətləri daxilində səfərbərlik planlarına uyğun olaraq, səfərbərlik üzrə hərbi xidmətə çağırılmalı olan vətəndaşların vaxtında xəbərdar edilməsini və gəlməsini, texnikanın

toplanış məntəqələrinə, yaxud hərbi hissələrə göndərilməsini, binaların, tikililərin, kommunikasiyaların, yer sahələrinin, nəqliyyat və digər maddi vəsaitlərin təyinatları üzrə istifadəyə verilməsini müəyyən olunmuş qaydada təşkil edirlər. Vətəndaşlar səfərbərlik zamanı və müharibə dövrü üçün öz təyinatlarını müəyyən etmək məqsədilə çağırış vərəqəsinə əsasən müvafiq icra hakimiyyəti orqanlarına gəlir, müvafiq icra hakimiyyəti orqanlarından aldıqları səfərbərlik sərəncamlarında, çağırış vərəqələrində və vəzifəli şəxslərin əmrlərində qeyd olunmuş tələbləri yerinə yetirir, müharibə dövründə ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq vətəndaşlara vurulan zərərin əvəzinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada dövlət tərəfindən ödənilməsi şərtilə binaları, tikililəri, nəqliyyat vasitələrini və mülkiyyətində olan digər əmlakı təqdim edirlər.

Qeyd olunan maddələrin məzmunundan aydın olur ki, səfərbərlik zamanı icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən səfərbərlik üzrə hərbi xidmətə çağırılmalı olan vətəndaşların vaxtında xəbərdar edilməsi nəzərdə tutulsa da, növbəti həqiqi hərbi xidmətə çağırış zamanı belə bir xəbərdarlığın edilməsi tələb olunmur və vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında müvafiq icra hakimiyyəti orqanının aktının qüvvəyə minməsi yetərlidir ki, müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməyən çağırışçılar yaşayış yeri və ya olduğu yer üzrə hərbi qeydiyyatda olduğu, hərbi qeydiyyatda olmayan çağırışçılar isə yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanına gəlsinlər.

Şərh olunanlara əsasən belə nəticəyə gəlinir ki, qanuni əsas olmadan hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə hərbi çağırışdan boyun qaçırma dedikdə çağırışçının üzrlü səbəblər olmadan vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında müvafiq icra hakimiyyəti orqanının aktının qüvvəyə minməsinə baxmayaraq, həmin aktda müəyyən olunmuş müddətdə müvafiq icra hakimiyyəti orqanına, səfərbərlik zamanı isə vaxtında xəbərdar edilməsinə baxmayaraq müəyyən olunmuş çağırış və ya səfərbərlik məntəqəsinə gəlməməsi, yaxud aldatma yolu ilə çağırışdan boyun qaçırması başa düşülür.

Burada aldatma dedikdə, çağırışçının hər hansı xəstəliyi simulyasiya etməklə, özünə xəsarət yetirməklə və ya başqa üsulla aldatmaqla hərbi xidmət və ya səfərbərlik üzrə çağırışdan azad olunma və ya möhlət hüququnu əldə etməsi başa düşülür.

Təcrübədə bir çox hallarda hərbi xidmət keçməkdən boyun qaçırmış şəxslərin əməllərinə hüquqi qiymət verilərkən "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1 noyabr 2001-ci il tarixli Qərarına istinad olunur. Bu da nəticədə qanunusuz və əsassız qərarların qəbul olunmasına səbəb olur.

Belə ki, Ali Məhkəməninin Plenumunun həmin Qərarının 2 bəndində göstərilmişdir ki, hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma (CM-in 321-ci maddəsi) haqqında cinayət işlərinə baxarkən məhkəmələr nəzərə almalıdırlar ki, bu cinayətlərin tərkibi o zaman yaranır ki, həmin cinayətlərin subyektləri əvvəlcədən hərbi komissarlıq tərəfindən yazılı surətdə xəbərdarlıq edilmələrinə baxmayaraq üzrlü səbəblər olmadan hərbi komissarlığın fərdi çağırış vərəqəsində göstərilmiş müddətdə və göstərilmiş məntəqəyə gəlməməklə çağırışdan boyun qaçırmış olsunlar. Çağırışçının hərbi xidmət keçməkdən boyun qaçırmaq məqsədilə fərdi çağırış vərəqəsinə imza etməkdən imtina etməsi və ya yayınması müvafiq sübutlarla təsdiq olunarsa, təkcə çağırış vərəqəsində imzanın olmaması onun cinayət məsuliyyətindən azad edilməsi üçün əsas götürülə bilməz.

Bundan başqa, Qərarın 3-cü bəndinə əsasən, çağırış məntəqəsində və yaxud komissiyada qeydiyyatdan keçmək üçün vətəndaşların müəyyən olunmuş müddətdə üzrlü səbəblər olmadan hərbi komissarlığa gəlməmələri həqiqi hərbi xidmətə növbəti çağırışdan boyun qaçırma kimi qiymətləndirilə bilməz. Belə ki, bu şəxslər çağırış sahəsində qeydiyyata alınanadək çağırışçı hesab olunmurlar və hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan boyun qaçırma cinayətinin subyekti deyillər.

Nəzərə almaq lazımdır ki, Ali Məhkəminin Plenumunun qeyd olunan Qərarında vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması məqsədilə 10 iyun 1992-ci il tarixli "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının izahı verilmişdir.

Həmin Qanunun 8-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin Fərmanı elan olunduqdan sonra hər bir çağırışçı, o cümlədən müvəqqəti uçotda olan çağırışçı hərbi komissarın əmrində və ya hərbi komissarlığın fərdi çağırış vərəqəsində göstərilmiş müddətdə və göstərilmiş məntəqəyə gəlməlidir. Qanuni əsas olmadan müddətli həqiqi hərbi xidmət keçməmiş və hərbi uçotda olmayan çağırış yaşlı vətəndaşlar, habelə daimi yaşayış yerindən müvəqqəti olaraq başqa yerə

getmiş və orada hərbi uçota durmamış çağırışçılar yaşayış yeri üzrə hərbi komissarlığa gəlməlidirlər.

Halbuki, 22 dekabr 2006-cı il tarixdə həmin Qanunun 8-ci maddəsinin 2-ci hissəsi dəyişdirilib yeni redaksiyada verilərək "çağırışçı hərbi komissarın əmrində və ya hərbi komissarlığın fərdi çağırış vərəqəsində göstərilmiş müddətdə və göstərilmiş məntəqəyə gəlməlidir" müddəaları Qanundan xaric edilmişdir.

Bundan başqa, 23 dekabr 2011-ci il tarixdə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilməklə hərbi xidmətə çağırışın yeni əsasları müəyyən edilmişdir. Yeni Qanunda da "çağırışçı hərbi komissarın əmrində və ya hərbi komissarlığın fərdi çağırış vərəqəsində göstərilmiş müddətdə və göstərilmiş məntəqəyə gəlməlidir" müddəaları nəzərdə tutulmamış, vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında müvafiq icra hakimiyyəti orqanının aktı qüvvəyə mindikdən sonra müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməyən çağırışçılar yaşayış yeri və ya olduğu yer üzrə hərbi qeydiyyatda olduğu, hərbi qeydiyyatda olmayan çağırışçılar isə yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanına gəlməli olduqları təsbit olunmuşdur. Məqalənin əvvəlki hissələrində də qeyd olunduğu kimi, Qanunda, həmçinin, çağırışçıların anlayışı verilərək ilkin hərbi qeydiyyata alınmış və ya alınmalı olan müddətli həqiqi hərbi xidmət keçməmiş 18 yaşından 35 yaşınadək Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlarının çağırışçı hesab olunduğu göstərilmişdir.

Ona görə də, hərbi xidmət keçməkdən boyun qaçırma faktları üzrə araşdırma aparılarkən Ali Məhkəmənin Plenumunun Qərarının yuxarıda şərh olunan bəndlərinə istinad etməklə prosessual qərarların qəbul edilməsi yolverilməzdir və belə qərarlar qanunsuz və əsassız hesab edilməlidir.

Təhlil olunan cinayətin tərkibi yalnız o halda yaranır ki, şəxsin hərbi xidmətdən azad olunması üçün qanuni əsaslar mövcud olmasın.

Şəxsin hərbi xidmətdən azad olunması üçün qanuni əsasların onun hərbi xidmətə çağırılmasınadək mövcud olduğu müəyyən olunarsa Cinayət Məcələssinin 321-ci maddəsinin tərkibi yaranmır.

Şərh olunan cinayət əməli formal tərkibli olmaqla cinayətin başa çatması üçün hər hansı ictimai təhlükəli nəticənin baş verməsi tələb olunmur və şəxsin müəyyən olunmuş müddətdə müvafiq icra hakimiyyəti orqanına gəlməməsi, yaxud aldatma yolu ilə hərbi xidmət və ya səfərbərlik üzrə çağırışdan azad olunma və ya möhlət hüququnu əldə etməsi ilə eyni vaxtda başa çatır.

**Subyektiv cəhətdən cinayət birbaşa qəsdlə törədilir**

Cinayətin subyekti növbəti hərbi çağırışdan boyun qaçırma üzrə ilkin hərbi qeydiyyata alınmış və ya alınmalı olan, həqiqi hərbi xidmətə çağırışa möhlət hüququ olmayan və çağırışdan azad edilməmiş 18 yaşı tamam olmuş kişi cinsli vətəndaşlar, səfərbərlik üzrə çağırışdan boyun qaçırmada isə səhhətinə görə səfərbərlik üzrə çağırışdan möhlət hüququ olmayan və ya azad edilməyən 18 yaşı tamam olmuş kişi cinsli vətəndaşlar hesab olunurlar.

"Hərbi xidmət və hərbi vəzifə haqqında" Qanunun tələblərinə əsasən həqiqi hərbi xidmətə 18 yaşdan 35 yaşadək olan kişi cinsli vətəndaşlar çağırılırlar. Ona görə də, 35 yaşına çatdıqdan sonra hərbi xidmət keçməkdən boyun qaçırmaya görə cinayət məsuliyyətinə yalnız bu əməli həmin yaşa çatanadək törətmiş və cinayət məsuliyyətinə cəlb etmə müddətləri keçməmiş şəxslər cəlb oluna bilərlər.

Təcrübədə hərbi xidmət keçməkdən boyun qaçırmış şəxslərin 35 yaşına çatdıqdan sonra cinayət məsuliyyətinə cəlb edilmələri məsələsində ciddi fikir ayrılığı mövcuddur. Belə ki, bəzi prokurorluq əməkdaşlarının yanaşmalarına görə, hərbi xidmət keçməkdən boyun qaçırmış şəxs 35 yaşına çatdıqdan sonra artıq həmin cinayətin subyekti hesab olunmadığından onların cinayət məsuliyyətinə cəlb olunmaları da mümkün deyil və əksər hallarda rayon prokurorluqlarında aparılan araşdırma materialları üzrə Cinayət-Prossesual Məcəlləsinin 39.1.2-ci maddəsinə əsasən, yəni şəxsin əməlində cinayət tərkibinin olmaması əsası ilə cinayət işinin başlanmasının rədd olunması haqqında qərarlar qəbul olunur.

Nəzərə almaq lazımdır ki, şəxs hər hansı cinayət əməlini törətməyə görə məsuliyyətə cəlb olunarkən onun ittiham elan olunan anda həmin cinayətin subyekti olması tələb edilmir və bir çox hallarda xüsusi subyektli cinayətlərdə ittiham elan olunan anda şəxs artıq həmin cinayətin subyekti olmur. Məsələn, hərbi xidmətdən tərxis olunduqdan sonra şəxsin hərbi xidmət əleyhinə cinayət törətməsi müəyyən edildiyi hallarda o, məsuliyyətə cəlb etmə müddətləri nəzərə alınmaqla xidmət etdiyi müddətdə törətdiyi əmələ görə məsuliyyətə cəlb olunur. Analoji müqayisəni bütün xüsusi subyektli cinayətlərlə bağlı aparmaq olar.

Digər tərəfdən, şəxsin 35 yaşı onun hərbi xidmət keçməkdən boyun qaçırmaya görə məhkəmə məsuliyyətinə verilməsindən sonra da tamam ola bilər. Bu zaman onun bəraətverici əsaslarla məsuliyyətdən və cəzadan azad olunması tam qanunsuz və əsassız olacaqdır.

Şərh olunanlardan belə nəticəyə gəlinir ki, şəxsin 35 yaşının tamam olması onu cinayət məsuliyyətindən azad etmir və əgər cinayət məsuliyyətinə cəlb etmə müddətləri keçməmişdirsə şəxs 35 yaşı tamam olana qədər törətdiyi hərbi xidmət keçməkdən boyun qaçırma cinayətinə görə məsuliyyətə cəlb olunmalıdır.

Cinayət Məcəlləsinin 321.2-ci maddəsi hərbi xidmət keçməkdən boyun qaçırmanın müharibə vaxtı törədilməsinə görə məsuliyyət müəyyən etmişdir.

Qanunvericilikdə "Müharibə vaxtı"nın anlayışı Cinayət Məcəlləsini 328-ci maddəsinin qeyd hissəsində verilmişdir.

Həmin maddənin qeydinə əsasən "müharibə vaxtı" dedikdə, Azərbaycan Respublikasının xarici dövlətlərlə müharibə vəziyyətində olması başa düşülür. Müharibənin elan olunmasının və ya hərbi əməliyyatların faktiki aparılmasının ilk günü və saatı müharibənin başlanması, hərbi əməliyyatların faktiki dayandırıldığı gün və saat isə müharibənin sonu hesab edilir. Qeyddə verilmiş şərhin "Hərbi xidmət əleyhinə olan cinayətlər" fəslinin müvafiq maddələrində istifadə olunan "müharibə vaxtı" ifadəsinə şamil olunduğu göstərilsə də, həmin şərhin Cinayət Məcəlləsinin 321.2-ci maddəsinin dispozisiyasına da tətbiq edilə biləcəyi barədə ümumi fikir mövcuddur.

27 sentyabr 2020-ci il tarixdən 10 noyabr 2020-ci tarixədək davam etmiş "Vətən Müharibəsi" dövründə hərbi xidmət keçməkdən boyun qaçırmış şəxslərin əməlinin Cinayət Məcəlləsini 321.2-ci maddəsi ilə tövsif edilməsi ilə əlaqədar fikir ayrılığı mövcud deyil və bununla bağlı artıq istintaq və məhkəmə təcrübəsi formalaşmışdır.

Fikir ayrığına səbəb olan məsələ, 2016-cı il "Aprel döyüşləri" və 2020-ci il "Tovuz döyüşləri" zamanı hərbi xidmət keçməkdən boyun qaçırmış şəxslərin əməllərinin Cinayət Məcəlləsinin 321.1. yaxud 321.2-ci maddəsi ilə tövsif edilib-edilməsi ilə bağlıdır.

Bəzi prokurorluq əməkdaşlarının mövqeyinə görə, 2016-cı il aprel və 2020-ci il Tovuz döyüşlərindən fərqli olaraq "Vətən Müharibəsi" daha uzun müddət davam etdiyindən, həmçinin, "Vətən Müharibəsi" gedişində ölkədə qismən səfərbərlik elan olunduğundan, yalnız "Vətən Müharibəsi" dövründə hərbi xidmət keçməkdən boyun qaçırmış şəxslərin əməlləri Cinayət Məcəlləsinin 321.2-ci maddəsi ilə tövsif olunmalı, digər hallarda isə 321.1-ci maddə tətbiq olunmalıdır.

Lakin əgər əməlin "müharibə vaxtı" törədilib-törədilmədiyini müəyyən etmək üçün Cinayət Məcəlləsinin 328-ci maddəsinin qeydində verilmiş şərh əsas götürüləcəksə, nəzərə alınmalıdır ki, həmin maddədə "müharibə vaxtı"nın müəyyən edilməsi üçün döyüş əməliyyatlarının hansı müddət ərzində davam etməsi və bu zaman ölkə üzrə səfərbərliyin elan olunması zəruri element kimi göstərilməmişdir. Belə olduqda, istər "Vətən Müharibəsi", istərsə də 2020-ci ilin "Tovuz döyüşləri" və 2016-cı ilin "Aprel döyüşləri" müddətində hərbi xidmət keçməkdən boyun qaçırmış şəxslərin əməlinin Cinayət Məcəlləsini 321.2-ci maddəsi ilə tövsif edilməsi qanuni olar.

Müasir dövrdə hər bir ölkənin öz müstəqilliyini, ərazi bütövlüyünü və milli maraqlarını qoruya bilməsi üçün güclü və yüksək döyüş qabiliyyəti olan silahlı qüvvələrə malik olması zəruridir. Silahlı qüvvələrin gücü və döyüş qabiliyyəti onun ən müasir texnika və silah-sursatla təchiz olunması ilə yanaşı onun şəxsi heyətinin vaxtında və zəruri sayda komplektləşdirilməsindən də asılıdır. Hərbi xidmət keçməkdən boyun qaçıran şəxslərin əməllərinə düzgün cinayət-hüquqi qiymətin verilməsi həm onların özlərinin, həm də, digər şəxslərin hərbi xidmətdən yayınmalarının qarşısının alınmasına ciddi profilaktik təsir göstərməklə, Silahlı Qüvvələrimizin şəxsi heyətinin komplektləşdirilməsində yarana biləcək problemlərin və çətinliklərin önlənməsində xüsusi əhəmiyyətə malikdir.

**Elşən Albəndov,**
**Prokurorluqda istintaqa nəzarət**
**idarəsinin rəis müavini**
**baş ədliyyə müşaviri**

**İstifadə olunan ədəbiyyatın siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası (27 noyabr 1995-ci il tarixdə qüvvəyə minmişdir).
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (1 sentyabr 2000-ci il tarixdə qüvvəyə minmişdir).
3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi (1 sentyabr 2000-ci il tarixdə qüvvəyə minmişdir).
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (1 mart 2016-cı il tarixdə qüvvəyə minmişdir).
5. "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu (10 iyun 1992-ci il tarixdə qüvvəyə minmişdir).
6. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu (23 dekabr 2011-ci il tarixdə qüvvəyə minmişdir).
7. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanunu (10 iyun 2005-ci il tarixdə qüvvəyə minmişdir).
8. "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1 noyabr 2001-ci il tarixli Qərarı.
9. İ.Ağayev "Cinayət hüququ. Xüsusi Hissə" (2018-ci il)
10. F.Səməndərov "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası (2021-ci il).
11. A.Бриллиантов "Комментарий к Уголовному Кодексу РФ" (2010-cu il).

# Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə ibtidai istintaqa prokuror nəzarətinin təşkili



Bu gün bəşəriyyəti düşündürən, cəmiyyətin ciddi bəlasına çevrilən, insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq ən ağrılı problemlərdən biridir.

Dövlət başçısının siyasi iradəsinə uyğun olaraq ölkəmizdə narkomaniya ilə mübarizə çərçivəsində bir sıra institusional islahatlar həyata keçirilmiş, BMT-nin mövcud məsələ ilə bağlı qəbul etdiyi konvensiyalara qoşulması, yeni qanunların qəbul olunması, qanunvericilik bazasının təkmilləşdirilməsi, dünya birliyinə inteqrasiya proseslərində regional və beynəlxalq layihələrdə iştirakla əlaqədar ardıcıl və qətiyyətli tədbirlər bu gün də davamlı olaraq həyata keçirilməkdədir.

Azərbaycan Respublikası narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəni tənzimləyən beynəlxalq hüquq normalarını tam, hərtərəfli və sistemli şəkildə əks etdirən Birləşmiş Millətlər Təşkilatının Konvensiyalarına, o cümlədən 1972-ci il protokolu ilə edilmiş düzəlişlərlə “Narkotik vasitələrə dair 1961-ci il Vahid Konvensiyasına”, “Psixotrop maddələr haqqında” 1971-ci il Konvensiyasına və “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında” 1988-ci il Konvensiyasına qoşulmaqla bu cinayətlərə qarşı mübarizədə öz üzərinə mühüm vəzifələr götürmüşdür.

İlkin olaraq qeyd olunması zəruridir ki, narkotik vasitələr dedikdə BMT-nin 1961-ci il tarixli “Narkotik vasitələr haqqında” Vahid Konvensiyasında, 1971-ci il tarixli “Psixotrop maddələr haqqında” Konvensiyasında, 1988-ci il tarixli “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” Konvensiyasında, habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları, o cümlədən tərkibində narkotik maddələr olan bitkilər, psixotrop maddələr dedikdə isə qeyd edilən konvensiyalarda habelə Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuş siyahılarda belə təsnif edilmiş sintetik və ya təbii mənşəli maddələr, onların preparatları başa düşülür. Onları prekursorları isə narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması məqsədilə istifadə edilən kimyəvi maddələr və onların duzları, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda göstərilən kateqoriyalara aid edilmiş və idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan kimyəvi maddələr və onların duzlarıdır. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi – Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları ilə bağlı törədilən hər hansı hərəkətlərdir.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə aparılan istintaq zamanı qanunvericiliyin tələblərinə əsasən düzgün əməl edilsə də, bəzi hallarda bu qəbildən olan cinayət işləri istintaq olunarkən maddi və prosessual qanunvericiliyin tələblərinə tam olaraq əməl olunmur, bir sıra hallarda bu cinayətlərin bütün iştirakçılarının müəyyən olunmasına, narkotik vasitələrin əldə edilmə mənbəyinin aşkar edilməsinə kifayət qədər diqqət yetirilmir, təqsirləndirilən şəxslərin əməllərinin hüquqi tövsifində səhvlərə yol verilməklə bu növ cinayətlərin törədilməsinə imkan verən səbəb və şəraitin aşkar edilməsinə və qarşısının alınmasına lazımı səviyyədə səy göstərilmir.

Belə ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin sübutların mümkünlüyü məsələsini müəyyən edən 125-ci maddəsində təsbit edilmişdir ki, məlumatlar, sənədlərin və digər əşyaların həqiqiliyinə, yaranma mənbəyinə və əldə edilməsi hallarına şübhələr olmadıqda, onlar sübut kimi qəbul edilə bilər. Həmin maddə məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilə bilməməsini yeganə bir meyarla – onların qanunun pozulması ilə əldə edilməsinə əsasən müəyyən edir. Onlar qanunun pozulması ilə əldə edildikdə və ya istintaq hərəkətləri qanunun pozulması ilə keçirildikdə, məlumatlar, sənədlər və digər əşyalar cinayət işi üzrə sübut kimi qəbul edilə bilməz. İstintaq və ya digər prosessual hərəkətlərin icraatı qaydaları kobud pozuntularla aparıldıqda və şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulmasına yol verildikdə, əldə edilmiş məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilmir. Belə hallarda alınmış məlumatlar, sənədlər və əşyalar hüquqi qüvvəsi olmayan hesab edilir və ittihamın düzgün həllində hər hansı halın sübut edilməsində istifadə edilə bilməz. İstintaq və digər prosessual hərəkətin icraatı qaydalarının kobud pozuntularla müşayiət edildiyi hallara istintaqın keçirilməsində iştirakı məcburi olan bir və ya bir neçə subyektin iştirakı olmadan bu hərəkətin həyata keçirilməsi halı da aiddir.

Həmin Məcəllənin 145-ci maddəsinə əsasən hər bir sübut mənsubiyyəti, mümkünlüyü və mötəbərliyi üzrə qiymətləndirilməlidir. Cinayət təqibi üzrə toplanmış bütün sübutların məcmusuna ittihamın həlli üçün onların kifayət etməsinə görə hüquqi qiymət verilməlidir. İttihamın sübut edilməsində yaranan şübhələri digər sübutlarla aradan qaldırma mümkün olmadıqda, onlar şübhəli və ya təqsirləndirilən şəxsin xeyrinə təfsir edilir.

Narkotik vasitələrin psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı cinayət işləri üzrə ibtidai istintaq materialları öyrənilərkən bir çox hallarda müşahidə edilir ki, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin üzərindən narkotik vasitənin aşkar edilərək götürülməsi ilə bağlı istintaq hərəkətləri qanunun yuxarıda qeyd edilən tələblərinin kobud surətdə pozulması ilə aparılır, həmin şəxslərin üzərinə baxış (faktiki şəxsi axtarış və götürmə) saxlanıldıqları yerlərdə deyil, bir müddət sonra təhqiqat və ya istintaq orqanının inzibati binasında keçirilir, yaxud həmin şəxslərin üzərinə baxış ilkin olaraq saxlanıldıqları yerdə müdafiəçinin iştirakı olmadan aparılır, daha sonra təhqiqat və ya istintaq orqanının inzibati binasında müdafiəçinin iştirakı ilə aparılır, eləcə də hal şahidlərinin çoxunun bu növ cinayət işlərində iştirakları da formal və mütəmadi xarakter daşıyır.

Avropa Məhkəməsi "Layıcov Azərbaycana qarşı" 10 aprel 2014-cü il tarixli qərarında nəzərə almışdır ki, məlumat əsasında saxlanması iddia edilsə də, Lahıcovun üzərinə və avtomobilinə baxış, saxlanılarkən dərhal və saxlanıldığı yerin yaxınlığında deyil, 30 dəqiqədən sonra Zaqatala rayon polis şöbəsində keçirilmişdir. Məhkəmə qeyd etmişdir ki, Lahıcovun saxlanılması ilə baxışın keçirilməsi arasında 30 dəqiqə vaxtın keçməsi qeyd edilən sübutun "atılmasının" mümkünlüyü ilə əlaqədar əsaslı narahatlıq yaradır, çünki həmin müddət ərzində şikayətçi tamamilə polisin nəzarəti altında olmuşdur. Şikayətçi həbs olunandan dərhal sonra onun üzərinə baxış keçirilməsinin mümkünsüzlüyü ilə əlaqədar hər hansı sübut mövcud deyil. Üzərində və avtomobilində aşkar edilən maddi sübutun qanuniliyi ilə bağlı şikayətçi ibtidai istintaq zamanı və məhkəmədə məsələ qaldırsa da, yerli məhkəmələr öz hökmlərində bu məsələyə münasibət bildirməmiş və həmin sübut əsasında onu məhkum etmişlər.

Cinayət-Prosessual Məcəlləsinin 115.2-ci maddəsi hal şahidinin istintaq hərəkətinin icraatında əvvəllər iştirakı həmin cinayət təqibi üzrə aparılan digər istintaq hərəkətinin icraatında təkrar iştirakını istisna etmir, bir şərtlə ki, onun iştirakı mütəmadi xarakter daşımamalıdır. Hal şahidinin iştirakının mütəmadi xarakter daşıması onun iştirakı ilə aparılmış hərəkətin etibarsız edilməsinə əsas ola biləcəyindən (Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 115.4-cü maddəsi) şəxsi axtarış və götürmə aparılarkən dəvət olunmuş hal şahidlərinin cinayət-prosessual qanunvericiliyinin tələblərinə uyğun olub-olmamasının müəyyənləşdirilməsi ibtidai istintaq orqanının əsas vəzifələrindəndir.

"Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 4 mart 2011-ci il tarixli 2 saylı qərarında göstərilmişdir ki, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 246.2.1-ci maddəsinə əsasən, məhkəmənin qərarı olmadan şəxsi axtarış şübhəli şəxs tutulduqda və polis və ya digər hüquq-mühafizə orqanına gətirildikdə aparıla bilər. Həmin Məcəllənin 153-cü maddəsinin mənasına görə, tutulmuş şəxs təxirə salınmadan polis və digər təhqiqat orqanının müvəqqəti saxlama yerinə gətirilməli və onun tutulması müvafiq protokolla rəsmiləşdirilməlidir. Qanunun bu normasının düzgün tətbiqi məsələsini nizama salmaq məqsədilə

izah edilmişdir ki, şəxsi axtarışın şübhəli şəxs qismində tutma protokolu tərtib olunmazdan əvvəl (şəxsi axtarış barədə məhkəmə qərarı olmadan) aparılması halı müəyyən edildikdə məhkəmə buna münasibətini bildirməli və bu yolla əldə olunmuş sübutların mümkünlüyü məsələsini qeyd olunan Məcəllənin 125.1, 125.2.1 və 125.2.7-ci maddələrinin tələblərinə uyğun olaraq həll etməlidir.

Cinayət işləri öyrənilərkən bir sıra hallarda məlum olur ki, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə məşqul olan şəxslərin üzərində axtarış apararkən hal şahidi qismində dəvət edilmiş şəxslər əvvəllər də mütəmadi olaraq bu qəbildən olan cinayət işləri üzrə keçirilmiş şəxsi axtarış və götürmə hərəkətləri zamanı hal şahidi qismində iştirak etmişlər. Bu hal hal şahidlərinin polis əməkdaşları ilə qarsılıqlı əməkdaşlıq münasibətində olması və beləliklə onların cinayət prosesində maraqlı olması qənaətinə gəlməyə əsas verir.

Bu cür halların baş verməsi cinayət törətməkdə şübhə edilən şəxslər barəsində əldə edilmiş sübutların mötəbərliyini, tərtib edilmiş istintaq hərəkəti protokollarının mötəbərliyini şübhə altına qoymaqla, həmin şəxslərin müdafiə hüquqlarırın pozulması kimi qiymətləndirilməklə təqsirli şəxslərin əsassız cinayət məsuliyyətdən yaxa qurtarmasına gətirib çıxara bilər.

Eyni zamanda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar istintaqı aparılmış cinayət işlərinin təhlilləri göstərir ki, bəzi hallarda təhqiqat orqanları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbiri ilə bağlı əməliyyat-qeydiyyat işi başlanılıb həmin iş qeydiyyata alınmır. Bir qayda olaraq əməliyyat-axtarış tədbirinin keçirilməsinə dair qərar tədbirə bir gün qalmış və ya həmin gün qəbul olunur, qərarda konkret hansı əməliyyat-axtarış tədbirinin keçirilməsi göstərilmir, ümumi sözlərlə kifayətlənilir.

Bu zaman isə qəbul olunmuş qərar və keçirilmiş tədbir qanun pozuntuları ilə müşayiət olunur. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunun 10-cu maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş konkret tədbirin adı göstərilmədən ümumi sözlərlə kifayətlənilir, həmin maddənin 5-ci bəndinin tələbləri pozularaq keçirilmiş tədbir barəsində qərar 48 saat ərzində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilmir.

Bundan başqa, bu qəbildən olan cinayət işləri öyrənilərkən bir sıra hallarda məlum olur ki, narkotiklərlə bağlı cinayət işlərinin istintaqı zamanı narkotiklərin əldə edilməsi mənbələrinin aşkara çıxarılması məqsədilə aparılmış əməliyyat axtarış tədbirləri formal xarakter daşıyır, eləcə də son dövrlərdə əhəmiyyətli dərəcədə artması müşahidə olunan müxtəlif sosial şəbəkələrdə narkotik vasitələrin satışını həyata keçirən və satılmış narkotik vasitələrin pulunu onlayn yolla qəbul etmiş şəxslərin ətrafında xüsusi texniki vasitələrdən istifadə edilməklə tam və hərtərəfli əməliyyat axtarış tədbirləri həyata keçirilmir.

Aparılan təhlil göstərir ki, son zamanlar külli miqdarda narkotik vasitələr səfil həyat tərzi keçirən, alkoqolizmdən əzab çəkən, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlılığı olmayan təsadüfi şəxslərdən aşkar edilərək götürülür. İstintaq zamanı qeyd edilən şəxslərə narkotik vasitə vermiş şəxslər barəsində və narkotik vasitənin mənbəyi barəsində cinayət işləri ayrılsa da, onlar bağlı qalır. Bütün bunlar keçirilmiş tədbirin əsaslılığını və qanuniliyini şübhə altına alır.

Bundan başqa bu qəbildən olan cinayət işləri üzrə ibtidai istintaq materialları öyrənilərkən bir çox hallarda müşahidə edilir ki, meşə fondu, su fondu, ehtiyat fondu və s. kateqoriyalı torpaqlarda tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz olaraq əkilməsi, yetişdirilməsi, toplanması və kultivasiyası aparılarkən həmin cinayəti törətmiş şəxslər Azərbaycan Respublikası CM-in 237-ci maddəsi ilə təqsirləndirilməklə yanaşı, həmin şəxslərə eyni zamanda həmin məcəllənin 188-ci maddəsi ilə ittiham elan olunur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 188-ci maddəsinə əsasən qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsini başqa üsullarla özbaşına tutma cinayət məsuliyyətinə səbəb olur.

Qanunverici Cinayət Məcəlləsinin bu maddəsində torpaq üzərində mülkiyyət hüququnun pozulmasını torpağın mülkiyyət formasından və hüquqi rejimindən asılı olmayaraq, Azərbaycan Respublikasının vahid torpaq fonduna daxil edilən torpaqların bütün kateqoriyalarına aid etmişdir. Eyni zamanda, qeyd olunan normanın dispozisiyasında nəzərdə tutulmuş torpaq üzərində mülkiyyət hüququnun pozulması mülkiyyət hüququnun hər bir elementinin – torpağa sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermə hüququnun pozulması kimi başa düşülməlidir. Beləliklə, Cinayət Məcəlləsinin həmin maddəsində göstərilən cinayətin obyekti torpaq üzərində mülkiyyət hüququnun həyata keçirilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərdir.

Cinayət Məcəlləsinin qeyd olunan normasında nəzərdə tutulan torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnun pozulmasına görə cinayət məsuliyyəti yaradan əməllər isə torpaq sahəsini özbaşına tutma, dəyişdirmə və becərmədə ifadə edil-

mişdir. Bu əməllər öz növbəsində qeyd olunan cinayətin obyektiv cəhəti hesab edilir.

Cinayət işlərinin təhlili göstərir ki, təqsirləndirilən şəxslər tərəfindən dövlət və ya bələdiyyə torpaqlarının istifadəyə ayrılması haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş sərəncam olmadan meşə fondu, su fondu, ehtiyat fondu və s. kateqoriyalı torpaq sahələrində gizlin olaraq tərkibində narkotik maddələr olan bitkilər qanunsuz olaraq kultivasiya edilir.

Lakin bu kimi hallarda məqsəd torpaq sahəsini özbaşına tutma və ya ələ keçirmədə ifadə olunmur. Belə ki, təqsirkar tərəfindən qanunsuz ələ keçirilmiş torpaq sahəsinə aşkar surətdə faktiki sahiblik edilmir (torpaq sahəsinin hüdudlarını müəyyən edən hasar çəkilmir, orada tikinti, abadlaşdırma və s. təsərrüfat-məişət təyinatlı fəaliyyət həyata keçirilmir). Qanunsuz ələ keçirilmiş torpaq sahəsindən yalnız qısa müddət ərzində narkotik vasitələri qanunsuz olaraq gizli şəkildə kultivasiya etmək üçün üsul kimi istifadə olunur.

Buna görə də bu qəbildən olan cinayət işlərinin istintaqı zamanı təqsirləndirilən şəxslərin əməllərinin hüquqi tövsifində bu kimi hallara diqqət yetirilməli, dövlət və ya bələdiyyə torpaqlarında qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiyası etmiş şəxslərin məqsədinin həmin torpaq sahəsini özbaşına tutma və ya ələ keçirmədə ifadə olunub-olunmamasına, qanunsuz ələ keçirilmiş torpaq sahəsinə aşkar surətdə faktiki sahiblik edilib-edilməməsinə yaxud yalnız qısa müddət ərzində narkotik vasitələri qanunsuz olaraq gizli şəkildə kultivasiya etmək üçün üsul kimi istifadə olunmasına əhəmiyyət verilməli, yalnız bundan sonra təqsirləndirilən şəxslərin əməlində Azərbaycan Respublikası CM-in 188-ci maddəsinin tərkib əlamətlərinin olub-olmamasına əsaslı hüquqi qiymət verilməlidir.

Bundan başqa, Azərbaycan Respublikası CPM-in 214.3-cü maddəsinin tələbinə görə təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması şəklində təhqiqat cinayətin izlərinin müəyyən edilməsi və rəsmiləşdirilməsi məqsədi ilə aparılır. Təhqiqatı bu şəkildə apararkən təhqiqatçı cinayət işini başlayır və bu barədə dərhal ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir, şübhəli şəxsi tutmaq, onun, zərər çəkmiş şəxsin, şahidin, mülki iddiaçının, mülki cavabdehin, şahidlərin dindirilməsi, axtarış, müayinə (şəxsi müayinə) və götürmə kimi istintaq hərəkətlərini aparır, cinayət işinin başlanmasından sonra 10 (on) gündən gec olmayaraq sonrakı araşdırmanın aparılması üçün cinayət işini istintaq orqanına göndərir. Eləcə də, həmin məcəllənin 219.2-ci maddəsinin tələbinə görə ibtidai istintaqın aparılması məcburi olan cinayət işləri üzrə təxirəsalınmaz istintaq hərəkətlərini apardıqdan sonra və hər bir halda cinayət işi başlanandan 10 (on) gün sonra təhqiqatçı müvafiq qərar çıxarmaqla cinayət işini müstəntiqə göndərir.

Lakin Azərbaycan Respublikasının daxili işlər orqanlarının təhqiqatçıları tərəfindən bir çox hallarda cinayət işinin başlanılması və istintaqın aparılması üçün aidiyyatı üzrə istintaq orqanına göndərilməsi barədə qərarda adı çəkilən qanun normalarına deyil, yalnış olaraq Azərbaycan Respublikası CPM-in 207.5.3 və 213.1.1-ci maddələrinə istinad edilir. Azərbaycan Respublikası CPM-in 213.1.1-ci maddəsi üzrə cınayətin araşdırılması təhqiqatçının və ya müstəntiqin səlahiyyətlərinə aid olmadıqda həmin cinayət haqqında məlumatın istintaq aidiyyatı üzrə göndərilməsindən bəhs edilir. Lakin Azərbaycan Respublikası CPM-in tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il tarixli Fərmanının 3-cü bəndinə əsasən Azərbaycan Respublikası CM-in 234-cü maddəsi üzrə ibtidai istintaq Azərbaycan Respublikasının daxili işlər orqanlarına həvalə edilmişdir. Odur ki, təxirəsalınmaz istintaq hərəkətlərin aparılması şəklində təhqiqat aparıldıqdan sonra cinayət işi müstəntiqə Azərbaycan Respublikası CPM-in 214.3 və 219.2-ci maddəsinin tələbləri üzrə göndərilməlidir.

Qeyd olunanlara əsasən hesab edirik ki, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət işlərinin istintaqı zamanı qanunvericiliyin tələbləri tam həcmdə nəzərə alınmalı, bu sahəyə nəzarət daha da gücləndirilməli, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Konvensiyalarının, o cümlədən 1972-ci il protokolu ilə edilmiş düzəlişlərlə "Narkotik vasitələrə dair 1961-ci il Vahid Konvensiyası", "Psixotrop maddələr haqqında" 1971-ci il Konvensiyası və "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" 1988-ci il Konvensiyasının, eləcə də Azərbaycan Respublikası cinayət prosessual qanunvericiliyinin, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanununun tələblərinə dönmədən əməl edilməli, həmçinin dövlət və ya bələdiyyə torpaqlarında qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiyası etmiş şəxslərin əməllərində CM-nin 188-ci maddəsinin tərkib əlamətlərinin olub-olmaması ilə əlaqədar vahid istintaq təcrübəsinin formalaşması zəruridir.

**Ramin Hüseynov,**
**Göyçay rayon prokuroru**
**ədliyyə müşaviri**

# Vahid məhkəmə təcrübəsi: hüquq normalarının tətbiqinə sabit yanaşma



Hər bir dövlətin inkişafını şərtləndirən, onu möhkəmləndirən başlıca amillərdən biri də məhkəmə-hüquq sistemidir. Vətəndaşın dövlətə güvəni, sosial ədalət, iqtisadi inkişaf və s. anlayışlar dövlət üçün vacib hesab edilməklə yanaşı, həm də məhkəmə-hüquq sisteminin zəruri ünsürlərindəndir. Müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması, ədalət mühakiməsinin şəffaf, demokratik, obyektiv şəraitdə həyata keçirilməsi, bu zaman insan və vətəndaş hüquq və azadlıqlarının maksimum səviyyədə qorunması baxımından respublikada bu sahə daim xüsusi diqqət mərkəzində olmuşdur.

Hələ Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1993-cü ildən ölkədə aparılan hüquqi dövlət quruculuğu siyasəti Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasına, insanların hüquq və azadlıqlarının təmin olunmasına, habelə ölkəmizin məhkəmə sistemində aparılan islahatların ardıcıl xarakter daşımasına öz töhfəsini vermişdir. Təsadüfi deyil ki, həmin vaxtdan ölkənin hüquq sistemində ciddi islahatlar həyata keçirilmiş və bu proses hazırda da davam edir.

Heç şübhəsiz ki, Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən məhkəmə-hüquq sistemində həyata keçirilən siyasət də hüquqi dövlətin əsaslarını möhkəmləndirməyə yönəldilmişdir.

İslahatlar nəticəsində ölkəmiz bütün sahələrdə dinamik inkişaf edir, yeni ictimai münasibətlər yaranır, mövcud olanlar isə keyfiyyətcə yeni xarakter alır. İctimai həyatda münasibətlərin yenilənməsi onların ədalətli, səmərəli və çevik tənzimlənməsi üçün müvafiq hüquqi norma və mexanizmlərin təkmilləşdirilməsini zəruri edir.

Bu dövr ərzində beynəlxalq hüquqi aktların və normaların tələblərinin əsas götürüldüyü bir sıra qanunların və yeni hüquqi sənədlərin qəbul edilməsi, dünya praktikasına əsaslanaraq yeni qurumların yaradılması da ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasında əvəzsiz önəmə malikdir.

Belə ki, "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncam dövlət başçısının humanist siyasətinin təzahürü olmaqla mühüm strateji əhəmiyyətə malik bir sənəd kimi ölkənin hüquq sisteminin müasir dövrün ən yüksək tələbləri səviyyəsində yenilənməsinə və təkmilləşməsinə təkan vermişdir.

Bu sahəyə göstərilən diqqətin ən bariz nümunənələrindən biri isə ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək üçün məhkəməyə müraciət imkanları daha da genişləndirən, məhkəmələrin fəaliyyətində şəffaflığın artmasına, məhkəmə icraatının effektivliyinin yüksəlməsinə, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsinin təmin olunmasına, həmçinin süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması istiqamətində görülən tədbirlərin gücləndirilməsinə yönələn 2019-cu aprelin 3-də Prezident İlham Əliyev tərəfindən imzalanan Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Fərmandır.

Heç şübhəsiz ki, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam olaraq qəbul edilmiş həmin Fərman müstəqil, obyektiv, qərəzsiz və şəffaf məhkəmə-hüquq sistemin fəaliyyətinin təmin edilməsinə, onun modernləşdirilməsi və təkmilləşdirilməsi üçün bu sahədə çatışmazlıqların aradan qaldırılmasına, insan hüquqlarının etibarlı müdafiəsinə mühüm töhfə vermişdir.

Sözügedən Fərman dövlət başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürü kimi həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsi olmaqla yanaşı, həm də ədliyyə və məhkəmə sisteminin inkişafının strateji prioritetlərini müəyyən edən, məhkəmə-hüquq sistemində müşahidə olunan çatışmazlıqların aradan qaldırılmasına istiqamətlənmiş proqram xarakterli "yol xəritəsi"dir.

Məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasının və məhkəmə-hüquq islahatlarının davamlılığının real göstəricisi olan bu sənəd ümumilikdə, vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin daha etibarlı təmin olunmasına, ədalət mühakiməsinə ictimai etimadın yüksəlməsinə, əhaliyə daha çevik, asan və alternativ xidmətlərin göstərilməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsinə, məhkəmələrə kənar müdaxilələrin qarşısının alınmasına, qeyri-prosessual münasibətlərin, süründürməçiliyin və digər neqativ halların yolverilməzliyinin, məhkəmə qərarlarının ədalətliliyinin və vaxtında tam icrasının təmin olunmasına, şəffaflığın artırılmasına, işlərə baxılmasının keyfiyyətinin yüksəlməsinə, o cümlədən cinayət təqibi orqanlarında başlanmış cinayət işlərinin istintaqı zamanı cinayət qanunvericiliyinin müddəalarına düzgün istinad edilməklə əmələ obyektiv hüquqi qiymət verilməsi, cinayət işlərinin yüksək peşəkarlıqla istintaq edilməsi, prokurorlar tərəfindən ibtidai araşdırmanın həm prokurorluq, həm də digər istintaq orqanlarında keyfiyyətlə aparılması istiqamətində kəsərli tədbirlərin görülməsinə istiqamətlənmiş vahid məhkəmə təcrübəsinin formalaşdırılmasına və icra olunması mexanizminin təsbit edilməsinə xidmət etmişdir.

Fərmanda hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyinin təmin edilməsi məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün ciddi tədbirlər görülməsi, ədalət mühakiməsinin keyfiyyətinin artırılması məqsədilə məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi sahəsində fəaliyyətini gücləndirilməsilə əlaqədar mühüm müddəalar öz əksini tapmışdır.

Qanunvericiliyin maddi və prosessual normalarının sabit və vahid tətbiqini hüququn aliliyinin ən vacib göstəricilərindən hesab olunduğunu nəzərə alsaq, vahid məhkəmə təcrübəsinin yaradılması məhkəmə-hüquq islahatları çərçivəsində əsas yeniliklərdən biridir.

Vahid məhkəmə təcrübəsi nədir? Vahid məhkəmə təcrübəsi hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini və ədalət mühakiməsi zamanı maddi və prosessual hüquq normalarının eyni cür və maraqlardan kənar tətbiq edilməsinin təmin edilməsi məqsədi daşıyan mexanizmdir. Göründüyü kimi bu təcrübəni səciyyələndirən üç əsas meyar var: vahidlik, sabitlik və proqnozlaşdırılan olması.

Burada məhkəmə praktikasının vahidliyi dedikdə bütün işlərə eyni cür baxılması nəzərdə tutulmur, oxşar işlərdə işin halları və hüquqi əsasları nəzərə alınmaqla dəqiq nəticənin əldə edilməsinin planlaşdırılması nəzərdə tutulur.

Sabitlik ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsi ilə əldə edilən nəticədir. Bu nəticə hüquqi məsələlərin insanlar tərəfindən proqnozlaşdırılan olmasını təmin edir ki, bu da öz növbəsində aşkarlığın, hüququn insanlara əlçatan olmasının göstəricilərindən biridir.

Proqnozlaşdırılan olma imkanı hüquq sistemində eyni kateqoriyalı işlər üzrə nəticələrin müəyyənliyinin əvvəlcədən ədalət mühakiməsinin bütün tərəfləri üçün təmin edilməsidir.

Bu təcrübə ədalət mühakiməsinin bütün tərəflərinə hüquqi nəticəni proqnozlaşdırmaq imkanını, proqnozlaşdırılan hüquqi nəticənin əsasını ehtimalın deyil, məcburi hüquqi qüvvəyə malik məhkəmə təcrübəsinin təşkil etməsini, maddi və prosessual hüquq normalarının eyni kateqoriyadan olan işlərə müxtəlif cür tətbiq edilməsinin qarşısının alınması və işlərdə stabilliyin təmin edilməsini vəd edir. Vəd edilən mexanizmin rolu hüquqi aktların kolliziyasından sui-istifadə hallarının qarşısını almaq, insanların məhkəməyə, məhkəmə-hüquq sisteminə tam inamını formalaşdırmaqdan ibarətdir.

Belə bir təcrübənin hüquq doktrinasi kimi qəbul edilməsi yalnız vətəndaş-məhkəmə münasibətlərində deyil, bütövlükdə ədalət mühakiməsinin keyfiyyətinin artırılması, prokurorluq və digər istintaq orqanlarının fəaliyyətinə səmərəli təsir göstərməsin, hüquqi bürokratizmə son qoyulması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Beynəlxalq təcrübə: Bu təcrübənin tətbiqi ilə bağlı xarici ölkələrin hüquq sisteminə nəzər yetirsək görərik ki, qonşu Rusiyada "məhkəmə təcrübəsinin vəhdəti"nin normativ-hüquqi tənzimlənməsi mövcud olmasa da, Rusiya Federasiyasının Ali Məhkəmə Prezidiumunun 23.03.2005-ci il tarixli 25-ПВ04 №-li Qərarında qeyd edilmişdir ki, məhkəmə təcrübəsinin vahidliyi dedikdə mülki işlərin baxılması və həll edilməsi zamanı məhkəmələr tərəfindən federal qanunvericiliyin düzgün və vahid tətbiq edilməsi başa düşülür. RF-nın Konstitusiyasında həm hüquq normalarının vahidliyi, həm Ali Məhkəmənin məhkəmə təcrübəsi üzrə izahlar vermək hüququnun nəzərdə tutulması hüquq normalarının bütün dövlətin ərazisində eyni şəkildə şərh olunması və tətbiqini şərtləndirir. Konstitusiyanın 126-cı maddəsində təsbit edilmiş bu səlahiyyət "Rusiya Federasiyasının Ali Məhkəməsi haqqında" Federal Konstitusiya Qanunu (FKQ) ilə həyata keçirilir. Həmin Qanunun 5-ci maddəsi ilə yalnız Ali Məhkəmənin Plenumu və Prezidiumu bu səlahiyyətlərə malikdir, adı çəkilən qurumlar həmin fəaliyyətlərini Plenum və Prezidium Qərarlarının çıxarılması, RF-nın Ali Məhkəməsinin təcrübəsi üzrə ümumiləşdirilmənin formalaşdırılması vasitəsi ilə gerçəkləşdirir.

"RF-nın Ali Məhkəməsi haqqında" FKQ-nın 7-ci maddəsində qüvvəyə minmiş məhkəmə aktlarının qanuniliyini yoxlayan və bununla faktiki olaraq məhkəmə təcrübəsinin vahidliyini təmin edən ali nəzarət orqanı kimi Ali Məhkəmənin Prezidiumu təsbit edilmişdir.

Təcrübənin vahidliyinin təmini məqsədilə RF-nın Ali Məhkəməsi həmçinin hakimlər tərəfindən müxtəlif məcəllələrin normalarının tətbiqi ilə bağlı yaranan çoxsaylı məsələləri nəzərdən keçirir.

Eyni zamanda qeyd edilməlidir ki, RF-nın Konstitusiya Məhkəməsinin qərarları bütöv həcmdə presedent xarakteri daşıyır. Konstitusiya Məhkəməsi vaxtaşırı olaraq oxşar işlər üzrə öz qərarlarına istinad edir. Bundan əlavə ümumi yurisdiksiyalı məhkəmələrin də Konstitusiya Məhkəməsinin qərarlarına istinad edilməsi hallarına rast gəlinir. RF-nın Ali Məhkəməsi Plenumunun 19.12.2003-cü il tarixli 23 №li "Məhkəmə qərardadı haqqında" Qərarında da hüquq normalarının tətbiqi zamanı RF-nın Konstitusiya məhkəməsinin qərarları, Ali Məhkəmə Plenumunun qərarları və Avropa İnsan Haqları Məhkəməsinin qərarlarının nəzərə alınmalı olduğu vurğulanmışdır.

Fransada təcrübədə presedentlər getdikcə daha əhəmiyyətli rol oynayır və bunun olduqca məntiqli izahı var. İş orasındadır ki, qanunların təfsirində aşkar olunan çoxsaylı boşluqları mövcud presedentlər əsasında aradan qaldırmaq öhdəliyi Fransa Mülki Məcəlləsinin 4-cü maddəsində göstərilən Kassasiya Məhkəməsinin üzərinə qoyulmuşdur. Üstəlik, hakimlərin yeni presedentlərlə tanış olması və bunları oxşar işlərə tətbiq etməsi məqsədilə həmin məsələlərə dair qərarlar xüsusi toplularda dərc edilir. Əlavə olaraq, Dövlət Şurasının ən yüksək məhkəmə olduğu inzibati ədliyyədə məhkəmə presedentlərindən geniş istifadə olunur. Buna baxmayaraq, Fransadakı yuxarı məhkəmələrin presedent qərarlarına riayət etmək üçün aşağı məhkəmələrin hər hansı ciddi bir vəzifəsi yoxdur.

İtaliyada mövcud olan təcrübədə isə Ali Kassasiya Məhkəməsinin qərarları yalnız ayrılıqda götürülmüş fərdi iş üçün məcburidir, lakin digər gələcək hallar üçün heç də presedent yaratması mütləq deyil. Buna baxmayaraq, kassasiya mərhələsindən keçən məhkəmə qərarı digər məhkəmələr tərəfindən presedent kimi qəbul edilə bilər. Hər hansı məhkəmə icraatına hazırlaşarkən, mütləq kassasiya instansiyası tərəfindən çıxarılan məhkəmə hökmləri hüquqşünaslar tərəfindən araşdırılır. Yenə də, son qərar Hökmü nəzərə ala biləcək müəyyən birinci instansiya və ya apellyasiya məhkəməsinə qalır.

Vahid məhkəmə təcrübəsinin formalaşmasında prokurorluq orqanlarının rolu: Fərmandan da göründüyü kimi təcrübəni formalaşdırmaq və icra olunması mexanizminin təsbiti vəzifəsi Azərbaycan Respublikası Ali Məhkəməsinə tapşırılsa da, eyni zamanda aidiyyatı dövlət qurumları, o cümlədən Azərbaycan Respublikasının Baş Prokurorluğu qarşısında bir sıra mühüm vəzifələr müəyyənləşdirilmiş, habelə bu sahədə fəaliyyətin təkmilləşdirilməsi məqsədi ilə praktik tövsiyələr verilmişdir.

Qeyd etmək yerinə düşər ki, prokurorluq orqanlarının konstitusion statusa və dövlət idarəetməsində mühüm rola malik mühüm dövlət təsisatı kimi fəaliyyət göstərməsi uğurla həyata keçirilən məhkəmə-hüquq islahatları və hərtərəfli dövlət qayğısı nəticəsində mümkün olmuşdur. Təcrübənin formalaşmasında prokurorluq orqanlarının rolu da müstəsna əhəmiyyətə malikdir.

Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi və iştirakı ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi – referendumla qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası hakimiyyətin, dövlətin, idarəetmənin əsaslarını formalaşdıraraq respublikamızda hüquq sisteminin bünövrəsini yaratmış, həmçinin prokurorluq orqanlarının formalaşmasında xüsusi əhəmiyyətə malik olmuşdur. Həyata keçirilən məhkəmə-hüquq konsepsiyasına müvafiq olaraq, Azərbaycan Respublikasının Prokurorluğu qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına xidmət edən dövlət təsisatına çevrilməklə müasir, sivil dövlətlərin prokurorluq orqanlarına xas olmayan səlahiyyət və funksiyalardan azad edilmişdir.

Məhz qəbul edilən bu Əsas Qanunda Azərbaycan Respublikası Prokurorluğunun hüquqi statusu müəyyən edilərək tutularaq təşkili və fəaliyyət əsasları əks olunmuşdur.

Bu əsasları özündə əks etdirən Konstitusiyanın 133-cü maddəsinə əsasən Azərbaycan Respublikası Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir.

Ümumilikdə prokurorluğun ədalət mühakiməsinin həyata keçirilməsində rolunu tənzimləyən qanunvericilik normaları bilavasitə Konstitusiyanın müvafiq müddəalarına əsaslanır və bu rol əsasən cinayət mühakimə icraatı ilə bağlıdır.

Yeni konsepsiyaya uyğun olaraq qəbul edilmiş “Prokurorluq haqqında” Qanunun 4-cü maddəsi prokurorluğun fəaliyyət istiqamətlərinə həsr olunmuşdur. 8 fəaliyyət istiqaməti müəyyən edilən həmin maddədə prokurorluğun məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak etməsi, dövlət ittihamını müdafiə etməsi, məhkəmə qərarlarından protest verməsi, məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirakı da təsbit edilmişdir.

Məlum olduğu kimi, xüsusi ittiham qaydasında cinayət təqibi halları istisna olmaqla Azərbaycan Respublikasında birinci, apelyasiya və kassasiya instansiyası məhkəmələrində ədalət mühakiməsinin həyata keçirilməsi zamanı dövlət ittihamı funksiyası Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən həyata keçirilir.

İnsan hüquq və azadlıqlarının etibarlı təmin olunması, hüquq institutlarının möhkəmləndirilməsi, ədalət mühakiməsinin fəaliyyətinin daha da təkmilləşdirilməsi məqsədilə, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi, məhkəmələrin və prokurorluq orqanlarının işinin müasir dövrün tələblərinə, beynəlxalq standartlara uyğun təşkil edilməsi istiqamətində aparılan islahatlar çərçivəsində məhkəmələrdə dövlət ittihamının müdafiəsi prokurorluğun prioritet istiqamətlərindən biri hesab edilərək bu funksiyanın həyata keçirilməsi üçün Baş Prokurorluğun tərkibində Dövlət ittihamının müdafiəsi üzrə idarə təsis edilmiş və idarənin işinin təşkili prosesinin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür.

Həmçinin vahid məhkəmə təcrübəsinin formalaşdırılması vəzifəsinin və həmin vəzifənin icra olunması mexanizminin təsbit edilməsi ilə əlaqədar cinayət təqibi orqanlarında başlanmış cinayət işlərinin istintaqı zamanı cinayət qanunvericiliyinin müddələrına düzgün istinad edilməklə əmələ obyektiv hüquqi qiymət verilməsi, cinayət işlərinin yüksək peşəkarlıqla istintaq edilməsi, prokurorlar tərəfindən ibtidai araşdırmanın həm prokurorluq, həm də digər istintaq orqanlarında keyfiyyətlə aparılması istiqamətində kəsərli tədbirlərin görülməsi ilə bağlı Azərbaycan Respublikası Baş prokuroru tərəfindən müvafiq tapşırıqlar verilmişdir.

Bu qəbildən olan tədbirlərin bariz təzahürü isə Azərbaycan Respublikası Baş prokurorunun “Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Strukturunun təkmilləşdirilməsi və məhkəmələrdə dövlət ittihamının müdafiəsi fəaliyyətinin keyfiyyətinin daha da artırılması tədbirləri haqqında” 10 iyul 2020-ci il tarixli əmrinə əsasən Dövlət ittihamın müdafiəsi üzrə idarənin strukturunun yenidən təşkil edilməsidir.

“Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 3 aprel 2019-cu il tarixli Fərmanın 8-ci bəndinin səmərəli icrası istiqamətində prokurorluq orqanları tərəfindən görülən mühüm tədbirlərin tərkib hissəsi olan bu struktur dəyişikliyinin məqsədi həm də çəkişmə prinsipinə tam uyğun olaraq məhkəmələrdə dövlət ittihamının müdafiəsi fəaliyyətinin daha təkmil təşkili, dövlət ittihamının müdafiəsi sahəsində vahid təcrübənin formalaşdırılması, məhkəmələrlə dövlət ittihamının müdafiəsini həyata keçirən prokurorlar arasında qarşılıqlı əlaqələrin səmərəliliyinin artırılması, vətəndaşların prokurorluğa müraciət imkanlarının asanlaşdırılması ilə yanaşı, bu sahədə müəyyən edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılmasından ibarətdir.

Əsas fəaliyyət istiqamətlərindən biri də maddi və prosessual hüquq normalarının pozulması ilə müşayiət olunan məhkəmə səhvlərinin aradan qaldırılması olan Dövlət ittihamının müdafiəsi üzrə idarəsi öz səlahiyyətlərini həyata keçirərkən mühüm vasitə olaraq “Prokurorluq haqqında” Qanunun 21-ci maddəsində prokuror aktının növlərindən biri kimi nəzərdə tutulan protestdən istifadə edərək qanunvericiliyə uyğun olmayan və vahid hüquqi təcrübəyə söykənməyən məhkəmə qərarlarını yuxarı instansiya məhkəmələrində mübahisələndirir. Bu hal isə vahid məhkəmə təcrübəsinin təmin edilməsində prokurorluğun iştirakını xarakterizə edən başlıca amillərdən biridir.

Eyni zamanda qeyd edilməlidir ki, Azərbaycan Respublikası Prokurorluğu konkret cinayət işləri üzrə qanunvericiliyin tətbiqində yol verilən səhvlərin aradan qaldırılmasına, qanunun eyni qaydada tətbiqinin edilməsinə və vahid məhkəmə təcrübəsinin formalaşmasına xidmət edən Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlarının layihələrinin hazırlanmasında da yaxından iştirak edərək bu sahədə üzərinə düşən öhdəliklərin icrası istiqamətində ilə işlər görülməsini davam etdirir.

**Fərid Dadaşov,**
**Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin rəisi**
**kiçik ədliyyə müşaviri**

# Əzəli və əbədi Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır

*"Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir"*
***Heydər Əliyev***
***Azərbaycan xalqının ümummilli lideri***

*"Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir"*
***Mustafa Kamal Atatürk***
***Türkiyə Cümhuriyyətinin qurucusu***

Tarix boyu Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri mövcud olub. Hər iki xalqlar istər xoş günlərdə, istərsə də çətin vaxtlarda birlik nümayiş etdirib, bir-birinin sevincini və kədərini bölüşüb. Dövlətlərimiz və xalqlarımız aralarındakı doğma münasibətləri bütün məqamlarda izhar ediblər.

Prezident İlham Əliyevin Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının sammitindəki çıxışı zamanı "Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam" deməsi, dünyanın əksər ölkələrinin planetimizin ən böyük ədalətsizliklərindən birinə – erməni işğalına reaksiya vermədiyi dövrlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir" bəyanatı, Azərbaycana rəsmi səfəri çərçivəsində Milli Məclisdə söylədiyi nitqində "...Bu gün də Azərbaycanın yanındayıq və bütün dünya bilsin ki, daim Azərbaycanın yanında olacağıq. Necə ki, Çanaqqalada azərbaycanlı gənclər Anadolu gəncləri ilə birlikdə şəhadətə yürüyüb qələbə qazanmışdılarsa, necə ki, Nuru Paşanın aslanları 1918-ci ildə Azərbaycanın köməyinə gəlmişdilərsə, biz də bu gün və gələcəkdə bərabər olacağıq..." deməklə konkret mövqe ortaya qoyması Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığının bariz nümunələridir.

Dövlətlərimizin və xalqlarımızın bir-birini dəstəklədiyi belə məqamlar saysız-hesabsızdır və onları sadalamaqla bitməz. İyunun 15-də Şuşada imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" isə iki dövlət və onların xalqları arasındakı birliyin, doğmalığın, dostluğun və qardaşlığın növbəti təzahürü oldu. Böyük əhəmiyyətli mühüm tarixi sənəddən bəhs etməzdən əvvəl onun imzalanmasını şərtləndirən qürur dolu tarixə nəzər salmaq yerinə düşər.

Məlum olduğu kimi, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 2020-ci ildə müdrik rəhbər, qətiyyətli sərkərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə mübariz xalqımız və rəşadətli ordumuz düşmən üzərində parlaq qələbə qazandı. Otuz ilə yaxın müddətdə işğal altında olan dədə-baba torpaqlarımız bu qələbə nəticəsində hərbi və siyasi-diplomatik yolla azad edildi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Allah Vətən müharibəsində qəhrəmancasına həlak olan bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin!

Həyata keçirilən uğurlu xarici siyasətin və görülən böyük işlərin nəticəsində bütün dünyaya məlum idi ki, Ermənistan uzun müddət Azərbaycanın ərazisinin 20 faizini, beynəlxalq səviyyədə tanınmış tarixi torpaqlarını - Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal altında saxlayır. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal, qeyd-şərtsiz və tamamilə qaytarılmasını nəzərdə tutan müddəaları özündə əks etdirən 822, 853, 874 və 884 saylı dörd qətnaməsinin qəbul olmasına baxmayaraq, həmin qətnamələr icra olunmur, bununla əlaqədar aidiyyəti beynəlxalq təşkilatlar isə heç bir tədbir görmürdü. Ermənistan da bu illər ərzində mövcud vəziyyətdən istifadə edərək qətnamələrin tələblərini yerinə yetirmir, münaqişəni hər vəchlə daha uzun müddətə dondurmağa çalışır və status-kvonun qəbuledilməz və dəyişdirilməli olması barədə beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin çağırışlarına məhəl qoymurdu.

Qazanılan diplomatik uğurlara baxmayaraq, yaşanan proseslər, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələrin icra edilməməsi bu qənaətə gəlməyə əsas verirdi ki, beynəlxalq hüquq sözügedən məsələyə dair hissədə işləmir. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər dəfə mötəbər kürsülərdən deyirdi: "...Əgər bu məsələ sülh yolu ilə həll olunmasa, bunu hərbi yolla həll edəcəyik...".

Azərbaycan Prezidentinin bu ifadəsinə əsasən hər bir azərbaycanlı, o cümlədən Silahlı Qüvvələrimizin əsgəri, çavuşu, giziri, zabiti və generalı tarixi torpaqlarımızı düşmənlərdən azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyir və buna hər an hazır idi. Bütün bunları nəzərə alan müdrik rəhbərimiz münaqişənin həlli ilə bağlı hər iki istiqamətdə işini etibarlı tutaraq, beynəlxalq dəstək və hüquqi baza yaratmaqla bərabər, həm də rəşadətli Silahlı Qüvvələr formalaşdırıb. Ulu öndər Heydər Əliyevin ordu quruculuğu strategiyasını zamanın tələblərinə uyğun reallaşdıran Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bu sahədə həyata keçirilən köklü islahatların və kompleks tədbirlərin nəticəsi olaraq Silahlı Qüvvələrimizin maddi-texniki bazası möhkəmləndirilib, arsenalı ən müasir silah-sursat və hərbi texnika ilə zənginləşdirilib, hərbi qulluqçuların nəzəri və peşə bilikləri, mənəvi-psixoloji hazırlığı artırılıb, müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir Azərbaycan Silahlı Qüvvələri formalaşdırılıb. Təsadüfi deyil ki, "Global Firepower" hərbi-analitika təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı 2021-ci il hesabatında 138 ölkənin orduları sırasında Gürcüstan ordusu 92-ci, Ermənistan ordusu 100-cü yerdə olduğu halda, ordumuz 64-cü yerdə qərarlaşıb. Bununla da ötən illərdə olduğu kimi, Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusu reytinqini qoruyub saxlayıb.

Qeyd olunanlar hərbi uğurlarımıza rəvac vermiş və nəticədə 2016-cı ilin aprel, 2018-ci ilin may və bu ilin iyul ayında, eləcə də sentyabrın 27-dən başlayaraq düşmənin növbəti təxribatlarının qarşısının alınması zamanı gedən döyüşlərdə Azərbaycan Silahlı Qüvvələri gücünü, qüdrətini və yüksək döyüş hazırlığını, hərbçilərimiz isə peşəkarlığını və qəhrəmanlığını əyani şəkildə nümayiş etdirərək xalqımıza ardıcıl zəfərlər və nəhayət möhtəşəm qələbə sevinci yaşatdı.

Sentyabrın 27-da səhər saatlarında Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması ordumuzu mənfur düşmənin layiqli cavabını verməyə sövq

## İlham Əliyevin "CNN Türk" televiziya kanalına müsahibəsi



**DÖRD İL BUNDAN ƏVVƏL BAKIDA BAKI-TBİLİSİ-QARS DƏMİR YOLUNUN RƏSMİ AÇILIŞ MƏRASİMİ OLDU. BİZ BU DƏMİR YOLU SAYƏSİNDƏ TÜRKİYƏ İLƏ BİRLƏŞDİK.**

**Zəngəzur dəhlizi isə ikinci bir birləşmə istiqaməti olacaq.** Zəngəzur dəhlizinin tam fəaliyyəti üçün həm dəmir yolu, həm avtomobil yolu olmalıdır. Bu, bölgə ölkələri üçün yeni fürsət olacaq, Avrasiyanın yeni bir nəqliyyat layihəsinə çevriləcək. Biz bunu artıq təşəbbüs olaraq ortaya qoymuşuq.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

etdiyindən Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatları həyata keçirdi və bununla da İkinci Qarabağ müharibəsi başladı. Böyükdən kiçiyə hər kəs Vətən müharibəsinin qələbə ilə başa çatması üçün çalışdı, yumruq kimi birləşdi. Dövlətimizin başçısı İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı dillərdə əzbər olmaqla xalqı öz liderinin ətrafında daha da sıx birləşdirərək vətəndaşlarda mübarizə əzmi, hərbçilərimizdə isə böyük ruh yüksəkliyi yaratdı. Vətən müharibəsində müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə qüdrətli Azərbaycan Silahlı Qüvvələri hərbçilərinin şücaəti sayəsində hərb tariximizin qəhrəmanlıq salnaməsini yaratmağa müvəffəq oldu. Elə ilk günlərdən düşmənə sarsıdıcı zərbələr vuran qəhrəman övladların qısa zamanda ardıcıl zəfərlər qazanmaqla kəndlərimizi, qəsəbələrimizi, yaşayış məntəqələrimizi, eləcə də şəhərlərimizi işğaldan azad etməsi Ermənistanı sülhə sövq etdi və bu biçarə düşmənin kapitulyasiya aktını imzalaması ilə nəticələndi. Həmin sənədə əsasən noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər və dekabrın 1-də Laçın rayonları Azərbaycana təhvil verildi. Bununla da haqq mübarizəsi hərbi və siyasi-diplomatik qələbəmizlə başa çatdı və ədalət bərpa olundu. Qazandığımız hərbi və siyasi-diplomatik qələbə Müzəffər Ali Baş Komandanın hərtərəfli siyasətinin və sarsılmaz qətiyyətinin, dövlətimizin qüdrətinin, Silahlı Qüvvələrimizin gücünün, hərbi qulluqçularımızın qəhrəmanlığının və xalqımızın mübarizliyinin sıx vəhdəti nəticəsində əldə olundu. Prezident İlham Əliyev bu barədə deyib: "...heç bir xarici qüvvə Azərbaycan xalqının və dövlətinin iradəsini sındıra və onun qazandığı Qələbəyə kölgə sala bilməz...". İşğal altındakı torpaqların azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması Cənubi Qafqazda tamamilə yeni reallıqlar yaradaraq ölkəmizin həm regionda, həm də dünya miqyasında mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirib.

Yeri gəlmişkən, iftixar hisləri ilə qeyd etmək lazımdır ki, qürur dolu 44 gün ərzində də prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarının əməkdaşları, istər xidmət yerində, istərsə də ezam olunduqları müvafiq ərazilərdə həm xidməti vəzifələrinin icrası ilə bağlı, həm də vicdanlı vətəndaş kimi üzərinə düşənləri layiqincə yerinə yetiriblər. Vətən müharibəsindən əvvəl Baş prokuror Kamran Əliyev ilə Hərbi prokuror Xanlar Vəliyevin cəbhə bölgəsinə birlikdə uğurlu səfərlərinin, o cümlədən ön xətdə yerləşən hərbi hissə və bölmələrdə xidmət aparan hərbi qulluqçularla görüşlərinin əhəmiyyəti xüsusi vurğulanmalıdır.

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin ən yüksək səviyyədə olması bütün dünyaya bəllidir. Vətən müharibəsi zamanı hər kəs buna bir daha əmin oldu. Qırx dörd günlük qürur dolu tarixin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman dövlətimizin və xalqımızın yanında olduğunu bildirdi. Bu da təbii olaraq gücümüzə güc qatmaqla əldə etdiyimiz möhtəşəm tarixi qələbədə mühüm rol oynadı.

Şanlı Qələbənin şərəfinə dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakının ən böyük meydanı olan "Azadlıq meydanı"nda möhtəşəm Zəfər Paradı keçirildi. Xüsusi vurğulamaq lazımdır ki, Rəcəb Tayyib Ərdoğanın Bakıda Azadlıq meydanında keçirilən Zəfər Paradında Prezident İlham Əliyev ilə çiyin-çiyinə dayanması ölkələrimizin birliyini, xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Düşmənin ələ keçirilən silah-sursat və texnika ilə yanaşı, dövlətimizin başçısının 2018-ci ildə keçirilən paradda dediyi kimi, işğaldan azad olunan ərazilərimizdə qaldırılan dövlət bayraqlarımız da Zəfər Paradında nümayiş etdirildi.

Hər kəsə məlumdur ki, bundan öncə də həmin meydanda bir neçə möhtəşəm parad keçirilib. Bakının azad edilməsinin 100 illiyi münasibətilə 2018-ci il sentyabrın 15-də keçirilmiş paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birlikdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak etmişdi. Ancaq Zəfər Paradının əvvəlkilərdən fərqi ondan ibarət idi ki, həmin gün meydandan düşmən ordusunu darmadağın etməklə ərazi bütövlüyümüzü təmin etmiş Müzəffər Ordunun hərbçiləri qələbə əhval-ruhiyyəsi ilə addımlayırdılar. Hər birimizi hədsiz qürurlandıran və hələ də təəssüratlarının təsiri altında olduğumuz bu parad müstəqil Azərbaycanın ilk Zəfər Paradı idi. Eyni zamanda, Türkiyə-Azərbaycan əbədi qardaşlığının növbəti təzahürü olan bu hərbi parad həm də Azərbaycanı sevməyən ermənipərəst dövlətlər üçün ciddi bir siyasi eyham oldu. Qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da geniş məzmunlu, qardaşlıq, birlik bağlarımıza əsaslanan nitqində vurğuladı ki, "...Türkiyə olaraq Azərbaycanla münasibətlərimizdə hər zaman ulu öndər Heydər Əliyevin "bir millət iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün əziz ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Qarabağın 30 il işğalda qalmasını qəlbimizdə yara bildik. Bu gün də Qarabağın azad edilməsini birlikdə qeyd edirik..."

Qeyd etmək lazımdır ki, Azərbaycan-Türkiyə müttəfiqliyini, birliyini və qardaşlığını, bir-birinə verdiyi güclü dəstəyi dünya təkcə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük iqtisadi layihələrin reallaşması, Vətən müharibəsi zamanı görməyib. İki qardaş dövlətin birliyi və müttəfiqliyi tarix boyu hər bir dövrdə, bütün məsələlərdə hiss olunub və hər iki ölkə mənəvi, siyasi və digər baxımdan bir-birini daim dəstəkləyib.

Sirr deyil ki, bu gün Türkiyə gündən-günə güclənməklə dünyada çox fəal və önəmli müsbət rol oynayır. Bölgədə gedən proseslərdə də Türkiyənin təsir imkanları artır. Bu da təbii olaraq bizi çox sevindirir. Çünki Türkiyə nə qədər güclü olarsa, Azərbaycan da o qədər güclü olacaq. Türkiyə ilə Azərbaycan arasında əlaqələr çoxşaxəli və genişdir. Əlbəttə ki, bu əlaqələr çox möhkəm tarixi və mədəni köklər əsasında qurulub. Xalqlarımız arasındakı doğmalıq, dostluq, qardaşlıq duyğuları bu əlaqələri daha da möhkəmləndirir. Eyni zamanda, istər nəqliyyat, istər energetika, istər mədəniyyət sahələrində, istərsə də humanitar sahədə birgə reallaşdırdığımız layihələr, birlikdə atılan addımlar bizi bir-birimizə daha da yaxınlaşdırır. Qeyd etmək lazımdır ki, Türkiyə ilə Azərbaycan arasında sıx əlaqələr təkcə xalqlarımız, ölkələrimiz üçün deyil, bölgə və dünya üçün də mühüm əhəmiyyət kəsb edir. Türkiyə-Azərbaycan əlaqələri regional əməkdaşlıq üçün də başlıca şərtdir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bunun təcəssümüdür. Yeri gəlmişkən, Qarabağda Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyəti də regionda sülhün bərqərar olmasının səmərəli mexanizmi kimi diqqəti cəlb edir.

Fərəh və iftixar hisləri ilə vurğulanmalıdır ki, Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən yüksək zirvəsinə ucalıb. Otuz illik işğala son qoyulmasında və Azərbaycanın ərazi bütövlüyünün bərpasında Türkiyənin mənəvi-siyasi dəstəyini dövlətimiz və xalqımız yüksək qiymətləndirməklə heç vaxt unutmayacaq. Eyni soy-kökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı tarixi bağlara malik olmağımız ölkələrimizi daha da yaxınlaşdırır və xalqlarımızın sevincli, kədərli günlərdə hər zaman bir-birinin yanında olmalarını şərtləndirir.

Qeyd etmək lazımdır ki, Azərbaycan və Türkiyə prokurorluqları arasında da hər zaman sıx işgüzar əlaqələr və səmimi münasibətlər mövcud olub. Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahinin dəvəti ilə bu ilin fevralında Ankaraya, may ayında isə Bekir Şahinin Baş prokuror Kamran Əliyevin dəvəti ilə Bakıya rəsmi səfərləri bu münasibətlərin yeni müstəvidə uğurla davam etməsinə, daha da möhkəmləndirilməsinə və dərinləşdirilməsinə rəvac verib.

Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 15 İyun - Milli Qurtuluş Günündə imzaladıqları "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" ilə bu yaxınlığın, birliyin, doğmalığın, dostluğun və qardaşlığın yeni - qızıl dövrü başladı. Əminik ki, bu mühüm tarixi sənəd iki qardaş dövlətin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və qlobal rolunu, çəkisini daha da artıracaq.

Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Türkiyə və Azərbaycan qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə yanaşı, BMT, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla, beynəlxalq və regional qurumlar çərçivəsində də bir-birinə qarşılıqlı dəstək verəcəklər.

Həmin sənəddə birgə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş ortaq fəaliyyətin təşviq edilməsi də xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə birgə məsləhətləşmələrin aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur.

Şuşa Bəyannaməsində qardaş dövlətlərin Silahlı Qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah-sursatın idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi vurğulanır. Buraya, həmçinin hər iki ölkənin Təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafelərə, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması da daxildir.

Ticarət-iqtisadi münasibətlərə gəlincə, milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi son dərəcə mühüm məsələlər də yer alır.

Mühüm tarixi sənəd özündə Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, ümumi problemlərlə bağlı birgə addımların atılması, davamlı həmrəylik göstərilməsi, milli mənafelərin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətinin əlaqələndirilməsi və qarşılıqlı dəstəyin verilməsini də ehtiva edir.

Qeyd etmək lazımdır ki, adıçəkilən sənəddə Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyi, əlaqələrin təkcə iki ölkəyə deyil, eyni zamanda, regiona sülh və rifah gətirərək başda bölgə ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyi vurğulanıb.

Göründüyü kimi, bu mühüm tarixi sənəd özündə hər iki dövlətin və xalqın milli mənafelərinə, beynəlxalq birliyin, o cümlədən regionun sabitliyinə, sülhə, rifaha və digər maraqlarına hesablanmış olduqca önəmli məsələlər barədə müddəaları özündə cəmləşdirib. Bu da qlobal və regional sülhü, rifahı, inkişafı, eləcə də iki qardaş ölkənin uğurlarını şərtləndirəcək.

Qürurverici və sevindirici haldır ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu və qardaşlığı bu gün də uğurla davam edir, xalqlarımız arasındakı saf, səmimi və doğma münasibətlər daha da dərinləşərək yeni mərhələyə qədəm qoyur. Bütün bunlar onu göstərir ki, əbədi və əzəli Azərbaycan-Türkiyə birliyi, dostluğu və qardaşlığı sarsılmazdır və daim belə də olacaq.

**Firad Əliyev,**
**Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi-Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri**

# Защита прав женщин в произведениях Низами Гянджеви




Один из величайших представителей культуры и литературного искусства, живший в XII-XIII веках азербайджанский поэт, Низами Гянджеви в эпоху своего творчества открыл новую страницу в летописи художественной мысли человечества. Его яркое наследие превратилось в неотъемлемую часть духовности народа Азербайджана. Сегодня, когда Азербайджан вступил в новую эпоху своего процветания, экономического и социального развития творчество Низами, как нельзя кстати поэтической мелодией ложится на сердце читателя. Жемчужина Востока, великий мастер слова появился на свет в 1141 году в богатом своей историей и культурой азербайджанском городе Гянджа и в этом году исполняется 880 лет со дня его рождения. В связи с этим Президент Азербайджанской Республики Ильхам Алиев объявил 2021 год - «Годом Низами Гянджеви».

Семья его была небогатой. Некоторое исторические источники указывают на то, что семейным ремеслом являлась вышивка, но Низами не смог отказаться от литературного творчества ради продолжения традиций семьи, его сердце принадлежало поэзии. Однако есть данные о том, что отец поэта Юсуф ибн Заки возможно занимал высокую государственную должность, а мать предположительно была дочерью курдского вождя. Родители поэта покинули бренный мир очень рано и Низами воспитывался своим дядей – братом матери. Последний в свою очередь дал ему превосходное образование и воспитание.

Его поэмы - это убедительное свидетельство о том, что он имел познания не только в персидской и арабской литературе, но и в медицине, богословии, христианстве, исламском праве, иудаизме, иранской мифологии, философии, эзотерике, музыке, изобразительном искусстве, астрономии. Стихи он начал писать еще в юные годы.

Стоит отметить, что произведения, принадлежащие перу Низами, широко известны не только на территории стран СНГ, но и во всем мире, поэтому мероприятия, посвященные ему и проводимые в самых разных точках нашей планеты, встречаются представителями разных стран с огромным интересом.

Рожденный в Гяндже, поэт взял себе творческий псевдоним Низами Гянджеви, его истинное же имя – Низами Абу Мухаммед Ильяс Юсуф. Перу великого Низами принадлежит известная на весь мир и, давшая вдохновение другим представителям искусства, «Хамсэ», что в переводе означает «Пятерица». В нее вошли пять поэм, каждая из которых является образцом философско-поэтической мысли автора. Многие представители искусства еще несколько веков после Низами, вдохновлялись его произведениями и создавали свои шедевры в литературе, музыке, философии и даже праве.

Несмотря на то, что в своих произведениях «Хосров и Ширин» и «Семь красавиц», вошедших в «Пятерицу», он детально описывает роскошь и праздность жизни своих героев, сам поэт вел аскетичный и праведный образ жизни, чем проявлял огромную скромность и заслужил уважение своих современников.

Этот скромный представитель азербайджанского народа, при своих творческих возможностях, которые с экономической точки зрения высоко оценивались по меркам еще того времени, прожил 63 года, посвятив их поэзии, послушанию и наставлению окружающих на праведный путь. Говоря его собственными словами, в 1201 году он «оставил свою временную душу и соединился с вечностью», поэт умер, оставив бесценное сокровище своему народу в виде сотворенных им произведений.

В XII веке еще при жизни гениальный поэт, мыслитель и философ Низами Гянджеви прославился своими трудами на Востоке и во всем мире.

Он был знаком с получивший большую известность произведениями восточных мыслителей Аль Фараби, Ибн Сина (Авиценна), Буруни, Аль Кинди и др. и прекрасно освоил культуру и философию Древних Индии и Греции. Будучи не только гениальным поэтом своего времени, он обладал знаниями в области истории, логики, астрономии, химии, физики и других наук.

Всестороннее и глубокое изучение богатого наследия Низами и его мира показывает, что он не остался равнодушным к важным общественным, экономическим и политическим событиям своего времени, а также к их причинам.

В произведениях Гянджеви весьма сложно найти строки, посвященные правам человека в современном понимании слова, однако обратимся к бессмертному шедевру поэтической мысли «Искендернаме», что переводится как «Книга Александра». Эта поэма написана между 1194 и 1202 гг. и Низами считал ее итогом своего творчества. По сравнению с другими поэмами «Хамсэ» она отличается некоторой философской усложнённостью. Поэма является творческой переработкой поэтом различных сюжетов и легенд об Искандере — Александре Македонском, образ которого Низами расположил в центре поэмы. С самого начала он выступает как идеальный государь, воюющий только во имя защиты справедливости.

Низами, который всегда задумывался об утопическом обществе, в котором он надеялся избавить человечество от мира господ и вассалов, описал страну справедливости на севере, где жили тюрки. Он описывает образ жизни людей своего идеального общества, где могут жить только чистые и честные люди. По всей видимости, гуманистические и демократические взгляды Низами, его идеи, связанные с изменением общества нашли свое выражение в созданной им социальной утопии. В своей утопии Низами не было места ни социальному расслоению, ни дискриминации. Это просто воображаемое общество, построенное исключительно на справедливости, равенстве и свободе. Гянджеви напоминал правителям и тем, кто правил обществом, что искусство возглавлять людей требует гуманности, иначе все люди восстанут против него. Если шах вступит в спор с подданными, победа будет за последними.

Призывы Поэта к труду и созиданию, а также подобные им сотни идей, сохраняют свою актуальность и в современную эпоху. И сегодня, когда в результате решительных политических действий Президента Азербайджанской Республики Ильхама Алиева и благодаря доблести вооруженных сил нашей страны исконно азербайджанские земли Карабаха освобождены от коварного врага, эти идеи имеют особую актуальность. Так же, как и в дни Второй Карабахской Отечественной Войны, народ Азербайджана объединившись во главе со своим Президентом восстанавливает уничтоженные армянским вандализмом за годы оккупации культурные и исторические ценности, в том числе и инфраструктуру этого региона. Это все, конечно же, требует кропотливого большого труда.

Гянджеви всю свою жизнь выступал за интересы народа, за нормальные условия труда и жизни, открыто выражал протесты против политики ущемлений прав и свобод человека.[1]

Удивительно, но уже тогда в поэме «Искандерname» были описаны гендерные равенства прав, пусть и на уровне правителей. Так, обращаясь к Искандеру Нушабе, она сказала следующее:

«Пред тобою, о Лев, я ведь львицей стою,
И тебе я всегда буду равной в бою.
Если я, словно туча, нахмурюсь, — то с громом
Будет мир ознакомлен и с молний изломом.»[2]

Стоит лишь вспомнить о том, что Низами творил в XII веке, в Европе же движения за гендерные равенства начались с движения суфражистов в основном в конце XIX века.

На самом деле творчество Низами с полным смыслом можно рассматривать как новый этап классического периода. Потому, что именно в высоких гуманистических идеях Низами четко проглядывается рациональный, логический подход к событиям, человеческой, общественной жизни.

Есть ряд элементов, делающих искусство Низами бессмертным, один из которых ярко пропагандирует гуманистические и демократически ориентированные идеи, а также идеи социальной справедливости.

Так, пропаганда прав человека и их защита, а также свобода и независимость личности нашли свое яркое воплощение в социальной справедливости социально-политических взглядов мыслителя.

Основу творческих критериев великого философа составляют женские образы.

Познавшее впервые любовь, этику, язык и культуру от женщин человечество не дало им достойного места в социальной жизни. Права женщин формировались в каждом обществе по-разному в соответствии с их убеждениями, традициями, культурой и образом жизни. Женщины не были признаны равными членами общества и против них применялись всевозможные виды дискриминации и насилия. Это привело ко многим отрицательным последствиям в личной, семейной и общественной жизни, отличило женщин в обществе, сильно отстранило их от него.

Мужские и женские отношения представлены в трудах Низами в свете гуманистических идей. Его герои - это люди, которые выступают против гендерной дискриминации, постоянно пытаются совершенствовать себя, сражаются за благородные идеи.

Низами пропагандировал свободу женщин, его героини выбирают активную жизненную позицию, стоят на равных с мужчинами, даже в некоторых моментах более решительные и дальновидные, чем их мужья и братья. Поэт обосновывает своё мнение о свободе женщины посредством рассказа о тюркских кочевых племенах Кыпчаках. До Гянджеви почти никто не давал женщине такую высокую оценку.

Эта тема отражена во всех поэмах «Хамсэ». Интересно, что многие поэты и писатели не совпадают с образом жизни, описываемых в своих творениях, а иногда даже полностью противоречат ему. Таковым был и Низами.

Первая супруга Низами – дочь Дербентского пра-

1 Nizami Gəncəvi əsərlərində fəlsəfi ideyalar Mədədzadə Könül Mahir qızı Cild 17 № 2 2021 Sumqayıt Dövlət Universiteti “Elmi Xəbərlər” s.55

2 Низами Гянджеви «Искендернаме» поэма. Баку.Издательство «Чашыоглу».2007. с.133

вителя Афаг, была подарена ему в качестве прислуги. Увидев, как она чиста перед ним, он сделал ее спутницей жизни и часто упоминал в своих произведениях те счастливые дни, что они прожили вместе. Гянджеви и своему сыну Мухаммеду тоже советовал любить мать, Родину и уважать женщин. Смерть жены явилась сильным ударом для него, о чем он неоднократно писал:

Bircə arvad al ki, olasan əziz,
Çox arvadlı kişi qalar kimsəsiz.
Живи ты лишь с одной женой,
У многоженца ведь конец плохой.[3]

В первой поэме «Сокровищница тайн» в «Рассказе о старухе и Султане Санджаре» был очень убедительно показан женский образ, как ведущая сила общества, которая требует свои права:

Старуха одна, в возмущенья пылу,
Султана Санджара схватив за полу,
Вскричала: «О, где справедливость твоя?
Тобой, что ни год, оскорбляема я!
Твой пьяный шахнэ залезает ко мне,
Пинков надавал по лицу и спине,
Избил, истоптал без вины меня он,
За волосы выволок из дому вон,
На людях ругает, поносит, как зверь,
Насилья печать налагает на дверь, -
«Горбатая, эй, отвечай, - говорит, -
Такой-то на улице кем был убит?»
Убийцу он ищет, а дом осквернен…. [4]

По всей видимости, Низами Гянджеви устами вдовствующей пожилой женщины говорит о произволе чиновников, чтобы защитить свои права. Он призывает людей поддерживать правильное отношение к стране и женщине.

Во второй поэме Низами Гянджеви «Хосров и Ширин» четко показана идея о праве женщин на свободу, о том, что они претендуют на свои права, о том, что они как матери заслуживают высокого звания, и что женщины являются ведущей силой общества, которое оставшись без них осиротеет. Низами Гянджеви всегда хотел видеть все слои общества, включая женщин, равноправными.

Предававшийся разгульному образу жизни и женатый до Ширин на Марьям и Шекер, Хосров в конце произведения находясь на смертном одре не захотел тревожить сон любимой Ширин ради глотка воды. Значит, женщина своей любовью и честностью может перевоспитать даже такого, как Хосров. Но это воспринимается, прежде всего, как собственное желание Поэта.

В своей третьей поэме «Хамсе» - «Лейли и Меджнун» Низами, выражая протест и сожаление к участи женщин на Востоке, выступал против ущемления их свобод и продвигал идею борьбы с насилием против женщин. Он воспевал самоотверженность, роль в семье и материнскую любовь женщин Востока. С этой точки зрения, почти тысячелетие назад великий Низами предвидел какую роль может играть женщина в обществе и не спроста заключил эту идею в свои произведения.

В современном нашем обществе и сегодня имеется ощутимая потребность в восстановлении гендерного равенства. Женщинам повсюду приходится доказывать свою способность к осуществлению той или иной деятельности. Возможно, если великий Низами оказался нашим современником, ему удалось бы добиться претворения в жизнь своих идей. Однако, Гянджеви вошел в историю Азербайджанской и мировой культуры как пылающая звезда, опережающая своими мыслями свою эпоху.

Стоит отметить, что сегодня «Свободная и счастливая женщина Низами», которая, возможно, ожила в мечтах Гянджеви, уже становится явью. Ведь если оглянуться на наше общество можно увидеть большое количество представительниц далеко не слабого пола на высоких государственных постах, осуществляющих важную государственную деятельность, женщин, выполняющих социальную работу и приносящих пользу обществу, женщин, занимающихся преподавательской и научной деятельностью и пр.

Сегодня образ азербайджанской женщины олицетворяет прекрасная представительница нашего народа Вице-президент Азербайджанской Республики – Мехрибан Алиева. Эта красивая хрупкая женщина является образцом материнства и духовной силы. Своей любовью и заботой она не оставляет без внимания народ Азербайджана и, в то же время, вносит огромный вклад в сохранение и развитие культуры, здравоохранения, спорта и прочего внутри Азербайджана и далеко за ее пределами.

**Мамедова Лейли Аловсат кызы,**
**Аспирант кафедры Криминалистики Юридического Факультета Бакинского Государственного Университета**

**Аскерова Нигяр Аловсат кызы,**
**Старший прокурор отдела Стратегического планирования и выявления рисков Научно-учебного Центра Генеральной Прокуратуры Азербайджанской Республики**

**Список использованной литературы:**

1. Mədədzadə Könül Mahir qızı "Nizami Gəncəvi əsərlərində fəlsəfi ideyalar" //Sumqayıt Dövlət Universiteti "Elmi Xəbərlər" Cild 17 № 2 2021 s.54-56
2. Низами Гянджеви «Искендерname» поэма. Баку.Издательство «Чашыоглу».2007. 396 с.
3. Низами Гянджеви «Сокровищница тайн». Азербайджанское государственное издательство. Баку-1947.182с.

3 Перевод авторский.
4 Низами Гянджеви «Сокровищница тайн». Азербайджанское государственное издательство. Баку - 1947. С.66-67

# İbtidai araşdırma təcrübəsindən irəli gələn bəzi aktual problemlər




Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinə əsasən mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

İnsan hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinə əsasən hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən dinc istifadə etmək hüququna malikdir. Heç kəs, cəmiyyətin maraqları naminə, qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz.

Mülkiyyət cəmiyyətin iqtisadi özülünü təşkil edən mühüm iqtisadi və hüquqi kateqoriyadır. Cinayət qanunvericiliyi də mülkiyyətin bütün formalarının bərabərliyini və mülkiyyət hüququnun subyektlərinin hüquq və mənafelərinin eyni dərəcədə mühafizə olunmasını nəzərdə tutur. Mülkiyyət əleyhinə yönəlmiş cinayətlərin ən çox yayılan növlərindən biri dələduzluqdur. İlbail bu qəbildən olan cinayətlərin sayında kifayət qədər ciddi artım müşahidə olunur.

Azərbaycan Respublikası CM-in 178.2.3-cü maddəsində şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə dələduzluq cinayətinin törədilməsi tövsifedici əlamət kimi nəzərdə tutulmuşdur. Dələduzluğun şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi təqsirləndirilən şəxsin tutduğu vəzifə ilə əlaqədar ona verilmiş səlahiyyətlərdən istifadə edərək özgənin əmlakını və ya əmlaka olan hüquqlarını aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə ələ keçirməsi başa düşülməlidir. Həmin tövsifedici əlamət o halda mövcud olacaqdır ki, təqsirləndirilən zərərçəkmiş şəxsi aldadarkən və ya onun etibarından sui-istifadə edərkən məhz öz qulluq mövqeyindən istifadə etmiş olsun. Bu qəbildən olan cinayəti tək dövlət hakimiyyəti və yerli idarəetmə orqanlarının vəzifəli şəxsləri deyil, həm də digər kateqoriyadan olan dövlət və ya bələdiyyə qulluqçuları tərəfindən törədilə bilər.

"Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 11 iyun 2015-ci il tarixli 7 №-li qərarın 23-cü bəndinə görə dələduzluğun şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi (CM-in 178.2.3-cü maddəsi) dedikdə, həmin əməlin CM-in 308-ci maddəsinin qeydində göstərilən vəzifəli şəxslərlə yanaşı, vəzifəli şəxs olmayan, lakin müəyyən səlahiyyətlərə malik olan digər şəxslər tərəfindən də törədilməsi başa düşülür. Qulluq mövqeyindən istifadə etməklə dələduzluq cinayəti törətmiş vəzifəli şəxsin əməli CM-in 178.2.3-cü maddəsi ilə tam əhatə olunduğundan həmin əməlin əlavə olaraq CM-nin 308, 309 və ya 341-ci maddələri ilə tövsif edilməsinə ehtiyac olmur.

Şəxsin qulluq mövqeyindən istifadə etməklə dələduzluq cinayəti törətməsini təşkil etmiş, yaxud onu bu əməli törətməyə təhrik etmiş və ya ona kömək göstərmiş digər şəxslərin əməlləri müvafiq olaraq CM-in 32.3, 32.4 və 32.5-ci maddələrinə istinad edilməklə CM-in 178.2.3-cü maddəsi ilə tövsif edilir.

Göründüyü kimi, Azərbaycan Respublikası CM-in 178.2.3-cü maddəsində nəzərdə tutulan cinayət əməli bir qayda olaraq vəzifəli şəxs tərəfindən törədilir.

Bu baxımdan həmin maddənin istintaq aidiyyətinin Azərbaycan Respublikası CPM-in 215.3.1-ci maddəsinə əlavə edilməklə, bu maddə ilə cinayət işlərinin prokurorluqda aparılması zəruridir. Belə ki, bu qəbildən olan cinayətlərin cəmiyyətin mənafeyinə qəsd edən xarakteri, həmin cinayətlərin şəxslərin öz qulluq mövqeyindən istifadə etməklə, yəni müəyyən səlahiyyətlərə malik vəzifəli şəxslər tərəfindən törədilməsi nəzərə alınmalıdır.

Başqa ölkələrin Cinayət Məcəlləsində də dələduzluğun şəxsin öz qulluq mövqeyindən istifadə edilməklə törədilməsi kimi tövsifedici əlamət göstərilmişdir. Məsələn, Gürcüstanın CM-in 180-ci maddəsinin 3-cü hissəsinin «a» bəndi, Qazaxstan Respublikasının CM-in 190-cı maddəsinin 2-ci hissəsinin 3-cü bəndində qeyd olunan cinayət əlaməti göstərilmişdir. RF CM-in 159-cu maddəsinin 3-cü hissəsində dələduzluğun şəxsin öz qulluq mövqeyindən istifadə edilməklə törədilməsi cinayəti nəzərdə tutulmuşdur. Həmin Məcəllədə həmçinin ayrıca maddələr kimi dələduzluğun kredit sahəsində (159.1.), dələduzluğun elektron vəsaitlərin alınması zamanı (159.2.), dələduzluğun sığorta sahəsində (159.3.), dələduzluğun kompyuter informasiya sahəsində törədilməsi (159.5.) və s.

Ukraynanın CM-in 190-cı maddəsi, Qırğızıstan Respublikasının CM-in 204-cü və Belarus Respublikasının CM-in 209-cu maddəsində dələduzluğun şəxsin qulluq mövqeyindən istifadə edilməklə törədilməsi nəzərdə tutulmamışdır.

Qulluq mövqeyindən istifadə edilməklə dələduzluq cinayətlərinin istintaqı Qazaxstan antikorrupsiya xidməti tərəfindən aparılır. Rusiya Federasiyası CPM-in 151-ci maddəsinin 5-ci hissəsində şəxsin öz qulluq mövqeyindən istifadə etməklə dələduzluq cinayətin törədilməsi onu müəyyən etmiş istintaq orqanının müstəntiqləri tərəfindən aparıla bilməsi nəzərdə tutulmuşdur.

Almaniya Federativ Respublikasının CM-in 263-cü maddəsi dələduzluğa həsr olunub və həmin cinayətlər üzrə cinayət təqibi qeyd olunan ölkənin CPM-in 309-cu maddəsinə uyğun olaraq prokurorluq tərəfindən təhqiqat formasında həyata keçirilir və şəxsə dövlət adından ittiham elan olunmaqla, cinayət işi məhkəməyə göndərilir.

Digər tərəfdən, 2021-ci ilin 1 iyun tarixindən vahid Avropa Prokurorluğu (European Public Prosecutor's Office EPPO) fəaliyyətə başlamışdır. Avropa Prokurorluğunun fəaliyyətində Avropa birliyinin 22 dövləti iştirak edir. Həmin prokurorluğun səlahiyyətlərinə dələduzluq cinayəti törətmiş şəxslərin müəyyən edilməsi və məsuliyyətə cəlb olunması, korrupsiya və mənimsəmə, çirkli pulların yuyulması və ya Avropa birliyi tərəfindən ayrılan pulların israf edilməsinin qarşısının alınması aid edilmişdir. Eyni zamanda, prokurorluğa transsərhəd dələduzluğa qarşı mübarizə aparılması səlahiyyəti də verilmişdir. Beləliklə, yaradılan yeni orqan Avropa birliyinə üzv olan dövlətlərin ərazisində huququn aliliyini təmin edən birinci kəsərli instrument kimi, unikal istintaq səlahiyyətlərinə malik olacaqdır.

Azərbaycan Respublikası CM-in 73-1.2-ci maddəsinə əsasən bu Məcəllənin 178.2, 179.2, 186.2.1,189-1.2-1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın iyirmi beş faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.

Qeyd olunan Məcəllənin 73-1.3-cü maddəsinə müvafiq olaraq bu Məcəllənin 178.3, 178.4, 179.3, 179.4-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş, zərərçəkmiş şəxslə barışmış və dəymiş ziyanı tamamilə ödəmiş şəxs, cinayət nəticəsində vurulmuş ziyanın əlli faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə, cinayət məsuliyyətindən azad edilə bilər.

«Prokurorluq haqqında» Qanunun 39-cu maddəsinə əsasən prokurorluğun maliyyələşdirilməsi, o cümlədən əsaslı təmir və digər təchizat məsələləri dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir. Prokurorluğun maddi-texniki təminatı mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Prokurorluğun yerləşdiyi torpaq sahəsi, binalar, tikinti və qurğular, habelə dövlət büdcəsi hesabına əldə olunmuş daşınan və daşınmaz əmlak dövlət mülkiyyəti hesab edilir.

Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə aşağıdakı vəsaitlər Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülür:

– prokurorluq orqanları tərəfindən istintaq olunan cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə cinayət nəticəsində dövlətə vurulmuş ziyanın ödənilməsi üçün ibtidai araşdırma dövründə dövlət büdcəsinə köçürülmüş vəsaitin 5 faizi;

– prokurorluq orqanları tərəfindən istintaq olunan cinayət işləri üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə müəyyən edilmiş qaydada

şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün dövlət büdcəsinə edilmiş ödənişdən daxil olan vəsaitin 5 faizi;

– Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada prokuror tərəfindən baxılması üçün məhkəməyə göndərilmiş inzibati xətalara dair işlər üzrə tətbiq edilən cərimələrdən daxil olan vəsaitin 23 faizi.

Bu maddənin dördüncü hissəsində nəzərdə tutulmuş vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

"Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti tərəfindən 16 iyul 2021-ci il tarixdə Fərman imzalanmışdır.

Yuxarıda qeyd olunanlara əsasən Azərbaycan Respublikası CM-in 178.2.3-cü maddəsində nəzərdə tutulmuş cinayət işlərinin istintaqı prokurorluqda aparıldığı halda, prokurorluğun xəzinəsinə köçürülən vəsaitin artmasına səbəb olacaq.

***

23.07.2021-ci il tarixdə videoformat vasitəsilə keçirilən kollegiya iclasında Baş prokuror, II dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev çıxışında bildirmişdir ki, bir çox rayon prokurorluğunun əməkdaşları tərəfindən törədilən və ya hazırlanan cinayətlərlə bağlı məlumatlara baxılarkən Azərbaycan Respublikası CPM-in 207-ci maddəsində nəzərdə tutulan müddətlər pozulmaqla, qərarlar qəbul olunur.

Xətai rayon prokurorluğunda 2021-ci ilin birinci yarısında 36 cinayət xarakterli məlumat üzrə aparılan araşdırma zamanı müddət pozuntusuna yol verilmişdir. Müddət pozuntusuna yol verilməsi səbəbləri məhkəmə-tibbi, məhkəmə – əmtəəşünaslıq, həkim səhvləri ilə bağlı müvafiq ekspertiza rəylərin gec verilməsidir.

«Məhkəmə-ekspertiza fəaliyyəti haqqında» Qanunun 22-ci maddəsinə əsasən məhkəmə ekspertizasının aparılması müddətləri Azərbaycan Respublikasının Cinayət-Prosessual, Mülki Prosessual və İnzibati Xətalar məcəllələrinə müvafiq olaraq müəyyən edilir.

Azərbaycan Respublikası CPM-in 271.1-ci maddəsinə əsasən ekspertiza təyin edilməsi haqqında müstəntiqin qərarının ekspertə daxil olduğu və ya ekspertlə müdafiə tərəfi arasında müqavilənin bağlandığı vaxtdan 1 (bir) aydan gec olmayaraq ekspert zəruri tədqiqatlar aparır, yazılı rəy tərtib edir, onu öz imzası ilə təsdiq edir və dərhal ekspertizanı təyin etmiş şəxsə və ya müdafiə tərəfinə göndərir.

Buna baxmayaraq, iş yükü, ekspertlərin sayının azlığı, pandemiya və sair bu kimi hallarla bağlı ekspertiza rəyləri vaxtında onu təyin etmiş şəxsə göndərilmir.

Təcrübədə bəzən müddət ötürülməsin deyə ekspertiza rəyi alınmadan qərar qəbul olunur və rəy daxil olduqdan sonra həmin qərarlar ləğv olunur.

Azərbaycan Respublikası CPM-in 207.1-ci və 207.1.2-ci maddələrinə əsasən təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror zəruri hallarda törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat (aşkar cinayətlər haqqında məlumatlar istisna olmaqla) alındıqdan sonra 3 (üç) gün müddətində, bu mümkün olmadıqda 10 (on) gündən, ekspertin rəyinin alınması ilə əlaqədar və ya bu Məcəllənin 207.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 30 (otuz) gündən artıq olmayan müddətdə cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair ilkin yoxlama aparır.

Belarus Respublikalarının CPM-də istintaq şöbəsinin rəisi və prokuror tərəfindən ilkin yoxlama materialı üzrə müddətinin uzadılması məsələsi öz əksini tapmışdır (Belarus Respublikası CPM-in 173-cü maddəsinin 4-cü hissəsi).

Hesab edirəm ki, Azərbaycan Respublikası CPM-in 207.1.2-ci maddəsində 30 (otuz) gündən artıq olmayan müddətdə sözündən sonra «müstəsna hallarda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən törədilən və ya hazırlanan cinayətlər haqqında məlumat üzrə ilkin yoxlama aparılması müddəti uzadılmaya səbəb olan konkret, faktiki hallar göstərməklə, 1 (bir) aya qədər uzadıla bilər» sözləri əlavə olunmaldır. Bu halda törədilən və ya hazırlanan cinayətlər haqqında məlumat üzrə ilkin yoxlama zamanı müddət pozuntusunun qarşısı alınmış olacaqdır.

**Sərdar İmanov,**
**Xətai rayon prokuroru**
**baş ədliyyə müşaviri**



**MÜHARİBƏ BİTDİKDƏN VƏ MÜNAQİŞƏ ÖZ HƏLLİNİ TAPDIQDAN SONRA ARTIQ MÖVCUD OLMAYAN "QURUMUN" STATUSU HAQQINDA DANIŞMAĞIN YERİ YOXDUR.**

Bizim ərazimizdə **Dağlıq Qarabağ inzibati vahidi yoxdur.** Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları var.

İLHAM
ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

PresidentIlhamAliyev
azpresident
presidentaz
presidentaz

# Prokurorluğun veteranı Nəriman Ələkbərovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi



**Ələkbərov Nəriman Oruc oğlu 15 sentyabr 1959-cu il tarixdə Ermənistan Respublikası Krasnoselo rayonunda anadan olmuşdur. 1982-ci ildə Krasnoyarsk Dövlət Universitetini hüquqşünaslıq ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə 1982-ci ildən başlamış, 1982-1984-cü illərdə Krasnoyarsk vilayət prokurorluğunun müstəntiqi, 1985-1990-cı illərdə Krasnoyarsk vilayət prokurorluğunun böyük müstəntiqi vəzifəsində çalışmışdır. 1990-cı ildə Azərbaycan Respublikasının prokurorluq orqanlarına qulluğa qəbul olunaraq, 1990-1991-ci illərdə Vətəndaşların ərizələrinə baxılması və qəbulu şöbəsinin prokuroru, 1991-1992-ci illərdə Respublika prokurorunun nəqliyyatda qanunların icrasına nəzarət üzrə köməkçisi, 1992-1993-cü illərdə Respublika Prokurorluğunun Ümumi nəzarət idarəsinin prokuroru, 1993-1994-cü illərdə Respublika Prokurorluğunun Ümumi nəzarət idarəsinin Qanunların icrasına və hüquqi aktların qanuniliyinə nəzarət şöbəsinin prokuroru, 1994-1996-cı illərdə Respublika Prokurorluğunun Sosial iqtisadi sahələrdə qanunların icrasına, hüquqi aktların qanuniliyinə nəzarət şöbəsinin prokuroru, 1996-2001-ci illərdə Respublika Prokurorluğunun Daxili işlər orqanlarında qanunların icrasına nəzarət şöbəsinin prokuroru, 2001-2005-ci illərdə Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin prokuroru, 2005-2007-ci illərdə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin böyük prokuroru, 2007-2010-cu illərdə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsi üzrə prokuroru, 2010-2019-cu illərdə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuroru vəzifələrində xidmət etmişdir. 2019-cu ildə prokurorluqda qulluqda olmanın yaş həddinə çatdığına görə prokurorluq orqanlarında qulluq keçməsinə xitam verilmişdir. Xidməti vəzifələrinin nümunəvi icrasına, uzun müddətli qüsursuz fəaliyyətinə və digər xidmətlərinə görə Nəriman Ələkbərov barəsində müxtəlif illərdə təşəkkür, pul mükafatı, növbədənkənar növbəti xüsusi rütbə, "Prokurorluğun fəxri işçisi" döş nişanı və Fəxri fərman kimi həvəsləndirmə tədbirləri tətbiq edilmişdir. 01.10.2012-ci il tarixdə Nəriman Ələkbərov Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.**

***Sual:*** *"Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalı ilə müsahibəyə razılıq verdiyiniz üçün Sizə redaksiya heyəti adından dərin təşəkkürümüzü bildiririk. Nəriman müəllim, həyatınızın mühüm hissəsi prokurorluq orqanlarında səmərəli və məhsuldar fəaliyyətinizlə bağlı olmuşdur. Bu illəri necə xatırlayırsınız?*

**Cavab:** Mənə olan diqqətinizə görə mən də sizə minnətdaram. 38 ilə yaxın prokurorluq orqanlarında çalışmışam, demək olar ki, bütün şüurlu həyatım bu təşkilata bağlı olubdur. Necə xatırlayıram? Daim hərəkətdə, daim mübarizədə, çox dinamik və olduqca maraqlı illər olub. Mən bu yaxınlarda pensiyaya çıxmışam, bəlkə də bir xeyli müddət keçməlidir ki, ötən illərə qiymət verə bilim (gülümsəyir).

***Sual:*** *Peşəkar prokurorluq əməkdaşı kimi formalaşmağınızda ən çox kimlərin əməyini qeyd etmək istərdiniz?*

**Cavab:** Mən ali hüquq təhsilini Krasnoyarsk dövlət universitetində almışam. Orada hüquq fakültəsində öz dövrünə görə olduqca proqressiv bir təhsil sistemi mövcud idi. Məsələn, bütün hüquq fakültələrində tədris olunan məcburi fənlərdən əlavə, bizə mütləq qaydada "Cinayət hüququnda tövsif nəzəriyyəsinin problemləri", "Cinayət prosesində sübutetmə nəzə-

riyyəsinin problemləri", "Iqtisadiyyatın hüquqi tənzimlənməsi", "Tikintidə hüquqi tənzimlənmə" və sair, eləcə də ümumi inkişaf üçün "Hüquq fəaliyyətində dilçiliyin xüsusiyyətləri", "Jurnalistikanın əsasları", "Kriminalistikada psixologiyanın xüsusiyyətləri" və bir çox digər xüsusi kurslar tədris olunurdu. Yəni, əminəm ki, yüksək səviyyəli prokurorluq əməkdaşının formalaşması üçün ilk növbədə geniş bilik bazasının olması çox vacibdir. Ona görə də mən universitet müəllimlərimi həmişə böyük minnətdarlıqla yad edirəm. İkinci vacib şərt – gənc prokurorluq əməkdaşının hansı kollektivdə fəaliyyətə başlamasıdır. Mən universiteti bitirdikdən sonra oxuduğum şəhərin rayon prokurorluğunda işləməyə başladım, təcrübəli əməkdaşlardan ibarət böyük bir kollektivdə müstəntiq kimi beş ilə yaxın çalışdım, sonra isə bir neçə il artıq diyar prokurorluğunda ağır cinayətlərin istintaqı ilə məşğul olmuşam. Həqiqətən də bu kollektivlərdə böyük bir məktəb keçdim, peşəkar müstəntiq və prokurorlarla çiyin-çiyinə işləyib onlardan çox şeyləri öyrəndim. Daha sonra Azərbaycanda Baş Prokurorluğun ayrı-ayrı idarələrində çox təcrübəli şəxslərlə işləmişəm, onların mənim bir peşəkar prokurorluq əməkdaşı kimi formalaşmağımda böyük əməkləri olub.



***Sual:*** *1990-cı ildən başlayaraq 2019-cu ilədək Baş Prokurorluqda müxtəlif vəzifələrdə çalışdığınız müddətdə prokurorluq orqanlarının kollektivində prinsipial, qanunun aliliyini rəhbər tutan, cinayətkarlığa qarşı mübarizədə barışmaz mövqe nümayiş etdirən prokurorluq işçisi kimi tanınmısınız. Sizcə müasir dövrün prokurorluq işçisi hansı keyfiyyətlərə sahib olmalıdır?*

**Cavab:** Hesab edirəm ki, prokurorluq işçisinə olan əsas tələblər həmişə dəyişməz qalır. Mən heç də təsadüfən mənim bir peşəkar prokurorluq əməkdaşı kimi formalaşmağımda rolu olan amillər haqda danışdıqda ilk növbədə ali hüquq təhsili aldığım ocağı qeyd etmədim. Əminəm ki, geniş, dərin, hərtərəfli və əsaslı, zamanın tələblərinə cavab verən hüquq təhsili almayan, geniş bilik bazasına malik olmayan şəxsdən heç vaxt yüksək səviyyəli prokurorluq işçisi alına bilməz. Sonradan toplanan praktiki təcrübə yalnız belə geniş bilik bazası üzərində qurulduqda tələb olunan nəticəni verir. Bir də, ən əsası - prokurorluq işçiləri həmişə qanunçuluğa və dövlətçiliyə sadiqliklə fərqləniblər. Bu əvvəllər də belə olub, indidə də belə olmalıdır. Amma, əlbətki, həyatda çox şey dəyişir, elmin, elmi texnologiyaların inkişafı, bütün sahələrdə olduğu kimi, prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsi üçün də yeni imkanlar yaratmışdır. İyirmi il bundan əvvəl qələm, kağız və çap makinası ilə işlədiyimiz dövrlə indiki kompüter və internet dövrünü müqayisə etmək mümkün deyil. Artıq kompüter və internetin, informasiya texnologiyalarının verdiyi imkanları mənimsəyib istifadə etmədən işləmək mümkün deyil.

***Sual:*** *Xidməti fəaliyyətinizin böyük hissəsini Dövlət İttihamının Müdafiəsi üzrə İdarədə işləmisiniz. Dövlət ittihamını müdafiə etdiyiniz cinayət işlərindən yaddaşınızda qalan ən maraqlı, ictimai rezonans doğuran və mürəkkəb cinayət işi barədə danışa bilərsinizmi?*

**Cavab:** Bəli, bir çox ictimai rezonans doğuran və mürəkkəb, maraqlı cinayət işləri üzrə dövlət ittihamını müdafiə etmişəm. Onlardan çoxu qəsdən adam öldürmə, qanunsuz silahlı dəstələrin yaradılması, terror, vəzifə cinayətlərinə dair işlər olmuşdur. Bu işlərin arasında həmişə yaddaşımda qalacaq iş Azərbaaycan Neft Akademiyasında baş vermiş terrorla bağlı olan işdir. 30 aprel 2009-cu il tarixdə terrorçu tərəfindən 12 nəfər qətlə yetirilmiş, çoxlu yaralanan insanlar olmuşdur. Terrorçu özünü öldürmüş, lakin onunla əlbir olmuş digər 4 nəfər məhkəməyə verilmişdir. Hər cəhətdən olduqca mürəkkəb bir məhkəmə prosesi oldu. Təqsirkarlar özlərini məhkəmədə təqsirli bilməsələr də, məhkəmədə araşdırılmış sübutlarla onların təqsirli olmaları təsdiqlənmiş və onlardan üçü ömürlük, biri isə uzunmüddətli azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişlər.

Digər bir mürəkkəb iş Göyçay rayonunda baş vermiş qətl hadisəsi ilə bağlı olmuşdur. Orada cinayətkar bir nəfəri öldürmək məqsədilə ona ağır xəsarətlər yetirmiş, sonra isə istintaqı çaşdırmaq üçün onu asfalt yola uzadıb avtomaşınla üzərindən keçmişdir. Cinayət o qədər məharətlə icra olunmuşdur ki, həmin rayonda cinayət işi yol-nəqliyyat hadisəsinə görə CM-in 263.2-ci maddəsi ilə başlanaraq aylarla həmin maddə ilə istintaq aparılmışdır. Yalnız şikayətlərə əsasən iş Baş Prokurorluğun icraatına qəbul olunduqdan sonra, hərtərəfli, peşəkarcasına istintaq aparılmaqla cinayətkar ifşa olunub məhkəməyə verilmişdir. Sübutetmədə obyektiv çətinliklər olduğundan, məhkəmə baxışında əsas yük ittiham tərəfinin üzərinə düşdü. O qədər çətin bir proses oldu ki, obyektiv məhkəmə baxışının təmin olunması üçün hətta





dövlət ittihamçısı tərəfindən sədrlik edən hakimə etiraz verildi və apellyasiya məhkəməsi tərəfindən etiraz təmin olunaraq, işin baxışı başqa məhkəmə tərkibinə həvalə olundu. Son nəticədə obyektiv məhkəmə baxışı təmin olundu və araşdırılmış sübutlara əsasən cinayətkar təqsirli bilinərək, uzunmüddətli azadlıqdan məhrumetmə cəzasına məhkum edildi.

***Sual:*** *Bizdə olan məlumata görə oğlunuz Roman hüquqşünas olaraq hakimlik peşəsini seçmişdir. Ona fəaliyyətində uğurlar və ən yüksək nailiyyətlər arzu edirik. Romanın peşə seçimində Sizin tövsiyəniz olmuşdurmu? Sizcə müasir dövrdə ədalət mühakiməsinin çəkişmə prinsipi əsasında həyata keçirildiyi şəraitdə hakim və dövlət ittihamçısı münasibətləri necə qurulmalıdır?*

**Cavab:** Çox sağ olun. Əlbəttə ki, oğlum Roman Ələkbərlinin hüquqşünas olmasına mənim təsir və tövsiyəm olmuşdur, bu təbiidir. Amma həm ixtisas, həm də peşə seçiminə dair qərarı o özü vermişdir. Və əminəm ki, o, yüksək səviyyəli bir hakim kimi dövlətimizə və cəmiyyətimizə ləyaqətlə xidmət edəcəkdir.

Sualınızın ikinci hissəsinə gəldikdə isə, əlbətki, qanuna görə məhkəmə prosesi çəkişmə prinsipi əsasında aparılır: tərəflər var, məhkəmədə çəkişirlər, sübut-dəlillərini təqdim edirlər, hakim isa arbitrdır – təqdim olunan va araşdırılan sübutlara əsasən qərarını qəbul edir. Bu mənada hər şey aydındır. Lakin, dövlət ittihamçısı yalnız tərəflərdən biri olsa da, hesab edirəm ki, onun üzərinə xüsusi məsuliyyət düşür. Belə ki, əgər müdafiə tərəfinin, o cümlədən vəkilin, bütün fəaliyyəti yalnız təqsirləndirilən şəxsin mənafeyinə xidmət etməkdən ibarətdirsə, dövlət ittihamçısı yalnız və yalnız qanunçuluğa xidmət etməlidir. Və dövlət ittihamçısı qanunla ona verilmiş səlahiyyətlər çərçivəsində öz funksiyasını tam həcmdə yerinə yetirməlidir. Belə olan halda, həm hakimin, həm dövlət ittihamçısının qanunun tələblərini rəhbər tutmalı olduqlarından, onların münasibətlərinin qurulmasında heç bir problem ola da bılməz.

***Sual:*** *Ədalət, qanunçuluq, mənəviyyat. Əlbəttə ki, hər bir hüquqşünas bu məfhumları şərtsiz olaraq öz fəaliyyətində rəhbər tutmalıdır. Sizcə bu kateqoriyalardan hansına ilk növbədə riayət edilməlidir?*

**Cavab:** Ədalət, qanunçuluq, mənəviyyat... Bu məfhumlar bir biri ilə sıx bağlı olsalar da, əfsuslar olsun ki, bəzən, nadir hallarda üst üstə düşməyə də bilərlər. Bəli, hər bir hüquqşünas bu məfhumların üçünü də öz fəaliyyətində rəhbər tutmalıdır. Bunlardan hansına ilk növbədə riayət edilməsinə gəldikdə isə, belə cavab verərdim: qanunçuluq çərçivəsində hərəkət etməklə, qətiyyən ədaləti və mənəviyyatı pozmamaq.

***Sual:*** *Sizcə cəmiyyət üçün bunlardan hansı daha zərərlidir: cinayətkar cəzasız qaldıqda, yoxsa təqsirsiz məhkum olunduqda?*

**Cavab:** Cinayətkarın cəzasız qalması hər bir cəmiyyət üçün təhlükədir, amma birmənalı olaraq deyə bilərəm: təqsirsizin məhkum olunmasıdan daha zərərli ikinci hal ola bilməz.

***Sual:*** *Dövlət başçısı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında müasir dövrün tələblərindən irəli gələn tam və hərtərəfli islahatlar aparılır. Zəngin həyat və iş təcrübəsi olan prokurorluğun veteranı kimi həyata keçirilən islahatlara münasibətiniz necədir?*

**Cavab:** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev peşəkar prokurorluq işçisi olmaqla, uzun illər ərzində prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə rəhbər vəzifələrdə çalışmış, böyük təcrübəyə malikdir. Ona görə də o, prokurorluğun fəaliyyətində olan problemləri və onların həlli yollarını, prokurorluğun fəaliyyətinin müasir dövrün tələbləri səviyyəsinə qaldırılması üçün hansı tədbirlərin görülməli olmasını, necə deyərlər, kənardan yox, içəridən bilir. Odur ki, Dövlət başçısı cənab İlham Əliyevin tapşırıqlarına əsasən Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan hərtərəfli islahatları yalnız alqışlamaq olar. Burada, bu islahatlar çərçivəsində ilk növbədə prokurorluqda aparılan ibtidai istintaqın keyfiyyətinin artırılmasına, ibtidai araşdırmaya



prosessual rəhbərliyin və prokuror nəzarətinin müasir tələblər səviyyəsinə qaldırılmasına, rayon və digər ərazi prokurorlarının məsuliyyətinin artırılmasına yönəlmiş tədbirləri qeyd etmək istərdim. Əminəm ki, aparılan bu köklü islahatlar nəticəsində prokurorluğun fəaliyyətinin müasir dövrün tələbləri səviyyəsinə qaldırılması təmin olunacaqdır.

***Sual:*** *Məlum olduğu kimi, həyata keçirilən kadr islahatları nəticəsində müsabiqə yolu ilə işə qəbul edilmiş gənc hüquqşünaslar hazırda prokurorluğun kadr korpusunun mütləq əksəriyyətini təşkil edir. Gənc həmkarlarımıza nə məsləhət verərdiniz?*

**Cavab:** Prokurorluğun kadr korpusunun gəncləşməsi təbii və mütərəqqi bir prosesdir. Prokurorluq bütün tarix boyu həmişə geniş bilik və savad bazalı, yüksək səviyyəli hüquqşünaslardan ibarət kadr korpusuna malik olan, qanunçuluğa və dövlətçiliyə sadiqliyi ilə fərqlənən bir təşkilat kimi tanınıbdır. Bu sözlərin hər birinin böyük mənası var. Bu keyfiyyətlər prokurorluğun dərin kökləri olan ənənələrinə çevrilmişdir. Gənc həmkarlarımıza bunları bilməyi və unutmamağı məsləhət görərdim. Prokurorluq qeyd olunan ənənələrə malik olan böyük bir məktəb olmaqla, həmin keyfiyyətlərə can atmayan şəxsləri qəbul etməz. Mən belə düşünürəm.

***Sual:*** *Müsahibəni ənənəvi sualımızla başa çatdırmaq istərdik. Xidməti fəaliyyətinizlə bağlı həyatda ən yüksək nailiyyət nəyi hesab edirsiniz?*

**Cavab:** Sadə, amma digər tərəfdən mürəkkəb, deyərdim ki, fəlsəfi sualdır. Baxır, nailiyyət deyəndə nəyi başa düşürük. Əlbətki, xidməti fəaliyyətimdə çox nailiyyətlər olub. Burada tərəfimdən prokurorluq işçisi kimi bir çox ağır, mürəkkəb cinayətlərin açılmasını, bu illər ərzində bir çox cinayətlərin üzə çıxarılması və ciddi qanunsuzluqların qarşısının alınmasını, bir çox aktual və mürəkkəb işlər üzrə dövlət ittihamının müdafiəsinin həyata keçirilməsini və bir çox başqa nailiyyətləri sadalamaq, misallar gətirmək olar. Lakin bütün bunlar bizim işimiz olub, yaxud fəaliyyətimizin səmərəliyinin göstəriciləridir. Və bu zəhmət həm dövlətimiz, həm də prokurorluğun rəhbərliyi tərəfindən dəfələrlə dəyərləndirilmişdir. Bu belədir, bunu, necə deyərlər, heç kim əlimizdən almır. Amma, tam səmimiyyətlə deyə bilərəm ki, mən xidməti fəaliyyətimlə bağlı həyatda ən yüksək nailiyyəti həmişə hərtərəfli bilik bazasına malik olan, yüksək səviyyəli hüquqşünas və prokurorluq işçisi olmağa can atmaqda, öz fəaliyyətimlə cəmiyyətdə dövlətimizə və dövlətçiliyimizə inamın artırılmasında, prokurorluq orqanlarının hörmət və nüfuzunun yüksəldilməsində görmüşəm. Bir də, elə deyilən mənada, bu uzun illər ərzində gənc və təcrübəsi nisbətən az olan əməkdaşlarımızın yüksək səviyyəli hüquqşünas və prokurorluq işçisi kimi formalaşmaları üçün əlimdən gələni etməyi fəaliyyətimin ən böyük məqsədlərindən biri hesab etmişəm. Bütün bu məqsədlərə nə qədər nail olmuşam – deyə bilmərəm. Hər halda, bunun üçün əlimdən gələni etmişəm.

Sağ olun. Sizlərə və bütün həmkarlarımıza uğurlar arzulayıram.

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, №11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8; 2020, № 7, maddələr 828, 851, 856, № 11, maddə 1322, № 12 (I kitab), maddələr 1425, 1427; 2021, № 2, maddə 114) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 23.2-ci maddəyə «15 il» sözlərindən sonra «(bu Qanunun 23.2-1-ci maddəsində nəzərdə tutulan hal istisna olm**aqla)» sözləri əlavə edilsin;**

**1.2.** aşağıdakı məzmunda 23.2-1-ci maddə əlavə edilsin:

**«23.2-1.** Dövlət orqanının əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən publik hüquqi şəxsin yaradılması ilə əlaqədar dövlət qulluqçularının dövlət qulluğuna xitam verildiyi tarixə «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş əmək pensiyası yaşına çatmasına ən çoxu 2 il qalmış dövlət qulluqçusu kimi əmək pensiyasına əlavə almaq hüququ onların dövlət qulluğu vəzifəsində minimum 13 il qulluq stajı olduğu halda yaranır.»;

**1.3.** 23.3-cü maddəyə «stajına» sözündən sonra «(bu Qanunun 23.2-1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla)» sözləri əlavə edilsin.

**Maddə 2**

Bu Qanun 2020-ci il yanvarın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 iyul 2021-ci il
№ 358-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### «Mediasiya haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 12-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

«Mediasiya haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 597; 2020, № 6, maddə 683, № 7, maddə 856, № 12 (I kitab), maddə 1442) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 11.1-ci maddədə «hüquqi şəxsdir» sözləri «qeyri-kommersiya hüquqi şəxsidir» sözləri ilə əvəz edilsin.

**2.** 21.10-cu və 29.4-cü maddələr ləğv edilsin.

3. 26.5-ci maddədə «Tərəflər» sözü «Mediator» sözü ilə, «borcludurlar» sözü «borcludur» sözü ilə əvəz edilsin.

**4.** 28.4-cü maddədə «mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə» sözləri «Mediasiya Şurası» sözləri ilə əvəz edilsin.

**5.** 31-ci maddə üzrə:

**5.1.** 31.1-ci və 31.4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

**«31.1.** Məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Tərəflər arasında «Mediasiya prosesinin tətbiqi barədə müqavilə» bağlanarsa, məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.»;

«**31.4.** Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə barışıq sazişi məhkəməyə təqdim olunur. Məhkəmə təqdim edilmiş barışıq sazişini təsdiq etdikdə həmin iş üzrə icraata xitam verilir.»;

**5.2.** 31.5-ci maddədən «və bu Qanuna uyğun olaraq barışıq sazişinin əldə edilməsi əsasında icraata xitam verilən məhkəmə işlərinin sayı» sözləri çıxarılsın.

**6.** 33.3-cü maddədə «qüvvədə olan qanunvericiliyə» sözləri «qanuna» sözü ilə əvəz edilsin.

**7.** 34.3-cü maddədən «və ya notariusa» sözləri və 34.4-cü maddədən «və ya notarius» sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 9 iyul 2021-ci il
№ 361-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında

Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır.

Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının iqtisadi rayonlarının aşağıdakı bölgüsü təsdiq edilsin:

**1.1.** Bakı iqtisadi rayonu (Bakı şəhəri);

**1.2.** Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);

**1.3.** Abşeron—Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);

**1.4.** Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);

**1.5.** Gəncə—Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);

**1.6.** Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

**1.7.** Qazax—Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);

**1.8.** Quba—Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);

**1.9.** Lənkəran—Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

**1.10.** Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);

**1.11.** Mil—Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);

**1.12.** Şəki—Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);

**1.13.** Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

**1.14.** Şirvan—Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).

**2.** Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrası məqsədləri üçün həmin Dövlət Proqramında göstərilmiş iqtisadi rayonların bölgüsü tətbiq edilir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 7 iyul 2021-ci il
№ 1386

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

**«Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası»nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 39-cu maddəsinin 5-ci hissəsinə əsasən qərara alıram:

1. «Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası» təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 iyul 2021-ci il
№ 1402

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyul tarixli 1402 nömrəli Fərmanı ilə təsdiq edilmişdir*

**Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə**

**QAYDASI**

**1. Ümumi müddəalar**

**1.1.** Bu Qayda «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 39-cu maddəsinin 5-ci hissəsinə əsasən hazırlanmışdır və həmin maddənin 4-cü hissəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən (bundan sonra – vəsait) istifadə qaydasını müəyyən edir.

**1.2.** Vəsaitdən prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə istifadə olunur.

**2. Vəsaitdən istifadə edilməsi**

**2.1.** Vəsaitin toplanması və ondan təyinatı üzrə istifadə edilməsi Azərbaycan Respublikası Baş Prokurorluğunun bu məqsədlə açılmış müvafiq xəzinə hesabı vasitəsilə həyata keçirilir.

**2.2.** Vəsaitin uçotu «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının Qanununa, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi uçot qaydalarına uyğun həyata keçirilir.

**2.3.** Köçürmələrin və bununla əlaqədar nəzarətin həyata keçirilməsi Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təmin olunur.

**2.4.** Azərbaycan Respublikasının Baş Prokurorluğu vəsaitdən istifadəyə dair Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə müvafiq hesabat təqdim edir.

**2.5.** Vəsaitdən istifadə ilə bağlı digər məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında müvafiq Əsasnaməyə uyğun olaraq həyata keçirilir.

**2.6.** Vəsait Azərbaycan Respublikasının mülkiyyəti hesab olunur, Azərbaycan Respublikası Baş Prokurorluğunun sərəncamındadır və onun istifadəçisi (sərəncamçısı) dəyişdirilə bilməz.

**2.7.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi hər ay üçün növbəti ayın 5-dən gec olmayaraq, dekabr ayı üçün isə həmin ayın 25-dək daxil olan vəsaitin dekabrın 26-da (dekabrın 26-sı qeyri-iş gününə düşdükdə, növbəti iş günü) Azərbaycan Respublikası Baş Prokurorluğunun xüsusi xəzinə hesabına köçürülməsini təmin edir.

**3. Vəsaitdən istifadə istiqamətləri**

**3.1.** Vəsaitin prokurorluq işçilərinin (bundan sonra – işçilər) sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən hissəsi aşağıdakı istiqamətlərə xərclənir:

**3.1.1.** işçilərin kollektiv və fərdi qaydada mükafatlandırılmasına;

**3.1.2.** bütün işçilərin vəzifə maaşlarına əlavələrin verilməsinə;

**3.1.3.** işçilər üçün kooperativ mənzil tikintisinin qismən maliyyələşdirilməsinə.

**3.2.** Prokurorluq orqanlarının maddi-texniki bazasının

möhkəmləndirilməsi məqsədilə vəsait aşağıdakı istiqamətlərə xərclənir:

**3.2.1.** malların (işlərin və xidmətlərin) alınmasına;

**3.2.2.** inzibati və təsərrüfat təyinatlı binaların tikintisinə, onların əsaslı və cari təmirinə;

**3.2.3.** beynəlxalq təşkilatlara üzvlük və beynəlxalq tədbirlərdə iştirak haqlarının ödənilməsinə;

**3.2.4.** Azərbaycan Respublikası Baş Prokurorluğunun internet informasiya ehtiyatlarına, habelə «Elektron prokurorluq» informasiya sisteminə maliyyə yardımının ayrılmasına;

**3.2.5.** maddi-texniki bazanın möhkəmləndirilməsi və elmi-texniki potensialın artırılması istiqamətində digər xərclərə.

**3.3.** Vəsaitin 50 faizi bu Qaydanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərində nəzərdə tutulmuş məqsədlər üçün ayrılır.

**3.4.** Verilən mükafatların məbləğini işçinin fəaliyyətinin nəticələrindən asılı olaraq Azərbaycan Respublikasının Baş prokuroru müəyyən edir.

**3.5.** Bu Qaydanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərinə əsasən ödənilən vəsaitdən gəlir vergisi, məcburi dövlət sosial sığorta haqqı, işsizlikdən sığorta haqqı və icbari tibbi sığorta haqqı müvafiq olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, «Sosial sığorta haqqında», «İşsizlikdən sığorta haqqında» və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tutulur.

**4. Keçid müddəası**

«Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2021-ci il 27 aprel tarixli 307-VIQD nömrəli Qanununun 2-ci maddəsinə əsasən, 2020-ci il iyulun 1-dən bu Qayda qüvvəyə minənədək daxil olan vəsaitdən bu Qaydanın 3.2-ci bəndinə uyğun olaraq istifadə edilir.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

**1.1.** «Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında» Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanının 7.4-cü bəndinə uyğun olaraq aparılmış inventarlaşdırmanın nəticələri əsasında işğaldan azad olunmuş ərazilərdə tikililərin mövcud vəziyyəti və həmin tikililərdə baş verən dəyişikliklər barədə məlumatların uçotunun aparılması, habelə tikililərin sökülməsi sahəsində dövlət orqanlarının (qurumlarının) çevik əlaqələndirilmiş fəaliyyətinin təmin edilməsi məqsədilə işğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestrini (bundan sonra – reyestr) yaratsın;

**1.2.** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifləri əsasında «İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında Əsasnamə»ni təsdiq etsin;

**1.3.** işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin daha səmərəli təşkili məqsədilə reyestrə daxil olan tikililərin müvafiq ərazidə tikinti niyyətinin həyata keçirilməsi zərurəti ilə bağlı sökülməsi qadağan edilən, sökülməsinə rəy tələb olunan və sökülməsi mümkün olan kateqoriyalar üzrə bölgüsünü təsdiq etsin;

**1.4.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki:

**2.1.** reyestrin tərtibini və aparılmasını Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirir;

**2.2.** bu Fərmanın 1.3-cü bəndinə əsasən sökülməsi mümkün olan tikililərin sökülməsinə bu barədə məlumat təqdim edildikdən, digər tikililərə münasibətdə isə sökülmənin məqsəduyğunluğuna dair aidiyyəti üzrə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin bu Fərmanın 1.2-ci bəndində nəzərdə tutulan «İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestri haqqında Əsasnamə» ilə müəyyən edilən qaydada rəy verilməsindən sonra həyata keçirilir.

**3.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi:

**3.1.** bu Fərmanın 2.2-ci bəndindən irəli gələn tələblərə riayət edilməsinə nəzarəti həyata keçirsin;

**3.2.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 avqust 2021-ci il
№ 1422

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### İşğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi yaradılsın.

**2.** «Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi haqqında Əsasnamə» təsdiq edilsin (əlavə olunur).

**3.** Müəyyən edilsin ki, Ağdam, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Laçın, Şuşa, Xocalı, Xocavənd və Zəngilan rayonlarının inzibati ərazilərində Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 noyabr tarixli 375 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları»nda nəzərdə tutulmuş yerli səviyyədə dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi müvəqqəti olaraq Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinə həvalə edilir.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**4.1.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinin fəaliyyətinin təşkili ilə bağlı müvafiq yerin ayrılması, zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etsin;

**4.2.** bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinin yaradılması ilə bağlı zəruri tədbirlərin görülməsini və həmin İdarə fəaliyyətə başlayanadək tikinti obyektlərinin tikintisinə və istismarına icazələrin verilməsini, habelə icazələrin verilməsindən irəli gələn digər səlahiyyətlərin həyata keçirilməsini təmin etsin.

**6.** «Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamənin, komitənin strukturunun təsdiq edilməsi, aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 noyabr tarixli 647 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1095; 2009, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2016, № 11, maddə 1831; 2017, № 1, maddə 39; 2019, № 3, maddə 437) aşağıdakı dəyişikliklər edilsin:

**6.1.** 3-cü hissədə «220» rəqəmləri «350» rəqəmləri, «170» rəqəmləri «220» rəqəmləri ilə əvəz edilsin və «50 ştat vahidi» sözlərindən sonra «, Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi üzrə isə 80 ştat vahidi» sözləri əlavə edilsin;

**6.2.** həmin Fərmanla təsdiq edilmiş «Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Strukturu»na aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

«3. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi.».

**7.** «Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 847; 2014, № 10, maddə 1196; 2015, № 3, maddə 270, № 5, maddə 531, № 9, maddə 1006; 2016, № 6, maddə 1059, № 11, maddə 1824; 2017, № 1, maddə 40, № 5, maddə 825, № 11, maddə 2012; 2018, № 3, maddə 417, № 5, maddə 910, № 8, maddə 1676, № 11, maddə 2289, № 12 (I kitab), maddə 2616; 2019, № 3, maddə 434, № 5, maddə 826, № 10, maddə 1581; 2020, № 5, maddə 559, № 6, maddə 684, № 7, maddə 891; 2020, № 11, maddə 1341) 4.7-1.2.1-ci yarımbəndində və 4.7-4-cü, 4.12-ci bəndlərində «inzibati ərazisində» sözləri «və «Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 12 avqust 2021-ci il
№ 1423

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 avqust tarixli 1423 nömrəli Fərmanı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi haqqında

## ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

**1.1.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (bundan sonra – Komitə) yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi (bundan sonra – Baş İdarə) «Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazisində tikinti obyektlərinin tikintisinə və istismarına icazə verən, tikintiyə icazə üçün müraciət edilməzdən əvvəl aparılacaq tikintinin icazə verilən parametrləri barədə müraciətlərə baxan, tikinti məqsədləri üçün torpaq sahəsi ayrılarkən həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyətinin müvafiq ərazinin şəhərsalma sənədlərinə uyğunluğunu yoxlayan, səyyar və əsaslı tikinti olmayan obyektlərin, xırda pərakəndə ticarət obyektlərinin və komplekslərinin uyğunluğuna dair rəy verən, şəhərsalma kadastrının aparılmasını təmin edən, habelə bu Əsasnamədə nəzərdə tutulmuş digər sahələrdə (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən, statusu mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan dövlət agentliklərinin və dövlət xidmətlərinin statusuna bərabər sayılan, Komitənin strukturuna daxil olan qurumdur.

**1.2.** Baş İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Komitənin Əsasnaməsini, bu Əsasnaməni, Komitənin Kollegiyasının qərarlarını, Komitə sədrinin əmr və sərəncamlarını rəhbər tutur.

**1.3.** Baş İdarənin müstəqil balansı, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Komitənin və Baş İdarənin adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları, xəzinə və bank hesabları vardır.

**1.4.** Baş İdarənin saxlanılması xərcləri və fəaliyyəti Komitənin təsdiq etdiyi xərc smetasına uyğun olaraq ayrılmış büdcə vəsaiti və qanunla nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

**1.5.** Baş İdarə Bərdə şəhərində yerləşir.

**2. Baş İdarənin fəaliyyət istiqamətləri**

**2.1.** Baş İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

**2.1.1.** müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;

**2.1.2.** müvafiq sahənin inkişafını təmin etmək;

**2.1.3.** Baş İdarənin fəaliyyət istiqamətləri üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı Komitəyə təkliflər vermək;

**2.1.4.** dövlət şəhərsalma nəzarətini həyata keçirmək.

**3. Baş İdarənin vəzifələri**

**3.1.** Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Baş İdarənin vəzifələri aşağıdakılardır:

**3.1.1.** dövlət proqramlarının həyata keçirilməsində iştirak etmək;

**3.1.2.** müvafiq sahə üzrə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla elmi-texniki nailiyyətlərin tətbiqində iştirak etmək;

**3.1.3.** məskunlaşma sisteminin təhlükəli təbii proseslərdən və hadisələrdən mühafizəsi üçün tədbirlər hazırlanmasında iştirak etmək;

**3.1.4.** tikilməkdə və istismarda olan bina və qurğularda qəza vəziyyəti yarandığı hallarda onun səbəblərinin araşdırılması və bərpa işləri üçün tədbirlərin hazırlanmasında iştirak etmək;

**3.1.5.** müəyyən edilmiş qaydada şəhərsalma kadastrını aparmaq;

**3.1.6.** şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin işinin təmin edilməsində iştirak etmək;

**3.1.7.** müəyyən edilmiş qaydada respublika səviyyəsində dövlət şəhərsalma nəzarətinin Komitə tərəfindən həyata keçirilməsində iştirak etmək;

**3.1.8.** müvafiq sahədə Komitənin strukturuna daxil olan digər qurumlara, yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarına metodiki yardım göstərmək;

**3.1.9.** müvafiq sahənin inkişafını kompleks təhlil etmək və onun davamlı inkişafını təmin etmək üçün təkliflər hazırlamaq;

**3.1.10.** müvafiq sahəyə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

**3.1.11.** dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün qanunvericiliklə müəyyən edilmiş tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

**3.1.12.** öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

**3.1.13.** Baş İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

**3.1.14.** Baş İdarənin fəaliyyəti ilə bağlı ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

**3.1.15.** səyyar və əsaslı tikinti olmayan obyektlərin, o cümlədən əsaslı tikinti olmayan xırda pərakəndə ticarət obyektləri və komplekslərinin yerləşdirilməsinə və quraşdırılmasına rəy vermək;

**3.1.16.** tikinti obyektinin tikintisinə və istismarına icazə vermək, habelə bununla bağlı Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq hüquqi hərəkətləri yerinə yetirmək;

**3.1.17.** tikinti obyektlərinin sifarişçilərinin sorğuları əsasında tikintiyə icazə üçün müraciət etməzdən əvvəl tikinti aparmaq istədiyi ərazidə aparılacaq tikintinin icazə verilən parametrlərini (ərazinin tikinti əmsalı, ərazinin tikinti sıxlığı əmsalı, tikinti obyektlərinin hündürlüyü və s.) obyektin təyinatını göstərməklə təqdim etmək;

**3.1.18.** fəaliyyət istiqamətlərinə uyğun olaraq, qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**4. Baş İdarənin hüquqları**

**4.1.** Öz vəzifələrini yerinə yetirmək üçün Baş İdarənin aşağıdakı hüquqları vardır:

**4.1.1.** müvafiq sahədə normativ hüquqi aktların hazırlanması, onlarda dəyişiklik edilməsi, onların şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi ilə bağlı Komitəyə təkliflər vermək;

**4.1.2.** fəaliyyət istiqamətlərinə uyğun təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

**4.1.3.** şəhərsalma ilə bağlı qanunvericiliyin pozulması halları aşkar edildikdə müvafiq tədbirlər görmək;

**4.1.4.** Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq etmək və təcrübə mübadiləsi aparmaq;

**4.1.5.** dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə müvafiq sahə üzrə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

**4.1.6.** müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

**4.1.7.** müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

**4.1.8.** müvafiq sahənin elmi-texniki informasiya təminatını yaxşılaşdırmaq üçün bu məqsədlə nəzərdə tutulmuş vəsait çərçivəsində qanunvericiliklə müəyyən edilmiş qaydada informasiya şəbəkəsi, internet saytı yaratmaq, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq və onlardan istifadə etmək.

**5. Baş İdarənin fəaliyyətinin təşkili**

**5.1.** Baş İdarənin fəaliyyətinə Komitənin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Baş İdarənin rəisi Baş İdarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

**5.2.** Baş İdarənin Aparatının strukturunu və ştat cədvəlini, büdcə vəsaiti üzrə xərclər smetasını və qanunvericiliklə müəyyən edilmiş digər mənbələr üzrə gəlirlər və xərclər smetasını Komitə təsdiq edir.

**5.3.** Baş İdarə rəisinin Komitənin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən birinci müavini və bir müavini vardır. Baş İdarə rəisinin birinci müavini vəzifəsinə görə Qarabağ regionunun baş memarıdır.

**5.4.** Baş İdarə rəisinin müavinləri Baş İdarə rəisinin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

**5.5.** Baş İdarənin rəisi:

**5.5.1.** Baş İdarənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

**5.5.2.** səlahiyyətləri daxilində Baş İdarə Aparatının fəaliyyətinə dair əmrlər, sərəncamlar və göstərişlər verir;

**5.5.3.** müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Baş İdarə Aparatının ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onun xərclər smetasını təsdiq olunmaq üçün Komitəyə təqdim edir;

**5.5.4.** Baş İdarə Aparatının işçilərini (struktur bölmələrinin rəhbərlərini və onların müavinlərini Komitə ilə razılaşdırmaqla) vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

**5.5.5.** Baş İdarədə qəbul edilmiş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

**5.5.6.** Baş İdarənin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

**5.5.7.** Baş İdarəni təmsil edir;

**5.5.8.** Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq digər səlahiyyətləri həyata keçirir.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 noyabr tarixli 869 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikasının prokurorluq işçilərinin və prokurorluq orqanlarına işə götürülən digər işçilərin ştat sayı həddi»ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 noyabr tarixli 869 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1471) ilə təsdiq edilmiş «Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikasının prokurorluq işçilərinin və prokurorluq orqanlarına işə götürülən digər işçilərin ştat sayı həddi»ndə dəyişikliklər təsdiq edilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə bağlı maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikası prokurorluq orqanlarının saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 avqust 2021-ci il
№ 2866

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**
**№ 15/18**

**Bakı şəhəri** **27.08.2021-ci il**

## Azərbaycan Respublikası Baş prokurorunun 14 sentyabr 2020-ci il tarixli 15/2 nömrəli əmri ilə təsdiq edilmiş Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 8 iyun 2021-ci il tarixli 03 nömrəli qərarı ilə təsdiq edilmiş dəyişikliklərə uyğun olaraq Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin edilməsi zərurəti yaranmış və Baş Prokurorluq üzrə 08 iyun 2021-ci il tarixli 15/16 nömrəli əmrin 2-ci bəndinin icrası ilə əlaqədar Bakı şəhər prokurorluğu tərəfindən müvafiq layihə hazırlanaraq təsdiq olunması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilmişdir.

Qeyd olunanlara əsasən, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun 14 sentyabr 2020-ci il tarixli 15/2 nömrəli əmri ilə təsdiq edilərək icraya yönəldilmiş Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 6.1-ci bənddə "bu sahədə cavabdeh olan müavini" sözləri "müvafiq müavini" sözləri ilə əvəz edilsin.

**1.2.** 6.10.4-cü yarımbənddə "ittiham aktının məzmunu" sözləri "ittihamın həcmi" sözləri ilə əvəz edilsin.

**1.3.** 7.1-ci bənddə "bu sahəyə prosessual rəhbərlik edən müavini" sözləri "müvafiq müavini" sözləri ilə əvəz edilsin, "daxili işlər orqanlarının" sözlərindən sonra "(DİO)" sözləri əlavə edilsin.

**1.4.** 7.33-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"7.33.** Əməliyyat-axtarış fəaliyyətinə tabe rayon prokurorluqları tərəfindən həyata keçirilən prokuror nəzarətinin vəziyyətini öyrənərək təhlil edir."

**1.5.** 14.6-cı bənddə "bu sahəyə məsul olan" sözləri "müvafiq" sözü ilə əvəz edilsin.

**1.6.** aşağıdakı məzmunda 14.12-ci və 14.13-cü bəndlər əlavə edilsin:

**"14.12.** Tabe rayon prokurorluqları tərəfindən hər ayın 5-dən gec olmayaraq daxili işlər orqanlarının icraatında olmuş cinayət işlərinə dair hesabatlar (icraatda olan, məhkəməyə göndərilmiş, icraatı dayandırılmış, xitam edilmiş və aidiyyəti üzrə göndərilmiş cinayət işlərinin siyahısı) Azərbaycan Respublikası Baş Prokurorluğunun və Bakı şəhər prokurorluğunun DİO-nın istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarələrinə göndərilir.".

**"14.13.** Bakı şəhərinin daxili işlər orqanlarının istintaq qurumlarında icraatına xitam verilmiş cinayət işləri qərarın qəbul edildiyi vaxtdan bir ay ərzində tabe rayon prokurorluqları tərəfindən Bakı şəhər prokurorluğunun müvafiq idarəsi vasitəsilə Baş Prokurorluğun nəzarəti həyata keçirən müvafiq idarəsinə göndərilir."

**1.7.** 15.2-ci bənddən "bütün" sözü çıxarılsın.

**1.8.** aşağıdakı məzmunda 16.2-1, 16.2-2, 16.4 və 17.5-ci bəndlər əlavə edilsin:

**"16.2-1.** Aidiyyəti üzrə göndərilməsi üçün tabe rayon prokurorluqlarından daxil olmuş cinayət işi və törədilmiş və ya hazırlanan cinayətlərə dair məlumatlara baxılması ilə əlaqədar toplanmış materiallar öyrənilir, aidiyyət düzgün müəyyən edildiyi halda cinayət işi və ya material aidiyyəti üzrə göndərilir, aidiyyət məsələsi düzgün müəyyən edilmədikdə aidiyyəti üzrə göndərilmə haqqında qəbul edilmiş qərarın ləğv edilməsi haqqında qərarın layihəsi hazırlanaraq Bakı şəhər prokurorun müvafiq müavininə təqdim edilir.

**16.2-2.** Cinayət işinin istintaqının aparılmasının həvalə edilməsi haqqında tabe rayon prokurorluqlarından daxil olmuş müraciət öyrənilərək, qanuni və əsaslı olduğu müəyyən edildikdə bu barədə məsələyə baxılması üçün Baş Prokurorluğa müraciət olunur.

**16.4.** İbtidai araşdırma zamanı əməliyyat-axtarış tədbirlərinin gücləndirilməsi, hüquq mühafizə orqanları, habelə digər qurumların əməkdaşları barəsində xidməti yoxlamaların aparılması və bu qəbildən olan digər məsələlərə dair tabe prokurorluqlardan daxil olmuş müraciətlər öyrənilir, əsaslı hesab edildikdə Bakı şəhər prokuroru və ya onun müavini adından müvafiq məktubların göndərilməsi, habelə alınmış cavabların tabe prokurorluqlara göndərilməsi təmin edilir.

**17.5.** Qeyri-aşkar şəraitdə törədilmiş, ağır və xüsusilə ağır cinayətlərlə əlaqədar tabe rayon prokurorluqlarında istintaq edilən cinayət işləri üzrə şöbə prokurorları yerlərə ezam olunarkən Baş Prokurorluq tərəfindən hazırlanmış metodiki tövsiyələr nəzərə alınaraq, həmin işlər üzrə istintaq planının tərtib olunmasını və hadisə yerinə baxış keçirilməsini, ilkin dindirmələrin aparılmasını, maddi sübutların götürülməsini, ekspertizaların təyin olunmasını və digər təxirəsalınmaz hərəkətlərin yerinə yetirilməsini təşkil edir."

**1.9.** 15.8-ci bənddə "açıldığı tarixin" sözləri "başlandığı tarixin" sözləri ilə əvəz edilsin.

**1.10.** 19.1-ci bənd aşağıdakı redaksiyada verilsin, 19.2-ci və 19.3-cü bəndlər ləğv edilsin:

**"19.1.** İttiham aktı Bakı şəhər prokurorunun müavini və ya tabe rayon prokurorları tərəfindən təsdiq edilməklə məhkəməyə göndərilən cinayət işləri CPM-nin 303 və 318-ci maddələrində göstərilən əsaslarla ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarıldıqda, bəraət hökmləri çıxarıldıqda həmin işlər Baş Prokurorluğun nəzarəti həyata keçirən müvafiq idarəsində müzakirə olunarkən şöbənin aidiyyəti əməkdaşları dəvət edildiyi halda, müzakirədə iştirak edirlər.".

**1.11.** 22.4-cü bənddə "İdarənin" sözü "Şöbənin" sözü ilə əvəz edilsin.

**1.12.** 22.14-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"22.14.** Zəruri hallarda Bakı şəhər prokurorunun müvafiq müavininin tapşırığı ilə ölümlə nəticələnən yol-nəqliyyat hadisələri, əmək mühafizəsi qaydalarını pozma və tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarını pozmaya (CM-nin 263, 162 və 222-ci maddələri) dair tabe rayon prokurorluqlarında istintaq olunan cinayət işləri üzrə qanun pozuntuları və əsassız qərarların qəbul edilməsi hallarının vaxtında aşkar edilməsi və onların qarşısının alınması məqsədilə müvafiq olaraq yol-nəqliyyat hadisəsi və texniki təhlükəsizlik ekspertizaları təyin edilməmişdən əvvəl cinayət işləri şöbədə öyrənilir.".

**1.13.** 23.2-ci, 23.4-cü (iki halda), 23.5-ci, 23.8-ci, 23.9.3-cü, 23.9.5-ci və 33.4-cü bəndlərdə "Beynəlxalq hüquqi əməkdaşlıq" sözlərindən əvvəl "Baş Prokurorluğun" sözləri əlavə edilsin.

**1.14.** 23.6 və 33.6-cı bəndlərdə "10 (on)" sözləri "7 (yeddi)" sözləri ilə əvəz edilsin.

**1.15.** aşağıdakı məzmunda 24.3-cü bənd əlavə edilsin:

**"24.3.** Şöbə Azərbaycan Respublikasının Prezidentinin 08 oktyabr 2018-ci il tarixli, 299 nömrəli Fərmanının 1-ci bəndinin icrası ilə əlaqədar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində təşkil edilmiş vahid məlumat bazasına daxil edilməsi üçün tabe rayon prokurorluqlarında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı cinayətlər barədə statistik və digər məlumatların təxirəsalınmadan Baş İdarəyə göndərilməsini təmin edir."

**1.16.** 25.2.1-ci yarımbənddə "ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən Bakı şəhər prokurorunun bu sahədə prosessual rəhbərliyi həyata keçirən müavini" sözləri "Bakı şəhər prokurorunun bu sahədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən müavini" sözləri ilə əvəz edilsin, "müavininin" sözündən əvvəl "müvafiq" sözü əlavə edilsin.

**1.17.** 25.2.21-ci yarımbənddə "nəzarət edən idarəyə" sözləri "prosessual nəzarəti həyata keçirən idarəyə" sözləri ilə əvəz edilsin.

**1.18.** 26.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

**"26.1.3.** daxili işlər orqanlarının istintaq qurumlarında cinayət işlərinin icraatına əsassız xitam verilməsi hallarının qarşısının alınması məqsədilə qəbul olunmuş qərarın əsaslılığını yoxlamaq üçün idarəyə daxil olmuş cinayət işlərini öyrənir, qəbul edilmiş qərar qanunsuz və əsassız olduqda həmin qərarın ləğv edilməsinə dair qərar layihəsi tərtib edir, əsaslı hesab edildikdə isə cinayət işi arxivə verilməsi üçün ən geci bir ay ərzində Bakı şəhər prokurorunun müvafiq müavininin məktubu ilə Baş Prokurorluğun müvafiq idarəsinə göndərilir."

**1.19.** 26.1.7-ci yarımbəndin birinci cümləsində "idarəyə" sözündən sonra "daxil olmuş" sözləri əlavə edilsin və üçüncü cümləsi çıxarılsın.

**1.20.** 26.1.11-ci yarımbəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müraciətlərin öyrənilməsi ilə əlaqədar Baş Prokurorluq tərəfindən Bakı şəhərinin rayon prokurorluqlarından tələb edilən cinayət işi və ya materiallar, eləcə də, cinayət təqibi ilə bağlı materiallar üzrə məlumatlar tabe rayon prokurorluqları tərəfindən Bakı şəhər prokurorluğunun aidiyyəti struktur qurumu müvafiq qaydada məlumatlandırılmaqla birbaşa təqdim edilir, Bakı şəhər prokurorluğunun müvafiq qaydada məlumatlandırılmış aidiyyəti struktur qurumu isə sorğunun vaxtında icrasına nəzarət edir.".

**1.21.** 26.1.14-cü yarımbənddə "həbs qətimkan tədbirinin seçilməsi" sözlərindən sonra "və" bağlayıcısı "və ya" bağlayıcısı ilə əvəz edilsin.

**1.22.** Aşağıdakı məzmunda 26.2-ci bənd əlavə edilsin:

**"26.2.** Cinayət işlərinin, törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxılması ilə əlaqədar toplanmış materialların şifahi qaydada Bakı şəhər prokurorluğu tərəfindən tələb edilməsinə yol verilmir.".

**1.23.** 27.1-ci bənd aşağıdakı redaksiyada verilsin və 27.2-27.4-cü bəndlər ləğv edilsin:

**"27.1.** İttiham aktı Bakı şəhər prokurorunun müavini və ya tabe rayon prokurorları tərəfindən təsdiq edilməklə məhkəməyə göndərilən cinayət işləri CPM-nin 303 və 318-ci maddələrində göstərilən əsaslarla ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarıldıqda, bəraət hökmləri çıxarıldıqda həmin işlər Baş Prokurorluğun nəzarəti həyata keçirən müvafiq idarəsində müzakirə olunarkən idarənin aidiyyəti əməkdaşları dəvət edildiyi halda, müzakirədə iştirak edirlər.".

**1.24.** 28.6-cı və 28.6.2-ci bəndlərdə "əməliyyat-qeydiyyat işinin açılması" sözləri "əməliyyat-qeydiyyat işinin başlanması" sözləri ilə əvəz edilsin.

**1.25.** 29.2-ci bənddə "statistik məlumatların və cinayət-prosessual sənədlərin" sözləri "statistik və digər məlumatların" sözləri ilə əvəz edilsin.

**1.26.** 35.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

**"35.10.** Bakı şəhər prokurorluğunun struktur qurumlarının və tabe rayon prokurorluqlarının rəhbərləri tərəfindən Baş Prokurorluğun Fəaliyyət planında, Bakı şəhər prokurorluğunun İş planında və bu qurumların İş planlarında nəzərdə tutulmuş tədbirlərin icra olunmasına dair sənədlər (ümumiləşdirmələr, arayışlar, müzakirə protokolları, prokuror təsir aktları və s.) həmin tədbirlərin icrası üçün müəyyən olunmuş müddət bitdikdən sonra 5 iş günü ərzində Şöbəyə təqdim olunur. Şöbə tərəfindən şəhər prokurorluğunun və tabe rayon prokurorluqlarının iş planlarının, eləcə də Baş Prokurorluğun Fəaliyyət planının aidiyyəti bəndlərinin icra vəziyyəti ümumiləşdirilməklə, nəticəsinə dair tərtib olunmuş sənədin surəti müvafiq hesabat dövrü bitənədək Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə göndərilir".

**1.27.** 41.8.7-ci yarımbənddən “, iş proqramını başlamalı” sözləri çıxarılsın.

**1.28.** 43-cü bəndin mətnində “parol” sözü bütün hallarda “şifrə” sözü ilə əvəz edilsin.

**1.29.** 45.9-cu bənddə “zamanı aşağıdakı xüsusiyyətlər nəzərə alınır” sözləri “xüsusi qaydada aparılır” sözləri ilə əvəz edilsin.

**1.30.** 53-cü bəndin adında “Sənədlərin” sözündən sonra “və işlərin” sözləri əlavə edilsin.

**1.31.** 53.3-cü bənddə “Ayrı-ayrı idarə və şöbələrdə” sözləri “Prokurorluğun qurumlarında” sözləri ilə əvəz edilsin.

**1.32.** 66-cı bəndin adı aşağıdakı redaksiyada verilsin:

**“66.** İşlərin, nəzarət icraatlarının və digər sənədlərin prokurorluğun arxivinə verilməsi”.

**1.33.** 66.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

**“66.2.** Ayrıca sənədlər cari sənədlərlə əlaqədar struktur qurumun kargüzarlığında qaldıqda şəhər prokurorluğunun arxivi onların müvəqqəti istifadəyə verilməsini sənədləşdirir. Arxivin işçisi sənədləri arxivə siyahının bütün nüsxələrinə imza etməklə qəbul edir. Siyahıda təhvil verilən sənədlərin adı, sayı, ili, saxlanma müddəti və digər zəruri məlumatlar göstərilməli, rədd materialları, cinayət işləri üzrə nəzarət icraatları və icraatlarına xitam verilmiş cinayət işləri barədə isə ətraflı məlumat (yəni hər birinin nömrəsi, başlanma, rədd edilmə, xitam verilmə tarixləri, maddəsi, cildlərin və vərəqlərin sayı, təqsirləndirilən şəxsin, zərərçəkmiş şəxsin adı, soyadı, atasının adı və digər zəruri məlumatlar) göstərilməlidir. Siyahının birinci nüsxəsi arxivdə qalır, ikinci nüsxəsi isə struktur quruma qaytarılır”.

**1.34.** 66.3-cü bənddə “Materiallar” sözü “Sənədlər” sözü ilə əvəz edilsin.

**1.35.** 66.4-cü bənd  aşağıdakı redaksiyada verilsin:

**“66.4.** Sənədlər arxivdə təsnifatlaşdırılaraq illər üzrə saxlanılır. Daimi saxlanılan sənədlər müvəqqəti saxlanılan sənədlərdən ayrıca saxlanılır”.

**1.36.** 66.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

**“66.5.** Arxivin işçisi sənədlərin arxivdə lazımi qaydada saxlanılmasına cavabdehdir. Sənədlər istifadəyə yazılı sorğuya əsasən müvafiq qeydiyyat kitabında imza etdirilməklə verilir  və onun vaxtında geri qaytarılmasına nəzarət edilir. İmza etməklə arxivdən sənəd götürmüş şəxs onun itirilməsinə, yaxud hər hansı formada məhv olunmasına, habelə arxivə vaxtında geri qaytarılmamasına görə məsuliyyət daşıyır. Arxiv işçisi saxlama müddəti keçmiş sənədləri vaxtında məhv olunması üçün ayırmalı və buna dair arayış tərtib etməklə rəhbərliyi məlumatlandırmalıdır.”.

**1.37.** 67.3-cü bənddə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsinin baş məsləhətçisi (arxiv işi üzrə) Ekspert Komissiyasının iclaslarında katib funksiyasını yerinə yetirir.”.

**1.38.** 67.7-ci bənddə “tərəfindən” sözündən sonra “daha uzun müddətə və ya” sözləri əlavə edilsin.

**1.39.** 71.3-cü bənddə “əmrin” sözü “bu Qaydaların” sözləri ilə əvəz edilsin.

**1.40.** 73.5.3-cü yarımbənddə “Azərbaycan Respublikası Milli Məclisi və Nazirlər Kabinetinin” sözləri “Azərbaycan Respublikası Milli Məclisinin, Nazirlər Kabinetinin və İnsan hüquqları üzrə müvəkkilinin” sözləri ilə əvəz edilsin.

**2.** Əmrin icrasına nəzarət Bakı şəhər prokuroru və onun müavinlərinə, Bakı şəhər prokurorluğunun Təşkilat və icraya nəzarət şöbəsinə həvalə edilsin.

**3.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, Bakı şəhər prokurorluğuna və tabe rayon prokurorluqlarına göndərilsin, “Azərbaycan Prokurorluğu” jurnalında dərc edilsin və Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestrinə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

## Ə M R
**№ 15/19**

**Bakı şəhəri** **15.09.2021-ci il**

## Azərbaycan  Respublikası  Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitlərin prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi istiqaməti üzrə ayrılması meyarları haqqında

Azərbaycan Respublikası Prezidentinin 16 iyul 2021-ci il tarixli 1402 nömrəli Fərmanı ilə “Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası” (bundan sonra- Qayda) təsdiq edilmişdir.

“Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 39-cu maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə istiqamətlərini müəyyən edən Qaydanın 3-cü hissəsinə görə prokurorluq işçilərinin (bundan sonra – işçilərin) sosial müdafiəsinin gücləndirilməsi məqsədilə vəsaitin 50 faizi (bundan sonra – vəsait) işçilərin kollektiv və fərdi qaydada mükafatlandırılması və bütün işçilərin vəzifə maaşlarına əlavələrin verilməsi üçün ayrılır. Verilən mükafatların məbləğini işçinin fəaliyyətinin nəticələrindən asılı olaraq Azərbaycan Respublikasının Baş prokuroru müəyyən edir.

Qeyd olunanlara əsasən, Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitlərin prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirilməsi istiqaməti üzrə ayrılması meyarlarının müəyyən edilməsi məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Prokurorluq orqanlarında qulluqda mütərəqqi motivasiya (həvəsləndirmə) modelinin tətbiqi ilə əlaqədar vəsaitin işçilərin kollektiv və fərdi qaydada mükafatlandırılması və bütün işçilərin vəzifə maaşlarına əlavələrin verilməsi istiqamətləri üzrə ayrılması və bölgüsündə şəffaflığın təmin edilməsi üçün mükafatlandırılan işçilərin dairəsi aşağıdakı meyarlar üzrə müəyyən edilsin:

**1.1.** vəsaitin toplanmasında və idarə olunmasında əməyi olan işçilər, o cümlədən:

**1.1.1.** vəsaitin xəzinə hesabına daxil olduğu cinayət işi üzrə istintaq aparan, cinayət təqibi ilə bağlı digər materiallar üzrə araşdırma aparan prokurorluq işçiləri, istintaq qrupunun üzvləri, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror;

**1.1.2.** konkret cinayət işi üzrə bilavasitə əməyi olan istintaq qurumunun rəisi, onun müavini, istintaqa nəzarəti həyata keçirən digər prokurorluq işçiləri;

**1.1.3.** vəsaitlərin əməliyyat-axtarış tədbirləri nəticəsində aşkar olunmasında iştirak edən əməliyyatçılar, əməliyyat qurumunun rəhbəri;

**1.1.4.** konkret cinayət işi üzrə aktivlərin aşkar edilməsi və struktur qurumların fəaliyyətinin əlaqələndirilməsində bilavasitə iştirakı olan idarə prokurorları, idarə rəisinin müavini, idarə rəisi, Baş prokurorun müvafiq müavini;

**1.1.5.** məhkəmənin qərarına əsasən cərimə tətbiq edilmiş inzibati xətalara dair işlər üzrə icraatın başlanması və icraatın aparılmasını (materialların toplanması, məhkəməyə göndərilməsi və məhkəmədə iştirak edilməsi) həyata keçirən prokurorluq işçiləri;

**1.1.6.** büdcədənkənar vəsaitlərin səmərəli idarə olunmasında əməyi olan müvafiq struktur qurumun aidiyyəti işçiləri;

**1.2.** xidməti vəzifələrinin nümunəvi icrasına, mühüm dövlət tapşırıqlarının, habelə rəhbərliyin xüsusi əhəmiyyətli tapşırıqlarının vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə, işgüzarlığına, yüksək iş nailiyyətlərinə, müsbət iş təcrübəsinin, fəaliyyətində yeni forma və metodların tətbiqinə, səmərələşdirici təkliflərin verilməsinə, habelə normativ hüquqi aktların layihələrinin hazırlanmasına görə seçilən və təşəbbüskarlıq göstərən prokurorluq işçiləri;

**1.3.** rəhbərlik və nəzarət etdiyi sahə üzrə proqnozlaşdırma və idarəetmə bacarıqları, təşkilatçılığı, o cümlədən işçilər arasında düzgün iş bölgüsü aparmaq, istiqamətləndirmək və kadr potensialından düzgün istifadə etməklə işin səmərəli təşkili, novatorluğu ilə fərqlənən rəhbər prokurorluq işçiləri.

**2.** Verilən mükafatın məbləği işçinin fəaliyyətinin nəticələrindən asılı olaraq konkret cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar, inzibati xətalara dair işlər üzrə icraatın nəticələri əsasında vəsaitin formalaşdırılmasında, vəsaitlərin aşkar edilməsi və ziyanın ödənilməsində rolu, təşəbbüskarlığı, daxil olan vəsaitin həcmi, işin konkret halları, mürəkkəbliyi və aktuallığı, habelə bu Əmrin 1.2 və 1.3-cü bəndlərində göstərilən digər əsaslar nəzərə alınaraq, lakin işçinin əmək haqqının üçqat həcmindən çox olmayaraq təsbit edilsin.

**3.** Müəyyən edilsin ki:

**3.1.** Prokurorluğun xəzinə hesabına toplanan vəsaitlərin formalaşmasında bilavasitə əməyi olan prokurorluq əməkdaşları barəsində bu vəsaitlərin uçotunu aparan Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi və Maddi-texniki təminat şöbəsi tərəfindən konkret nəticələr qeyd olunmaqla Baş prokurora mütəmadi məlumat təqdim edilir. Həmin məlumatlar əsasında Baş prokurorun tapşırığı ilə müvafiq qurumun rəhbəri tərəfindən konkret iş üzrə vəsaitlərin toplanmasında əməyi olan işçilərin dairəsi dəqiqləşdirilir və verilmiş təkliflərə Baş prokurorun göstərişi ilə Əmək məsələləri komissiyasında baxılır. Komissiyanın tövsiyəsi əsasında Baş prokuror tərəfindən müvafiq əmr verilir.

**3.2.** Digər işçilərin mükafatlandırılması məsələsi onların bilavasitə rəhbərlərinin və ya yuxarı prokurorluq orqanının əsaslandırılmış təqdimatına Baş prokurorun göstərişi ilə Əmək məsələləri komissiyasında baxıldıqdan sonra Baş prokuror tərəfindən bu Əmrin 3.1-ci bəndində göstərilən qaydada həll edilir.

**4.** Vəsaitin qalan hissəsi bütün işçilərin vəzifə maaşlarına əlavələrin verilməsinə yönəldilsin.

**5.** Vəsaitlərin ayrılması konkret nəticələr və işin xüsusiyyətləri nəzərə alınmaqla ildə iki dəfədən az olmayaraq həyata keçirilsin.

**6.** Azərbaycan Respublikası Hərbi, Naxçıvan Muxtar Respublikası və müvafiq tabe prokurorluqların işçilərinin sosial müdafiəsinin gücləndirilməsi istiqaməti üzrə vəsaitlərin ayrılması bu Əmrin 1 və 2-ci bəndlərində göstərilən meyarlar rəhbər tutulmaqla həmin qurumlardan daxil olan vəsaitin həcminə mütənasib olaraq həyata keçirilsin.

**7.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**II dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-cü maddəsinin həmin Məcəllənin 237-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair**

**6 iyul 2021-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov (məruzəçi-hakim), Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Şəki Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-cü maddəsinin həmin Məcəllənin 237-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.İsmayılovun məruzəsini, maraqlı subyektlərin nümayəndələri Şəki Apellyasiya Məhkəməsinin sədri M.Əkbərovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektorunun müdiri K.Paşayevanın, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri E.Rəhimovun, Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanovanın mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Şəki Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra — Cinayət Məcəlləsi) 234-cü maddəsinin bəzi müddəalarının həmin Məcəllənin 237-ci maddəsi ilə əlaqəli şəkildə Azərbaycan Respublikası Konstitusiyasının 60 və 71-ci maddələri, eləcə də «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın (bundan sonra — Konvensiya) 6 və 7-ci maddələri baxımından şərh olunmasını xahiş etmişdir.

Müraciətdən görünür ki, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2 fevral 2021-ci il tarixli hökmü ilə H.Şıxalizadəyə qarşı irəli sürülən ümumi ittihamdan Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə verilmiş ittiham xaric edilmiş və o, həmin Məcəllənin 237.2.3-cü maddəsi ilə nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilinərək 4 il müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdır.

Hökmə əsasən, ibtidai istintaq orqanı tərəfindən H.Şıxalizadəyə qarşı Cinayət Məcəlləsinin 234.1 və 237.2.3-cü maddələri ilə ittiham irəli sürülmüşdür ki, o, yaşadığı evinin həyətyanı sahəsində külli miqdarda, ümumi təmiz çəkisi 4 kq 900 qr olan narkotik tərkibli çətənə (kannabis) bitkilərini qanunsuz olaraq kultivasiya etmiş, həmin bitkilər əməliyyat-axtarış tədbirləri nəticəsində aşkar edilərək götürülmüşdür.

Həmçinin, H.Şıxalizadə 1 iyun 2020-ci il tarixində yaşadığı evin həyətyanı sahəsində əkib-becərdiyi narkotik tərkibli çətənə (kannabis) bitkilərinin yarpaqlarını qurudaraq ümumi təmiz çəkisi 250,00 qr olan çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış qurudulmuş marixuananı şəxsi istehlak miqdarından artıq miqdarda qanunsuz olaraq satış məqsədi olmadan əldə etmiş və yaşadığı evin divarından asmaqla saxlamışdır.

İş üzrə verilmiş apellyasiya protestinə əsasən, qeyd olunan məhkəmə hökmü H.Şıxalizadəyə Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə verilmiş ittiham həmin Məcəllənin 237.2.3-cü maddəsi ilə əhatə olunmaqla, Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə olan ittihamın

ümumi ittihamdan çıxarıldığı hissədə qanunsuz və əsassız olduğundan, eləcə də cinayət qanununun norması düzgün tətbiq edilmədiyindən ləğv edilməli, H.Şıxalizadə Cinayət Məcəlləsinin 234.1 və 237.2.3-cü maddələri ilə təqsirli bilinərək ona cinayətlərin məcmusu üzrə cəza təyin edilməklə yeni ittiham hökmü çıxarılmalıdır.

Müraciətedən hesab edir ki, əkilmiş narkotik tərkibli çətənə bitkilərinin hissələrinin toplanması Cinayət Məcəlləsinin 237-ci maddəsinin tərkib əlamətini təşkil edir. Odur ki, əkilmiş narkotik tərkibli çətənə bitkisinin hissələri olan yarpaqlarının toplanması və qurudulması hansı məqsədlə edilməsindən asılı olmayaraq Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə tövsif edilməlidir. Belə hallarda hər iki maddə ilə ittihamın verilməsi təqsirləndirilən səxsin hüquqi vəziyyətinin əsassız ağırlaşdırılmasına səbəb olmaqla yanaşı, hüquqi müəyyənlik prinsipinə ziddir.

Şəki Apellyasiya Məhkəməsinin qənaətinə görə, H.Şıxalizadənin əməlinin tövsifi məsələsində ittiham tərəfi və birinci instansiya məhkəməsinin mövqelərində fikir ayrılığı ilə əlaqədar, habelə məhkəmə təcrübəsində analoji işlər üzrə vahid yanaşmanın formalaşdırılması üçün Konstitusiya Məhkəməsinə müraciət edilməsi zərurəti yaranmışdır.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, mövcud konstitusiya işinin predmetini artıq əkilib-becərilmiş və tərkibində narkotik maddələr olan bitkilərin toplanmasının Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə yanaşı həmin Məcəllənin 234-cü maddəsi ilə (qanunsuz olaraq narkotik vasitələri əldə etmə və saxlama hissəsində) məcmu qaydasında tövsif edilməsinin hüquqi müəyyənlik və konstitusiya əhəmiyyətinə malik olan ümumhüquqi ədalət prinsiplərinin tələbləri baxımından mümkünlüyü məsələsi təşkil edir.

Hər hansı əməlin cinayət hesab edilməsi həmin əməli törədən şəxsin barəsində mühüm cinayət-hüquqi nəticələr törətdiyindən cinayət-hüquqi məsuliyyətə səbəb olan hansı hərəkət və ya hərəkətsizlik, o cümlədən məhz hansı vəzifənin yerinə yetirilməməsi hüquqi müəyyənlik prinsipinə uyğun olaraq qanunda dəqiq və aydın göstərilməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun məsələ ilə bağlı hüquqi mövqeyi ondan ibarətdir ki, cinayət məsuliyyəti yaradan əməlin qanunda dəqiq, birmənalı və açıq-aşkar şəkildə göstərilməsi tələb edilir. Müvafiq olaraq, təqsirsiz şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasına və təqsirli şəxslərin cinayət məsuliyyətindən kənarda qalmasına şərait yaratmamaq məqsədilə məsuliyyəti müəyyən edən cinayət qanununun müddəası qeyri-müəyyən və ikimənalı olmamalıdır («Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1, 229.1, 230, 231 və 232.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair» 2010-cu il 21 iyun tarixli Qərar).

Cinayət qanunvericiliyi sahəsində hüquqi müəyyənlik prinsipi Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsindən və Konvensiyanın 7-ci maddəsindən irəli gəlir. Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsindəki müddəa Əsas Qanunda qanunçuluq prinsipini ifadə edərək, cinayət və cəzanın qanuna əsaslanmasını tələb etməklə yanaşı (nullum crimen sine lege və nulla poena sine lege prinsipləri), cinayət qanununun genişləndirici təfsirinin qadağan edilməsi (lex stricta) və cinayət qanunvericiliyinin aydın və müəyyən olmasını da (lex certa) tələb edir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Böyük Palatasının (bundan sonra — Avropa Məhkəməsinin Böyük Palatası) Korbely Macarıstana qarşı iş üzrə 2008-ci il 19 sentyabr tarixli Qərarında göstərilmişdir ki, Konvensiyanın 7-ci maddəsi ittiham olunan şəxsin maraqlarının ziyanına cinayət-hüquqi normaların geriyə qüvvəsinin qadağan edilməsi ilə məhdudlaşmır. Bununla bərabər, həmin maddə özündə daha ümumi prinsipləri ehtiva edir. Həmin prinsiplərə əsasən yalnız qanun cinayətin tərkibini və buna görə cəzanı müəyyən edə bilər (nullum crimen, nulla poena sine lege), o cümlədən ittiham olunan şəxsin ziyanına, məsələn, analogiya üzrə, cinayət hüquq normalarının genişləndirici şərh olunmasını qadağan edir. Bu prinsiplərin mahiyyətindən aydın olur ki, milli qanunvericilik cinayətin tərkibini dəqiq müəyyən etməlidir (§ 70).

Bununla belə hüquq normalarının bəzən qaçılmaz olan natamamlığı və ya qeyri-müəyyənliyi isə məhz məhkəmə təcrübəsi vasitəsilə aradan qaldırılır (Konstitusiya Məhkəməsi Plenumunun R.Cəfərovun şikayəti üzrə 2012-ci il 18 may tarixli Qərarı).

Bu zaman məhkəmə təcrübəsində normativ hüquqi aktların müddəaları onların konstitusiya hüquqi mənasına uyğun tətbiq olunmalıdır (Konstitusiya Məhkəməsi Plenumunun «M.Məmmədovun şikayəti əsasında Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 55-ci maddəsinin bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair» 2014-cü il 29 aprel tarixli Qərarı).

Bu baxımdan müraciətdə qaldırılan məsələnin düzgün həll edilməsi üçün Cinayət Məcəlləsinin 234 və 237-ci maddələrinin nəzərdən keçirilməsinə zərurət yaranır.

Cinayət Məcəlləsinin 234.1-ci maddəsinə müvafiq olaraq cinayət əməlinin obyektiv cəhətini satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə və daşıma təşkil edir. Həmin Məcəllənin 237.1-ci maddəsinə əsasən isə cinayət məsuliyyəti qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri xeyli miqdarda kultivasiya etməyə (əkmə, yetişdirmə və ya onları (onların hissələrini) toplama) görə yaranır.

Qeyd edilən maddələrdə göstərilən cinayət əməlləri alternativ tərkiblidir. Cinayət Məcəlləsində alternativ əlamətli obyektiv cəhətə malik xeyli sayda cinayət tər-

kibi vardır. Alternativ əlamətli cinayət tərkibini o cinayət əməlləri yaradır ki, orada başa çatmış cinayət tərkibinin olması üçün Cinayət Məcəlləsinin müvafiq maddəsinin dispozisiyasında alternativ olaraq nəzərdə tutulmuş hərəkət və ya hərəkətsizlikdən birinin törədilməsi kifayət etsin. Başqa sözlə, alternativ əlamətli cinayət tərkibinin xüsusiyyəti ondan ibarətdir ki, belə cinayətin başa çatmış hesab edilməsi üçün müvafiq maddədə nəzərdə tutulmuş alternativ hərəkətlərdən birinin və ya bir neçəsinin törədilməsi kifayətdir. Bu hərəkətlərdən hətta birinin başa çatması artıq cinayətin törədilməsi kimi qiymətləndirilir (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Konstitusiyasının 64-cü maddəsi və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 8-ci maddəsi baxımından həmin Məcəllənin 18-ci maddəsinin və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 27.1-ci maddəsinə münasibətdə həmin Məcəllənin 234.1-ci maddəsinin şərh edilməsinə dair» 2020-ci il 18 sentyabr tarixli Qərarı).

Bu səbəbdən, Cinayət Məcəlləsinin yuxarıda göstərilən maddələrinin obyektiv cəhətini təşkil edən hərəkətlərdən hər hansı birinin başa çatması anında bu maddədə nəzərdə tutulan cinayət başa çatmış hesab olunur.

Müzakirə olunan məsələnin həllinə dair yanaşmalardan biri ondan ibarətdir ki, qanunverici tərəfindən Cinayət Məcəlləsinin 237-ci maddəsində narkotik vasitənin kultivasiyasının vahid elementləri sırasında narkotik tərkibli bitkilərin, onların hissələrinin toplanmasının cinayət məsuliyyətinə səbəb olan ayrıca hərəkət kimi nəzərdə tutulması, həmin əməlin (toplamanın) həm də Cinayət Məcəlləsinin 234.1-ci maddəsinə əsasən qanunsuz olaraq narkotik vasitələri əldə etmə kimi tövsifini istisna edir. Əks hal eyni əmələ görə şəxsin Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təkrarən cəzalandırılması ilə nəticələnəcəkdir. Bu isə Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin tələblərinə ziddir.

Bununla bağlı nəzərə almaq lazımdır ki, Avropa Məhkəməsinin Böyük Palatasının Sergey Zolotukhın Rusiyaya qarşı iş üzrə 2009-cu il 10 fevral tarixli Qərarında göstərilmişdir ki, 7 saylı Protokolun 4-cü maddəsində təsbit edilmiş təminat əvvəlki ittiham və ya bəraət hökmünün «res judicata» qüvvəsinə artıq mindiyi halda yeni cinayət işi başlandıqda yer alır… Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsinin məqsədi — «yekun» qərarla nəticələnmiş cinayət təqibinin təkrarlanmasını qadağan etməkdir. Öz növbəsində «Cinayət işləri üzrə hökmlərin beynəlxalq qaydada tanınması haqqında» Avropa Konvensiyasına istinad edən Konvensiyaya dair 7 saylı Protokolun İzahedici Məruzəsinə müvafiq olaraq, «qərar» ənənəvi ifadəyə görə «res judicata» qüvvəsinə mindikdə yekun sayılır (§ 83, 107).

Bununla belə Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qanunverici tərəfindən qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri (onların hissələrini) xeyli miqdarda toplama cinayət məsuliyyətinə səbəb olan hərəkət kimi Cinayət Məcəlləsinin 237-ci maddəsində xüsusi olaraq nəzərdə tutulduğu halda, həmin əməlin həm də Məcəllənin 234.1-ci maddəsi ilə qanunsuz olaraq narkotik vasitələri əldə etmə kimi tövsif edilməsi Cinayət Məcəlləsinin 17.4-cü maddəsinin tələbi ilə uzlaşmır.

Belə ki, Cinayət Məcəlləsinin 17.4-cü maddəsinə əsasən, bu Məcəllənin Xüsusi hissəsində həm ümumi, həm də xüsusi normada nəzərdə tutulmuş cinayətin törədilməsi cinayətlərin məcmusunu yaratmır və bu halda xüsusi norma tətbiq olunur. Bu müddəanın tələblərinin yerinə yetirilməsi, cinayət qanununda da ifadə olunan (Cinayət Məcəlləsinin 8.1-ci maddəsi) ümumhüquq ədalət prinsipinin təmin edilməsinin vacib bir zəmanətidir.

Eyni zamanda nəzərə alınmalıdır ki, Cinayət Məcəlləsinin 17.4-cü maddəsində müəyyən edilmiş qayda «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 10.4-cü maddəsindən irəli gəlir. Həmin normaya əsasən eyni normativ hüquqi aktda ümumi və xüsusi normalar arasında ziddiyyət mövcud olduqda xüsusi norma tətbiq edilir.

Bu baxımdan Cinayət Məcəlləsinin 17.4-cü maddəsinə müvafiq olaraq ümumi norma ilə xüsusi normanın arasında olan kolliziyanı sonuncunun xeyrinə həll edilməsi qaydası yetişdirilən narkotik tərkibli bitkilərin (onların hissələrinin) toplanılması üzrə hərəkətlərin Cinayət Məcəlləsinin 234-cü maddəsi (əldə etmə) ilə və yaxud cinayətlərin məcmusu kimi - Cinayət Məcəlləsinin 237 və 234-cü (əldə etmə) maddələri ilə tövsifinin qarşısını alır.

Burada diqqətə alınmalıdır ki, «kultivasiya» anlayışının tərkibinə yabanı şəkildə bitən bitkilərin toplanması kimi əlamətin daxil edilməsi bu anlayışın elmi və hüquqi mənaları ilə uzlaşmır (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair» 2013-cü il 25 fevral tarixli Qərarı).

Eyni zamanda Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun (bundan sonra — Ali Məhkəmənin Plenumu) «Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında» 4 mart 2011-ci il tarixli Qərarının 4-cü bəndində ifadə olunan izahın mənasına görə, Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə məsuliyyətə səbəb olan əməl (qanunsuz olaraq narkotik vasitəni əldə etmə) kimi şəxs tərəfindən kultivasiya edilən (yetişdirilən) narkotik tərkibli bitkilərin (onların hissələrinin) toplanılması deyil, yalnız yabanı çətənə bitkisinin, xaş-xaşın və ya onların müəyyən hissələrinin, eləcə də məhsul yığımı başa çatdıqdan (müəyyən subyekt tərəfindən qanuni yetirşdirilmiş bitkilər, onların hissələri yığıldıqdan) sonra digər (yəni narkotik vasitənin yetişdirilməsinə aidiyyəti olmayan) şəxs tərəfindən mühafizə olunmayan əkin sahəsindən tərkibində narkotik vasitələr olan bitkilərin yığılması başa düşülməlidir.

Ali Məhkəmənin Plenumunun izahının bu cür verilməsi məhz ondan irəli gəlir ki, Cinayət Məcəlləsində kultivasiyanın elementi kimi çıxış edən narkotik tərkibli bitkilərin (onların hissələrinin) toplanılmasına görə cinayət məsuliyyətini müəyyən edən xüsusi norma — 237-ci maddə mövcuddur.

Buna oxşar mövqelərə digər dövlətlərin məhkəmə təcrübəsində də rast gəlinir (məsələn, Belarus Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrlə, psixotrop maddələrlə, onların prekursorları və analoqu ilə, güclü və zəhərli maddələrlə əlaqəli cinayətlərə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında» 26 mart 2003-cü il tarixli qərarının 9-cu bəndi; Qazaxstan Respublikası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrlə, psixotrop, güclü və zəhərli maddələrlə əlaqəli cinayətlərə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında» 14 may 1998-ci il tarixli qərarının 2-ci bəndi; Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun «Narkotik vasitələrlə, psixotrop, güclü və zəhərli maddələrlə əlaqəli cinayətlərə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında» 15 iyun 2006-cı il tarixli qərarının 6-cı bəndi).

Lakin, bu özlüyündə Cinayət Məcəlləsinin 234 və 237-ci maddələrinin məcmusunu tamamilə istisna edə bilməz. Belə ki, cinayət əməlinə görə təyin edilən cəzanın, digər məsələlərlə yanaşı, bu əməlin ictimai təhlükəliliyinin xarakterinə və dərəcəsinə uyğun gəlməsini tələb edən ədalət prinsipi, Cinayət Məcəlləsinin Xüsusi hissəsində əks olunan müvafiq normalar vasitəsilə təmin edilir. Bu zaman həmin normalar cinayətlərin məcmusuna görə cəzaların təyini qaydalarını müəyyənləşdirən müddəalarla əlaqəli şəkildə tətbiq olunmalıdır (Cinayət Məcəlləsinin 8, 17 və 66-cı maddələri). Konstitusiya baxımından əhəmiyyətli sayılan bu məqsədə, konkret şəxs tərəfindən cinayət qanununun müxtəlif maddələri ilə nəzərdə tutulmuş və buna görə də bir-birindən cinayətin obyekti və predmeti, obyektiv və subyektiv cəhətləri baxımından fərqlənən əməllərin cinayətlərin məcmusuna dair qaydalara uyğun olaraq tövsif edilməsi və cəzalandırılması zamanı nail olunur. Əks təqdirdə cinayət qanununun məqsədlərinə və vəzifələrinə, habelə cinayətə görə təyin edilən cəzanın məqsədlərinə zidd olan vəziyyət yarana bilər.

Buna müvafiq olaraq şəxs tərkibində narkotik maddələr olan bitkilərin kultivasiya edilməsi prosesi çərçivəsində onları (onların hissələrini) toplamaqla yanaşı Cinayət Məcəlləsinin 237.1-ci maddəsinin dispozisiyasından kənara çıxan cinayət xarakterli hərəkətlərə yol verərsə, yəni həmin Məcəllənin 237-ci maddəsi ilə onun əməllərini tamamilə əhatə etmək mümkün olmadıqda, həmin hərəkətləri cinayətlərin məcmusu qaydasında Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə yanaşı həm də Məcəllənin digər müvafiq maddələri ilə tövsif edilməlidir.

Başqa sözlə, toplanılan narkotik tərkibli bitkilərdən (onların hissələrindən) satış məqsədi olmadan şəxsi istehlak miqdarından artıq miqdarda və yaxud satış məqsədi ilə istənilən miqdarda narkotik vasitənin hazırlanması və bundan sonra onun saxlanılması, daşınması, göndərilməsi, emal edilməsi, satılması üzrə hərəkətlər təqsirkarın əməllərinin Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə yanaşı, həmin Məcəllənin 234-cü maddəsi ilə tövsif edilməsini tələb edir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– bu Qərarın təsviri-əsaslandırıcı hissəsində müəyyən edilmiş hüquqi mövqelərə əsasən, qanunsuz olaraq xeyli və ya külli miqdarda əkilmiş, yetişdirilmiş tarkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) toplanması Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə tövsif edilməlidir;

– toplanılan narkotik tərkibli bitkilərdən və ya onların hissələrindən satış məqsədi olmadan şəxsi istehlak miqdarından artıq miqdarda və yaxud satış məqsədi ilə istənilən miqdarda narkotik vasitənin hazırlanması və bundan sonra onun saxlanılması, daşınması, göndərilməsi, emal edilməsi, yaxud satılması kimi cinayət əməlləri Cinayət Məcəlləsinin 17.1-ci maddəsinin tələblərinə müvafiq olaraq bu Məcəllənin 234 və 237-ci maddələri ilə tövsif edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində müəyyən edilmiş hüquqi mövqelərə əsasən, qanunsuz olaraq xeyli və ya külli miqdarda əkilmiş, yetişdirilmiş tarkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) toplanması Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsi ilə tövsif edilməlidir.
2. Toplanılan narkotik tərkibli bitkilərdən və ya onların hissələrindən satış məqsədi olmadan şəxsi istehlak miqdarından artıq miqdarda və yaxud satış məqsədi ilə istənilən miqdarda narkotik vasitənin hazırlanması və bundan sonra onun saxlanılması, daşınması, göndərilməsi, emal edilməsi, yaxud satılması kimi cinayət əməlləri Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 17.1-ci maddəsinin tələblərinə müvafiq olaraq bu Məcəllənin 234 və 237-ci maddələri ilə tövsif edilməlidir.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
4. Qərar «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Bakinski raboçi» qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad ABDULLAYEV**